Şiəliyin gizli tərəfləri

Mündəricat

Şiəliyə görə təqiyyə və etiqadlarını gizlətmələri.....4

Şiələr təqiyyəni nə zaman tərk edirlər?.....15

Cənazə namazında müxaliflərə lənət oxumaları.....18

Şiələrin təqiyyə namazı.....21

Təqiyyə ilə yalandan and içməyin caizliyi.....23

Şiələrin İslam və müsəlmanlar haqqındakı inanc əsasları.....24

İmamətə etiqad və ona inanmayanların təkfir edilməsi.....24

Şiə əqidəsinə görə nasibi - Əhli sünnə vəl camaatdır.....34

Əhli Sünnətin qanlarının mübah olması.....41

Əhli Sünnətin mallarının mübah olması.....44

Şiəliyə görə Əhli sünnət nəcisdir.....45

Əhli sünnətə zəkat vermənin caiz olmaması.....48

Müxaliflərin qeybətinin edilməsinin caiz olması.....48

Əhli sünnətə müxalif olmada həddi aşmaları.....50

Müsəlmanları ağır sözlərlə təhqir etmələri.....53

Aişəni *(radiyallahu anhə)* təhqir etmələri.....55

Ömər ibn Xəttab *(radiyallahu anhu)* haqqındakı çirkin sözləri.....57

Şiələrin səhabələr baradə mövqeyi.....57

Səhabələrin söyülməsi və təkfir edilməsi.....61

"Qureyşin iki bütü" duası.....65

Şiəliyin Əhli sünnətin dörd imamına dil uzatması.....69

Şiələrin imamlar haqqındakı həddi aşmaları.....71

On iki imamın peyğəmbərlərdən üstün hesab edilməsi.....71

Şiəliyə görə imamların məsumiyyəti.....74

Şiəliyə görə imamların yaradılış keyfiyyəti.....78

Peyğəmbərə verilmiş fəzilətlər imamlara da verilmişdir.....80

Şiələrə görə imamlara vəhy gəlir.....80

Şiələrə görə imamlar Allahın şəriətini dəyişə bilərlər.....81

Şiələrə görə imamlar bütünlüklə hər şeyi bilir və hər elmə sahibdirlər.....82

Şiəliyə görə Əli ibn Əbu Talib insanları cənnət və cəhənnəmə göndərəndir.....84

İmamların xüsusiyyətləri baradə həddi aşmaları.....86

Şiələrin imamların qəbrini ziyarət etmədə həddi aşmaları.....90

Kərbəla torpağının "Məkkeyyi-mükərrəmə"dən üstün hesab edilməsi.....94
Şiələr və Quran.....97
Şiə Mehdisi bütöv Quranı gətirəcəkdir.....109
Şiələrin Quran təfsiri.....114
Şiəlikdə Mehdi inancı və onun intizarının gerçək səbəbləri.....119
Şiə "Mehdi"sinin əməlləri.....120
Şiə "Mehdi"si yoxsa fars-məcusi "xilaskarı".....123
Şiə "Mehdi"si yoxsa Məsih Dəccal.....129
Abdullah ibn Səba və şiəliyin üç əsası.....133
Racətə iman.....136
Şiəlikdə hədis elmi, ravilər, isnadlar, ziddiyyətlər və ixtilaflar.....139
Şiə mənbələrinin mötəbərlik dərəcəsi.....145
Kuleyninin "Kafi" kitabı.....146
Nəhcul bəlağa kitabı.....150
Suleym ibn Qeys əl Hilalinin kitabı.....154
Şiələrin imamların elə öz dili ilə pislənməsi.....156
Əhli beyt imamlarının övladları və onlarla səhabələr arasında qohumluq.....161
Şiəlikdə tövhid və şirk anlayışı.....162
Muta (siğə) nigahı baradə.....165
Muta nigahı bağlanan qadının kimliyi.....165
Muta nigahının müddəti.....166
Bakirə qızla vəlisiz muta nigahı.....167
Muta nigahının fəziləti.....168
Həqiqi nigah ilə müvəqqəti nigah arasındakı fərqlər.....171
Vəhdət və yaxınlaşma baradə.....173

Ön söz

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərrindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Aləmlərə rəhmət olaraq göndərilən peyğəmbərimiz Muhəmmədə, *(sallallahu aleyhi va səlləm)* ailəsinə və səhabələrin hamısına Allahın salamı və xeyir duası olsun. Möhtərəm oxuculara təqdim olunan, şiəliyin gizli tərəflərini dəlilləri ilə açıqlayan bu risalənin qələmə alınmasında əsasən şeyx əl Məvsulinin türk dilinə tərcümə olunmuş "Aldanmayalım", "Kurana dil uzatanları tanıyalım" kitablarından, Əbu Əli Abdullahın rus dilində qələmə aldığı "Не обманитесь" risaləsindən və qaynağı göstərilməklə digər mənbələrdən istifadə olunmuşdur. Çalışmanın uzun və yorucu olmaması üçün sitat gətitilərkən, rəvayyətlərlə yanaşı əsasən daha çox mötəbər şiə alimlərinin sözlərinə üstünlük verilmişdir. Çünki, alimlərin sözləri daha aydın və izahedici qənaət formalışdırır. Ümid edirik ki, bu çalışma müsəlmanlara haqqın araşdırılmasında faydalı olacaqdır.

Fuad Burhan

Şiəliyə görə təqiyyə və etiqadlarını gizlətmələri

İlk öncə təqiyyə məfhumunu açıqlamaq yerinə düşərdi. Uca Allah Quranda buyurur: **"Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır.Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır."**[1]

İbn Abbas *(radiyallahu anhu)* dedi: **"Təqiyyə elə bir haldır ki, adam qəlbində iman daşıdığı halda günah qazanmadan öldürülməməsi üçün dininə əks olan söz söyləyir."**[2]

[1] Ali İmran 28

[2] Qurtubi "Cəmiul əhkam", 4/164

İmam Qurtubi yazır: **“Həmçinin deyilib: “Əgər kafirlər arasında yaşayan mömin onun həyatına təhlükə olmasından ehtiyyat edərsə,o sözləri ilə onları arxayın edə bilər.Bununla belə təqiyyə yalnız həyat, işğəncə və edam qorxusu, olduğu zaman icazəlidir. Daha doğru rəyə görə əgər kimisə küfrə məcbur edirlərsə, ona buna müqavimət göstərib, küfr söz söyləməməsinə icazə verilir.”**[1]

Güman edirik ki, bu iki sitat təqiyyənin nə olduğunu qismən izah edir. Müsəlmanın Rəbbinə, Onun hər hansı məxluqunun qorxusundan asi olmasına məcbur edilmə bu terminlə vəsf olunur. Həmçinin, aydındır ki, təqiyyə vacib olmayıb, sadəcə istifadəsinə rüsxət verilən bir əməldir. Müsəlman kafirlərin onu küfrə sövq etməsinə qarşı çıxmaqla həyatını fəda edə bilər. Necə ki, Umeyyə ibn Xələf əl Cəhminin köləsi olan Bilal ibn Rabəh belə davrandı.

Mübarəkfuri “Sirə”də yazır: **“Ağası onun boğazına kəndir bağlayaraq, küçəyə çıxardır onu və uşaqların əlinə oyuncaq kimi verirdi. Bilal isə deyirdi: “O təkdir, O təkdir.” Həmçinin, ağası onu gündüz qızmar torpaq vəya daş üzərinə uzandırıb, sinəsinə qaya parçası qoyar və deyərdi: “Sən belə ölənə, ya da Muhəmməddən dönüb, Lat və Üzzaya ibadət edənə qədər qalcaqsan.” Lakin, O “Təkdir, təkdir” deyərdi.”**

İbn Cəuzi “Zadul məsir” əsərində yazır: **“Təqiyyə vacib olmayan amma, istifadəsi caiz olan bir əməldir. İmam Əhməddən soruşdular: “Əgər sənin başının üstündə qılınc olsa, sən yenə də haqqı deyəcəksən?” İmam dedi: “Əgər alim təqiyyəyə görə, cahil elmsiz olduğuna görə cavab verərsə, həqiqəti kim bəyan edəcəkdir?”**[2]

İslamda təqiyyənin nə olduğunu bildikdən sonra, şiə kitablarında təqiyənin necə vəsf olunduğuna və bunun onlar üçün nə cür əhəmiyyət kəsb etdiyinə nəzər yetirək. Şiələrə görə təqiyyə həqiqətin əslini izhar etməkdir. Bu isə şiə məzhəbi mənsubunun başqasını aldatmağına rüsxət verir. Belə təqiyyəyə əsasən şiə inandığı məsələni zahirən gizlədir, zahirən inkar etdiyi məsələyə isə qəlbən inanır. Buna görə də şiələr Quranın təhrifi, səhabələri söymək, müsəlmanlara böhtan atmaq və onları təkfir etmək kimi sünnilər qarşısında gizlətməyə çalışdıqları bir çox məsələləri inkar etməyə çalışırlar.

Bu etiqadı ən yaxşı izah edən şeyx Muhibiddin əl Hatib deyir: **“Bizimlə onların arasında bir-birimizə qarşılıqlı surətdə inanmağımıza mane ola biləcək əsas şey təqiyyədir. O elə bir dini əqidədir ki, onlara**

[1] ”Cəmiul əhkam”, 4/164

[2] “Zadul məsir”, 1/361

icazə verir ki, zahirdə bizə batində fikirləşdiklərinin əksini göstərsinlər. Bizlərdən təmiz qəlbli adamlar onların zahirən qarşılıqlı anlaşma və yaxınlaşmaya rəğbətləri olduğuna aldanır, onlar isə bunu nə istəyir, nə bununla razılaşır, nə də buna əməl edirlər. Tək məqsədləri qarşı tərəfdəkiləri saflarına qatmaqdır."[1]

İndi isə şiələrin təqiyyə baradə olan etiqadları ilə tanış olaq. Müasir şiə alimi olan Muhəmməd Cavad əl Muğaniyyə yazır: **"Təqiyyə canını, malını qorumaq və kəramətini hifz etmək üçün inandığının əksini söyləmək və bir şeyi etməkdir."**[2]

Şiə alimləri təqiyyəyə böyük əhəmiyyət vermişlər. Hurr Amili "Vəsailuş şia"[3] kitabında "Təqiyyəyə dəyər və əhəmiyyət göstərmək və qardaşlarının haqqını əda etmək" adlı fəsil ayırmışdır. Eyni yerdə o "Avama qarşı təqiyyə ilə davranmağın vacibliyi" adlı fəsil tərtib etmişdir. Başqa fəsilə[4] isə "Təqiyyə ilə hakimə itaətin zəruriliyi" adını vermişdir.

Muhəmməd ibn Yəqub Kuleyni rəvayyət edir ki, imam Əbu Cəfər demişdir: **"Təqiyyə mənim və ata-babamın dinindəndir, təqiyyəsi olmayanın imanı yoxdur"**[5]

Muhəmməd Rza Müzəffər "Əqaidul İmamiyyə" kitabında[6] yazır ki, bu hədis səhihdir. Bu cəfəng sözlərə baxın! Təqiyyə acından ölməmək üçün və yeməyə heç nə olmadığı zaman haram yeməyin caizliyi kimi bir əməldir. Təqiyyənin mənim dinim olduğunu demək, haram yeməyin mənim dinim olduğunu demək kimidir. İmam bidətçilərin ona nisbət etdiklərindən uzaqdır.

Kuleyni imam Sadiqin belə dediyini rəvayyət etmişdir: **"Ey Həbib! Allaha and olsun ki, mənim üçün təqiyyədən sevimli bir şey yoxdur! Kim təqiyyəyə əməl etsə, Allah onu yüksəklərə qaldırar, kim təqiyyəyə əməl etməsə, Allah onu yüksəklərdən endirər"**[7]

Kuleyni həmçinin, Əbu Ömər Əcəminin belə dediyini rəvayət etmişdir: **"Bir dəfə Əbu Abdullah mənə dedi: "Ey Əbu Ömər! Dinin onda doqquzu təqiyyədədir, təqiyyəsi olmayanın dini yoxdur."**[8]

---

[1] "əl-Hutut əl-ərizə",səh 10
[2] "əş Şia fil Mizan",səh 47
[3] 11/470
[4] 11/471
[5] "Kafi",c.2,"Təqiyyə", fəsli, səh 219
[6] səh 85
[7] "Kafi",c.2, "Təqiyyə" fəsli, səh 217
[8] eyni yerdə

Bu hədisi Murtəza Ənsari "əl Təhara" kitabında[1] səhih hesab etmişdir.

"Təqiyyə fi fikr əl İslami"kitabında isə yazılır: **"Bu hədisə heç bir şübhə ola bilməz."**[2]

Kuleyni və Kəşani kitablarında imam Əbu Abdullahdan belə nəql edirlər: **"Bizim sirrimizi yayaraq yeni günə başlayan kimsəyə Allah dəmirin istiliyini və dar bir məclisi nəsib etsin."**[3]

İmam Baqirin belə dediyi rəvayyət olunmuşdur: **"Mənə təqiyyədən əziz nə ola bilər, təqiyyə möminin Cənnətidir"**[4]

Kuleyni "Kafi"də, Xomeyni isə "ər Rəsail" də Süleyman ibn Xaliddən Əbu Abdullahın belə dediyini nəql etmişlər: **"Bir dəfə Əbu Abdullah mənə dedi: "Ey Süleyman! Siz elə bir dindəsiniz ki, kim onu gizlətsə, Allah onu ucaldar, kim onu aşkarlasa, Allah onu zəlil edər."**[5]

Hurr Amili imam Əlidən belə rəvayyət edir: **"Təqiyyə möminin ən fəzilətli əməllərindəndir."**[6]

Yenə Hurr Amili imam Əli ibn Hüseyndən rəvayyət edir: **"Allah möminin təqiyyəni tərk etməsi və qardaşlarının haqqını pozmasından başqa bütün günahlarını dünya və axirətdə əhv edər."**[7]

İmam Sadiqdən belə nəql edirlər: **"Təqiyyədən ayrılan bizdən deyildir."**[8]

Əbu Abdullahdan rəvayyət olunur: **"Təqiyyə etməyən Əli şiəsindən deyildir."**[9]

Cəfər Sadiqdən nəql olunur: **"Təqiyyə Allahla onun məxluqatı arasındakı qalxandır."**[10]

Qeyd etmək lazımdır ki, Azərbaycan dilinə tərcümə olunmuş "Mizanul hikmət" kitabının müqəddiməsində Ocaq Necat yazır: **"Bu kitabdakı rəvayyətlər böyük diqqətlə və hədis sahəsindəki mütəxəssis rəyi ilə toplanmışdır."**

---

[1] 2/279-280
[2] səh 75
[3] "Kafi", c.2,səh 372; "Kəşani "Vafi" c.3,səh 159
[4] "Kafi", c.2, "Təqiyyə" fəsli, səh 220
[5] "Kafi",c.2, "Təqiyyə" fəsli; səh 222, "Rəsail" c.2,səh 185
[6] "Vəsailuş şia",c.11,səh 473
[7] "Vəsailuş şia",c.11,səh 474
[8] "Vəsailuş şia",c.11,səh 466
[9] "Camiul əxbər", səh 95
[10] Muhəmməd Reyşəhri, "Mizanul hikmət", №6691

Eyni yerdə bu kitabda imam Cəfərdən nəql olunur: **"Dininiz baradə diqqətli olun və onu təqiyyə ilə gizli saxlayın. Çünki, təqiyyəsi olmayanın dini yoxdur."**[1]

Cəfər Sadiqdən rəvayyət olunur: **"Allaha and olsun!Allaha həbdən daha xeyirli bir şeylə ibadət olunmaz. Soruşdular: Həb nədir? Cavab verdi: Bu təqiyyədir."**[2]

Həmçinin, ondan nəql olunur: **"Mömin insan hər zaman mücahiddir. Çünki, o Allahın düşmənləri ilə yalan ölkələrində, təqiyyə və qılıncla isə haqq ölkələrində mübarizə aparır."**[3]

Şiə alimi Muhəmməd ibn Muhəmməd ibn Sadiq əs Sədr əl Musəvi "Tarihul qeybətil kubra" kitabında yazır: **"Böyük qeybət dövründə təqiyyə əmri: "Bu başqalarında olmayan və sadəcə imamiyyə xəbərlərində varid olan bir məsələdir. Səduq "İkməlut din"-də, şeyx Hurr Amili "Vəsailuş şia"-da, Təbərsi öz kitabında imam Rzadan belə bir hədis nəql etmişlər: "Vilayəti olmayanın dini, təqiyyəsi olmayanın isə imanı yoxdur. Sizin Allah qatında ən dəyərli olanınız təqiyyə ilə ən çox əməl edəndir. Qaim zühur etməmişdən əvvəl kim təqiyyəni tərk edərsə o bizdən deyil."**[4]

Tacəddin Muhəmməd ibn Muhəmməd əş Şairi "Camiul əxbər" kitabında Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* guya belə bir hədis olduğunu yazır: **"Təqiyyəni tərk edən namazı tərk edən kimidir."**[5]

Başqa səhifədə isə yazır: **"Münafiqlərin arxasında təqiyyə ilə namaz qılmaq imamların arxasında qılınan namaz kimidir."**[6]

Məhz, bu təqiyyə onlara bizim üzümüzə gülməyə, bizi qardaş adlandırmağa və "İslam vəhdəti" altında aldadıcı şüarlar etməyə sövq edir. Onların nəzərində vəhdət müsəlmanların şiəliyi toplu şəkildə qəbul etməsidir.

Şeyx Mustafa əs Sibai deyir: **"Vəhdətə çağrışla onlar sanki, sünnilərlə şiələrin yaxınlaşmasını deyil, sünnilərin şiələrə yaxınlaşmasını qəsd edirlər."**[7]

---

[1] "Mizanul hikmət", №6692
[2] Eyni yerdə, №6693
[3] Eyni yerdə, №6694
[4] "Məktəbul əlfəyn", səh 362 hic.1403, Kuveyt
[5] "Camiul əxbər", səh 95,"Heydəriyyə mətbəəsi", Nəcəf
[6] "Camiul əxbər",səh 110
[7] "əs Sünnə və məkanətuha fit təşril islami", səh 10

Allah bu ümməti belə bir fitnədən qorusun! Şiə alimlərinə görə təqiyyə vacibdir və onun tətbiqi can qorxusu olduğu müddət ilə məhdudlaşmır.

Ayətullah Ruhullah Xomeyni Musəvi kitabında yazır: **"Təqiyyə bəzən qorxu, bəzən də qarşı tərəfi idarə etmək babından ola bilər....Təqiyyənin bir növü də insanları idarə etmək, sevgi və simpatiyalarını cəlb etmək üçün olan növüdür....Üçüncü növü də fiqhçilərə və qazilərə qarşı edilir. Bəzən avama qarşı da edilir."**[1]

Xomeyni yazır: **"Təqiyyənin caizliyi və vacibliyi insanın özünün vəya başqasının həyati təhlükəsi üçün hiss etdiyi təhlükədən irəli gəlmir. Əksinə, göründüyü kimi bəzi məsləhətlərə görə müxaliflərə təqiyyə ilə davranmaqda səbəb və faydalar vardır. Buna görə də təqiyyə əməl etmək və sirr tutmaq can qorxusu və təhlükə olmasa belə vacibdir."**[2]

Xomeyni "Misbəhul Hidayə" kitabında yazır: **"Ey Ruhani dost! Allah dünya və axirətdə sənə kömək olsun! Bu sirrləri əhli olmayanlara açmaman və yerinə görə istifadə etmə məsələsində səni xəbərdar edirəm. İlahi qanunlardan, sirrlərdən olan şəriətin batini elminin özgə əl və gözlərdən qorunması lazımdır. Çünki, bunlar onların fikir və anlayışlarının dərk edə biləcəklərindən daha dərindədir…."**[3]

Xomeyni daha sonra yenə "Rəsail" də yazır: **"Təqiyyənin özünə görə vacib olan qismi mövcuddur. Bu bir şeyi yayma xüsusunda tətbiq edilir. Məzhəbin ifşa edilməsindən və Əhli beytin sirrinin ortaya çıxmasının qarşısını almaq qəsdi ilə edilir. Bir çox rəvayyətlərdən çıxan nəticəyə görə imamların işlətdikləri təqiyyə məhz bu növdəndir. Batilin dövlətində haqqın gizlədilməsi vacibdir. Burada məsləhət dini və siyasətə görədir. Təqiyyə olmasaydı məzhəb yox olub gedərdi."**[4]

Nuri ət Təbərsi yazır: **"Şeyx Tusinin "Tibyan" əsəri araşdırıldığında bu əsərin tamamilə müxalifləri idarə etmək və onlarla yaxşı keçinmək niyyəti ilə yazıldığı məlum olacaqdır....Nuri Təbərsi davam edərək yazır: "Əli ibn Tavus "Sadus Səud" adlı əsərində bunları yazır: "Atam Əbu Cəfər ət Tusi "Tibyan" adlı kitabında yazdıqları ilə bizdə razıyıq. Onu bu fikirləri yazmağa təqiyyə qəsdi olmuşdur."**[5]

---

[1] "Rəsail", c.2,səh 174-175

[2] Rəsail",c.2,səh 201; https://www.anti-majos.org/viewtopic.php?f=18&t=33&p=33&hilit=201%23p33

[3] səh 154

[4] "Rəsail",c.2,səh 185

[5] "Fəsl əl-xitab",səh 38

Şeyx Təbərsi "əl İhticac" kitabında yazır: **"Təqiyyənin genişliyinə baxmayaraq, ayələri təhrif edənlərin və artırma edənlərin adlarının açıqlanması caiz deyildir. Bu baradə sənin üçün eşitdiklərin yetərlidir. Çünki, təqiyyə şəriəti bundan daha artıq açıqlamağı qadağan etmişdir. Əks təqdirdə tədil, küfr əhli olanların dinimizə qarşı olan dəlilləri güclənmiş olacaqdır. Digər tərəfdən imamlar tərəfindən itaəti əmr edilmiş bu zahir elmin itməsi ehtimalı da vardır. Batil əhli həmişə haqq əhlindən daha çox olmuşdur."**[1]

Rza Müzəffər yazır: **"Dini əqidənin gizlədilməsi metodu imami şiələrin digər İslami firqələrdən fərqləndirən xüsusiyyətlərdəndir."**[2]

O, necədə haqqlıdır! Axı şiələrdən başqa heç kim müsəlmanları özündən uzaqlaşdırmamaq üçün əqidələrini gizlətmir. Bütün İslam məzhəbləri açıq şəkildə nəyə etiqad etdiklərini bəyan edir. Onlar məlumatsız bir adamın onların həqiqi dini fikirlərini bilməsindən ehtiyyat etməzlər, yalnız şiələr istisnadır.

Rza Müzəffər həmin kitabda yazır: **"... Yalnız şiələr öz əqidələrini gizlətmələrini etiraf edirlər və hər dəfə mövzu əqidəni gizlətmədən düşəndə şiələr xatırlanır."**[3]

Şiələrin məşhur hədis alimi Səduq ləqəbli Muhəmməd ibn Əli ibn Hüseyn ibn Babaveyh əl Qumminin "əl-İtiqadat" risaləsində qeyd etdiyi kimi:

"Təqiyyə vacibdir, onu tərk edən namazı tərk edənlə bir səviyyədədir." O, sözünü belə bitirir: "Təqiyyə vacibdir. Müdafiəçi zühur edənədək onu aradan götürmək olmaz. Kim Müdafiəçi üzə çıxanadək təqiyyədən əl çəksə, o Allah Təalanın dinindən və imamiyyə dinindən xaric olmuş, Allaha, Onun Rəsuluna və imamlarına müxalif çıxmış olur. İmam Sadiqdən Qüdrət və Cəlal sahibi Allahın: "Allah yanında ən qiymətliniz Allahdan ən çox qorxanınızdır" kəlamı haqqında soruşduqda, demişdir: "Təqiyyəyə ən çox əməl edəninizdir."[4]

Xülasə olaraq deyirik: Şiələrin nəzərində təqiyyə bəzi saf niyyətli sünnilərin güman etdiyi kimi həyati qorxuya görə deyildir. Beləki, təqiyyə bu məzhəbin zəlalətini və sünnilərə qarşı duyduğu düşmənçiliyi gizlətmək üçün bir vasitəir. Onlara görə təqiyyə namaz kimidir və onu tərk etmək olmaz.

---

[1] "əl İhticac" c.1,səh 371, "əl Aləmi", Beyrut nəşr. c.1,səh 249

[2] "Əqidətul imamiyyə",səh 25

[3] səh 86

[4] "əl-Itiqadat","Təqiyyə" fəsli, səh 104

Mühəddis Hurr Amili "Vəsailuş Şia" kitabında imam Əli ibn Muhəmmədin öz səhabəsinə belə buyurduğunu yazır: **"Ey Davud! Əgər desən ki, təqiyyəni tərk edən namazı tərk edən kimidir haqqlı olmuş olarsan."**[1]

Şiə etiqadı haqqında məlumatı olmayan kimsənin qəbul etməyəcəyi qəribəliklərdən də biri budur ki, onlar qanları və mallarını mübah hesab etdikləri, özlərini isə kafir və nəcis olaraq gördükləri nasibilərin arxasında təqiyyə ilə namaz qılmağı caiz bilirlər.

Xomeyni kitabında Zürarə sənədi ilə imam Əbu Cəfərdən varid olan hədisi qeyd edir: **"Nasibi olanın arxasında qıldığın namazda bir problem yoxdur. O, qiraət etdiyi zaman sən bir şeylər oxuma. Çünki, onun qiraəti sənin kinin də yerinə kifayətdir."**[2]

Bu rəvayyətin davamında Xomeyni yazır: **"Təqiyyə ilə qılınan namazların qəbul edildiyi və səhih olduğunu bildirən sərih və zahir rəvayyətlər də mövcuddur."**

Halbuki, Xomeyni özü kitabında yazır: **"Ən düzgün rəyə görə nasibi birindən alınan qənimət xüms kimi hökmlər baxımından hərb əhli olanlara şamil edilməkdədir. Hətta, harada və necə olmasından asılı olmayaraq, malının alınması caiz və xümsünün ödənilməsi vacibdir."**[3]

Şiə şeyxi Muhəmməd ibn Muhəmməd ibn Sadiq əs Sədr əl Musəvi "Tarihul qeybətil kubra" kitabında bunları yazır: **"Böyük qeybət dövründə təqiyyə əmri: "Bu başqalarında olmayan və sadəcə imamiyyə xəbərlərində varid olan bir məsələdir. Səduq "İkmələutdin"-də, şeyx Hurr Amili "Vəsailuş şia"da, Təbərsi öz kitablarında imam Rzadan belə bir hədis nəql etmişlər: "Vilayəti olmayanın dini, təqiyyəsi olmayanın isə imanı yoxdur. Sizin Allah qatında ən dəyərli olanınız təqiyyə ilə ən çox əməl edəndir. Qaim zühur etməmişdən əvvəl kim təqiyyəni tərk edərsə o bizdən deyil."**[4]

Gözlədikləri Mehdi gələnə qədər bizə qarşı gizlədiklərinin əksini izhar etməyə nə qədər önəm verdiyinə diqqət edin! Alim və hüccətləri sayılan Muhəmməd Təqi əl Musəvi əl İsfəhani "Vəzifətul ənam fi zəmani qeybətul imam" adlı əsərində yazır: **"Düşmənlərə yəni, Əhli sünnətə qarşı təqiyyəyə bağlı qalmaq.Vacib olan təqiyyənin mənası budur: "Həyatına, malına vəya sahib olduğu mövqeyə mümkün zərər ehtimallarına qarşı əqidəni gizlətmək. Həmçinin, bununla yanaşı**

[1] "Vəsailuş şia", c.11,səh 466
[2] "Rəsail",c.2,səh 198
[3] "Təhrirul Vəsilə", c.1,səh 352
[4] "Məktəbul əlfəyn", səh 362,hic.1403, Kuveyt

zərurət olduqda dili ilə etiqadının əksini söyləmək. Beləliklə səhih əqidəni qəlbində gizlədərək canını və malını qorumaq."[1]

Eyni kitabda bir səhifə sonra yazır: **"Təqiyyənin vacib olduğu haqqında çoxsaylı xəbərlər mövcuddur. Vacib olan təqiyyəyə nümunə olaraq imam Əlidən varid olan hədisdir. Bu hədisdə üç dəfə təqiyyənin tərk edilməməsi israrla qeyd edilmişdir. Çünki, belə bir əməl zillət səbəbi ola bilər."**

Bu şiə alimlərin nəzərində olan təqiyyədir. Ona görə də şiəliyin dürüstlük və vəfakarlıq kimi xüsusiyyətlərə sahib olduğunu demək çox çətindir. Çünki, bu əqidə onları sünnilərə qarşı gözəl görsənmə və onlarla bərabərmiş kimi görsənməyə sövq edir. Beləliklə də müsəlmanların saf qəlbliləri şiələrin bizdən çox da fərqli olmadığını güman edir.

Müəllif yenə həmin səhifədə imam Əlidən hədis nəql edir: **"Qövmümün qəlbləri ixtilaf içində olduğu halda məscidlərin çoxluğu sizləri aldatmasın....." Ey Möminlərin Əmiri! O dövrdə yaşamaq necə olacaq?" soruşdular. İmam: "Zahirdə onlarla qarışın. Amma, batində onlara müxalif olun...."**[2]

Bu rəvayyətin davamında müəllif yazır: **"Bu mövzuda çox saylı xəbərlər mövcuddur. Bunlardan bir qismini "Mikyalul Məkarizm"də qeyd etmişəm."**

Fəqih və müctəhidlərin şeyxi ləqəbi verdikləri Murtəza əl Ənsari kitabında bunları yazır: **"İlkin olaraq təqiyyənin müxaliflərin məzhəbinə qarşı olması şərti labuddür. Çünki, bu ibadətlərdə təqiyyənin izn verilməsi haqqında varid olan xəbərlərdən məlumdur. Ağla ilk gələn də kafirlərə və şiələrin zalimlərinə qarşı deyil, təqiyyənin müxaliflərin məzhəbinə qarşı olmasıdır."**[3]

Deməli, təqiyyə kafirlərə, zalımlara qarşı deyil, sünnilərə tətbiq edilir.

Ayətullah uzma Əbul Qasim əl Xoyi yazır: **"Təqiyyə baradə olan hədislərə görə bu şiələrin müxaliflərdən gizlənmələri, şiə rafizi məzhəbinə mənsub olmaları ilə məşhur olmamağı və əlverişli mövqe tutaraq müxalifləri idarə etmək məqsədi ilə icazəli olmuşdur. Misal olaraq, sözü gedən adam özünü Hənbəli kimi Hənəfilərin vəya Hənəfi kimi Hənbəlilərin yanında göstərir. Nəticədə o əqidəsini gizlədəcək və şiə-rafizi olaraq qəbul edilməyəcəkdir. Beləliklə, müxaliflərə qarşı xoş görünmə və onları əla alma adı ilə davranacaqdır. Buradakı sirr belədir: Vacib olan, avama qarşı təqiyyə etmək, onlara xoş görünüb "məsləhəti**

[1] "Darul Kari",səh 43, Beyrut 1987

[2] səh 44

[3] "Risalətul Təqiyyə", səh 53,"Darul Hadi" Beyrut,1992

idari" hərəkət etməkdir. Keçən dəlillərin heç birində müxaliflərin müxtəlif siniflərinə tabe olmanın vacibliyi varid olmamışdır. Məzhəbindən ötrü özünə təqiyyə edilən kimsəyə tabe olmağın vacib olması baradə heç bir dəlil varid olmamışdır. Zəruri olan davranış avama qarşı "məsləhəti idari" davranmaq, onlara xoş görsənmək və onların yanında şiə mənsubiyyətini gizlətməkdir. Yəni, Hənəfilərə qarşı təqiyyə edən bir şəxsin Hənbəli, Maliki vəya Şafiilərə görə əməl etməsi caizdir. Bu baradə heç bir müşkülat yoxdur"[1]

Onlar bu məşhur taktikadan məharətlə istifadə edirlər. Şeyx Bəhai kimi tanınan Muhəmməd ibn Əli Hüseyn ibn Əbdussəməd deyir: **"Mən Şamda Şafii olaraq görsənirdim."**[2]

Nəzərdən qaçmamalıdır ki, həqiqi əqidə və mənhəci bilməyən hər azmış biri propaqanda nəticəsində şiəliyi qəbul edərkən, özünün guya öncələri sünni olduğunu iddia edir. Bu üsul da onların əsas taktikalarındandır. Onlar üçün sünnilərə yalan danışmaq adi bir şeydir. Axı, onların alimləri belə yalan danışmağı onlara caiz görmüşlər.

İmam Cəfər əs Sadiqdən rəvayyət olunur ki, Peyğəmbər *(sallallahu aleyhi va səlləm)* buyurmuşdur: **"Məndən sonra bidət və şübhə əhli kimsələr görəcəksiniz. Onlardan uzaq olduğunuzu izhar edin. Onları söyün, haqqlarında çox danışıb, hekayələr (qeybət) nəql edin. Belə edin ki, İslamda fəsad çıxarma arzuları olmasın və insanlar onlardan çəkinsin."**[3] Muhəmməd Baqir əl Məclisi bu rəvayyətin şərhində yazır: **"Bu hədis səhihdir"**[4]

Şiə mühəddisi və fəqihi Yusuf əl Bəhrani bu mövzunu izah edərkən, yazır: **"Bəli, bəzi rəvayyətlərdə, "Kafi"də nəql olunan səhih hədisdə varid olduğu kimi sufilər də daxil olmaqla bidət əhlinə qarşı yalan isnad edilməyə cəvaz verilmişdir..."**[5]

Ona görə şiələrə müxaliflərlə mübahisə və söhbət zamanı yalan danışmaq icazə verilmişdir. Müasir dövrdə böyük alimlərindən sayılan Ayətullah Əbul Qasim əl Xoyi bu mövzuda ona sual verilərkən, belə fətva vermişdir:

Sual: "**Bidət əhli vəya zəlalətə dəvət edən bir adama cavab verərkən yalan demək olarmı, o məqsədlə ki, bu yalanla onun dəlili və arqumentləri təkzib olunur."**

---

[1] "Tənqih şərhul urvatul vuska", c.4,səh 332; Sədr mətbəəsi,Qum h.1410

[2] Bunu Muhəmməd əl Əştəxardi "Əcvadul munzərat" kitabında yazır, səh 188,Livan

[3] "Kafi",c. 2,fəsil, 163,səh 212

[4] "Miratul Uqul", 11/77

[5] "Hədaiq ən nadira", 18/164

Cavab: **“Əgər bu cavab onu zəlalətdən qoruyacaqsa onda olar.”**[1]

Müsəlmanları haqq yoldan sapdırmaq üçün onlar istənilən hiyləyə əl atmağa hazırdırlar. Onlar müsəlmanlardan izzətli səhabələr haqqında əqidələrini gizlədərək, ağzı köpüklü halda müsəlmanlarla vəhdət olmağın zərurətindən danışırlar. Bu birinci mərhələ sayılır, sonra ehtiyyatla heç də bütün səhabələrin yaxşı olmamasına ehyam vurulur. Daha sonra onların etdiyi və onların adından uydurulmuş yalanlarla dolu səhvlərə vəya günahlara işarə edilir. Bir də ayılıb, görürsən ki, sən artıq onlarla matəmdə oturub, yalançı göz yaşları tökürsən.

Əbul Qasim əl Xoyi yazır: **“Ərafatda Zilhiccə ayının səkkizinci günü vəqfədə olmaq da yenə bu qəbildəndir. Çünki, imamlar həyatlarının böyük bir hissəsini Həcc edərdilər. İmamların əshabı və tərəfdarları isə avamla birlikdə Həcc edərdilər.”**[2]

Sünnilər haqqında bəzən “avam” bəzən də “müxaliflər” ifadəsi sərf etdiyinə diqqət edin! Xoyi daha sonra yazır: **“Daha xüsusi mənası ilə təqiyyənin avama qarşı edilən növünü qəsd edirəm. Bu təqiyyə əslində vacibdir. Bu zəruriyyət isə bu yöndə olan çox saylı xəbərlərin mütəvatirlik səviyyəsinə gəlib çıxmasından qaynaqlanır.”**[3]

Xoyi etiraf edir ki, avama yəni, Əhli sünnətə qarşı təqiyyə etmək vacib və mütəvatir hökmündədir. Xoyi bu kitabın 255-ci səhifəsində yazır:

“Bu xəbərlərin birində "təqiyyə mənim və ata-babamın dinindəndir, təqiyyəsi olmayanın dini yoxdur" ifadəsi mövcuddur.Vacibə dəlalət etmə baxımından hansı ifadə bundan daha güclü ola bilər? Elə ilk başdan təqiyyəsi olmayanın dini olmayacağı bildirilir.Buradan da şəri mənada təqiyyənin əhəmiyyəti və onu tərk edənin dininin olmayacağı israrla bildirilməkdədir. Digər bir xəbərdə isə “Təqiyyəsi olmayanın imanı yoxdur” ifadəsi keçir.Bu da məna və dəlalət baxımından əvvəlki hədisi təsdiqləyir. Üçüncü hədisdə isə “Əgər desən ki,təqiyyəni tərk edən namazı tərk edən kimidir haqqlı olarsan” ifadəsi keçməkdədir.Bu xəbər də vacibliyə dəlalət edir. Çünki, namaz hədislərdə bildirildiyi kimi küfr ilə imanı ayıran bir əməldir. Təqiyyə də namaz misalında gətirilmişdir. Bu da təqiyyənin iman ilə küfr arasında bir pərdə olduğuna işarədir. Dördüncü xəbərdə “Təqiyyəni şüar və amal etməyən kimsə bizdən deyildir.” deyilmişdir. Başqa xəbərdə “təqiyyəni tərk edən kimsə şiələrin sirrini ifşa edərək, onları düşmənə satan kimi vəsf edilmişdir” deyilir. Bundan başqa daha

---

[1] http://arabic.al-khoei.org/falea.htm

[2] “Tənqih şərhul urvatul vuska”, c.4,səh 292

[3] eyni yerdə, səh 254

çox rəvayyətlər də mövcuddur. Nəticə olaraq təqiyyə əslə görə vacib hökmü daşıyır."

Xoyinin nəzərində vacib olan xüsusi mənada sünnilərə qarşı edilən təqiyyədir. Kitabının 254-cü səhifəsində Xoyi yazır: **"Ən yaxşı mənası ilə təqiyyə əslində cəlb etmə və xoş görünmə hökmü daşımaqdadır."**

Xoyi başqa kitabında da ona verilən bir suala belə cavab vermişdir: **"Zərər ehtimalı olan şəraitdə təqiyyə vacibdir. Onlarla (Əhli sünnə) birlikdə namaz qılmaq isə zərər ehtimalı olmamaqla bərabər müstəhəbdir."**[1]

Xoyi açıq şəkildə zərər ehtimalı olmadığı hallarda da təqiyyə etməyi cazi hesab edir. Ayətullah Kazım əl Hairi ona verilən bir suala kitabında belə cavab verir: "**Siə bir şəxs sünnilərlə şiələrə qarşı pis təəsürat yaratmayacaq şəkildə davranmalıdır."**[2]

Şiələr təqiyyəni nə zaman tərk edirlər?

Şiələr gözlədikləri imamın zühuruna qədər təqiyyəyə bağlıdırlar. Şiə müfəssiri Əyyaşi[3], Hurr Amili[4], Abdullah Şubbar[5], imam Cəfər əs Sadiqin Kəf 98-ci ayənin təfsirində belə buyurduğunu nəql edirlər: **"Kəşf anında o təqiyyəni götürər və Allahın düşmənlərindən intiqam alar."**

Allah düşmənlərindən qəsd olunanlar sünnilərdir. Çünki, şiələr təqiyyə ilə onlara qarşı müamilə edirlər. Kəşf sözündən qəsd olunan isə imamın meydana çıxmasıdır. Kuleyni və Kəşani kitablarında imam Əbu Abdullahdan belə nəql edirlər: **"Ey Hubeyb! Kimin təqiyyəsi varsa Allah onu ucaldar. Kimin də təqiyyəsi yoxsa, Allah onu alçaldar. Şübhəsiz ki, insanlar bir sükunət halında yaşayırlar. Əgər o olarsa bu biri də olacaqdır."**[6]

Seyyid Əli Əkbər Qıfari "Kafi" kitabında bu hədisin şərhində yazır: **"Əgər o olarsa yəni, Mehdi zühurunu etsəydi bu da olurdu yəni, təqiyyə tərk edilərdi."**

Hurr Amili Həsən ibn Harunun Əbu Abdullahdan belə rəvayyət etdiyini nəql edir: **"Əbu Abdullahın yanında oturmuşdum. Mualla ibn**

---

[1] "Siratun necat fi əcvibətil istiftat", c.2,səh 79,Kuveyt, 1996-cı il
[2] "Fətavəl muntəhabə", 1/150,Kuveyt
[3] "Təfsir", 2/351
[4] "Vəsailuş şia", 11/467
[5] "Usulul asilə", səh 321
[6] Kuleyni, "Kafi"c.2,səh 217; Feyz Kəşani "Vafi" c.3,səh 122

Huneys ona Qaimin imam Əlinin yolu ilə hərəkət edib-etməyəcəyi baradə sual ünvanladı. İmam dedi: "Bəli, imam Əlinin yolu nemət və ehsanla dolu idi. Çünki, şiələrinin onlara qarşı qələbə qazanacağını bilirdi. Qaim isə onlar arasında qılınc və əsarətə almaq surəti ilə hərəkət edəcəkdir. Çünki, o da özündən sonra şiələrin onlara qarşı qələbə qazana bilməyəcəyini bilir."[1]

Muhəmməd ibn Muhəmməd ibn Sadiq əs Sədr əl Musəvi kitabında imam Əbu Cəfərdən bu rəvayyəti nəql edir: **"İnsanlar sükunət içərsində olduğu müddətcə biz onlarla nigah bağlayar, onlardan miras aparar, həddləri yerinə yetirib, əmanətlərinə riayyət edərik. Bu Qaimlə bərabər müzayilənin gəlməsinə qədər davam edər."**

Sədr Musəvi müzayilənin mənasını belə izah edir: **"Bu haqq əhlinin batil əhlindən ayrılmasıdır."**[2]

Ayətullah Seyyid İbrahim əz Zincani kitabında imam Əlinin belə dediyini nəql edir: **"Onların fəqihləri öz istəklərinə görə fətva verir, qaziləri bilmədikləri şeyləri danışır və çoxu da yalançı şahidlik edirlər. Qaim ortaya çıxanda isə fətva əhlindən intiqam alacaqdır."**[3]

Müəllif bu rəvayyətin şərhində eyni səhifədə yazır: **"Fəqihlərdən qəsd olunan müxaliflərin fəqihləridir. Çünki, onlar Allahın nazil etdiyinin başqası ilə hökm verirlər. Bunun təsdiqi imam Baqirin sözüdür: "İmam Mehdi zühur etdiyi zaman xüsusi ilə fəqihlərdən başqa ortada bir düşmən qalmayacaqdır.O və qılınc bir-birinin qardaşıdır. Qılınc yəni, onun əlində qüvvə olmasaydı fəqihlər onun öldürülməsi üçün fətva verərdilər. Lakin, Allah onu qılıncla qalib edəcəkdir."**

Kuleyninin tələbəsi olan Əbu Zeynəb Muhəmməd ibn İbrahim ibn Numani imam Baqirdən nəql edir: **"Əgər insanlar bilsəydilər ki, Qaim (Mehdi) zühur etdikdə nələr törədib neçə-neçə insanları öldürəcək, o zaman onu (Mehdini) görmək istəməzdilər. Mehdi işə Qüreyşdən başlayacaqdır. Qüreyşə qılıncdan başqa bir şey verməyəcəkdir. Beləliklə insanlar deyəcəklər: O (Mehdi) Muhəmmədin ailəsindən deyil. Əgər Muhəmmədin ailəsindən olsaydı o bağışlamağı bacarardı."**[4]

Bu rəvayyəti Sadiq əs Sədr "Tarihu mə bəduz-zuhur"[5]da, şeyx Əli Yəzdi əl Hairi isə "İlzamun nasib fi isbatil huccətul qaib"[1] kitabında zikr etmişlər.

---

[1]"Vəsailuş şia", 11/57
[2]"Tarihu mə bəduz-zuhur",səh 726,Beyrut
[3]"Hədaiqul uns", səh 104,Beyrut
[4]Numani, "əl Qeybət"fəsil 13, №18
[5] səh 567

İmam dedi: **"Rəsulullah** *(sallallahu aleyhi va səlləm)* **ümməti içərisində bərəkət və mərhəməti ilə hərəkət edirdi. Qaim isə insanlar içərisində öldürmək ilə hərəkət edəcəkdir. Özü ilə bərabər olan kitabda "öldürərək hərəkət etməklə əmr olundum"yazılmışdır. Heç kəsdən də tövbə etməsini istəməyəcəkdir. Ona qarşı gələnlərə vay olsun."**[2]

"O, yaralıları və qaçanları öldürəcəkdir..."[3]

Əbu Abdullahdan rəvayyət edilir: **"....Allah hər vadidən külək əsdirər və küləkdən belə nida gələr: "Bu Mehdidir! Heç bir dəlil istəmədən Davudun hökmü ilə hökm edər."**[4]

"Şiələr imamın zühurundan sonra dünyanın sahibi və ağaları olacaqlar."[5]

Numani "əl Qeybət[6] adlı əsərində və "Tarihu mə badəz zuhur"[7] kitablarında Zürarənin imam Baqirdən belə bir rəvayyət nəql etdiyi yazılır: **"Ona dedim ki, salehlərdən bir saleh. Mənə onun adını söylə. Bununla Qaimi (Mehdi) nəzərdə tuturdum. İmam dedi: "Adı mənim adımdandır." Dedim: "Muhəmməd** *(sallallahu aleyhi və səlləm)* **yolu ilə hərəkət edəcək?" İmam: "Heyhat! Heyhat. Ey Zürarə, onun sünnəsi ilə hərəkət etməyəcək." Sənə qurban olum, niyə? dedim." İmam: "Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **ümməti içərisində bərəkət və mərhəməti ilə hərəkət edirdi. Qaim isə insanlar içərisində öldürmək ilə hərəkət edəcəkdir. Özü ilə bərabər olan kitabda "öldürərək hərəkət etməklə əmr olundum" yazılmışdır. Heç kəsdən də tövbə etməsini istəməyəcəkdir. Ona qarşı gələnlərə vay olsun."**

Muhəmməd Sadiq əs Sədr Rufeydin imam Əbu Abdullahdan belə dediyini nəql etmişdir: **"Əbu Abdullaha dedim: "Ey Rəsulullahın övladı, sənə fəda olum! Qaim (Mehdi) gələndə əhli səvad (müsəlmanların cümhuru) içərsində Əli ibn Əbu Talibin yolu ilə hərəkət edəcəkdir?" İmam dedi: "Xeyr, ey Rufeyd! Əli ibn Əbu Talib əhli səvad içərsində cifri əsvəddə olanlarla davranırdı. Qaim isə ərəblər içərsində cifri əhmərdə olanlarla hərəkət edəcəkdir." Dedim: "Sənə fəda olum! Cifri**

---

[1] 2/283
[2] Numani, "əl Qeybət" fəsil 13, №14
[3] Numani, "əl Qeybət" fəsil 13, №15
[4] Numani, "əl Qeybət" fəsil 13, №26
[5] "Mizanul hikmət", №581, səh 87
[6] səh 231
[7] səh 566

əhmər nədir?" İmam barmaqlarını boğazına tutdu və bax belə yəni, "boğazlamaqdır" dedi."[1]

Numani "Qeybət əsərində imam Cəfərdən hədis nəql edərək yazır: **"Bizimlə ərəblər arasında boğazlanmaqdan başqa bir şey qaimamışdır və əli ilə boğazına işarə etmiş və demişdir: "Sizin haqqınızda sizin birinizin onların mininə bərabər olduğu halda və onlardan birinin öldürüldüyünə müqabil sizin də öldürülməyinizdən qorxmasaydım onları öldürməyinizi əmr edərdik. Lakin, bu imamın gəlişinə qədər belə davam edəcəkdir."** [2]

Bu rəvayyəti Hurr Amili "Vəsailuş şia"[3]da, Bəhrani "əl Hədaiq"[4]də, şeyx Hüseyn əl Usfur "əl Məhasinun nəfsaniyyə"[5]də, Feyz Kəşani "əl Vafi"[6]də bu əlavə ilə nəql etmişlər: **"Sizlərdən bir nəfərin qisas əvəzi olaraq, onlardan bir nəfər qarşılığında öldürülməsindən qorxmasaydıq ki, sizlərdən biri onlardan mini və yüz minindən daha xeyirlidir,onları öldürmənizi əmr edərdik. Lakin, bu imamın zühuruna qədər ertələnib."**

Cənazə namazında müxaliflərə lənət oxumaları

Şeyx Mufid "əl Muğniyyə"kitabında yazır: **"Möminlərdən heç kəsə vilayət məsələsində haqqa müxalif olanların cənazələrinin yuyulmasında və namazlarında iştirak etmələrinə icazə verilmir. Bunu yalnız zərurət halında təqiyyə edərək etmək olar.....Cənazə namazında ona lənət oxumaq və onun üçün dua etməmək lazımdır."**[7]

Şeyxut-taifə ləqəbli Əbu Cəfər ət Tusi "Təhzibul əhkam" kitabında yazır: **"Bu məsələnin izahı belədir: "Əhli haqqa müxalif olan kimsə kafirdir. Deməli, hökm etibarı ilə kafir ilə eyni səviyyədə olmalıdır. Kafirin yuyulması caiz olmadığına görə eyni şəkildə müxaliflərin də yuyulması caiz deyildir. Cənazə namazının qılınması məsələsi isə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **və imamların münafiqlərin cənazə namazlarını qılmaları çərçivəsində dəyərləndirilir. Müxaliflərin cənazə**

[1] "Tarihu mə badəz zuhur", səh 570-571
[2] səh 236
[3] c.11,səh 60
[4] c.18,səh 155
[5] səh 166
[6] c.10,səh 59
[7] səh 85, Muəsəsat nəşri İslami,Qum

namazlarının necə qılınacağı və kafirin yuyulmasının caiz olmadığının dəlilini isə sonrakı səhifələrdə izah edəcəyik."[1]

Kuleyni yazır: **"Əbu Abdullahın dediyinə görə Abdullah ibn Ubey ibn Səlul öləndə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **onun dəfnində iştirak edirdi. Ömər Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Məgər Allah sənə onun qəbri üstündə dayanmağı qadağan etməmişdir?" Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **cavab vermədi. Ömər yenə soruşdu: "Ya Rəsuullah! Məgər Allah sənə onun qəbri üzərində dayanmağı qadağan etməmişdir?" Belə olduqda Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Heyıf ki, sən mənim nə dediyimi anlamırsan. Mən dedim ki, ilahi onun içinə od sal, qəbrini odla doldur, onu Cəhənnəmə vasil elə."**[2]

Bu rəvayyəti Tusi "Təhzib"[3]də, Hurr Amili "Vəsailuş şia"[4]da "Müxaliflərin cənazələrinin necə qılınacağı" fəslində nəql etmişlər.

Kuleyni özünün "Kafi" kitabında Əbu Abdullahdan belə rəvayət edir ki, münafiqlərdən bir kişi ölürmüş, imam Hüseyn ibn Əli cənazə ilə birlikdə yola çıxır. Onun qarşısına bir mövlası çıxır, imam Hüseyn ondan soruşur: "Hara gedirsən?" O deyir: "Bu münafiqin cənazəsindən qaçıram ki, onun üçün namaz qılmayım." İmam ona deyir: "Sən namaz zamanı mənim sağımda dayan və məndən nə eşitsən, sən də elə de." Hüseyn təkbir duasında belə söyləyir: "Allahü əkbər! Allah, sən bu qulun filankəsə min dəfə eyni, bir-birindən fərqlənməyən lənətlər yağdır. Qullarından birini cəzalandır, onu Cəhənnəm odunun qızmarına at, ona Özünün ən şiddətli əzabını daddır. Çünki, o sənin düşmənlərinə dost, övliyalarına düşmən olmuşdur. O, sənin Peyğəmbərinin ailəsinə nifrət etmişdir."[5]

Bu hədisi həmçinin, Tusi "Təhzib", Şeyx Səduq "Mən lə yəhduruhul fəqih", Hurr Amili "Vəsailuş şia" kitablarında nəql etmişlər.

Muhəmməd ibn Həsən ət Tusi "Təhzib" də yazır: **"Cənazə namazı içərsində olan dörd təkbir təqiyyə ilədir. Çünki, bu qayda müxaliflərin məzhəbidir..."**[6]

Bu sözlər ilə Əhli sünnətin qəsd olunduğu aşkardır. Çünki, sünnilər cənazə namazında dörd təkbir gətirirlər.

---

[1] "Təhzibul əhkam", c.1,səh 335, 3-cü nəşr,Tehran

[2] "Kafi-furu", "Kitab əl cənaiz" fəsli c.3,səh 188,İran

[3] 3/196

[4] 2/770

[5] "Kafi", "Kitab əl-cənaiz", "Düşmənçilik edənlər" fəsli, c.3,səh 189, İran

[6] 3/316

Hurr Amili "Vəsailuş şia" kitabında "Müxalifə (sünniyə) cənazə namazı qılmaq" fəslində yazır: **"Muhəmməd ibn Muslimdən nəql olunur ki, imam dedi: "Əgər mərhum haqqı inkar edənlərdən idisə onda de: "Ey Allah! Onun qarnını və qəbrini odla doldur. Ona əqrəb və ilanları müsallat elə!"**[1]

Bu rəvayyəti Yusif əl Bəhrani "Hədaiq"[2] də və Muhəmməd Həsən ən Nəcəfi "Cəvahirul kəlam"[3] da nəql etmişlər.

Şeyx Səduq kitabında Əbu Abdullahdan hədis rəvayyət edir: **"Allahın düşməninin cənazə namazını qılarkən belə de: "Allahım! Biz bunun sənə və Rəsuluna düşmən olduğundan başqa bir şey bilmirik. Allahım onun qəbrini, qarnını odla doldur! Onu tezliklə Cəhənnəmə göndər! Çünki, sənin düşmənlərinə dost, dostlarına isə düşmən olardı. Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **Əhli beytinə də düşmən idi. Allahım! Onun qəbrini daralt, onu ucaltma,onu təmizləmə de."**[4]

Bu rəvayyəti Hurr Amili "Vəsailuş şia"[5]da "Müxaliflərin cənazə namazı necə qılınar" fəsli altında Bəhrani "əl Hədaiq"[6]də,Nəcəfi isə "Cəvahir"[7]də qeyd etmişlər.Yusif əl Bəhrani bu rəvayyəti zikr etdikdən sonra demişdir: **"Bu rəvayyətlərin hamısı görüldüyü kimi Əhli sünnədən olan müxaliflər haqqındadır…"**[8]

Həmçinin, o eyni kitabın başqa yerində yazır: **"On iki imama inanan möminin cənazə namazının qılınmasının vacib olması baradə heç bir fikir ayrılığı yoxdur. Eyni şəkildə xarici, nasibi, qulat və zeydi olan dindən zəruri olan etiqadlardan birinin əksinə etiqad edən adamın cənazə namazlarının təqiyyə xaricində qılınmasının caiz olmadığı xüsusunda da heç bir fikir ayrılığı yoxdur."**[9]

Bəhrani başqa bir kitabında yazır: **"Dördüncü təkbirdən sonra mömin üçün dua ediləcəyi bilinməlidir. Mömin deyil və haqqa müxalif olandırsa, bəddua olaraq belə deyilir: "Allahım! Onun qarnını və qəbrini odla doldur. İlanları, əqrəbləri ona müsəllat elə."**[10]

---

[1] "Vəsailuş şia", 2/771
[2] 10/414
[3] 12/48
[4] "Mən la yəhduruhu əl-fəqih", 1/105
[5] 2/77
[6] c.10,səh 414
[7] c.12,səh 49
[8] səh 415
[9] "əl Hədaiq", 10/359
[10] "Risalətus salətiyyə", səh 328

Əbu Əhməd əl-Usfur əl-Bəhrani "Risalətus salətiyyə" kitabına yazdığı şərhdə Mufidin sözlərini qeyd etdikdən sonra yazır: **"Təhzib"də şeyx bununla razılaşmışdır. Sözlərinin sonuna qədər müxaliflərin kafir, hökmlərinin kafirlərin hökmü ilə eyni olması baradəki sözlərini davam etdirir. Əbu Saleh müxalifin cənazə namazının təqiyyə xaricində qılınmasının caiz olmadığını qəbul etmişdir. İbn İdris də inanclı bir adamın bu hökmdə olanların cənazə namazının qılınmaması rəyini qəbul etmişdir. Seyyid Murtəzanın da müxaliflər haqqındakı hökmü bəllidir. Yəni, o onların küfrünə hökm etmişdir."**[1]

Bilindiyi kimi inanclı insan dedikdə onlar on iki imama etiqad edən şəxsi nəzərdə tuturlar. Mirzə Həsən Hairi əl Əhkaqi "Əhkamu fiş şia"adlı kitabında yazır: **"Kitabı olsun, ya olmasın kafirlərin bütün qisimlərinin cənazə namazının qılınması caiz deyildir. Təqiyyə və zərurət xaricində bu müxaliflər üçün də keçərlidir. Dördüncü təkbirdən sonra cənazəyə lənət oxunar. Beşinci təkbir edilməz…..Cənazə namazı mömin birinə aiddirsə, beş təkbir almaq vacibdir. Əgər namaz müxalif və ya münafiq birinə məxsusdursa dörd təkbir alınar və dördüncü təkbirdən sonra cənazəyə bəd dua edilir."**[2]

Buna bənzər fətvanı Ayətullah Mirzə Əbdurrasul əl İhqaqi "Əhkəmuş şəria"[3] kitabında vermişdir.

Şiələrin təqiyyə namazı

Bəziləri şiələrin sünni imamlar arxasında namaz qılmalarına aldanırlar. Bu davranışı onların Əhli sünnətə qarşı duyduqları yaxınlıq və pərəstişin dəlili hesab edirlər. Yuxarıdakı fəsillərdə izah edildi ki,onlara görə iman ancaq Əli *(radiyallahu anhu)* və övladlarının vilayətini qəbul etməklə tamamlana bilər və buna etiqad etməyənlərin əməlləri qəbul edilməyəkdir.İndi isə gəlin,onların daha açıq ifadələri ilə tanış olaq.

Mühəddis Hurr Amili məşhur "Vəsailuş şia"kitabında **"İmamların vilayəti qəbul edilmədiyi və imamlıqlarına inanılmadığı təqdirdə ibadətlərin batil olması"** adlı fəsil tərtib etmiş və bu fəsildə 19 hədis nəql etmişdir.

Alim, fəqih, imamları olan Ayətullah Hacı Ağa Hüseyn Təbatəbai Burucərdi "Camiu əhadis şia"[1] kitabında **"Əməllərin qəbulunun**

[1] 333-cü qeyd
[2] "Əhkamu fiş şia",c.1,səh 186-187; "Məktəbətu Cafər Sadiq" Kuveyt,1997 il
[3] 1/229

imamların vilayəti və onların imamlığına inanma şərti ilə qəbul ediləcəyi" başlığı altında fəsil tərtib etmiş və orada 78 rəvayyət nəql etmişdir.

Bu hədislərdən biri də Rəsulullahdan *(sallallahu aleyhi və səlləm)* nəql edilir. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurub: **"Məni haqq ilə göndərənə and olsun ki, sizdən biriniz rükun ilə məqam arasında min il ibadət edərsə, sonra Əli və övladlarının vilayətini qəbul etməzsə, Allah onu başı aşağı Cəhənnəmə atacaqdır."**[2]

Etiqadlarında sabit olan davranış bu şəkildədir. Hurr Amili "Vəsailuş şia"[3]da **"Camaat imamının müxaliflərdən olması halında təqiyyə xaricində ona namazda uymanın caiz olmadığı"** adında bir fəsil tərtib etmişdir.

383-cü səhifədə isə **"Müxalifdən öncə fərzi əda etmənin, daha sonra onunla birlikdə namazı qılmanın müstəhəb olması"** adında fəsil ayırmışdır.

Digər yerdə **"Namazda müxalif kimsənin arxasında təqiyyə ilə namaz qılma və birinci səfdə durmağın müstəhəb olması"**[4] adında fəsil ayırmışdır.

Həmçinin, Burucərdi "Camiu əhadis şia"[5] adlı əsərində **"Səhih etiqadlar mövzusunda müxalif olan kimsənin arxasında namaz qılmanın təqiyyə xaricində caiz olmamağı və təqiyyə səbəbi ilə camaatlarına qoşulmağın və onlarla bərabər ilk səfdə durmanın müstəhəb olması"** adlı fəsil tərtib etmişdir.

"Camiu əhadis şia"[6]da Burucərdi **"Adamın fərz namazını vaxtında qılıb, daha sonra təqiyyə niyyəti ilə müxaliflə birgə namazı imam vəya camaat olaraq qılması vəya qılmadığı halda qılırmış kimi görsənməsinin müstəhəb olması"** adında fəsil tərtib etmişdir.

Ona görə də məşhur alimlərindən olan Əbul Qasim əl Xoyi **"Müsəlmanların camaatı ilə birgə namaz qılmaq" haqqında suala belə cavab vermişdir: "Təqiyyə ilə qılınarsa, səhihdir."**[7]

Mirzə Həsən Hairi əl Əhkaqi "Əhkəmuş şia" kitabında yazır: **"Şiə olan biri onların (sünnilərin) camaatına qoşulub, onlara iqtida etmədən**

---

[1] 1/426
[2] "Camiu əhadisuş şia", 1/429
[3] 5/388
[4] 5/381
[5] 6/410
[6] 6/418
[7] "Məsail","Rudud" 1/26,Qum

öncə evində namazı əda edə bilərsə və sonra onlarla birlikdə camaat namazına qoşula bilərsə vəya onlarla birlikdə qıldıqdan sonra yenidən qəza edə bilərsə bunları etsin. Zərurət olmadığı halda təqiyyə ilə camaatlarına qoşularaq, ilk səfdə durmaq və zahirən onlara uymaq müstəhəbdir. Lakin, iqtida etmədən namazı tək başına da qıla bilər."[1]

Müsəlman qardaş! Bu fətvalarla sən şiələrin Əhli sünnət arxasında qıldığı namazların sırf aldatmadan ibarət olduğunu öyrənmiş oldun. Bunu Ticani bu sözlərlə etiraf edir: **"Şiələr çox vaxt Əhli sünnətlə birlikdə təqiyyə ilə camaat namazı qıldıqdan sonra oranı tez tərk edərdilər. Çox güman ki, evə qayıdıb, namazlarını yenidən qılırlar."**[2]

Həmçinin, sünnilərin namazda sağ əli sol əlin üzərinə qoymaları, Fatihə surəsindən sonra amin demələri şiələrə görə namazı batil edən səbəblərdəndir. Lakin, onlar buna təqiyyə ilə edildikdə icazə vermişlər. Bu cür fətva verənlərdən bəziləri:

1-Ruhullah əl Musəvi əl Xomeyni[3]

2-Ayətullah Seyyid Abdullah Səbzvari[4]

3-Ayətullah Muhəmməd Rza Kəlbəykani[5]

4-Əbul Qasim əl Xoyi[6]

Təqiyyə ilə yalandan and içməyin caizliyi

Şiələrə görə hətta, and içməyə də təqiyyə daxil olmuşdur.

Şeyx Murtəza əl Ənsari "Risalətut təqiyyə[7]də, əl Xoyi "Tənqih şərhul urvatul vuska"[8]də imam Cəfərdən belə bir hədis nəql edirlər: **"Təqiyyə üçün nə etsəniz vəya təqiyyə ilə nə kimi andlar içərsinizsə, bu baradə bir genişliyə sahibsiniz."**

Onlara görə bu səhih rəvayyətə əsasən bir şiə sünnini aldatmaq üçün yalandan and içməkdən çəkinməz. Çünki, təqiyyə genişdir. Beləki, şeyx

[1] "Əhkəmuş şia" 2/341-342
[2] "Kullul Hulul ində alir rasul" səh 160; Beyrut
[3] "Təhrirul vəsilə" c.1,səh 186,190
[4] "Camiul əhkam",səh 92-93
[5] "Muhtəsərul əhkam",səh 68-69
[6] "Məsailul Muntəhabə"
[7] səh 73
[8] 4/278,307

Murtəza əl Ənsari "Risalətut təqiyyə"də imamdan belə rəvayyət nəql edir: **"Təqiyyə genişdir.Təqiyyə ilə edilən istənilən hər əmələ görə Allahın izni ilə əcr vardır."**[1]

Şiələr məsləhət faktoru xaricində özlərinə müxalif olanlara mallarından xüms, zəkat və sədəqə verilməsini caiz hesab etmirlər. Əbul Qasim əl Xoyi xüms, zəkat, kəffarələr, fitr sədəqəsi kimi mallardan müxaliflərə verilməsi baradə suala belə cavab vermişdir: **"Caiz deyildir. Yalnız məsləhət halında caiz ola bilər."**[2]

Şiələrin İslam və müsəlmanlar haqqındakı inanc əsasları

Bu fəsildə oxucuya şiələrin qaynaq kitablarından və alimlərinin sözlərindən gətirilən sitatlarla onların səhabələr, müsəlmanlar və İslam alimləri haqqındakı düşüncələrini, inanclarını ortaya qoyacağıq.

İmamətə etiqad və ona inanmayanların təkfir edilməsi

Həqiqətən, şiəlik yəhudilikdən çoxlu miraslar almışdır və bu adi sözlər deyil. Axı, yəhudilərdən başqa kim digər millətlərə, dinlərə və irqlərə belə kinlə yanaşır? Şiələr imamətin dinin əsasından olduğuna və Peyğəmbərin *(sallallahu aleyhi va səlləm)* on iki imamı nassla təyin etdiyinə etiqad edirlər. İlk öncə vilayətin dəyəri haqqında onların rəvayyətlərinə nəzər salaq. Mühəddis və alimləri bu məşhur rəvayyəti nəql edirlər:

"İslam Allahdan başqa ilah yoxdur, Muhəmməd onun elçisidir şəhadət kəlməsi, namaz qılmaq, zəkat vermək, ramazanda oruc tutmaq, həcc etmək və Əli ibn Əbu Talibin vilayətinə iman etməkdən ibarətdir."[3]

Göründüyü kimi bu rəvayyət şiə kitablarında mütəvatirdir. Heç bir Əhli sünnə mənsubu Əlinin *(radiyallahu anhu)* vilayətini dinin əsası kimi qəbul etmir. Başqa sözlə, Əhli sünnə şiələrə görə İslamın əsaslarından birini inkar edir.

Kuleyni Zürarədən rəvayyət edir ki, imam Əbu Cəfər demişdir: "**İslam beş şey üzərində bina olmuşdur: Namaz, zəkat, həcc, oruc və**

---

[1] səh 72

[2] "Məsail","Rudud", 1/64; Qum

[3] "Kafi", 2/18,21,22,32; Şeyx Səduq səh 221,279,510; "Rical Kəşşi" səh 356; "Təfsir Əyyaşi" 2/117; Tusi 4/151; "Biharul ənvar" 10/393, 23/69, 27/103; Mufid səh 209; "Vəsailuş şia" 1/13; Təbərsi 1/71 və s.

vilayət." Zürarə soruşmuşdur: "Bunlardan hansı daha üstündür?" O demişdir: "Vilayət"[1]

İmam Rzadan nəql edirlər ki, o demişdir: **"Vilayət bütün peyğəmbərlərin kitablarında yazılmışdır."**[2]

İndi isə şiələrin inanclarını paylaşmayanlar haqqında nə düşündüyünə nəzər yetirək. İlk öncə onların imamlarının sözlərini qeyd edək:

Muhəmməd ibn İbrahim ən Numani "Qeybə ən Numani" kitabında imam Cəfərdən rəvayyət edir: **"Hər kim Allah tərəfindən təyin olunmamış imamı Allah tərəfindən təyin olunmuş imama tay görərsə, o müşrikdir."**[3]

İbn Babaveyh əl Qummi (şeyx Səduq) "Aməli" kitabında Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* belə bir hədis rəvayyət edir: **"Məndən sonra kim Əliyə qarşı olarsa o kafirdir və kim ona şərik qoşarsa o müşrikdir."**[4]

Həmçinin, Səduq başqa səhifədə Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* nəql edir: **"Kim mənim səhabələrimdən birini Əlidən üstün tutarsa o küfrə düşmüş olar."**[5]

Yəni, şiələrə görə kim idarə etmədə, xilafətdə Əli *(radiyallahu anhu)* ilə yanaşı başqasını hakim görərsə, o müşrikdir.

İbn Babaveyh həmçinin, Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* rəvayyət edir: **"Məndən sonra hər kim Əlinin imamətini inkar edərsə, sanki mənim sağlığımda peyğəmbərliyimi inkar etmiş kimidir və hər kim ki, mənim peyğəmbərliyimi inkar edərsə, o Allahı inkar etmiş kimidir."**[6]

Kuleyni "Kafi" kitabında imamdan hədis rəvayyət edərək yazır: **"İmam dedi: "Məhşər günü Allah onlarla danışmayacaq, onları təmizləməyəcək və onlara şiddətli əzab vardır. "Bunu üç dəfə söylədi. Daha sonra buyurdu: "Bu o kimsələrdir ki, imam olmadığı halda Allahın iradəsi ilə imam olduqlarını söyləyir və ilahi əmrlə təyin olunmuş imamı inkar edirlər. <u>Onlar o kimsələrdir ki, bu iki nəfərin İslamda nəsibi olduqlarını düşünürlər."</u>**[7]

---

[1] "Kafi", 2/18;Tehran;"Biharul ənvar" 68/332; "Vəsailuş şia",1/13 və s

[2] "Kafi", 1/437; "Biharul ənvar" 11/60; Şeyx Tusi "Aməli" səh 681

[3] "Qeybə ən Numani", fəsil 7; hədis 8

[4] "fəsil 3,səh 19,hədis 6

[5] "Aməli", səh 465

[6] "Aməli", səh 656,hədis 5

[7] "Kafi", 1/373

Bu hədisi Behbudi səhih hesab etmişdir. Şiələrin "Əbu Bəkr və Ömərə olan məhəbbətlərini" nəzərə alaraq, bu iki nəfərin kim olduğunu təxmin etmək çətin deyil.

Kuleyni Əbu Cəfərdən rəvayyət edir: **"İmama iman etməyənin ölümü küfr və münafiq ölümüdür."**[1] Məclisi və Behbudiyə görə hədis səhihdir.

Zarihin nəql etdiyinə görə o imam Əbu Abdullahdan Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* sonra olan imamlar baradə soruşur. İmam cavabında deyir: **"İlk öncə imam möminlərin əmiri Əli ibn Əbu Talib idi. Sonra Həsən, Hüseyn, sonra Muhəmməd ibn Əli oldu və kim bunu inkar etsə Allahı və onu peyğəmbərini inkar etmiş olar."**[2]

Kuleyni imam Əbu Cəfərdən rəvayyət edir: **"İmama iman etməyənin ölümü küfr və münafiq ölümüdür."**[3] Məclisi və Behbudiyə görə hədis səhihdir.

Biz "zavallı" müsəlmanlar isə hesab edirik ki, bu ümmətin ilk xəlifəsi Əbu Bəkr *(radiyallahu anhu)*, sonra Ömər *(radiyallahu anhu)*, sonra Osman *(radiyallahu anhu)*, sonra isə Əli ibn Əbu Talib *(radiyallahu anhu)* olmuşdur. Bu rəvayyətlərə görə biz onsuzda Allah və onun elçisini inkar etmiş kimiyik!

Kuleyni rəvayyət edir: **"Abdullah ibn Yəfur nəql edir ki, bir dəfə mən Əbu Abdullaha dedim: "Mən adamlarla ünsiyyətdə olanda sizinlə deyil, filan-filan adamlarla yaxınlıq edən bəzi adamlarda etibar, doğruculluq, vəfa olduğuna, sizinlə yaxınlıq edən bəzi adamlarda isə bunların olmadığına çox təəccüblənirəm." Bunu eşidən Əbu Abdullah qəzəblə mənim üzümə baxıb dedi: "Allahdan gəlməyən imama yaxınlıq etməklə Allaha inanan adamın dini yoxdur."**[4]

Numani imam Cəfərdən "imamın birini qəbul edib, digərini inkar edən bir adam haqqında" belə dediyini nəql etmişdir**: "Onun misli İsanı** *(əleyhisalam)* **qəbul edib, Muhəmmədi** *(sallallahu aleyhi va səlləm)* **inkar edən vəya onu qəbul edib, İsanı inkar etmiş kimidir."**[5]

Bu rəvayyət guya bizləri küfrdə ittiham etmədikləri bəhanələrini heçə endirir. Biz axı Əlini *(radiyallahu anhu)* yalnız dördüncü xəlifə olaraq qəbul edirik. Əhli sünnədən heç kəs Əlidən *(radiyallahu anhu)* sonra yalnız onun nəslinin hakim olmalı olduğunu iddia etmir. Bundan əlavə biz nəinki, on

---

[1] "Kafi", 1/375

[2] "Kafi", səh 295,hədis 465

[3] "Kafi", 1/375

[4] "Kafi", c.1, səh 237, Hindistan çapı

[5] "Qeybə ən Numani", fəsil 5; hədis 4

ikinci imamı qəbul etmir, ümumiyyətlə onun mövcud olmadığını bildiririk.

Onlar Əbu Cəfərdən nəql edirlər: **"Kim Allahı və biz Əhli beyti tanımazsa, o Allahdan qeyrisinə ibadət etmiş sayılır."**[1]

Həmçinin, Əbu Abdullahdan: **"Kim bizi təsdiq etsə mömin,kim bizi inkar etsə kafirdir."**[2]

Seyyid Şubbar imam Rzadan rəvayyət edir: **"İslamda bizdən və bizim şiələrdən başqası yoxdur."**[3]

Kuleyni bu sözləri imama isnad edir: **"İnsanlar üç qismə bölünür: Alimlər, öyrənən tələbələr və artıqlar. Biz Əhli beyt imamları alimlərik, bizim şiələr tələbələr, digər artıq insanlar isə zibildirlər."**[4]

İmam bu sözlərdən uzaqdır! Yəhudilər kimi dünyanı özünkülərə və əcnəbilərə ayırmaq yalnız etiqadlarını yalandan imamlara isnad edən rafizilərə xasdır. Baxaq görək onların alimləri nə deyir:

"Şiəlik baxımından əqidəvi məsələlər" kitabında Rza Müzəffər yazır: **"Hər kim ki, müctəhidi qəbul etmir və ya inkar edir, dolayısı ilə imamı və Allahı da qəbul etməyib inkar etmiş olur. Bu imam Sadiqin sözlərinə görə şirkə bərabər vəya Allahın təkliyini inkar etmək kimidir."**[5]

Seyyid Şubbar yazır: **"Sizi və sizin imaməti inkar edənlər kafirdirlər. İmamlara müxalif olanların (yəni, Əhli sünnənin) küfrünə dəlalət edən rəvayyətlər və xəbərlər mövcüddur. Onları cəm etmək üçün müstəqil bir kitaba ehtiyyac vardır. Müxaliflərin küfrünə hökm verən xəbərləri və imamların onlarla rəftarını vəsf edən rəvayyətləri cəm etsək, zəruri olaraq deməliyik ki, imaların müxalifləri kafirdilər və axirətdə cəhənnəmdə olacaqlar"**[6]

Bu kitabda[7] müəllif Həsən əl Bəsri və onun ardıcıllarını şiələrə müxalif olanlardan hesab edir.

Ayətullah Şubbar yazır: **"Əgər tövhidə etiqad vilayətə etiqad ilə birgə olmasa Allah Təalə onu heç kəsdən qəbul etməz. Xəbərlərin bəzilərində varid olmuşdur ki, imamların müxalifləri (sünnilər)**

---

[1] "Kafi", c.1,səh 294,hədis 464
[2] "Kafi", c.1,səh 305,hədis 485
[3] "Şərhul ziyarətul camiə", səh 26
[4] "Kafi", c.1,səh 51-52,hədis 4 (56)
[5] "Müctəhidlər", fəsili
[6] "Camiə kəbirə ziyarətinin şərhi", səh 124-125, Azərbaycan dilində
[7] səh 111

müşrikdirlər. Qiyamət günü tövhid kəlməsi, imamların ardınca getməyənlərdən götürüləcəkdir"[1]

Qeyd etdiyimiz kimi müəllif müxaliflər dedikdə Həsən Bəsri və ardıcıllarını da nəzərdə tutur. Şubbar yazır: **"Allahın qəzəbi sizin vilayət, imamət və xilafətinizi inkar edənlərin üzərinə olsun ki, bu ən böyük əzabdır."**[2]

Muhəmməd ibn İbrahim ən Numani yazır: **"Yuxarıda gətirilən rəvayyətlər dəlalət edir ki, imam baradə şübhəyə düşən vəya onu qəbul etməyən hər kəs küfrə, nifaqa, şirkə düşür. Belə adamın ölümü cahiliyyə ölümü kimidir."**[3]

Şeyx Səduq adı ilə məşhur olan Muhəmməd ibn Əli ibn Hüseyn ibn Babaveyh əl Qummi yazır: **"Bizim etiqadımızdandır ki, Əlinin** *(əleyhisalam)* **və ondan sonra gələn imamların imamətini inkar edən, sanki bütün peyğəmbərləri inkar etmiş kimidir. Əmirəlmöminini qəbul edib, imamlardan birini inkar edən, sanki bütün peyğəmbərləri qəbul edib, Muhammədi** *(sallallahu aleyhi va səlləm)* **isə inkar etmiş kimidir."**[4]

Səduq "əl Hidayə" kitabında on iki imama etiqadın zərurətlərindən danışarkən yazır: **"Zəruridir ki, özünü Allah qarşısında 4 bütdən, 4 qadından və onların bütün tərəfdarları və ardıcıllarından təmizləyəsən. Onlar Allahın və Peyğəmbərinin düşmənləri və Allahın ən şərli məxluqatıdırlar....Biz inanırıq ki, açıqladıqlarımıza və bundan bəzilərinə müxalif olanlar haqq yoldan qeyri bir yoldadırlar. O, doğru yoldan uzaq düşmüşdür və biz ondan, kimliyindən və milliyətindən asılı olmayaraq uzağıq. Biz onu sevmir və ona yardım etmirik. Biz ona malımızdan zəkat vermirik....Biz hesab edirik ki,onun şəhadəti qəbul edilməməli, arxasında namaz qılınmamalıdır. Bu xüsus seçim imkanı olan hallara xasdır. Təqiyyəyə gəldikdə isə, bu halda onlara zəkat və s.vermək olar və biz onların arxasında ehtiyyat üçün namaz qılırıq."**[5]

Əllamə Muttəhar əl Hilli kitabında belə yazır: **"İmamət ümumi bir lütfdür. Nübuvvət isə xüsusi bir lütfdür. Ümumi olan lütfün inkar edilməsi xüsusi lütfün inkar edilməsindən daha pisdir. İmam Sadiqin də imaməti bir əsas olaraq inkar edənlərin ən şərli adamlar olduğu haqqında sözləri buna dəlildir."**[6]

---

[1] "Çəmiə kəbirə ziyarətin şərhi", səh 99
[2] Camiə-Kəbirə ziyarətinin şərhi", səh 156
[3] Qeybə ən Numani", fəsil 7,son hissə
[4] Mufid, "Etiqad", səh 104
[5] 4-cü fəsildə
[6] "əl Əlfeyn fi İmaməti Əli bin Əbu Talib", səh 13, Beyrut,1982-ci il

Muhəmməd Rza Müzəffər yazır: **"Biz etiqad edirik ki, imamət dini prinsiplərdən biridir ki, bunsuz müsəlmanın imanı tam olmaz."**[1]

Muhəmməd Rza Müzəffər elə bu səhifədə yazır: **"...İmamət Nübuvvət kimi Allahın nemətlərindəndir. Ona görə də hər zaman imam və rəhbər olmalıdır ki, insanları peyğəmbər əvəzinə dünya və axirət işlərində yönləndirsin. Bu imam peyğəmbər kimi dünyanın rəhbəridir. O, hikmətlə cəmiyyəti idarə edir, ədaləti bərpa edir, zülmü və haqqsızlığı aradan götürür."**

Xomeyni daha dürüst olaraq yazır: **"Vilayətsiz Allaha və Peyğəmbərlərə iman qəbul edilməz."**[2]

Xomeyninin bu sözlərini də qeyd etmək yerinə düşərdi: "Kəşful Əsrar" kitabında deyir: **"Hədisin əvvəlində də isbat etdiyimiz kimi Peyğəmbərin** *(sallallahu aleyhi va səlləm)* **Quranda imamət bəhsini açıqlamamasının səbəbi özündən sonra Quranın təhrif edilməsindən qorxması və müsəlmanlar arasında ixtilafların şiddətlənib, bunun da İslama təsir etməsi idi. Əgər Peyğəmbər** *(sallallahu aleyhi va səlləm)* **Allahın imamət baradə ona vəhy etdiyini təbliğ etsəydi İslam ərazilərində müsəlmanlar arasında bu ixtilaflar və münaqişələr baş verməzdi."**[3]

Abdullah Şubbar yazır: **"Əgər tövhidə etiqad vilayətlə bir arada olmazsa Allah bu imanı heç kəsdən qəbul etməz."**[4]

Yusif əl Bəhrani isə belə yazır: **"Vay olsun! Dinin əsaslarından olan imamlara inanmayanın küfrü ilə Allaha və peyğəmbərlərinə inanmayanların küfrü arasında nə fərq var?"**[5]

Feyz Kəşani adı ilə məşhur olan Muhəmməd Muhsin kitabında yazır: **"İmamlardan birini inkar edən bütün peyğəmbərlərin nübuvvətini inkar etmiş kimidir."**[6]

Əllamə Məclisi yazır: **"Kafir, müşrik termininin möminlərin əmiri və ondan sonra gələn varislərinin imamətinə inanmayan və onların fəzilətini digər insanlardan üstün hesab etməyənlər haqqında varid olması dəlalət edir ki, bu insanlar cəhənnəmdə əbədi qalacaqlar."**[7]

Şiəliyə qarşı xoş münasibət bəsləyənlər elə bu şiələrin özlərinə görə əbəbi cəhənnəm sakinləridir, ibrət alan varmı?!

---

[1] "Əqidətul imamiyyə", səh 59
[2] "40 hədisin şərhi", səh 485,33-cü hədisin şərhində
[3] "Kəşful Əsrar", səh 149-155
[4] "Şərhul ziyarətul camiə", səh 99
[5] "Həqaiq ən nadira fi əhkamu itrəti təhira", c.18,səh 153,Beyrut
[6] "Minhəcun nəcat", səh 48; "Darul İslamiyyə nəşr" Beyrut 1987
[7] "Biharul ənvar", 23/390

Muhəmməd Həsən ən Nəcəfi yazır: **"Haqq əhlinə müxalif olan bizim icmamıza görə kafirdir."**[1]

Vilayəti yəni, imaməti qəbul etməyənlərin icma ilə kafir olması iddialarına diqqət edin! Onlara görə Əhli sünnə icmayla kafir hökmündədir. Hakim ləqəbli Muhsin Təbatəbai müxaliflərin icmayla kafir hökmündə olduğunu qeyd etmişdir. Bu "Mustəmsiqul urvətul vusqa"[2] kitabında mövcuddur.

Ayətullah şeyx Abdullah əl Məmqani "Tənqihul məqal" kitabında yazır: **"Xəbərlərdən hasil olan son nəticəyə görə on iki imami məzhəbinə aid olmayan hər kəs Qiyamət günü kafir və müşrik qismində olacaqdır."**[3]

Ayətullah Seyyid Muhəmməd Şirazi "əl Fiqh"kitabı "təharət" babında yazır: "**Şiələrin on iki imamilərdən başqa digər firqələrinə gəldikdə isə xəbərlərin əksəriyyəti onların kafir olmasını təsdiq edir. Rəvayyətlər təsdiq edir ki, imamı inkar edən "Allah üçdən biridir" deyən kimidir..."**

Mühəddis və böyük alimləri olan Abbas Qummi deyir: **"Axirətin dəhşətli mənzillərindən biri də siratdır...Axirətdə ki, bu sirat dünyadakı haqq din, vilayət yolu, möminlərin əmiri və onun pak zürriyyətinə tabe olunmuş "sıratu mustəqim"in bir digər halıdır. Bu yoldan uzaq olub, söz və hərəkətlə batilə meyl edən hər kəsin ayağı sürüşəcək və cəhənnəmə varid olacaqdır."**[4]

Eyni kitabda Abbas Qummi əllamə Məclisinin belə dediyini yazır: **"Bu maneələrin hər biri siratın üzərindədir. Bunlardan birinin adı da vilayətdir. Bunun önündə bütün insanlar dayandırılacaq və möminlərin əmiri və ondan sonrakı imamlar baradə sorğu sual olunacaqlar. Vilayəti bu dünyada təsdiq edənlər xilas olacaqlar. Təsdiq etməyənlər isə orada qalar və oda düşər." "Onları dayandırın, çünki onlar sorğu-sual olunacaqlar" ayəsində deyildiyi kimi."**[5]

Ayətullah Əbul Qasim əl Xoyi "Kitab əl təhara" kitabında yazır: "**Düzgün rəy bu olardı ki, imami məzhəbinə müxalif olanlar zahirən təmiz və İslamdadırlar. Bu məsələdə onlar ilə müxaliflər arasında heç bir fərq yoxdur. Əslində isə onlar hamısı küfr əhlidirlər. Onlar o**

---

[1] "Cəvahirul kəlam", 6/62 "Darul ihyait turasil ərabi" nəş. Beyrut

[2] 1/392

[3] c.1,səh 208; "Babul Fəvaid",Nəcəf 1952

[4] "Mənazilul axirə",səh 149

[5] səh 150

kimsələrdir ki, bu dünyada müsəlman, axirətdə isə kafirlər olaraq adlandırır."[1]

Ayətullah uzma Ruhullah əl Musəvi Xomeyni Muhəmməd ibn Muslim əs Səqəfinin belə dediyini rəvayyət edir: **"İmam Baqirə "Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!" (Furqan 70) ayəsi haqqında sual soruşdum.**

İmam dedi: "Günahkar mömin Qiyamət günü haqq-hesab yerinə gətirilər. Hesabını Allah Təala özü aparar və heç kəsi də buna şahid tutmaz. O qula günahları onun bunları etiraf etməsinə qədər göstərilər. Qul bunları etiraf edincə Allah Təala yazı yazanlara "bu günahları yaxşı əməllərlə əvəz edin və insanlara göstərin" deyər. İnsanlar "bu qulun heç bir günahı yoxdur" deyərlər. Sonra Allah Cənnətə əmr edər.

Ayənin təvili belədir. Bu ayə xüsusi ilə bizim şiələrdən olan günahkarlar haqqındadır."[2]

Xomeyni bu rəvayyətin şərhində yazır: **"Məlumdur ki, bu yalnız Əhli beyt şiəsinə məxsusdur. Digər insanlar bundan məhrumdurlar. Çünki, iman ancaq Əli və onun məsum, pak vəsiləri vasitəsi ilə mövcud ola bilər. Hətta, bir sonrakı yerdə qeyd edəcəyimiz kimi Allah və Rəsulu vilayətsiz imanı qəbul etməzlər."**

Xomeyni digər səhifədə yazır: **"Vilayət və onu qəbul etməyənin imanının qəbul edilməyəcəyi məsələsi müqəddəs şiə məzhəbinin zəruriyyətlərindəndir. Bu mövzu ilə bağlı xəbərlər mütəvatir səviyyəsindən də üstün dərəcədədir.Bu kitab bu xəbərlərdən bəzilərini açıqlayır."**[3]

Növbəti səhifədə isə Xomeyni bunu belə açıqlayır: **"Bu məna ilə bağlı xəbərlər çoxsaylıdır. Ümumi çıxan nəticəyə görə Əhli beytə vilayət Allah Təala qatında əməllərin qəbul edilməsi üçün şərtdir. Hətta, bu Allah və Elçisinə imanın qəbul edilməsi üçün də əsas şərtdir."**[4]

Ayətullah Əbul Qasim əl Xoyi yazır: **"Onların (müxaliflərin) küfründə heç bir şübhə yoxdur. Çünki, vilayətin və imamların birinin belə inkar edilməsi, imamlardan başqasının xilafətinə inanılması və s. bunlar küfrü və zındıq olmağı zəruri edən amillərdir. Vilayəti inkar edənin küfrü barasində ki, zahiri mütəvatir xəbərlər buna dəlalət edir."**[5]

---

[1] c.2,səh 87

[2] "əl Ərbainə hadisən", səh 510-511,Beyrut,1991-ci il

[3] səh 512

[4] səh 513

[5] "Misbahul fuqəha", 2/11,Beyrut

Bir sonrakı səhifədə Xoyi yazır: **"Bizimlə müxaliflər arasında nə qardaşlıq nə də ismət ola bilməz."**

Şeyxləri Kamil Süleyman kitabında Peyğəmbərin *(sallallahu aleyhi va səlləm)* guya belə dediyini nəql edir: **"Mənim Əhli beytimdən olan on iki nəfərə Allah mənim fəhmimi vermişdir....Onlar mənim xəlifələrim, vasilərim, övladlarım və itrətimdir. Kim onlara itaət edərsə mənə itaət etmiş, kim də onlara asi olarsa, mənə asi olmuş olar. Kim onları vəya onlardan birini inkar edərsə, məni inkar etmiş olar..."**[1]

Müasir bu şiə müəllifi bir öncəki səhifədə Peyğəmbərin *(sallallahu aleyhi va səlləm)* belə buyurduğunu nəql edir: **"Onları yəni, on iki imamı təsdiq edən mömin, inkar edən isə kafirdir."**

Yusif əl Bəhrani yazır: **"əş Şihabus saqib" kitabında tədqiq etdiyimiz kimi müxaliflərin kafir olmasını və onların İslamdan heç bir nəsibi olmamasını öyrənmiş oldun."**[2]

Məşhur alimləri şeyx Abdullah Şubbar kitabında yazır: **"İnad və təəsüb göstərməyən digər müxaliflər haqqında isə seyyid Murtəza kimi bütün imamiyyə alimləri onların dünya və axirətdə kafir olduğu fikrindədirlər. Əksəriyyətin üzərində ittifaq etdiyi ən məşhur rəyə görə onlar axirətdə əbədiyyən kafir olan kimsələrdir."**[3]

Şeyx Mufid deyir: **"Şiələr imamlardan hər hansı birini inkar edən və ya onlardan birinə itaət etməyi qəbul etməyənin kafir olacağı və cəhənnəmdə əbədi qalacağı məsələsində icma etmişlər."**[4]

Şeyx Musa Carullah Türkistani kitabında belə yazır: **"Şiə kitablarını oxuduğum zaman onların ən böyük düşməninin Əhli sünnət olduğunu görür, buna heyrət və təəsüf edirdim. Bütün şiə təbəqələrinin düşmənçilik ruhu ilə yetişməsini öz gözlərimlə gördüm."**[5]

Bu sözlər onların kitablarını oxumuş, onların arasında yaşamış şeyx Carullaha aiddir. Bu sözləri şeyxləri Muhəmməd Həsən ən Nəcəfi kitabında bu şəkildə təsdiqləyir:

"Məlumdur ki, Allah "möminlər bir-birilərinə ancaq qardaşdırlar." buyurmaqla yalnız möminlər arasında qardaşlıq qurmuşdur. Buna görə də onlara müxalifət etmənin və onlardan uzaq olmanın vacibliyinə dair

---

[1] "Yəvmul ixlas fi zillil qaimil Mehdi", səh 45,Beyrut

[2] "Həqaiq ən nadira fi əhkamu itrəti təhira", c.18,səh 53

[3] "Haqqul Yəqin",2/188,Beyrut)

[4] Mufid, "Məsail"; Məclisi "Biharul ənvar" c.23,səh 390-391

[5] "əl Vəsia fi nəqdi əqaiduş şia", səh 227,Lahor

mütəvatir xəbərlər və bu qədər ayələr olarkən,mömin ilə müxalif arasında qardaşlıq münasibətinin olmasını necə təsəvvür etmək olar?!"[1]

Şiələrin sünnilərə qarşı düşmənçilik bəsləyib, onlardan uzaq olmağın vacibliyi və bunun da mütəvatir rəvayyətlərə əsaslandığını dediklərinə diqqət edin! Nəhayət, söhbət heç onların imamətinə inanıb-inanmamaqdan getmir. Biz onlara görə yalnız Əbu Bəkr *(radiyallahu anhu)* və Öməri *(radiyallahu anhu)* sevdiyimizə görə cəhənnəmdə olacağıq.

Muhəmməd Həsən Musəvi Kəşani kitabında Cəfər Sadiqdən rəvayyət edir: **"Muhəmmədi haqqla göndərən Allaha and olsun ki, əgər Cəbrayıl və Mikayılın qəlblərində onlara (Əbu Bəkr və Ömər) bağlılıq olsa idi Allah onları oda atardı."**[2]

Məclisi imam Zeynəlabiddinin köləsinin imama belə dediyini nəql edir: **"Mənim sizdən bir şeyi soruşmaq haqqım vardır. Mənə Əbu Bəkr və Ömər haqqında danışın." İmam cavab verdi: "Bu ikisi və onları sevənlər kafirdilər."**[3]

Onlar peyğəmbərlərin imamları qəbul etmədiyini və buna görə də Allahın onları sınağa çəkdiyini deyirlər. **Əbu Həmzə Suməli rəvayyət edir ki, Abdullah ibn Ömər imam Zeynəlabdiddinin yanına gələrək dedi: "Siz iddia edirsiz ki,Yunus sizin babanızın imamətini qəbul etmədiyinə görə balığın qarnında həbs edilmişdi?!" İmam Səccad dedi: "Bəli, bu belədir." İbn Ömər dedi: "Əgər bu belədirsə bunu sübut edə bilərsiz?" İmam Səccad dedi: "Bəli. Ey Əbu Həmzə! İbn Ömərin və öz gözünü dəsmalla bağla." Bir neçə dəqiqədən sonra imam dedi: "Gözlərinizi açın." Ravi deyir: "Gözlərimizi açanda biz özümüzü sıldırımlı dəryanın kənarında gördük." İbn Ömər dedi: "Ağa! Mənim qanım sənin boynundadır. Birdən siz məni öldürmək istədiz." İmam dedi: "Sakit ol. Sən özün istədin ki, sübut edək və göstərək." Sonra imam dəryaya işarə edərək dedi: "Ey balıq!" Bu zaman dəryadan dağ boyda başı olan balıq boylandı və dedi: "Mən sənin qarşındayam ey Allahın dostu!" İmam balıqdan soruşdu: "Sən kimsən?" Balıq dedi: "Mən Yunusun balığıyam." İmam dedi: "Bu hekayəni mənə ətraflı danış." Balıq dedi: "Allah Təala Adəmdən tutmuş Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **qədər bütün peyğəmbərlərə sizin ailənizin vilayətini qəbul etməyi buyurdu. Hər kim ki, qəbul edirdi o əmin amanlıqda olurdu. Hər kim ki,qəbul etmədə az da olsa tərəddüd edirdi,çətinliyə düşürdü. Misal olaraq Adəm günaha batdı, Nuh tufanla, İbrahim odla, Yusif**

[1] "Cəvahirul kəlam", 22/62-63

[2] "Qiyamlar", səh 60,"Əndişei Hadi" nəşr; 2005 il

[3] "Biharul ənvar", 69/137-138; "Haqqul Yəqin", səh 522

quyu ilə, Əyyub qəm-qüssə ilə, Davud səhvlərlə bağlı çətinliyə düşdülər. Nəhayət Yunisin növbəsi də çatdı. Uca Allah Yunisə üz tutaraq: "Möminlərin əmiri Əlini və onun pak ailəsindən olan məsum imamları sev!" dedi." Yunus isə dedi: "Mən görmədiyim və tanımadığım adamı necə sevim?"Allah Təala mənə Yunusu udmağı amma, bununla belə ona zərər vurmamağı əmr etdi. Qırx gün o mənim qarnımda qaldı. Mən dəryalarda üzürdüm, o isə mənim qarnımda Allaha dua edərək deyirdi: "Ey Rəbbim! Sən bütün nöqsanlardan uzaqsan. Həqiqətən mən özümə zülm etdim."

Yunus sizin vilayətinizi qəbul etdikdən sonra Allah Təala onu bir sahilə atmağı mənə əmr elədi." İmam Səccad nəhayət balığa öz yerinə qayıtmağı buyurdu"[1]

Şiə əqidəsinə görə nasibi - Əhli sünnə vəl camaatdır

Şiələr Əhli sünnəti Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* Əhli beytinə düşmən olaraq görürlər. Bu səbəbə görə də Əhli beytə düşmən olan nasibi terminini onlara qarşı istifadə edirlər. Əhli Sünnət təbii ki, bu ittihamlardan tamamən uzaqdır.

Nəvasib elə bir firqədir ki, onlar Əli ibn Əbu Talibin ailəsinə nifrət edirdilər. Bu onların İslam alimləri tərəfindən vəsf olunmuş xüsusiyyətidir. Nasibilərdən kiminsə Əliyə *(radiyallahu anhu)* qarşı olan savaşlarda ya qardaşı, ya atası, ya da babası ölmüşdü. Söhbət, Müaviyyə ilə Əli arasında olan müharibədən gedirdi ki, bu döyüşlərdə hər iki tərəfdən çoxlu müsəlmanlar ölmüşdü.

Şiələrin icmasına görə nəvasiblər kafir və nəcisdir. Əbul Qasim Xoyi yazır: **"Allahı, axirəti inkar edən və ya Allahla bərabər başqa məbudu qəbul edən kafir və nəcisdir. Həmçinin, qulatlar, (on iki imamın ilah olduqlarını, Allahın onlara təcəlli etdiklərini iddia edənlər) xəvariclər və nəvasiblər də nəcisdirlər."**[2]

Mühəddis Yusif əl Bəhrani kitabında yazır: **"Xəbərlərdə və sələfin sözlərində varid olandan anlaşılır ki, nəvasib sözündən qəsd olunanlar müxaliflərdir."**[3]

---

[1] "Qiyamlar", səh 73-74; https://www.anti-majos.org/viewtopic.php?f=28&t=265

[2] http://al-islam.org/laws/al-khui/2.htm#6

[3] "əl Hədaiqun nadira", c.18,səh 157,Qum

Eyni kitabda növbəti səhifədə o yazır: **"Onların (imamların) hədislərində nəcislik, nigahlanmamaq, qanın-malın halal olması və s. sifətlərlə vəsf olunan nasibilərdən məqsəd müxaliflərdir."**

Şiələr müxaliflər dedikdə Əhli sünnət və şiə olmayan digər camaatları nəzərdə tuturlar."Siqatul İslam" ləqəbli Kuleyni "Kafi" kitabında Muhəmməd ibn Muslim sənədi ilə gələn rəvayyəti nəql edir: **"Bir dəfə Əbu Hənifə imam Əbu Abdullahın yanında olarkən, mən onun yanına girdim və ona dedim ki,sənə fəda olum,qəribə bir yuxu görmüşəm. O, mənə dedi ki, ey ibn Müslim, yuxunu danış, onun alimi burada əyləşib. Bunu deyib əli ilə Əbu Hənifəyə işarə etdi. Mən dedim: "Yuxuda gördüm ki, guya mən öz həyətimə girdiyim vaxt arvadım əlində çoxlu qoz qarşıma çıxdı və qozları mənim üstümə atdı. Mən bu yuxuya məəttəl qaldım." Əbu Hənifə dedi: "Sən öz arvadının mirası üstündə alçaq adamlarla rəqabət aparır, çalışırsan. Böyük əziyyətdən sonra, inşallah, istəyinə nail olacaqsan." Əbu Abdullah dedi: "Ey Əbu Hənifə! Allaha and olsun ki, doğru dedin!"**

Sonra Əbu Hənifə çıxıb getdi və mən ona dedim: "Sənə fəda olum, <u>mən bu nasibinin ifadəsindən iyrəndim</u>." O dedi: "Ey ibn Müslim! Allah sənə pislik eləməsin, onların ifadələri bizim ifadələrimizlə, bizimki onlarla bir deyil. Bu ifadə onun dediyi mənanı vermir." Mən dedim: "Sənə fəda olum, bəs o, səhv etdiyi halda sənin and içib ona "doğru dedin" deməyini necə başa düşək?" O dedi: "Bəli, mən and içdim ki, o yalanı doğru dedi."[1]

Onların məşhur alimi şeyx Mufid adı ilə məşhur olan Muhəmməd ibn Numan "İddətu rəsail fəslul məsailis səqaniyyə"kitabında[2] <u>Əbu Hənifəni nasibi</u> adlandırmışdır.

Digər şiə şeyxi Nemətullah əl-Cəzairi yazır: **"Bu mənanı dəstəkləyən daha bir fakt isə budur ki, imamlar və sələfimiz nasibi sözünü Əbu Hənifə və onun bənzərləri üçün istifadə etmişlər. Halbuki, Əbu Hənifə Əhli beytə qarşı düşmənçilik edən biri deyildi. Əksinə, onlara qarşı meyl edirdi və onlara qarşı sevgi göstərərdi. Lakin, onların fikirlərinə müxalifət edərdi və deyərdi: "Əli dedi və mən deyirəm."**[3]

Əbu Hənifə fəzilətdə ilk üç xəlifəni Əlidən *(radiyallahu anhu)* daha əfzəl hesab edirdi. Məhz, buna görə onlar Əbu Hənifəni nasibi hesab edirlər. Təkcə bu kifayət edir ki, onlar imamı küfrdə ittiham edib, İslamdan kənar

[1] "Kafi", "Kitab ər-rovzə", c.8,səh 292, Tehran

[2] səh 253,263,265,268 və 270

[3] "Ənvarun Numaniyyə",c. 2/206-207,bəzi yerlərdə səh 307,Təbriz

hesab etsinlər. Yenə, məhz buna görə şiələr bütün sünniləri nasibi hesab edirlər.

Cəzari həmin səhifədə yazır: **"...Buna eləcədə əs-Saduqun "əl-İləl əş-Şərai" əsərində imam Sadiqdən mötəbər bir sənəd ilə gətirdiyi rəvayyət də dəlalət edir: "Nasibi bizə, yəni Əhli beytə düşmənlik edən deyildir. Çünki, sən heç bir kəsin "Mən Muhammədə və onun ailəsinə nifrət edirəm" dediyini görməzsən. Lakin, nasibi sizə düşmənçilik edəndir. Çünki, o bilir ki, siz bizimlə dostluq edirsiniz və bizim şiələrimizsiz. Bu mənaya dəlalət edən rəvayyətlər çoxdur. Eləcədə Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **rəvayyət olunmuşdur: "Nasibilərin əlamətlərindən biri də Əlidən başqasını ona üstün tutmaqdır."**

Hüseyn əl-Əsfur əd-Dərazi əl-Bəhrani yazır: **"Başa düşdüyün kimi Nasibi termini imam Əlidən qeyrisini ondan üstün görənlərdən başqası üçün istifadə olunmur."**[1]

Həmçinin, Hüseyn əl-Əsfur əd-Dərazi əl-Bəhrani davam edərək, yazır: **"İmamlardan gələn xəbərlərdən anlaşılır ki, nasibilər öz aralarında özlərini sünni adlandıranlardır."**[2]

Bu baradə ətraflı izah verən Bəhrani davam edərək yazır: **"....Allahın Kitabında şirk sözünün zikr olunduğu elə bir ayə yoxdur ki, onunla nasibilər qəsd olunmasın. Bizim əvvəldə söylədiyimiz kimi gələn rəvayyətlərin dəlalət etdiyi mənaya gəldikdə isə, nasibi imam Əlidən başqasını üstün tutandır. İbn İdrisin "Mustətrafat əs-Sərair" kitabında "Məsəil ər-Ricəl" kitabında Muhammməd bin Musaya qədər çatan isnad ilə rəvayyət etdiyinə görə: "Ona yəni, Əli bin Muhammədə yazaraq nasibi barədə soruşdum: "Cibt və Tağutu (Əbu Bəkr və Öməri) üstün tutan və bu ikisinin imam olduğuna etiqad edən birinin nasibi olduğuna hökm vermək üçün bu etiqadından da çoxunu yoxlamağa ehtiyyac varmı?" Ondan belə cavab aldım ki, "kim artıq bu etiqaddadırsa, o nasibidir."ər-Ravəndinin "Nəhcul-Bələğa" şərhində qeyd olunduğuna görə Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **soruşuldu ki, ondan sonra nasibilər kimlərdir? Dedi: "Başqasını imam Əliyə üstün tutan"**

Sözünün davamında deyir: **"Lakin, nasibinin Əhli beytə düşmən olan biri kimi izah olunmasına gəldikdə isə necəki son dövr alimlərimizin çoxu bu rəydədir, bunu isbat edən heç bir dəlil yoxdur. Əksinə, bu görüşü ləğv edən rəvayyətlər vardır."İqab əl-Aməl val-İləl vas-Sifət əş-Şiə" kitabında isə Abdullah bin Sənan və əl-Məalə bin**

[1] "əl-Məhasin ən-Nəfsaniyyə", səh 157,Beyrut

[2] "əl-Məhasin", səh 147

Xuneysə qədər çatan sənəd ilə Əbu Adbullahdan gələn rəvayyətdə o, demişdir: "Nasibi sadəcə bizə yəni, Əhli beytə düşmənlik edən deyildir. Çünki, elə bir nəfər də yoxdur ki, "Mən Muhammədə və Muhammədin ailəsinə nifrət edirəm" desin. Əslində nasibi sizə düşmənlik edəndir. Çünki, o bilir ki, siz bizə inanırsız və bizim şiələrimizsiz." Onun dayanılan bu görüşü rədd etməsi açıq-aşkardır.... Lakin, imamlardan gələn xəbərlər bildirir ki, nasibi əslində onlara görə "sünni" olandır."[1]

Hüseyn ibn Şihabuddin əl Kərki əl Amili deyir: **"Kafirləri peyğəmbərlik risalətini inkar etməyə sövq edən şübhə, nasibiləri də imamların vilayətini inkar etməyə sövq etdi..."**[2]

Şi alimi Muhəmməd əl Hakim yazır: **"Aydındır ki, "avam" və "müxaliflər" deyildikdə iki şeyxin (Əbu Bəkr və Ömər) xəlifəliyini qəbul edənardıcılları nəzərdə tutulur."**[3]

Şeyx Əli Muhsin kitabında yazır: **"Əhli sünnə alimlərindən olan nasibilərə gəlincə onlar çoxdurlar. Misal olaraq, ibn Teymiyyə, ibn Kəsir, ibn Cəvziyyə, Zəhəbi, ibn Həzm və s."**[4]

Şiə alimi Muhsin əl Muallim "Nəsb və Nəvasib" kitabında[5] **"Qullar arasında nasibilər"** başlığı altında özlərinə görə nasibi olan 200 nəfərdən artıq adamın adını sadalayır. Nasibilərdən bəzisini o qeyd edir: **"Ömər, Əbu Bəkr, Osman, Aişə, Ənəs, Həsən ibn Sabit, Zubeyr ibn Əvvam, Səid ibn Musəyyib, Sad ibn Vəqqas, Təlha ibn Ubeydullah, Auzai, Malik, Əbu Musa əl Əşari, Urva ibn Zubeyr, Zəhəbi, Buxari, Zuhri, Muğira ibn Şubə, Həmid əl Fiki, Muhəmməd Rəşid Rza, Muhibuddin əl Xətib, Alusi və s."**[6]

Müasir Küveytli şiə xətibi Yasir Həbib xütbəsi zamanı aşkarca demişdi ki, "sünnilər kafir və nasibidirlər."

Həmçinin: **"Əbu Bəkr, Ömər şiələr üçün yəhudi və İblisdən daha böyük düşməndirlər. O, deyir: "Bir nömrəli düşmən Əbu Bəkr, ikinci Ömər, üçüncü isə İblisdir."**[7]

Deməli, sünnilər bütünlüklə onlara görə nasibidir. Ayətullah Muhəmməd Hüseyn Şirazi böyük fiqh məcmuasında yazır:

---

[1] "əl-Məhasin ən-Nəfsaniyyə", səh 145-147
[2] "Hidayətul əbrar", səh 106
[3] "Muhkəm fi usulul fiqh",6/194
[4] "Kəşful Həqaiq", səh 249,Beyrut
[5] 5-ci bab,3-cü fəsildə
[6] "Nəsb və Nəvasib", səh 259,Beyrut
[7] http://youtube.com/watch?v=sNhhRdNNmlM

"Üçüncü: Əbu Abdullahın ibn Sinandan varid olduğu kimi nasibinin avam kimi təfsir edilməsi..."[1]

Hər hansı bir nəfər şiələrin avam dedikdə sünniləri nəzərdə tutduğunu haradan bilirsən soruşsa, ona deyərik: Biz bu firqəni kitablarından və alimlərinin sözlərindən tanıyırıq.

Ayətullah Muhsin əl Əmin "Əyanuş şia" adlı tanınmış əsərində yazır: **"Əshabımız Əhli sünnə vəl camaat deyə adlandırılanlar üçün avam, özləri üçün isə həvas kəlməsini istifadə etmişdir."**[2]

Şiələrin alimi şeyx Hüseyn ibn Şihabuddin əl Kərki əl Amili belə yazır: **"Birinciyə avamdan olan Muzəni, Qəzali, Seyrəfi kimi kimsələr, həvasdan isə iki rəydən birinə görə alim olanlar qail olmuşlar."**[3]

Şeyx Fəthullah Nəmazi əş Şirazi isə belə yazır: **"Avam təriqi ilə gələn hədisi Buxari, Muslim....kimi bir çox mühəddislər rəvayyət etmişlər."**[4]

Deməli avam - Əhli sünnətdir və nasibi kəlməsi də sünnilər haqqında istifadə edilməkdədir. Muhəmməd Ticani Səmavi "Şiə hum Əhli Sünnə" kitabında bir neçə yerdə açıq şəkildə sünniləri nasibi adlandırır.

Səhifə 79-da yazır: **"...Heç bir şübhə yeri olmayan dəlillərə əsasən onlara görə sünnə (Əhli hədis vəya Əhli sünnə) Əliyə düşmən olmaq, ona lənət etmək və ondan uzaq olmaqdır. Bu elə Nasibilikdir."**

Ey Allahın qulları! Əhli sünnət Əliyə *(radiyallahu anhu)* lənət oxuyur, ondan təbərri edirmi?! Allaha and olsun ki, bu böyük bir iftiradır.

Səhifə 161-də yazır: **"İzah etməyə gərək yoxdur ki, nasibilərin məzhəbi Əhli sünnə vəl cəmaatdır."**

Səhifə 163-də yazır: **"Nasibilər Əli ibn Əbu Talib ilə düşmən olanlar və Əhli beytə qarşı vuruşanlardır. Bunlar özlərini Əhli sünnə adlandıranlardır."**

Səhifə 295-də yazır: **"Araşdırmanı biraz da dərindən aparsaq məlum olacaq ki, Əhli sünnə Əməvi və Abbasilərin başçılığı ilə Əhli beytə qarşı müharibə etmişlər."**

Səhifə 159-da belə bir fəsil ayırır: **"Əhli sünnətin Əhli beytə olan düşmənçiliyi o özünü ifşa etmişdir."**

Burada o yazır: **"Tədqiqatçı Əhli sünnənin həqiqətləri ilə rastlaşarkən, başa düşür ki, bunlar Əhli beyt ilə vuruşanlar, onları məhv etmək istəyən düşmənlərdir."**

---

[1] 33/38,Beyrut

[2] 1/21,Beyrut,1986 il

[3] "Hidayətul əbrar", səh 264

[4] "Qaidətu lə dərara və lə dırar", səh 21,Beyrut

Bununla kifayətlənməyən Ticani səhifə 164-də yazır: **"Bu fəsilə yaxşı diqqət elə! Beləki, Əhli sünnətin gizli tərəflərini, onların Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **itrətinə qarşı necə gizli kin bəslədiyinin və onların fəzilətlərini alçaltmaq üçün necə təhriflərə getdiyinin şahidi olacaqsan."**

Çox qəribədir ki, bu adam bütün kitabı boyu yalnız Əhli sünnə hədis kitablardan Əhli beytin fəziləti baradə olan hədisləri nəql edir.

Səhifə 249-da yazır: **"Lakin, Əhli sünnə vəl camaat Əli ibn Əbu Talibə və Əhli beytə qarşı duyduğu şiddətli düşmənçiliyə görə hər məsələdə onlara müxalif olmuşlar. Belə ki, özlərinə görə nəbəvi sünnət olan hər məsələdə Əli və şiəsinə müxalif olmaq onlarda adət halına gəlmişdir."**

Əhli sünnə alimləri və avamı hər məsələdə Əliyə *(radiyallahu anhu)* müxalif olmağı özlərinə şüar etmişlər?!! Bütün bunlardan sonra şiəliyin müsəlmanlar qarşısında heç bir məsuliyyət daşımayıb, əmanət duyğusu hiss etmədiyinin şahidi oldunuzmu?

Səhifə 299-da bunları yazır*:* **"Əhli sünnə əqidəsi, kitabları və Əhli beytə qarşı tarix boyu göstərdikləri münasibətlə qısa şəkildə tanış olduqdan sonra heç bir tərəddüdsüz və aydın şəkildə məlum olacaq ki, onlar Əhli beytə zidd və düşmən olmuş, onları öldürmək üçün qılınclarını sıyırmış, dəyərlərini azaltmaq, haqqlarında nalayiq sözlər demək və düşmənlərini ucaltmaq üçün qələmlərini işə salmışlar."**

Səhifə 300-də isə bunları yazır: **"Onları-yəni, Əhli sünnəti imam Hüseynin qatilləri qarşısında razılıq göstərən, onları sevən və dəstəkləyən kimi görürük. Bu onlara görə adi bir şeydir. Çünki, imam Hüseynin qatillərinin hamısı Əhli sünnə və camaatdandırlar….!"**

Ticaninin "Hüseynin qatillərinin hamısı Əhli sünnətdəndir" və daha öncə sərf etdikləri sözlərə izah verməyə ehtiyyac duyulmayacaq qədər aydındır. Hüseynin qətlinin səbəbi yalnız şiələrdir. Allaha həmd olsun ki, Əhli sünnə onun qanının tökülməsi məsələsində günahsızdır.

Ən böyük müctəhidlərindən olan Ayətullah Muhsin əl Əmini imam Baqirdən belə rəvayyət edir: **"İmam Həsənə beyət edildi və əhd alındı. Sonra bu əhdə xəyanət edildi və İraqlılar onun üzərinə gəldilər. Yan tərəfindən xəncər yarası ilə yaralandı. Əsgərləri onu alıb, Müaviyyəyə təslim etdilər. Beləliklə, onun və Əhli beytinin qanı tökülmüş oldu…..Sonra İraqlılardan 20 000 nəfər imam Hüseynə beyət etdilər. Sonra xəyanət etdilər və beyət etdikləri halda ona qarşı çıxdılar və öldürdülər."**[1]

[1] "Əyanuş şia", səh 26

"Fatimə Suğra (imam Hüseynin nəvəsi) Kufə əhlinə müraciətdə dedi: **"Ey xainlər, fitnəkarlar və özünə arxayın adamlar! Allah Təala bizi (Əhli beyti) sizlə, sizi də bizimlə imtahan etdi. Siz bizi küfr və yalanda ittiaham etdiz. Bizə qarşı savaşmağı caiz görüb, əmlakımızı qarət etdiz. Siz bizim babamızı onda öldürdüz. Sizin qılınclardan Əhli beytin qanı hələ axmaqdadır. Sizə lənət olsun. Əzabı özünüzə gəlmiş kimi gözləyin.....Ey Kufə xalqı! Allahın sizə lənəti olsun!Sizin qarşınızda mən nə qədər Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **moizələr oxudum. Sonra siz onun qardaşı Əli ibn Əbu Talibə, mənim babama, onun oğullarına və ailəsinə xainlik etdiz."**[1]

İmam Zeynəlabiddin deyir: **"Ey millət! Mən Allaha and verirəm. Siz bilirsinizmi ki, siz mənim atama yazdınız və sonra ona xəyanət etdiniz və siz özünüz ona vəd, öhdəlik verib,beyət etmişdiz. Öz elədiklərinizə görə sizə lənət olsun .....hansı gözlə Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **baxacaqsınız nə vaxt ki, sizə deyəcək: "Siz mənim ailəmi öldürdüz,mənim qadağalarımı aşdız və siz mənim ümmətimdən deyilsiniz."**[2]

Ticaninin sələflərinin mövqeyi təkcə imam Həsən və Hüseynə qarşı deyil, Əliyə *(radiyallahu anhu)* qarşı da belə idi. Beləki,"Nəhcul bəlağa"da o deyir: **"Allaha and olsun ki, Müaviyyə sizi onlarla dinarı dirhəmlə xırdalayan kimi dəyişməyə razı olsaydı, sizin onunuzu verib onlardan birini alardım. Ey Kufə əhli! Mən sizdə bir üç şey görmüşəm, bir də iki şey: qulaqlarınız var karsınız, diliniz var lalsınız, gözləriniz var korsunuz; üz-üzə gələndə doğru danışmazsınız, dara düşəndə bir-birinizə qardaş köməyi göstərməzsiniz. Sizi görüm başınız batsın! Ey çobanları itmiş dəvə sürüsünə bənzəyənlər! Bir tərəfdən bir yerə toplayanda o biri tərəfdən dağılışırsınız. Allaha and olsun ki, mən indi sizinlə birlikdəyəm, ancaq təsəvvür edirəm ki, vuruş başlasa, döyüş qızışsa, siz Əli ibn Əbu Talibdən aralanıb qabaqdan qıçlarını aralamış qadının qıçları kimi hərəniz bir yana gedərsiniz."**[3]

---

[1] "Əbu Mənsur ət Təbərsi, "İhticac",c.2,səh 27,Nəcəf

[2] Təbərsi, "Kitab əl İhticac", c.2,səh 32,Nəcəf

[3] "Nəhcul bəlağə",xütbə 97, səh 141-142

Əhli Sünnətin qanlarının mübah olması

Şiəlik sünnilərin qanlarını mübah görür. Çünki, onlar kafir hökmündədir və şiələrə görə nasibidirlər. Aşağıda şiələrin çirkin və rəzilliklərini isbat edən sitatlar nəql olunacaqdır.

Şeyx Səduq kitabında imam Əbu Abdullahdan rəvayyət edir: **"Ravi soruşdu: "Nasibilər haqqında nə deyirsiz? İmam dedi: "Onun qanı mübahdır. Lakin, mən sənə görə qorxuram. Əgər şahid olmasa, onlardan birinin üzərinə divarı aşıra bilsən və ya dəryada boğa bilsən bunu et. Bəs onun malı necə? İmam cavab verdi: "Götürə bildiyin hər şeyi al."**[1]

Nemətullah Cəzairi yazır: **"Onların (nasibilərin) öldürülməsi və mallarının mübah hesab edilməsi caizdir."**[2]

Göründüyü kimi burada əsas diqqət şəri cəzadan qaçmağa yönəlib. Buna görə də şiə bir nəfər hər hansı bir sünnini cəzalandırılmaq qorxusu olmasa zəhərləyərək, yandıraraq, hər hansı bir sui-qəsd edərək öldürə bilər. Bu şiələrin canlarının və mallarının qorunması üçün təqiyyə olduğu halda belədir. Təqiyyə ortadan qaldırıldıqda isə Əhli sünnətə qarşı qətliam olacaqdır. Tarixi baxımdan məlumdur ki, Abbasi dövləti sünni idi. Əhli sünnətin hüsni zənni səbəbi ilə xəlifənin şiə bir vəziri vardı. Bağdad necə süquta uğradı? Monqollar bu xilafət paytaxtını necə işğal etdilər? Nə qədər müsəlman orada öldü? Bu hadisələrdə Tusi və şiə vəzir olan ibn Əlqamənin rolu nə idi?

Aydın Əlizadə bu hadisələri rus dilində nəşr olunan "Təhlillər" kitabında belə təsvir edir: **"Bağdadın süqutu əsas etibarı ilə sünni və şiə ixtilaflarının artması ilə əlaqədar idi. Hicri 655-ci ildə Bağdadda sünnilərlə şiələr arasında toqquşmalar oldu. Bundan sonra şiə vəzir ibn əl Əlqami gizli şəkildə Bağdada yaxınlaşmış Hülaqu xanla əlaqə yaratdı. O, xanla görüşdü və qayıdanda xəlifə əl Mustəsimə dedi ki, Hülaqu xan xəlifəyə toxunmaq istəmir və bir zamanlar Bağdadı idarə edən Səlcuq sultanları kimi davranmaq niyyətindədir. Buna inanan xəlifə Hülaqu xanın yanına öz yaxınlarını və elçilərini göndərdi. Monqollar elçiləri öldürdülər, sonra isə şəhəri mühasirəyə aldılar. Döyüş bir ay davam etdi. Nəhayət, xəlifə əl Mustəsim təslim olmaq qərarına gəldi. O,monqollara Şərəfuddin əl Cəuzini göndərdi ki, şəhəri təhvil verməyin qaydalarını müzakirə etsinlər. Səfər ayının dördü 656-cı ildə xəlifə, onun oğulları Əhməd, Əbdurrahmən və Mübarək, saray alimləri, sərkərdələr və digər vəzifəli şəxslər şəhəri tərk edərək Hülaqu**

[1] "İlətuş şərai", səh 601; Hurr Amili, "Vəsailuş şia",c.18,səh 453; "əl-Məhasin",səh 166

[2] "Ənvarun Numaniyyə", c. 2,səh 307

xanla görüşə getdilər. Xanın çadırının yanında xəlifəni digər heyətdən ayırdılar və məcbur etdilər ki, əmr olunsun ki, bütün şəhər əhli tərki silah olunsun. Elə ki, şəhər əhli tərki-silah olundu, monqollar şəhərə daxil oldular və boyun olduqları bütün öhdəlikləri pozdular. Şəhərdə misli görünməmiş zülm, qarət, soyğun və kütləvi qətllər başladı. Şəhərin demək olar ki, bütün əhalisi qılıncdan keçirildi. Bağdad tamamilə talan edildi, şəhər kitabxanası yandırıldı, minlərlə kitablar yandırıldı. Səfər ayının 14-ü, 656-cı ildə xəlifə öldürüldü. Qırx gündən sonra monqollar sağ qalmış şəhər əhalisinin canlarına toxunmayacaqlarına söz verdilər. Amma, artıq şəhərdə qorxunc epidemiya yayılmışdı ki, bu daha minlərlə insanın ölümünə səbəb oldu. Bu hadisələrdən sonra Hülaqu xan Əli Bahaduru şəhər valisi olaraq təyin etdi və öz dövlətinin paytaxtına getdi. Vəzir ibn əl Əlqami isə Bağdadda qaldı."

Tədqiqatçı şiə əllamə sayılan Mirzə Muhəmməd Baqir əl Musəvi əl Huvənsari əl İsfəhani kitabında Tusinin bioqrafiyyasından danışır və yazır: **"Kəlamçı, hakim, elm dəryası və uca bir şəxsiyyətdir. Bilinən və məlum hadisələrdən biri də Tatar və Monqolların əzəmətli sultanı olan Hülaqu xana İranda vəzir olma istəyi ilə insanları irşad, islah etmək, zülm və haqqsızlığın qarşısını alaraq Abbasilərin zülmünə son verərək, o azğın tağutların üzərində qətliam etmək idi. Onların mənfur qanlarını öncə Dəcləyə, oradan da fəcir insanların yurdu olan Cəhənnəmə çay kimi axıtmaq məqsədi ilə hazırlıqlar görən sultanın qafiləsində əminamanlıq yurdu olan Bağdada gəlməsi məlum bir hadisədir."**[1]

"Hukumətul İslamiyyə" kitabında Xomeyni ibn Yəqtinin və Tusinin misalını fəqihin xidmətə qəbul olmasına nümunə olaraq qeyd edir və yazır: **"Təqiyyə şərtləri bizdən birinin sultanın xidmətinə girməsinə münasibdirsə, bundan çəkinməmək lazımdır. Fəqihin idarə etmədə işinə bəraət ibn Yəqtinin misalına bənzər yalnız çox ciddi səbəb olmalıdır. Hansının ki, xidmətə hazır olmasındakı səbəbləri yaxşı məlum idi. Həmçinin, Nəsrəddin Tusinin əməlləri ki, İslam və müsəlmanların qələbəsi kimi hamıya məlum olan çox yaxşı nəticələrə gətirib çıxartmışdı."** [2]

Əli ibn Yəqtinin hadisəsini isə Nemətullah əl Cəzairi kitabında belə vəsf edir: **"Xəbərlərdə varid olduğuna görə Əli ibn Yəqtin xəlifə Harun ər Rəşidin vəziri idi. O, bir dəfə müxaliflərdən (sünnilərdən) ibarət olan dəstənin həbs olunmasına qərar verdu. İbn Yəqtin möhtərəm şiələrdən**

[1] "Rəvdətul Cənnət fi əhvalil uləma vəs sədat", c.1,səh 300-301,Qum

[2] səh 142

idi. O, nökərlərinə əmr etdi ki, binanın damını həbs olunanların başına uçursunlar. Zindanda olanlar hamısı öldülər və onlar 500 nəfərə yaxın idilər. Vəzir ibn Yəqtin bu qanın məsuliyyətindən xilas olmaq istədi və imam Kazıma məktub yazdı. Cavabında imam yazdı: "Əgər sən onları öldürməmişdən qabaq mənim yanıma gəlsəydin, onların qanlarına görə sənə heç nə düşməzdi. Bunu etmədiyinə görə isə kəffarə olaraq onların hər birinin əvəzinə bir illik keçini qurban kəsməlisən. Həqiqətən, keçi onlardan daha xeyirlidir."

Davamında müəllif Cəzairi yazır: **"Bu kəffarənin necə az olduğuna fikir ver! Bu köpəyin kəffarəsi olan 20 dirhəmə və onların qardaşı yəhudi və məcusinin kəffarəsi olan 800 dirhəmə belə dəymir. Axirətdəki halları isə daha bərbaddır."**[1]

Bu rəvayyəti Muhsin əl Muallim "Nəsb və Nəvasib"adlı kitabında[2], nasibi olan sünnilərin öldürülməsinə dəlil olaraq gətirmişdir. Həmçinin, əllamə Məclisi də "Biharul Ənvar" kitabında şiə olmayanların əslinin köpəklər, meymunlar və donuzlar olmasını nəql etmişdir.[3]

Muhəmməd Yusif ən Nəcrami kitabında yazır: **"Xomeyni hökümətinin Əhli sünnə camaatına qarşı göstərdikləri kəskin münasibət və icraatları onlara görə adi bir şeydir. Çünki, tarix boyu bu ümmətin başına gələn əksər faciələrin kökündə şiəliyin dayandığının şahidi olmaq olar."**[4]

Şiəlik Əhli sünnətə qarşı kin, düşmənçilik və nifrət bəslədiyi halda təqiyyə ilə onlara qarşı saxta gülərüzlülük münasibəti göstərir. Bu hal isə öz növbəsində sünnilərin şiəliyin həqiqi mövqeyini qavramaqlarına mane olur. Bu baradə Əbdulmunim ən Nəmr belə yazır: **"Lakin, biz ərəb sünnilər oyanmadıq. Güman etdik ki, uzun illər keçdikdən sonra İslamın təsiri ilə bu ortadan qalxacaqdır. Heç birimizin ağlına bu gəlmədi. İranlıların sevincinə biz də şərik olduq. Xomeyninin bu tarixi problemlərlərdən vaz keçəcəyinə, İslam ümmətinin müsəlman lideri olaraq, ümmətin dirçəlməsində öncüllük edəcəyinə inandıq. Bunlar İslam və müsəlmanların mənfəətinə cavab verirdi. İranlı ilə ərəbin, sünni ilə şiənin heç bir fərqi yox idi. Amma, daha sonra baş verən hadisələr bizim xəyallara və utopiyalar dənizinə qərq olduğumuzu**

[1] "Ənvəru ən Numaniyyə", c.2,səh 308,Təbriz

[2] səh 622, "Darul Hadi" Beyrut"

[3] http://frqan.com/docs.php?docid=84

[4] "əş Şia fil mizan", səh 7

göstərdi. Beləki, gənclər və insanlarımızdan bir çoxu baş verən pis hadisələr qarşısında hələ də oyanmayıblar."[1]

Bunu xüsusiilə qeyd etmək lazımdır ki, şiəliyin Əhli sünnətin dindarlarına qarşı düşmənçiliyi böyükdür. Onların həqiqətini və təqiyyələrini bilənlərə qarşı düşmənçilyi isə daha da şiddətlidir. Şiələrin hakim mövqeyə gəldiyi zaman müxaliflərə nələr edə biləcəklərini bilmək istəyirsən? Bu sualın cavabını alimləri Cəfər Muhəmməd ibn Həsən ət Tusi məşhur fiqh kitabında verir:

"Hər hansı bir həddi və ya hökmü tətbiq etmək üzrə zalim bir idarəçi tərəfindən vəzifəyə gətirilən kimsə bu işə haqq sultan tərəfindən gətirildiyinə inansın və hökmləri tətbiq etsin. Özünə müxalif birinə qarşı həddi cəzası tətbiq etmə imkanı varsa, bunu etsin. Çünki, bu ən böyük cihaddır."[2]

Şiələrin yuxarıda göstərilən sitatlardan bəlli olduğu kimi sünnilərə qarşı mövqeyi belədir. Bu mövqe şiə dövləti olmadığı zaman yəni, təsadüf nəticəsində hakim mövqeyə sahib olduqları zaman onların bizə qarşı olan münasibətdir. Şiə dövlətində isə bu mövqenin necə olduğunu siz düşünün! Onların şərrindən Allaha sığınırıq!

Əhli Sünnətin mallarının mübah olması

Bu məsələdə nəql etdiklərimiz sitatlara əlavə olaraq, Əbu Abdullahdan rəvayyət edilən bu hədisi də qeyd etmək mümkündür: **"Tapdığın yerdə nasibinin malını al və onun xümsünü bizə ödə."**

Bu rəvayyəti şiənin böyük alimləri Əbu Cəfər ət Tusi "Təhzibul əhkam"[3]da, Feyz əl Kəşani "əl Vafi"[4]də və bir çox alimləri də kitablarında nəql etmişlər. Bu rəvayyəti Muhsin əl Muallim "ən Nasb vən Nəvasib" adlı kitabında "Nasibilərin (Əhli sünnətin) mallarının alınmasının caiz olduğu" məsələsində dəlil olaraq gətirmişdir.[5]

Bu rəvayyətin təsiri ilə şiələrin ən böyük müctəhidlərindən olan Ruhullah Xomeyni kitabında belə fətva verir: **"Ən mötəbər rəyə görə özlərindən alınan qənimət və bu qənimətdən alınacaq xümsə görə nasibilərin hərb əhli hökmündə olmasıdır. Hətta, zahir olan budur ki,**

---

[1] "əl Muamərə...ilәl Humeyni",səh 118,Qahirə

[2] "ən Nihayə fi mucərrədul fəqih vəl fətava", səh 302; "Darul kitab", nəş.Beyrut hic.1400

[3] 4/122

[4] 6/43

[5] "ən Nasb vən Nəvasib", səh 615, "Darul Hadi"Beyrut

harada və necə olurlarsa olsunlar mallarının alınması caiz, xümslərinin ödənilməsi isə vacibdir.”[1]

Hiylə, oğurluq, aldatma, düşmənçilik və digər haram olan əməlləri Xomeyni “harada və necə olurlarsa olsunlar” sözləri ilə Əhli sünnətə qarşı caiz hesab edir. O zaman bəzi zavallı, sadalövh sünnilər Xomeynini təbrik etmək üçün İrana getmişdilər. Digər qismi isə o öləndə təziyyə üçün ora getmişdilər. Bu adamlar təəsüf ki, Xomeyninin nə yazdığını oxuyur, nədə nasibi və nasibilər kimi ifadələri ilə kimləri qəsd etdiyini bilmir, onun Tusinin əməllərini İslam və müsəlmanların zəfəri kimi dəyərləndirdiyindən və onu ucaltığından xəbərsizdirlər. Bunlar bu zavallıların bilmədikləri çox az şeylərdən bəzilərdir. Sanki, cahilliyə doğru yarış içərsindədirlər. Bunlardan Allaha sığınırıq! Bəli. Bunlar zavallı adamlardır. Şiəliyə görə nasibi olan sünninin qanı və malı onlara görə icma ilə mübahdır.

Şiə fəqihi və mühəddisi şeyx Yusif əl Bəhrani məşhur kitabında yazır: **“Nasibi haqqında müsəlman sözünün istifadə edilməsi, müsəlman olduqlarına görə mallarının alınmasının caiz olmaması fikri, haqq tayfanın icma etdiyi “Nasibinin kafir və nəcis olduğu, mallarının alınmasının caiz hətta, öldürülə biləcəkləri” hökmünə müxalifdir.”**[2]

Nemətullah Cəzairi yazır: **“Onların (nasibilərin) öldürülməsi və mallarının mübah hesab edilməsi caizdir.”**[3]

Mühəddis Yusif əl Bəhrani kitabında bunları qeyd edir: **“Əbu Saleh, ibn İdris və Səllar bu fikirdə olmuşlar. Zahir olan haqq da budur. Çox saylı xəbərlərə görə müxaliflərin kafir və nasibi olmaları, şirkə düşmələri, mallarının və qanlarının halal olduğu məsələsi sərih olaraq başa düşülməkdədir. Beləki, bir başqa kitabda biz bu məsələni heç bir şübhə yeri olmadan açıqlamışıq.”**[4]

Şiəliyə görə Əhli sünnət nəcisdir

Şiənin təqlid mərci`i olan Ayətullah Muhsin əl Hakim belə yazır: **“əl Muqənnətul vəch”də olanları nəql etdikdən sonra “Təhzib”də ifadə edildiyinə görə əhli haqqa müxalif olan kimsə kafirdir. Dəlil çatmayan kimsələr istisna olmaqla yerdə qalanlar haqqında küffar hökmünün**

---

[1] “Təhrirul vəsilə”, c.1,səh 352

[2] “əl Hədaiqun nadira”, 12/323-324

[3] "əl-Ənvar ən-Numəniyyə",c. 2,səh 307

[4] “əl Hədaiqun nadira”,10/360

tətbiqi labüddür….Bu necə olmasın ki, Hillidən bəzən nəcis, kafir olduqlarına dair icma və hətta mütəvatir nasslar varid olmuşdur….Dördüncüsü, nasibinin nəcis olduğuna dair qeyd etdiymiz icma….”[1]

Müasir alimlərindən Əbul Qasim Musəvi əl Xoyi “Minhəcus salihin” kitabında yazır: **“…Mürtəd ilə, hərb əhli, qulat və nasibi kafir arasında heç bir fərq yoxdur.”**[2]

Köhnə təqlid mərci`i olan Muhəmməd Kazım ət Təbatəbai “Urvətul vusqa” adlı kitabında yazır: **“Qulat, xarici və nasibilərin nəcis olduğu məsələsində heç bir ixtilaf yoxdur.”**[3]

Əllamə Hilli “Nihayətul əhkam fi mərifətul əhkam”adlı kitabında yazır: **“Xaricilər, qulat və nasibilər Əhli beytə düşmən olanlardır ki, bunlar nəcisdirlər.”**[4]

Ruhullah Xomeyni “Təhrirul vəsilə” kitabında yazır: **“Nasibilər və xaricilər, “Allah onlara lənət etsin” isə heç bir ixtilafsız nəcisdirlər.”**[5]

Həmin səhifədə Xomeyni yazır: **“Biz onların qətiyyətlə kafir olduqlarını demişdik. Hətta, bəzi vəziyyətlərdə onların öldürülməsi vacibdir.”**

Bir sonrakı səhifədə Xomeyni yazır: **“Ancaq şiə firqələrindən olan İsnaəşarilər imam olduqlarına inanmadıqları digər imamlara düşmən olub, onları söymədiyi müddətcə təmizdirlər. Əgər belə bir şey etsələr, onlar da digər nasibilər kimidirlər.”**[6]

İsnaəşarilərin (imamilər) şiə firqələrindən olduğuna görə necə də təmiz qəbul edildiyinə diqqət edin! Halbuki, Əhli sünnəti heç zikr etmir. Çünki, onlara görə sünnilər onsuz da nəcisdirlər. Şeyx Səduq əl Qummi “Aməli” kitabında imam Sadiqdən hədis rəvayyət edir:

“Heç şübhəsiz ki, mömin nasibi olmaması xaricində ixlaslı olanlara şəfaət edəcəkdir. Nasibi olana bütün peyğəmbərlər, mələklər belə şəfaət etsələr də şəfaətləri qəbul edilməz.”[7]

Əllamə Məclisi bu rəvayyəti “Biharul Ənvar”[8]da zikr etmişdir. Həmçinin, şeyx Səduq bu kitabının eyni səhifəsində Əbu Abdullahdan

---

[1] “Mustəmsiqul urvətul vusqa”, 1/392-393,Nəcəf
[2] “Minhəcus salihin”, 1/116; Nəcəf
[3] “Urvətul vusqa”, 1/68,Tehran
[4] 1/274; Beyrut
[5] Təhrirul vəsilə”, 1/118; Beyrut
[6] səh 119
[7] “Aməli”, səh 252,Beyrut
[8] 8/41

belə nəql edir: **"Nuh** *(əleyhissəlam)* **gəmiyə iti və donuzu mindirmiş, vələduz-zina və bundan daha şərli olan nasibini mindirməmişdi."**

Ayətullah seyyid Abdullah əl Əla Musəvi əs Səbzəvari belə deyir: **"…Kafir olması məsələsində mürtəd, zimmi, xarici, qulat və nasibi arasında heç bir fərq yoxdur."**[1]

Ayətullah Hacı Seyyid Muhəmməd Rza Kəlbəyqani yazır: **"14 məsumdan birinə düşmən olan vəya söyən kimsə İslam çərçivəsində olsa belə nəcisdir. İmam Əlinin də uluhiyyətinə inanan qulat kafir və nəcis hökmündədir. Eyni ilə xarici və nasibilər də eyni hökmdədirlər."**[2]

Onların nasibiləri necə vəsf etdiyinə diqqət edin! Nasibilər tarixdə məlum olan, günümüzdə olmayan kimsələr idilər. Bununla bərabər xariciləri də qeyd edir, Əhli sünnəti qəsd edirlər və bunun isbatı yuxarıda nəql edilən sitatlardır.

Şeyxləri Yusif əl Bəhrani kitabında yazır: **"Məna baxımından mütəvatir xəbərlərdən çıxan nəticəyə görə bu sahədə olan iddiaların zəif və vəhn olması gizli deyildir. Beləki, məlum risalədə müxaliflərin kafir, nasibi və nəcis olduğu məsələsini izah etmişdik. Bu iki xəbərin nə sənəd, nə də dəlalət baxımından o xəbərlərə qarşı təsiri ola bilməyəcəyinə şübhə yoxdur. Bunların ya təqiyyəyə aid edilməsi ki, bu ravilərin halından bəlli olur, yada müxaliflərin xaricində ki, kimsələrə şamil edilməlidir. Eyni zamanda əshabımız arasında məşhur olan görüşə görə qulatın da xarici və nasibilər xaricində qalanlara şamil edilməsi lazımdır. Çünki, əshabımız bunların hamısının kafir olduğu məsələsində ixtilaf etməmişlər."**[3]

Nemətullah Cəzairi yazır: **"Xəbərlərdə nasibinin nəcis olub yəhudi, xristian və məcusilərdən də daha şərli olduğu baradə imamiyyə alimlərinin icmasını qeyd etmişdik.....Təqlid mərci`i olan Mirzə Həsən əl Hairi dediyi kimi: "Nəcasətlər on ikidir.....Kafirlər qismindən olan nasibilər."**[4]

---

[1] "Camiul əhkam",səh 57; Beyrut,1992 il

[2] "Muhtəsarul əhkam", səh 9; Qum

[3] "Şərhu risalətis sələtiyyə",səh 334, Beyrut,1988 il

[4] "əl-Ənvar ən-Numəniyyə", c. 2,səh 306,Beyrut

Əhli sünnətə zəkat vermənin caiz olmaması

Şiə alimləri zəkatın müxaliflərə verilməsini haram hesab etmişlər. Ayətullah Sistani "Minhəcus salihin"adlı kitabında yazır: **"Kafirə zəkat verilməz, müxalif də belədir."**[1]

Həmin yerdə yazır: **"Müxalif biri özündən olanlara zəkat verib, daha sonra şiə məzhəbinə keçərsə, zəkatı təkrar verməlidir. Əgər möminə (şiəyə) vermişsə bu kifayət edər."**

Şiələrin təqlid mərci`ilərindən olan "Ayətullahlar" kitablarında "Zəkatın kimlərə verilməsi" fəslində eyni fətvaları vermişlər. Bunlardan bəziləri aşağıdakılardır:

1- Ayətullah Muhəmməd Hüseyn Şirazi "əl məsailul İslamiyyə"
2- Ayətullah Xomeyni "Təhrirul vəsilə"
3- Ayətullah Mirzə Əbdurrasul əl İhqaqi "Əhkamuş şəria"
4- Ayətullah Mirzə Həsən əl İhqaqi "Əhkamuş şia"
5- Ayətullah Əli əl Qəravi "Mucuzə fətaval mustənbəta"
6- Ayətullah Muhəmməd Fazil Lənkərani "əl Əhkamul vadihə"
7- Ayətullah Muhəmməd əl Kəlbəynaqi "Hidayətul ibad"

Müxaliflərin qeybətinin edilməsinin caiz olması

Böyük müctəhidlərindən olan Ruhullah Musəvi Xomeyni kitabında yazır: **"Zahir olan odur ki, qeybətin haramlığı mömin üçün olduqda keçərlidir. Buna görə də müxalifin qeybətini etmək caizdir."**[2]

Onlara görə qeybətin haramlığı on iki imami etiqadında olanlara xasdır. Ayətullah Seyyid Əbdulhüseyn Dəstağeyb yazır: **"Bilinməlidir ki, qeybətin haram olması möminə yəni, həqiqi inanc əsaslarına inanan kimsəyə məxsusdur. Bu inanclardan biri də on iki imama etiqaddır. Ona görə də müxaliflərin qeybəti haram deyildir."**[3]

Xomeyninin ən yaxın silahdaşı olan 1983-cü ildən inqilab rəhbərliyini öhdəsinə alan Seyyid Dəstağeybin sözləri budur. Şiəliyə görə on iki imami əqidəsində olmayan hər kəsin qeybəti edilə bilər.

Muhəmməd Həsən ən Nəcəfi yazır: **"İstənilən halda qeybətin haramlığı imamların birini belə inkar edən digər kafirlərə və**

[1] c.1,səh 373
[2] "Məqasibul muharrəmə", 1/249; Qum
[3] "Zunubul kəbira" 2/267, "Darul İslamiyyə"nəşr.Beyrut,1988 il

müxaliflərə deyil, sadəcə on iki imam etiqadında olan möminlərə xas olduğu aşkardır."[1]

Muhəmməd Həsən ən Nəcəfi bu kitabın başqa bir yerində belə yazır: **"Hər halda İslam və iman küfrü baxımından müxaliflərin müşriklərin sırasında olması aşkardır. Əsrlər boyunca, müxtəlif ölkələrdə avamı və alimi ilə şiələr müxaliflərin qeybətini etmişlər. Belə ki, bu iş şiəliyə görə itaətlərin ən əfzəli, Allaha yaxınlaşma məqsədi ilə edilən əməllərin ən yaxşılarındandır. Bəzilərindən rəvayyət olunduğu kimi bu məsələdə icma hasil olduğu iddialarında heç bir qəribəlik də yoxdur. Hətta, bu əməlin qəti zərurətdən olması iddiası da mümkündür."**[2]

Ayətullah Əbul Qasim əl Xoyi "Misbah əl fuqaha" kitabında yazır: **"Onun sözü və sözünün mənası budur ki, möminin arxası ilə qeybət etmək olmaz. Deyirəm: "Mömindən qəsd olunan Allaha, elçisinə, qiyamət gününə və on iki imama inananlardır ki, onlardan birincisi Əli ibn Əbu Talib və sonuncusu Mehdidir. Allah bizləri onun tərəfdarları və köməkçilərindən etsin. Bunlardan birini inkar edənin qeybətini etmək və onun haqqında pis danışmaq caizdir və bunun bir sıra səbəbləri vardır.**

Birinci səbəb: Hədislərdə, dua və ziyarətlərdə müxaliflərin lənətlənməsi, onlardan uzaqlaşma və onların çoxlu təhqir olunmaları qəti olaraq sabit olmuşdur. Bu onların qeybətini etmənin caizliyini göstərir. Çünki, onlar bidət və şübhə əhlidirlər. Bundan başqa onların küfründə heç bir şübhə yoxdur. Axı, imamlardan birinin belə vilayətini və imamətini inkar etmək, digərlərinin qanuni xəlifəliyinə inanmaq və s. küfr və bidətə aparan səbəblərdir. Bunun sübutu vilayəti inkar edənlər haqqında olan çoxsaylı xəbərlərdir."[3]

Ayətullah Əbul Qasim əl Xoyinin fətvalarının olduğu "Minyətus sail" adlı kitabda ona verilən suala o belə cavab verir: **"Bəli, müxalifin qeybətini etmək caizdir. Qeybəti caiz olmayan mömindən murad əsl mənası ilə olan mömindir."**[4]

Şiələr Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* belə bir rəvayyət nəql etmişlər: **"Məndən sonra bidət və şübhə əhli kimsələr görəcəksiniz. Onlardan uzaq olduğunuzu izhar edin. Onları söyün, haqqlarında çox**

---

[1] "Cəvahirul kəlam", 22/63

[2] "Cəvahirul kəlam", 22/62

[3] "Misbah əl fuqaha", 2/11; "Darul Hadi" Beyrut

[4] səh 218,Beyrut

danışıb, hekayələr (qeybət) nəql edin. Belə edin ki, İslamda fəsad çıxarma arzuları olmasın və insanlar onlardan çəkinsin."[1]

Bu rəvayyəti alimləri Hurr Amili də "Vəsailuş şia"[2]da nəql etmişdir. Həmçinin, alimləri Sadiq əl Musəvi "Nəhcul intisar" adlı kitabında imam Səccaddan bu rəvayyəti nəql etmişvə bu sözləri yazmışdır: **"İmam Səccad zalımlardan və İslam ümmətini istismar edən kimsələr olan bidət əhli haqqında, onlardan uzaq olmağı, söyməyi, barələrində pis şayiələr yaymağı, qeybət və iftira növündən olan bütün əməlləri caiz görmüşdür…"**[3]

Söymək, pis şayiələr yaymaq, iftira atmaq, qeybət etmək kimi İslamla əlaqəsi olmayan bu inanclara diqqət edin!!! Bunlar sadə müsəlmanların da bu üslubları öyrənməsini və tətbiq etməsini istəyirlər. Bu metodu Əhli sünnətin böyükləri və alimləri haqqında geniş şəkildə tətbiq edirlər. Beləki, Nemətullah Cəzairi kitabında yazır: **"Ömərin arxasında xəstəlik var idi. O, yalnız kişinin sperması ilə sənğiyirdi"**[4]

Həmçinin, Ömərin Fatimənin evini yandırması yalanını da uydurmuşlar. İslam düşmənlərinə qarşı dəlil, dürüstlük, ədalət və insafla qələbə çalmışdır. Yoxsa, söyərək, şayiələr yayaraq, iftira ataraq zəfər qazanmamışdır.

Allah Təala buyurur: *"Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır."*[5]

Əhli sünnətə müxalif olmada həddi aşmaları

Hurr Amili Əbdurrəhman ibn Əbu Abdullahın imam Cəfər Sadiqdən belə rəvayyət etdiyini yazır: **"Əgər siz iki müxtəlif və bir-birinə zidd hədislə rastlaşsanız, bunu Allahın kitabına ərz edin. Qurana müvafiq olanı götürün, ona zidd olanı tərk edin. Allahın kitabında heç nəyə rast gəlməsəniz bunu avamın xəbərləri ilə tutuşdurun. Əgər onların**

[1] "Kafi",c. 2,fəsil, 163,səh 212
[2] 11/508
[3] 152-ci haşiyə
[4] "Ənvəru Numaniyyə", c.1,səh 63
[5] Maidə 8

hədisləri ilə uyğun gəlsə onu atın, onların hədislərinə zidd olsa (onda) götürün”[1]

İmamın müxalif dedikləri avamdan məqsəd Əhli sünnətdir. “Kafi” kitabının müqəddiməsində yazılır: "**Sünnülərin (müxaliflərin) dediyi ilə müvafiq olanı atın. Çünki, həqiqət onlara müxalif olmaqdadır.**"[2]

Kuleyni “Kafi” kitabında bu baradə uzun bir rəvayyət nəql edir. Orada deyilir: “Ömər ibn Hənzaladan, o da Əbu Abdullahdan rəvayyət edir ki, imamdan soruşdum: “Bizim əshamızdan iki nəfər bir borc vəya miras üstündə ixtilaf etsələr və nəticədə sultana vəya qaziyə hökm üçün getsələr, bu onlar üçün halal olarmı?..... Ravi dedi: “Əgər iki hakimin verdiyi hökm rəvayyət və raviləri etibarlı olan səbəblərə əsaslanırsa, onda nə etməli?” İmam buyurdu: “Bunlardan hansısı Kitaba, sünnətə uyğun, əimmə (sünnilərin) fikirlərinə ziddirsə ona əsaslanılır. Ravi dedi: “Sənə fəda olum! Əgər hər iki hakim verdiyi hökmü Quran və sünnətə əsaslandırsalar və biz də rəvayyətlərdən birinin əimmənin görüşünə uyğun, digərinin isə ona zidd olduğunu görsək, bu rəvayyətlərdən hansını qəbul edək?”

İmam buyurdu: “Əimmənin görüşünə zidd olan rəvayyəti əsas alın. Çünki, uğur və qurtuluş ondadır. Ravi dedi: “Əgər hər iki rəvayyət də əimmədən olan iki dəstənin fikirlərinə uyğun isə, bunlardan hansı əsas alınmalıdır?” İmam dedi: “Onların hakimlərinin və qazilərinin hansı rəvayyətə meyl etdiklərinə baxılar və meyl etmədikləri rəvayyət əsas alınar.”[3]

Şeyx Səduq Əbu İshaq əl Ərcaninin Əbu Abdullahdan belə nəql etdiyini yazır: **“Əbu Abdullah buyurdu: “Bilirsənmi niyə sizə avamın etdiyininə müxalif olana əməl etməyiniz əmr edilib?” Mən dedim: “Biz bilmirik” İmam buyurdu: “Əli** *(əleyhissəlam)* **dində hər hansı bir əməl edəndə ümmət mütləq ona müxalif olardı. Bununla onun əməllərini tutarsız və dəyərsiz etmək istəyirdilər. Onlar bilmədiklərini Əmirəlmöminindən soruşardılar. İmam Əli nə fətva verirdisə, onlar insanları aldatmaqdan ötrü onun əksini edərdilər.”**[4]

Ayətullah Muhsin əl Əmin “Əyanuş şia” adlı tanınmış əsərində yazır: **“Əshabımız Əhli sünnə vəl camaat deyə adlandırılanlar üçün avam, özləri üçün isə həvas kəlməsini istifadə etmişdir.”**[5]

---

[1] “Vəsailuş şia”, 18/84

[2] “Kafi”, müqəddimə səh 8-9

[3] “Usul əl-kəfi”, “Hədisdə ixtilaf” bölümü 1/68, hədis 10 (198)

[4] Şeyx Səduq, “İlyəluş şərai”, səh 531 İran

[5] 1/21,Beyrut,1986 il

Şeyx Fəthullah Nəmazi əş Şirazi isə belə yazır: **"Avam təriqi ilə gələn hədisi Buxari, Muslim.... kimi bir çox mühəddislər rəvayyət etmişlər."**[1]

Xomeyni belə yazır: **"İxtilaflı məsələlərdə doğrunu bilməkdən ötrü, Əhli sünnətə muxalifətçilik etməkdə heç bir işkal yoxdur."**[2]

Vəhdətdən danışan ustad Murtəza əl Əsqəri kitabında bu növ hədisləri qeyd etdikdən sonra yazır: **"Bu bəhsdə xatırlatdıqlarımıza görə bir-birinə zidd olan iki hədislə qarşılaşanda,"Xəlifələr məktəbi"nin istinad etdikləri hədis tərk edilir. Bu daha doğru rəydir."**[3]

əl Əsqəri Əhli sünnə üləmasına qarşı duyduğu kini üzə vuraraq yazır: **"Artıq gördük ki, "xəlifə məktəbi" alimləri İslamın ilk dövründə söz və qüdrət sahibi olan insanları tənqid edən rəvayyətlər və xəbərləri ixtisar etməkdə ittifaq etmişlərdir."**[4]

Başqa yerdə yazır: **"Xəlifələr məktəbi"ndə gizlətmə növlərindən biri də səhih rəvayyətlər yerinə uydurma xəbərlərin yazılması və yayılmasıdır."**[5]

O, yazır: **"Gizlətmənin bu növü yəni, xəbərin heç bir yerdə qeyd edilmədən tamamilə gizlədilməsi "xəlifələr məktəbi"ndə tez-tez rast gəlinən bir haldır."**[6]

"Qeyd etdiyimiz kimi "xəlifələr məktəbi" müsəlmanların üzünə Rəsulullahdan *(sallallahu aleyhi və səlləm)* **varid olan xəbərlərin qapısını bağladıqda, İsrailiyyətdən varid olan rəvayyətlərin qapısını eninə kimi açmışdı."**[7]

Şiələri Əhli sünnətə müxalif olmağa təşviq edən bir çox rəvayyətlər vardır. Hurr Amili "Vəsailuş şia"[8] da, Ruhullah Musəvi Xomeyni "ər Rəsail"[9]də, Muhəmməd Baqir əs Sadr "Təaridul şəriyyə"[10] da Muhəmməd Baqir ibn Abdullahdan imam Rzanın belə dediyini nəql etmişlər:

"İmama iki ixtilaflı xəbər gəldiyində necə hərəkət etməliyik deyə sual verdik?" Dedi: "Sizə iki ixtilaflı və zidd olan xəbər gəldikdə, bunu avamın (Əhli sünnət) rəvayyəti ilə tutuşdurun. Əgər bu onların

---

[1] "Qaidətu lə dərara və lə dırar", səh 21,Beyrut
[2] "ər-Rəsail", 2/83
[3] "Məalimu mədrəsəteyn", 3/269; "Məktəbətul fəqih"nəş.Kuveyt
[4] "Məalimu mədrəsəteyn", 1/289
[5] həm.yer 1/263
[6] həm.yer 1/254
[7] həm.yer 2/48-49
[8] 18/85-86
[9] 2/81
[10] səh 359

xəbərlərinə müvafiqdirsə onu tərk edin, yox əgər onların xəbərlərinə ziddirsə, onu alın."

Hurr Amili "əl Fusulul muhimmə fi mərifəti usulil əimmə"adlı kitabınında bu xəbərlərin mütəvatir səviyyəsində olduğunu qeyd edərək yazır: **"Bu baradə olan hədislər mütəvatirdir. "Vəsailuş şia"da bunların bir qismini qeyd etmişik."**[1]

Hurr Amili "Vəsailuş-şiə" kitabında **"Əhli sünnətə, onların yoluna müvafiq olan ilə əməl etməyin qadağan olunması"** adlı bir bölüm açmış və həmin bölümdə "məsum" lardan çoxlu sayda rəvayyətlər nəql etmişdir.

Yusif əl Bəhrani yazır: **"Rəvayyətin avamın məzhəbinə ərz edilib, daha sonra müxalif olanı alma baradə olan çoxlu sayda oxşar xəbərlər rəvayyət edilmişdir."**[2]

Hüseyn ibn Şihabuddin əl Kərki əl Amili yazır: **"Avamın işinin əsası zehnləri qarışdırmaq, haqqı batillə örtmək, batili haqq kimi qələmə verərək avamın və öz dinlərini zay etməkdir."**[3]

Seyyid Nemətullah Cəzairi yazır: **"Bizim sünnilərlə Allah, peyğəmbər və imam məsələsində heç bir oxşar və bənzərliyimiz yoxdur. Çünki, onlar deyirlər ki, Allah peyğəmbəri Muhəmməd** *(sallallahu aleyhi və səlləm)*, **xəlifəsi isə Əbu Bəkr olandır. Biz isə nə bu Allahı, nə də bu peyğəmbəri qəbul edirik. Biz deyirik: "Həqiqətən, o Allah və peyğəmbər ki, peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **xəlifəsi Əbu Bəkrin Allahı və peyğəmbəri olub, o bizim Allahımız və peyğəmbərimiz deyil."**[4]

Müsəlmanları ağır sözlərlə təhqir etmələri

Rafizilər təkcə bu dünyada olan bütün insanları və şiə olmayan hər kəsi təhqir etməyiblər. Şiə hədislərinə görə dünyaya gələn hər körpə şeytanın əlinin altından keçir. Şiəliyin İslam ümmətini təhqir etməsinə dair misallardan biri olaraq, bunu göstərmək olar.

Kuleyni "Kafi"[5]də, Məclisi "Bihar"[1]da, Hurr Amili "Vəsailuş şia"[2]da Əbu Cəfər ibn Muhəmməd Baqirdən rəvayyət edirlər: **"Əbu Həmzə**

---

[1] səh 225

[2] "Hədaiq",1/95

[3] "Hidayətul əbrar", səh 102

[4] "Ənvərun Numaniyyə", c.2,səh 278 "İmamların dininin həqiqi nuru" fəsli

[5] c.8, səh 239,285

imama dedi: "Bəzi yoldaşlarımız müxaliflərə böhtan atırlar." dedi. İmam ona dedi: "Sussan yaxşı olar. Allaha and olsun ki, bizim şiələrdən başqa bütün insanlar fahişə övladlarıdır."

Əbu Abdullahdan rəvayyət olunur: (Əbu Bəsirə dedi) **"Həqiqətən, şeytan kişi qadına yaxınlaşdığı kimi yaxınlaşır, etdiyi kimi edir, cinsi əlaqədə olduğu kimi olur." (Ravi) dedim: "Bu nə ilə bilinir?" (İmam cavab verdi): "Bizə olan sevgi və nifrətlə. Kim bizi sevir qulun (sperması olur) kim nifrət edər (sperma şeytanın olar)"**[3]

Eyni tipli rəvayyət "Vasailuş şia"[4]da nəql olunur. Haşim Bəhrani "Burhan"[5] təfsirində, Əyyaşi "Təfsir"[6]də, Meysəm ibn Yəhyadan, o da imam Cəfər ibn Muhəmməddən belə nəql edir:

"Elə bir dünyaya gələn körpə yoxdur ki, onun doğulmasında cinlərdən olan şeytan iştirak etməsin. Əgər o bilsə ki,doğulan körpə bizim şiələrdəndir onda o onu tərk edər. Əgər o bizim şiələrdən olmazsa, şeytan barmağını onun arxasına salar və onu qabağdan çıxardar. Əgər körpə qızdırsa onda şeytan barmağını onun fəcrinə salar və o fahişə olar. Məhz, buna görə də körpə ana bətnindən çıxan zaman belə möhkəm ağlayır."

Əli ibn Əsbat Əbu Abdullahdan nəql edir: **"Şübhəsiz ki, Allah-Təala Ərafa günü imam Hüseynin qəbrini ziyarət edənlərə nəzər edər. Ona dedim: "Vəqfəyə duranlardan öncə mi onlara baxar? Dedi: "Bəli."Sual etdim necə? Dedi: "Çünki, onların arasında zinadan əmələ gələnlər vardır. Bunlar isə belə deyillər."**

Bu rəvayyəti Məclisi "Biharul Ənvar"[7]da "Ərəfa və bayram günlərində Rəsulullahı *(sallallahu aleyhi və səlləm)* ziyarət etmənin fəziləti" babında, Şeyx Səduq isə "Mən lə yəhduruhul fəqih"[8]də nəql etmişlər.

Əllamə Abdullah Şubbar "Təsliyətul fuad fi bəyanil məvt vəl məad" kitabında **"Şiələr xaricindəki insanlar analarının adları ilə çağrılacaqlar"** fəsli tərtib etmiş və bu fəsildə bəzi rəvayyətlər qeyd etmişdir. Bunlardan birində deyilir: **"…Qiyamət günü olduğu zaman şiələr xaricində olan**

---

[1] 24/311
[2] c.16,səh 37,hədis 2910
[3] "Kafi", c.5, səh 502
[4] c.20, səh 135-136,hədis 25233
[5] 2/300; Qum
[6] 2/234; Beyrut
[7] 101/85
[8] 2/431

insanlar analarının adları ilə çağrılacaqlar. Şiəmiz isə tər təmiz doğulduqlarından ötrü atalarının adları ilə çağrılacaqlar."[1]

Məclisi "Biharul Ənvar" kitabında "torpaq, gil və nifaq" fəslində 67 rəvayyət nəql edir. Bu hədislərin birində deyilir: **"İmam dedi: "Ey İshaq! Sənin haradan gəlməyin baradə heç fikirləşmisənmi? İshaq dedi: "Əgər siz bu baradə xəbər verməsəniz,mənim bu baradə elmim heç yoxdur." İmam dedi: "Qulaq as İshaq. Allah məxluqatı xəlq etməmişdən öncə yerə yeddi gün yağış yağdırdı. Sonra yerin səthindən gili götürdü və ondan biz Əhli beyti yaratdı. Sonra O bu gilin aşağı hissəsindən bizim şiələrimizi xəlq etdi. Əgər bu gil başqa gillərlə qarışmasa idi bizim şiələr heç vaxt günah etməzdilər."**

Həmçinin, Kuleyni "Kafi"kitabında "Möminin və kafirin gili, torpağı" fəslində bu tip hədislər nəql edir. Onlara görə şərəbxor şiə sünnidən yaxşıdır. Şeyx Səduq "Uynu əhbərul riza" kitabında yazır ki, bir adam imama dedi: **"Mən öz qızımı qardaşım oğullarından birinə ərə vermişəm ki, o içir və tez-tez boşayacağı baradə qızımı təhdid edir." İmam dedi: "Əgər o sənin şiə qardaşlarındandırsa bunun heç bir zərəri yoxdur. Yox, əgər o digərlərindəndirsə (sünni) onu boşatdır."**[2]

<u>Aişəni *(radiyallahu anhə)* təhqir etmələri</u>

Allah Təala buyurur: *"Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim Aməlisaleh qullarımızdan iki qulun nikahı altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bunlar onları Allahdan heç cür xilas edə bilmədilər. Onlara: "Girənlərlə birgə ikiniz də oda girin!"- deyildi."*[3]

Bu ayənin şiələr tərəfindən verilən təfsirinə baxaq. Qummi təfsirində yazır: **"Vallahi "fə hanətahumə" sözü ilə fahişəlikdən başqası qəsd olunmur. Varid olduğu kimi Aişə Bəsrəyə doğru yola möminlərin əmiri Əli *(əleyhissəlam)* ilə vuruşmaq üçün yola düşdüyü zaman, Talha onu yoldan çıxartdı və dedi: "Sənə məhrəmin olmadan yola çıxmaq halal deyildir!" və sonra onu özünlə evləndirdi."**[4]

Bu sözləri Bəhrani də "Burhan" təfsirində yazır. Onlar kitablarında çox vaxt konkret ad çəkməmək üçün "filan qadın" kimi ifadələr işlədirlər.

---

[1] "Təsliyətul fuad fi bəyanil mevt vəl məad",səh 162,"Darul aləmi" nəş.Beyrut

[2] 28/69

[3] Təhrim 10

[4] "Təfsir əl-Qummi", 2/377

Halbuki, məsələdən agah olanlar bilir ki, onların işarə etmək istədikləri Aişədir. Bunu təsdiq edən Kəşaninin sözləridir.

Şiə şeyxi Feyz Kəşani kitabında söhbətin nədən getdiyni belə izah edir: **"Allah Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **zövcələrini müsəlmanlara haram etdi. Təlha hirsləndi və dedi: "Muhəmməd bizə öz zövcələrini haram edib, özü isə bizim qadınlarla evlənir. Allah onu öldürəndə biz onun zövcələrinin ayaqlarında olan bilərziklər üçün ayaqlarına düşəcəyik, necə ki, o bunu bizim qadınlarımızla edirdi."**[1]

Həmçinin, bu rəvayyəti Bəhrani "Burhan"[2]da, Sultan Cənabəzi "Bəyanus səadə"[3]də, Zeynuddin Nəbati "Sıratul mustəqim"[4] qeyd etmişlər.

Məclisi Əli ibn Əbu Talibdən belə rəvayyət edir**:** "**Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **ilə birlikdə səfərə çıxdım. Ona xidmət etmək üçün yalnız mən var idim. Aişə də onunla idi. Amma, bizim üçümüzə yalnız bir yorğan var idi. Buna görə də yatanda üstümüzə bu yorğanı atdıq. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **də bizim ikimizin (Əli və Aişənin) arasında yatdı. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **gecə namazına qalxarkən, əli ilə yorğanın ortasından döşəyə çatana kimi əyirdi."**[5]

Əllamə Zeynuddin ən Nəbati "Sıratul Mustəqim"[6] kitabında iki xüsusi fəsil ayırmış, biirinci fəsilə "Pisliklərin anası olan Ummul muminun Aişə" adını vermişdir.

Ayətullah Muhəmməd Şəhruddinin fətvası:

Sula 50: **Bəzi Aişə kimi "Möminlərin analarını" onun Peyğəmbərə** (*sallallahu aleyhi və səlləm*) **asi olduğuna, dövrünün imamına qarşı çıxdığına və möminlərin əmiri Əli ibn Əbu Talibə düşmənçiliyinə görə lənət etmək olarmı?**

Cavab: **"Möminlərin Əmirinə, Zəhraya düşmənçilik edən hər kəsə lənət etmək caizdir. Onlara lənət etmək əgər həyat qorxusu yoxdursa caizdir. Həmçinin, imam Sadiq onlardan 8 nəfərə hər namazdan sonra lənət edərdi."**

Əyyaşinin təfsirində Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* Allahın yaratdığı iki şərli qadın tərəfindən öldürüldüyü bildirilir və Aişənin *(radiyallahu anhə)* adı çəkilir.[1]

---

[1] "Təfsir"əs Safi", 4/199, Əhzab 53-ün şərhində; Məclisi, "Biharul Ənvar", 22/190, 17/27

[2] 3/333-334

[3] 3/253

[4] 3/23-25

[5] "Biharul ənvar", 40/2

[6] "Sıratul Mustəqim", 3/161-168

Ömər ibn Xəttab *(radiyallahu anhu)* haqqındakı çirkin sözləri

Nemətullah Cəzairi kitabında bu çirkin sözləri yazır: **"Ömərin arxasında xəstəlik var idi. O yalnız kişinin sperması ilə sənğiyirdi"**[2]

Həsən əs Səhhatə isə yazır: **"Ömər arxadan cinsi əlaqədə olan kimsələrdən idi."**[3]

Şiə müfəssiri Əyyaşi "Təfsir"[4]ində, Bəhrani "Burhan"[5]da belə bir rəvayyəti nəql edirlər: **"Bir adam Əbu Abdullahın yanına gələrək, "Ey möminlərin əmiri! Sənə salam olsun." dedi. Əbu Abdullah ayağa qalxaraq, dedi: "Belə demə, bu sadəcə əmirəlmöminin haqqında istifadə olunacaq sözdür. Bu adı ona Allah vermişdir. Ondan başqasını da bu adla adlandırmamışdır. Arxadan əlaqədə olandan başqası bu adı özünə götürmüşdür. Özündə belə hal olmasa da buna mübtəla olmuşdur. Allahın bu ayəsi bunu nəzərdə tutur. "Onlar Allahı qoyub, yalnız qadın adlarını daşıyan bütlərə yalvarır və yalnız üsyankar şeytana sitayiş edirlər."**[6]

Nemətullah Cəzairini yazır: **"Xususi xəbərlərdə (yəni şiələrdən) gəlib ki, şeytan cəhənnəm dəmirindən olan 70 qandal ilə qandallanıb məhşərə aparılırdı. Baxıb qabağında qəzəb mələklərinin apardığı bir nəfəri görür. Onun boynunda 120 cəhənnəm qandalı var idi. Şeytan ona yaxınlaşıb deyir: "Bu bədbəxt nə edib ki, məndən də çox əzab alıb. Mən məxluqatı azdırıb həlaka gətirdim." Ömər şeytana deyir: "Mən Əli ibn Əbu Talibin xilafətini qəsb etməkdən başqa bir şey etmədim."**[7]

Şiələrin səhabələr baradə mövqeyi

Rəsulullah *(sallallahu aleyhi və səlləm)* buyurub: **"Səhabələrim baradə Allahdan qorxun. Məndən sonra onları hədəf almayın. Onlara əziyyət edən, mənə əziyyət etmişdir. Mənə əziyyət edən isə Allaha əziyyət**

---

[1]"Əyyaşinin təfsiri", c.1
[2]"Ənvəru Numaniyyə", c.1,səh 63
[3]"Minbərul İslami" jurnalı 17-ci bur-ş,səh 16
[4] 1/302
[5] 1/416
[6] Nisa 117
[7]"Ənvarun numaniyyə", c.1,səh 81

vermiş kimidir! Kim ki, Allaha əziyyət verməyə cürət edərsə,onun aqibəti bəllidir."[1]

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurub: **"Ənsarı yalnız mömin sevər və onlara yalnız münafiq nifrət edər. Kim onları sevərsə Allah onları sevər, kim onlara nifrət edərsə Allah onlara nifrət edər."**[2]

Şiələr kafir və münafiqlər haqqında varid olmuş ayələri Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* səhabələri haqqında təvil etmişlər. Təqiyyə edərək üç xəlifə yəni, Əbu Bəkr *(radiyallahu anhu)*, Ömər *(radiyallahu anhu)*, Osman *(radiyallahu anhu)* haqqında bəzi simvolik ifadələr istifadə etmişlər. Əbu Bəkrə "Fusayl", Ömərə "Rama", Osmana isə "Nəsəl" kimi adlar vermişlər. "Filan, filan və filan" kimi adlardan da istifadə etmişlər. Həmçinin, "birinci, ikinci və üçüncü","Həbtər" və "Dəllam" kimi adlardan da istifadə etmişlər.İstifadə etdikləri digər rəzil adlardan "Qüreyşin iki bütü","Həman və Firon","Ümmətin buzovu və Samiri" kimi adlardır. Səfəvilər dövləti zamanında təqiyyə biraz ortadan qalxmışdı. Bu dövrdə səhabələri təhqir və təkfir edən ittihamlar çox artmışdı.

Kuleyni "Kafi" kitabında Əbu Abdullahdan rəvayyət edir: *"Kafirlər deyəcəklər: "Ey Rəbbimiz! Cinlərdən və insanlardan bizi tovlayıb yoldan çıxardanları bizə göstər ki, biz onları tapdağımız altına salıb yerlə yeksan edək"*[3] ayəsi haqqında Əbu Abdullahın: **"O ikisidir, filan kimsə də şeytandır"** dediyini bildirir."[4]

Məclisi "Miratul uqul" kitabında bu hədisin şərhində yazır: **"O ikisi yəni, Əbu Bəkr və Ömərdir. Filankəsdən qəsd olunan Ömərdir. Yəni, ayədə nəzərdə tutulan cin Ömərdir. Bu adla adlandırılmasının səbəbi onun şeytan olmasındadır. Ya vələdüz-zina olmaq baxımından şeytanın üzərində şərikliyi vardır, ya da aldadıb, azdırmaq səbəbi ilə şeytan kimidir."Filan" adı ilə Əbu Bəkrin qəsd olunması da mümkündür."**[5]

Əbu Abdullahdan rəvayyət olunur ki, imam *"Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş və tərifəlayiq Allahın yoluna yönəldilmişlər"* ayəsini oxudu və dedi: "Onlar Həmzə, Cəfər, Ubeydə, Salman, Əbu Zərr, Miqdad və Əmmardır. Onlar möminlərin əmirinə tabe olmuşdular. Digər ayəni: *"Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır"* oxudu və dedi: "Bunun mənası möminlərin əmiridir və **"küfrə, günaha və asi olmağa qarşı nifrət**

---

[1] Tirmizi,"Sünən",№3862; Əhməd,"Müsnəd", 4/87, 5/54-55; İbn Hibban,"Səhih" №7256

[2] Buxari, 3672; Müslim, 75

[3] Fussilət 29

[4] "Kafi",c.8,№ 523

[5] "Miratul uqul", 26/488

oyatmışdır" haqqında isə dedi ki, "bunlar Birinci, ikinci və üçüncüdür."[1]

"Təfsirul Əyyaşi"[2]də, "Burhan"[3]da və "Safi"[4]də Əbu Abdullahın *"seytanın addımlarını izləməyən"* ayəsi haqqında belə dediyi nəql olunur: **"Allaha and olsun ki, şeytanın addımları filan və filana dost olmaqdır. Yəni, Əbu Bəkr və Ömərə…."**

"Təfsirul Əyyaşi"[5]də, "Safi"[6]də, "Burhan"[7] kitablarında Əbu Abdullahın *"Mən onları nə göylərin və yerin yaradılışına, nə də özlərinin yaradılışına şahid etmədim. Mən başqalarını yoldan çıxaranları Özümə köməkçi tutmuram"* ayəsi haqqında belə dediyi nəql olunur: **"Rəsulullah** *(sallallahu aleyhi və səlləm)* **"Allah! Dini Ömər ibn Xəttab vəya Əbu Cəhl ilə gücləndir deyə dua etdikdə Allah bu ayəni nazil etmişdi: "Mən yoldan azanları köməkçi edən deyiləm."**

"Təfsirul Əyyaşi"[8]də, "Safi"[9]də və "Burhan"[10] kitablarında Əbu Abdullahın *"İman edib sonra inkar edənlər,sonra yenə iman edib, inkar edənlər..."* ayəsi haqqında belə dediyi nəql olunur: **"Filan və filan (Əbu Bəkr və Ömər) haqqında nazil olmuşdur. Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **ilk olaraq iman etdilər və özlərinə vilayət əmri təqdim edildikdə isə kafir oldular...."**[11]

"Təfsirul Əyyaşi"[12]də, "Burhan"[13]da *"İş bitincə şeytan dedi"* ayəsi haqqında Əbu Cəfərin belə dediyi nəql olunur: **"O, ikincidir. Quranda "şeytan dedi" kimi sözlərdən məqsəd ikincidir...."**

Feyz Kəşani "Vafi" kitabında[14] "Kitabul huccə" fəslində "Onlar (imamlar) və düşmənləri baradə nazil olanlar" babında Zürarədən Əbu Cəfərin *"haldan hala keçəcəksiniz"* ayəsi haqqında belə dediyini nəql edir:

---

[1] "Kafi", 1/426
[2] 1/121
[3] 2/208
[4] 1/242
[5] 2/355
[6] 1/511
[7] 1/422
[8] 1/307
[9] 1/511
[10] 1/422
[11] "Kafi","Kitab əl hüccət" fəslində, c.1,səh 420
[12] 2/240
[13] 2/309
[14] 3/920

“Ey Zürarə! Bu ümmət peyğəmbərlərindən sonra “filan, filan və filan” adamın əli ilə haldan - hala gəlmədimi?”

“Təfsirul Əyyaşi”[1]də, “Burhan”[2]da Cəfər Sadiqin *“Cəhənnəmin yeddi qapısı vardır. Hər qapı üçün onlardan müəyyən bir dəstə təyin olunmuşdur”* ayəsi haqqında belə dediyi nəql olunur: **“Cəhənnəm yeddi qapı olaraq gətirilər. Birinci qapı zalım üçündür ki, o Zurəykdir. İkinci qapı Həbtərə, üçüncü qapı üçüncüyə, dördüncü Müaviyyəyə, beşinci Əbdulməlikə, altıncı Əsqər ibn Həvsərə, yeddinci qapı isə Əbu Sələməyə aiddir. Onlar özlərinə tabe olan kimsələrin qapılarıdır.”**

Məclisi bu rəvayyətin şərhində yazır: **“Zurəyk (Maviş) birinciyə olan kinayədir. Çünki, ərəblər mavi gözlü olanı uğursuz sayardılar. Həbtər tülküdür. Bu ləqəbin onun haqqında istifadə edilməsinin səbəbi onun etdiyi hiylələr və qurduğu tələlər olmuşdur…..Bir çox xəbərlərdə varid olduğu kimi Həbtər ləqəbi birinci üçün tətbiq olunmuşdur. Çünki, bu birnciyə daha münasibdir. Zurəyk isə ikinci üçün tətbiq edilmişdir. Çünki, o daha sərt qəlbli və kobuddur. Əsqər ibn Həvsər Umeyyə vəya Abbasi xəlifələrindən biri üçün istifadə olunan kinayədir. Əbu Sələmə də Əbu Cəfər Dəvaniki haqqında bir kinayədir. Əsqər ləqəbinin Aişə və Cəməl əhli üçün də istifadə olunması mümkündür.Çünki, Aişənin dəvəsinin adı Əsqər idi.Bunun şeytan olması da rəvayyət olunmuşdur”**[3]

“Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O onların yanında olur” ayəsi haqqında imam Əbu Cəfərin belə dediyi nəql olunur: **“Filan, filan və filankəs yəni, Əbu Bəkr, Ömər və Osman və Əbu Ubeydə ibn Cərrah.”**

Bu rəvayyət “Təfsirul Əyyaşi”[4]də və “Burhan”[5] kitablarında qeyd olunmuşdur.

“...iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir” ayəsi haqqında imam Əbu Cəfərin belə dediyi nəql olunur: **“Fahişdən yəni, birincidən, münkərdən yəni, ikincidən, azğınlıqdan yəni, üçüncüdən çəkindirər!”**

Bu rəvayyət “Təfsirul Əyyaşi”[6]də, “Burhan”[7]da və “Safi”[1] kitablarında qeyd olunmuşdur.

---

[1] 2/263
[2] 2/345
[3] “Biharul ənvar”,c.8,səh 308
[4] 1/301
[5] 1/414
[6] 2/289
[7] 2/381

"Biharul Ənvar"da belə rəvayyət mövcuddur: **"Dedim ki, (ravi) Allah səni qorusun, Allahın düşmənləri kimlərdir? İmam dedi: "Dörd bütdür." Onlar kimlərdir? dedim. Onlar Əbul Fusayl, Rama, Nəsəl, Müaviyyə və onların dinini özlərinə din edənlərdir. Kim bunlarla düşmən olarsa, Allahın düşmənlərinə qarşı düşmənlik etmiş olar."**[2]

Bu rəvayyətin şərhində həmin səhifədə Məclisi yazır: **"Əbul Fusayl Əbu Bəkrdir. Çünki, Fusəyl və Bəkr məna baxımından bir-birinə yaxındır. Rama Ömər adının tərs oxunuşudur. Nəsəl də Osmandır."**

Nur surəsi 40-cı ayə haqqında imamın belə dediyini nəql etmişlər: **"Filan və filan kimsədir", "Dalğa üstündə" Nəsəl qəsd olunur...."**

Məclisi bu rəvayyətin şərhində yazır: **"Filan və filankəs sözü ilə Əbu Bəkr və Ömər nəzərdə tutulur. Nəsəl isə Osmandır."**[3]

Belə nümunələri onların kitablarından çox gətirmək olar. Lakin, oxucunu yormamaq üçün bunlarla kifayətlənirik.

Səhabələrin söyülməsi və təkfir edilməsi

Nemətullah Cəzairi kitabında yazır: **"İmamiyyə imam Əlinin imamlığına açıq nasslar səbəbi ilə qail olmuşdur. Səhabəni təkfir edərək, onların qeybətini etmişdir. İmaməti Cəfər Sadiqə, ondan sonra da övladlarına ötürmüşlər. Bu kitabın müəllifi də bu firqədəndir və bu firqə inşallah qurtulan firqədir."**[4]

Şiələr imam Baqirdən rəvayyət edirlər: **"İnsanlar Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra üç nəfər xaric mürtəd oldular. "Bunlar Salman, Əbu Zərr və Miqdaddır."**[5]

Kuleyni imam Əbu Cəfərdən rəvayyət edir ki, o demişdir: **"Həqiqətən, şeyxeyn Əbu Bəkr və Ömər bu dünyadan tövbə etmədən və möminlərin əmiri ilə necə davrandıqlarını söyləmədən köçdülər. Onların üzərinə Allahın, mələklərin və bütün insanların lənəti olsun."**[6]

---

[1] 3/151

[2] Məclisi, "Biharul Ənvar", 27/58

[3] "Biharul Ənvar", 23/306

[4] "Ənvərun Numaniyyə",c.2,səh 244 "Mənşuratul aləmi"nəşr,Beyrut

[5] "Rəvdətul Kafi",c.8,səh 245-246,hədis 341; "Biharul Ənvar", c.22,səh 333,352,440; Mufid, "İxtisas" səh 10; Tusi, "Mərifətul rical", c.1,səh 38; Kəşani, "Safi", c.1,səh 389 və s.

[6] "Rəvdətul Kafi", c.8,səh 246

Seyyid Murtəza Muhəmməd ən Nəcəfi yazır: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **özündən sonra dindən dönmüş əksər səhabələri ilə imtahan olunmuşdur."**[1]

Nemətullah Cəzairi yazır: **"Əbu Bəkr boynunda büt asılı olduğu və səcdəni də onun üzərinə etdiyi halda Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **arxasında namaz qılardı."**[2]

Əllamə Zeynuddin ən Nəbati "Sıratul Mustəqim" kitabında yazır: **"Ömər ibn Xəttab İslamı izhar edib, küfrü gizlədən bir kafir idi."**[3]

Həmçinin, əllamə Zeynuddin ən Nəbati "Sıratul Mustəqim"[4] kitabında iki xüsusi fəsil ayırmışdır. Birinci fəsilə "Pisliklərin anası olan Ummul muminun Aişə" adını vermiş, ikinci fəsilə isə "Aişənin bacısı Həfsə" adını vermişdir.

Əllamə Məclisi "Miratul uqul" da, "Kafi"[5]də nəql olunan uzun bir hədisin şərhində yazır: **"Rəvayyət səhihdir. "Həman öldürülmüşdür" sözündən məqsəd Ömərdir. "Firon həlak olmuşdur" sözündən qəsd olunan isə Əbu Bəkrdir…."**[6]

Kuleyni "Kafi ər rəvda"[7] kitabında imamdan rəvayyət nəql edir:

"Bir adam Əbu Abdullahın yanına gəlib, sənə fəda olum dedi və soruşdu: "Bu Adəmin qübbəsidir?" İmam dedi: "Bəli. Vallahi Allahın bir çox qübbəsi vardır. Diqqət et! Sizin bu qərb tərəfin arxasında yer üzünə aid Allahın nuru ilə aydınlandırdığı və ona asi olmayan insanların yaşadığı filan və filankəsdən uzaq olan 39 qərb vardır."

Məclisi bu rəvayyətin şərhində yazır: **"Rəvayyət səhihdir. Filan və filankəsdən məqsəd Əbu Bəkr və Ömərdir."**[8]

Xomeyni kitabında yazır: **"Biz burada Şeyxeyn (Əbu Bəkr və Ömər), onların Qurana qarşı çıxmalarına, İlahi hökmləri oyuncaq etmələrinə, öz ağıllarına görə halalı və haramı təyin etmələrinə, Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **övladlarına, qızı Fatiməyə qarşı etdikləri zülmlərə toxunmaq istəmirik. Lakin, biz burada onların Allahın və dinin hökmlərini bilməmələrini qeyd etmək istəyirik."**[9]

---

[1] "əs Səba minəs sələf", səh 7
[2] "Ənvərun Numaniyyə", c.1,səh 53
[3] "Sıratul Mustəqim", 3/129
[4] "Sıratul Mustəqim", 3/161-168
[5] c.8, № 23
[6] "Miratul uqul", 25/151
[7] səh 186, №301
[8] "Miratul uqul", 26/167
[9] "Kəşful Əsrar",səh 126

Səh 127-də yazır: **"Belə cahil, axmaq, bir rəy üzərində sabit olmayan və zalım adamlara imamət məqamında və rəhbərlər sırasında olmaq yaraşmaz."**

Səh 137-də isə yazır: **"Həqiqətdə Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **əsl dəyəri verənlər onlar idi…O, elçi ki, onları irşad edib, hidayətə aparacağam deyə çoxlu iztirab və əziyyətlərə qatlanmışdı. İbn Xəttabın iftira dolu sözləri, küfr və zındıqlıqdan yaranan əməlləri qulağına çatdıqda belə ona göz yumurdu."**

Əyyaşi "Təfsir"ində, Kəşani "Safi"də, Bəhrani "Burhan" kitablarında *"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə siz gerimi dönəcəksiniz? Kim geri dönərsə, Allaha heç bir zərər yetirməz…."* ayəsinin təfsirində qeyd etmişlər ki, Aişə və Həfsə Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* zəhərləməyə çalışmışlar.

Ayətullah Ruhani üç xəlifənin lənət edilməsinin caiz olması baradə belə bir fətva verir:

Sual: "Xilafəti qəsb edən üç nəfər baradə lənət etmək caizdir?"

Cavab: "Allahın lənəti zalimlərin üzərinədir"ayəsinin bunlara tətbiq edilməsində şübhə yoxdur."[1]

Muhəmməd ət Təvsirkani daha da dərinə gedərək, çox çirkin sözlər yazır: **"Bilki, onlara lənət etmənin (onlara lənət olsun) ən münasib vaxtı və yeri sənin təharətdə olduğun zamandır. Hər ifrazdan, sidiyə çıxdıqdan sonra bir neçə dəfə təkrar et: "Ey Allah! Ömərə lənət et, sonra Əbu Bəkrə, Ömərə sonra Osmana, Ömərə sonra Müaviyyəyə, Ömər….Ey Allah! Aişəni, Həfsəni, Hindi, Umm əl Həkəmi və Qiyamət gününə qədər onların Aməli ilə razı olan hər kəsi lənətlə."**[2]

Əllamə Məclisi kitabında bir fəsil ayırmış və bu fəsili belə adlandırmışdır: **"Üç nəfərin kafir və münafiq olması, etdikləri və pisliklərinin üzə çıxması, onlardan bəri (uzaq) qalaraq lənət oxumağın fəziləti"**[3]

Məclisi yazır: **"Əbu Bəkrin, Ömərin və onlara bənzəyənlərin küfründə, onlara lənət oxumaq, bidətlərindən bəri (uzaq) durmağın fəzilətinə və savabına dair xəbərlərin sayı bu cilddə vəya bir çox cilddə sayılmayacaq qədər çoxdur."**[4]

---

[1] http://frqan.com/docs.php?docid=69

[2] "Lə ali əl əxbər", 4/922", "Məktəbətul əllamə" nəşr.Qum

[3] "Biharul Ənvar", 30/79,"Zəvil kurba" nəşr.

[4] "Biharul Ənvar", 3/230

Məclisi yazır: **“İmamiyyə dininin zərurətlərindən bəzisi də muta nigahını və həccini halal hesab etmək, üç adamdan və digərlərindən uzaq olmaqdır.”**[1]

İslam yolunda mücahid olan səhabələr bu bidətçilərə görə nəcis və kafirdirlər! Ey möhtərəm müsəlman qardaş! Sən onların kitablarında küfrdə ölən Əbu Cəhl, Əbu Ləhəb, Firon kimilərə nifrin görməzsən. Əvəzinə, onların kitabları Əbu Bəkr, Ömər, Osman və digər səhabələrə nifrinlə doludur, sizcə niyə? Bizə Quran və Sünnəni kim gətirib sualı haqqında düşünün. İslamın yayılması üçün kimlər vuruşurdu? Əgər biz səhabələrə tən etsək, Quran və Sünnəyə etiqad necə olar? Biz Qurana necə inana bilərik, bir halda ki, onu bizə bu azğınlara görə “kafirlər”(əuzubilləh) ötürmüşlər!??

Şeyx Muhammməd Bəhcətul-Baytar “əl-İsləm vas-Sahabətul-Kiram beynəs-Sunnə vaş-Şiə”[2] adlı risaləsinin sonunda müasir şiələrin səhabələr haqqındakı mövqelərini izah edərək, deyir:

“Ən etibarlı katiblərdən olan bu katib, onların ölkələrini ziyarət etmişdir və orada eşidənin qulaqlarını kar edəcək, görənlərin gözünü kor edəcək şeylər görmüşdür. Belə şeylərdən sonra Allahdan salamat olmağı diləmək qalır. Bu gördüklərini “Şiə ölkələrində” adı altında qələmə almışdır: “Yeddi ay və daha artıq bir müddətdə şiə ölkələrində uzununa və eninə dolaşdım. Ən böyük şəhərlərində günlərlə, həftələrlə qaldım...” Daha sonra yazır: “Şiə ölkələrində ilk eşitdiyim şey və inkar etdiklərim içində ən cox inkar etdiyim şey əs Siddiq, əl Faruq, möminlərin anası Seyyidə Aişə və Seyyidə Hafsaya lənət etmə adətləri idi. İlk əsrin hamısına lənət edirlər. Hər bir xutbədə, hər bir şənlik və məclisdə, sözlərinin başında və sonunda, yazılarının və məktublarının girişində, ziyarət dualarının hamısında, su paylanılan yerlərdə belə onlara lənət edirlər. Sənə su içirdəcək elə bir adam yoxdur ki, sənə su verərkən onlara lənət etməsin! Su içən elə bir adam görməzsən ki, su içərkən onlara lənət etməsin! Bütün əməllərin və bütün hərəkətlərin əvvəlində Muhammədə və ev əhlinə salavat gətirir və sonra (onların iddiasına gorə) Əhli beytin haqqını qəsb edərək, onlara zülm edən əs-Siddiq, əl-Faruq və Osmana lənət oxuyurlar. Onlara görə bu kəsləri lənətləmək ibadətlər icində ən fəzilətli ibadətdir! Məsciddə xütbə verənlər onları lənətləməkdən ləzzət alırlar, bunu eşidənlər isə fərəhlənirlər, camaat onunla rahatlanır. Xatibin lənətlə başlamadığı heç bir məclisdə rahatlıq əlaməti görməzsən. Sanki, camaat bundan başqa

[1] “Risalətul əqaid”,səh 58

[2] səh 65-66

heç bir şeyi eşitmir, ya da bundan başqa bir şey başa duşmurlər. Hətta, Şah Təhmasibin yanında xüsusi hörmət sahibi olan əl-Kərki "Nəfəhat əl-Lahut fil-Ləan əl-Cibt vat-Tağut" (Əbu Bəkri və Oməri lənət etməkdəki ilahi hədiyyə) adlı bir risalə yazmışdır. Söyüş söyən biri Əbu Bəkrə və Omərə uca səslə lənət edərək onu müşayət etmədikcə, nə ata minməz, nə də yürüməzdi."

"Qureyşin iki bütü" duası

Təqiyuddin İbrahim ibn Əli ibn Həsən Muhəmməd ibn Saleh əl Amili "əl Misbah"[1]a, əllamə Məclisi "Biharul Ənvar"[2]da, Seyyid Nurullah Məraşi Tustəri "İhkaqul haqq"[3]da, Abdullah Muhəmməd Zahid "İksirut dəvat"[4]də və Kazım ən Nəcəfi "Fəvaidud dua"[5] kitablarında aşağıda guya Əlinin *(radiyallahu anhu)* dediyi bu duanı nəql etmişlər:

"Ey Allah! Muhəmməd *(sallallahu aleyhi və səlləm)* **və Əhli beytinə salam olsun. Qureyşdən sənin əmrinə qarşı gələn, vəhyini inkar edən, nemətlərini rədd edən, elçinə üsyan edən, dinini, kitabını təhrif edən, düşmənlərinlə dostluq edən, dostlarına düşmənçilik edən, ölkələri xaraba edib, qullarını pərişan edən iki bütünə, iki cibtinə, iki tağutuna və iki qızına lənət et. Ya Allah! O ikisinə, tabe olanlarına, dostlarına, tərəfdarlarına, sevənlərinə və yardımçılarına lənət et! Bu ikisi peyğəmbərlik evini xaraba qoymuşdur. Onlar evin qapısını yıxıb, tavanını uçurmuş, yerlə bir edib altını üstünə gətirmişlər.Ailəsinin kökünü kəsmiş, yardımçılarını yox edib, övladlarını öldürmüşlər. Minbəri vəsisindən, elminin mirasçısından alıb, imaməti inkar etmişlər, Rəbblərinə şirk qoşmuşlar. Allah onların günahını daha da böyütsün və əbədi olaraq səqərə atsın.....Allahım! Təhrif etdikləri hər ayə, tərk etdikləri hər fərz, dəyişdirdikləri hər sünnət, pozduqları hər beyət, inkar etdikləri hər dəlil, etdikləri hər xainlik səbəbi ilə onlara lənət et. Allahım! Əbədi olaraq, sonsuza qədər, daima, heç ara vermədən, sayında azalma olmadan elə bir lənət et ki, onlara, yardımçılarına, sevənlərinə, dostlarına, onlar üçün müsəlman olanlara, onlara meyl edənlərə, sözlərinə qulaq asanlara, hökmlərini təsdiqləyənlərə bu lənətin ucu toxunsun, sonu gəlməsin…! (Bu duanı dörd dəfə de)**

---

[1] səh 552-553,Beyrut 1975,1994-il nəşr-da səh 732

[2] c.85,səh 260-261,Beyrut

[3] c.1,səh 337,Qum

[4] səh 62

[5] səh 301

Allahım! Onlara elə bir əzab ver ki, Cəhənnəm əhli belə bu əzabdan ötrü imdad diləsin. Amin ya Rəbbəl aləmin!"[1]

Bu dua həmçinin, urdu dilində yazılmış "Mənzur Hüseyn tuhfətul avam məqbul cədid"[2] adlı kitabda yazılmışdır. Müəllif özünün və məşhur təqlid mərci`ilərindən altısının bu dua ilə bağlı fətvaları ilə razılaşdığını bəyan edir. Bu mərciələr bunlardır:

1-Seyyid Muhsin əl Hakim
2-Seyyid Əbul Qasim əl Xoyi
3-Seyyid Ruhullah Xomeyni
4-Hacı Seyyid Mahmud əl Hüseyni
5-Hacı Seyyid Muhəmməd Kazım Şəriatmədari
6-Əllamə Seyyid Əli Təqi ən Nəkvi

Həmçinin, bu dua "Tuhfətul avam mutabər və mukəmməl"adlı kitabda[3] keçir. Bu kitabda duanın daha 9 təqlid mərci`iələrinin fətvasına müqabil olduğu bldirilir. Bu mərci`iələr aşağıdakılardır:

1- Seyyid Əbul Qasim əl Xoyi
2-Seyyid Hüseyn Burucərdi
3- Seyyid Muhsin əl Hakim
4-Seyyid Əbul Həsən əl İsfəhani
5-Seyyid Muhəmməd Baqir Sahibul qiblə
6- Seyyid Muhəmməd Mavi Sahibul qiblə
7-Seyyid Zuhur Hüseyn Sahib
8- Seyyid Muhəmməd Sahibul qiblə
9- Seyyid Hüseyn Sahibul qiblə

Müasir əllamələri Ayətullah uzma Seyyid Şihabuddin əl Hüseyni əl Məraşi, Nurullah əl Hüseyni əl Məraşiyə aid "İhkaqul haqq"[4] kitabının haşiyəsində yazır: **"Bil ki, əshabımızın bu dua üçün yazdıqları şərhlər mövcuddur...Xülasə olaraq, böyük şəxsiyyətlər tərəfindən kitablarında nəql edilməsi və etimad edilməsi səbəbi ilə bu dua barəsində insan mütməin ola bilər."**

Şiələrin bu duanı məqbul və təslimiyyətlə qəbul etdiklərini öyrəndikdən sonra bu dua haqqında onların alimlərinin yazdıqları şərhlərə nəzər salaq:

---

[1] http://dintahripcileri.com/siilerin-hergun-sabah-resmi-devlet-televizyonundan-yaptiklari-dua-kureysin-iki-putuna-lanet/
[2] səh 422
[3] səh 303
[4] 1/337

Şiə tədqiqatçı alimi olan Ağabəzrək Tehrani yazır: **"Ziharul aləmin fi şərhi dua sanameyn"**[1]**də qeyd olunan Qüreyşin iki bütü Lat və Uzza - Əbu Bəkr və Ömərdir. Əsər fars dilindədir və Mövla Əli Əsqər ibn Muhəmməd Mehdi Yusif əl Qəzviniyə aiddir."**

Feyz Kəşani yazır: **"Sonra şəriətin hökmlərini dəyişdirməyə və bidətlər icad etməyə başladılar. Bunlardan bəzisini bilmədiklərinə, bəzisini isə nəfslərinə uysun deyə təhrif etdilər. Əmirəlmöminin Əli ibn Əbu Talib "Qureyşin iki bütü duasında" onların bəzi çirkinliklərinə toxunmuşdur."**[2]

Şeyxul Əhvad yazır: **"Cibtdən Əbu Bəkr, tağutdan Ömər, şeytanlardan Uməyyə, Abbas oğulları və onlara tabe olub imamət, fədək, xüms və digər haqqları qəsb edən tərəfdarları nəzərdə tutulur."**[3]

Məclisi "Biharul ənvar"da yazır: **"Kitabul fitən"də bu iki adamın əməlləri haqqında geniş bəhs etmişdik. Burada, bu duada isə bu ikisinin (Allah onlara və onlara dost olanlara lənət etsin) əməlləri bir daha sadalanır…."**[4]

Onlar bizə lənət edib, bizdən uzaq durmağı və s. əməlləri edərkən, onlarla vəhdət edib, onlara din qardaşı kimi baxanların olması böyük müsibətdir!

Əbdulhüseyn Musəvi yazır ki, imam Cəfər Sadiq imam Hüseynin qəbri başında dayanıb deyir: **"Şəhadət edirəm ki, sən namazı qıldın, zəkatı verdin, yaxşılığı əmr edib, pis işlərdən çəkindirdin, Allah və elçisinə itaət etdin….Allah səni qətl edən ümmətə lənət etsin! Allah sənə zülm edən ümmətə lənət etsin! Allah bunu eşidib, razı olan ümmətə lənət etsin!"**[5]

Müsəlman qardaşlar! Bu adam lənət oxuduğu ümmətlə kimi nəzərdə tutur, bilirsizmi? Hüseyni *(radiyallahu anhu)* qətl edən və bunu eşidib, razı olan ümmət onlara görə Əhli sünnətdir. Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* ümməti necə lənətlənmiş ümmət ola bilər?

Halbuki, Allah Təala buyurur: *"Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı*

[1] 8/192; "əz Zəria" 10/9, Nəcəf
[2] "Kurrətul uyun",səh 326, Beyrut 1979 il
[3] "Şərhu ziyarəti camiətil kəbir", 3/189
[4] "Biharul Ənvar", 85/268
[5] "Əl Məcalisul fahira fi məatimul itratit tahira", səh 31

olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir."[1]

"Beləliklə Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız..."[2]

Ticani bunları yazır: **"Başqa bir dəlil istərsək, sadəcə Əhli sünnətin aşura gününü qeyd etmək baradə mövqeyinə nəzər salmaq kifayət edər. Onları-yəni, Əhli sünnəti imam Hüseynin qatilləri qarşısında razılıq göstərən, onları sevən və dəstəkləyən kimi görürük. Bu onlara görə adi bir şeydir. Çünki, imam Hüseynin qatillərinin hamısı Əhli sünnə və camaatdandır.....!"**[3]

Ömər Faruqun ölüm gününü bayram etmələri

On iki imami şiələr Ömər ibn Xəttabın öldürülməsinə sevinir və o günü özlərinə görə bir bayram hesab edirlər. Həmçinin, onlar bu günü bir neçə əlamətdar adla da adlandırırlar. "İstirahət" (tətil) günü, bərəkət, şiənin sevinc günü bu adlardan bəziləridir. Əllamə Məclisi bunu "Biharul ənvar"[4]da qeyd etmişdir.

Nemətullah Cəzairi "Ənvərun numaniyyə"[5]də "Səmavi nur" başlığı altında Ömər ibn Xəttabın öldürülməsinin savabından bəhs edir.

Xəbis Əbdulhüseyn Nişapuri "Əhli beyt təqvimi" kitabında yazır: **"Ömər ibn Xəttabın ölümü bayramdır. Hicri 23-cü ildə Rabbiul əvvəl ayının 9-u axşam Ömər ibn Xəttab öldü. Sünnilərin dediyinə görə o Zilhiccə ayının 3-ü vəfat edib. Bu gün Əhli beyt, Peyğəmbər, Mələklər və Əmirəlmöminin dostları üçün sevincli gündür. Bu gün çox möhtəşəm gündür. Şiələr və onların rəhbərləri bu günü bayram kimi qeyd edirlər. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **bu günü bayram elan edib və insanlara da əmr edib ki, bu günü bayram etsinlər. Kim bu gün sədəqə verərsə Allah onu bağışlayar. Bu gün din qardaşlarına ikram etmək, yeni paltar geyinmək, ətir paylamaq, Allaha şükürlər etmək müstəhəbdir. Hədislərdə bu günün adları və fəzilətləri sadalanmaqdadır. Bu günün adlarından: "Allahın möhtəşəm bayramı", "ikinci qədir", ikinci fitr bayramı", "şiələrin fəxr günü", "əhli beytin**

[1] Ali İmran 110
[2] Bəqara 143
[3] "Şiə hum Əhli Sünnə",səh 300
[4] 95/351-355
[5] 1/108-111

bayramı", "münafiqin ölüm günü", "əməllərin qəbul edilmə günü", "məzlumun qalib gəldiyi gün" və s. adları vardır."[1]

Şeyx İbrahim əl Cəbban yazır: **"Aşura günü Ömər adını qoyduqları bir köpək gətirilər. Sonra o dəyənəklərlə döyülər və daş qalaq edilərək rəcm olunar. Sonra Aişə adı olan bir keçi gətirilər və tüklərini yolmağa başlayarlar və ölənə qədər döyərlər."**[2]

Şiəliyin Əhli sünnətin dörd imamına dil uzatması

Şiəliyin dörd imama (Əbu Hənifə, Malik, Şafii, Əhməd ibn Hənbəl) zahirdə göstərdikləri ehtiram sadəcə təqiyyəyə bağlıdır.

Kuleyni "Kafi" də imam Musa Kazımdan rəvayyət etdiyi hədisdə yazır: **"…Bildiyiniz şeylər sizə çatanda onu deyin, bilmədikləriniz olanda isə, əli ilə ağzına işarə edərək "Allah dedi, Əli dedi, mən dedim və səhabə dedi deyən Əbu Hənifəyə lənət olsun."**[3]

Bu rəvayyəti həmçinin Hurr Amili "Vəsailuş şia"[4]da qeyd etmişdir.

Kəşşi "Ricalul Kəşşi"[5]də Əbu Hənifəyə lənət baradə bir neçə belə rəvayyət nəql etmişdir.

Muhəmməd Razi ər Rədavi kitabında yazır: **"Allah səni rəzil etsin ey Əbu Hənifə! Namazın Allahın dinindən olmadığını necə deyə bilərsən?!..."**[6]

Həmçinin, yazır: **"Əgər İslam və sünnət iddiasında olanlar Əhli beyti sevirlərsə, onda gərək onlara tabe olsunlar və dinlərini Əbu Hənifə, Malik, Şafii və ibn Hənbəl kimi təhrifçilərdən almasınlar."**[7]

Seyyid Nemətullah Cəzairi "Kısasu ənbiya" kitabında yazır: **"Bunları deyirəm ki, bir çox şeyi başa düşəsiniz. Müxaliflərin ibadətlərinin batil olması da bunlardan biridir. Çünki, onlar oruc tutsalar, namaz qılsalar, həcc etsələr, zəkat versələr, müxtəlif ibadətlər etsələr və digərlərindən artıq əməl etsələr də onlar Allahın girilməsini əmr etdiyi qapıdan deyil, başqa qapıdan girmişlər….Dörd məzhəbi özləri ilə Rəbbləri arasında bir vasitə, bir giriş qapısı olaraq qəbul etmişlər. Hökmləri onlardan**

---

[1] "Əhli Beyt təqvimi", səh 87-88
[2] Şeyx İbrahim əl Cəbban; "Təbdiduz zəlam və tənbihun niyam", səh 27
[3] "Kafi", 1/58
[4] 18/23
[5] səh 145,187,190
[6] "Kəzabu aləş şia", səh 135
[7] "Kəzabu aləş şia", səh 279

almış, onlar isə bu hökmləri Allahın haram etdiyi yerlərdən, qiyaslardan, rəylərdən və ictihadlardan almışlar."[1]

Bunlar iç dünyalarında inandıqları və gələcək nəsillərə verdikləri tərbiyyənin nümunələridir. Daha sonra müasir yazıçılarından olan Ticani kimi biri meydana çıxmış və şiəliyin Əhli sünnətə duyduğu kini və nifrəti aşkara çıxarmışdır.

Ticani yazır: **"Hənəfi, Maliki, Şafii, Hənbəli kimi müxtəlif firqələr və aralarında çoxlu fiqhi ixtilaflar olarkən, özünü Əhli sünnə adlandıranlara necə heyrət etməyəsən?!"**[2]

Səh 104-də yazır: **"Beləliklə, hakim rejimlərin ortaya çıxardıqları və Əhli sünnə adlandırılan məzhəbin necə meydana gəldiyini öyrənmiş oldun."**

Səh 109-da yazır*:* **"Bizi bu tədqiqatda maraqlandıran məsələ Əhli sünnətin dörd məzhəbinin siyasi səbəblər nəticəsində uydurulmuş məzhəblər olduğunu açıq dəlillərlə sübut etməkdir."**

Səh 88-də yazır: **"Budur Əbu Hənifə!...Sərih nasslara qarşı rəylə əməl etməklə məzhəb uydurduğunu gördüz....Malik...Onun da İslam dinində bir məzhəb uydurduğunu gördük...Şafii...ibn Hənbəl..."**

Səh 93-də yazır: **"...Əbu Hənifə sağlığında öz dövründə olan alimlər tərəfindən təkfir edilib, zındıqlıqda ittiham olunduğu halda sonradan özü böyük alim, məzhəbi də ən böyük məzhəb halına gəldi."**

Səh 168-da yazır: **"Əhli sünnətin böyük şəxsiyyətləri və imamları sərih olan nəbəvi sünnətə müxalif olmuş, onlara arxa çevirmiş və bilərək onları tərk etmişlər."**

Ticaninin də sıralarında olduğu bəzi şiə elm adamları İslam ölkələrinə niyə səfərlər edirlər?

Cavab: Bu öz məzhəblərini təqiyyədən istifadə etməklə yaymağa yönəlmiş addımlardır. Ticani kimilər Əhli sünnətə necə qardaş ola bilər ki, onların böyüklərinə və alimlərinə dil uzadır?! Onlar bir tərəfdən Əhli sünnətlə vəhdət yaratmağa çalışır, digər tərəfdən də onlara qarşı olmazın böhtanlar və yalanlar deyirlər. Bu şiə elm adamlarının etdikləri hiylə və ikiüzlülükdən başqa şey deyildir. Qeyd etdiyimiz kimi onların yeganə məqsədi Əhli sünnətin avamı arasında öz batil məzhəblərini yaymaqdır. Bunun qabağını isə yalnız şiələrin batil inanc və etiqadlarını ifşa etməklə nail olmaq olar. Bu baradə yəni, şiələrin batil etiqadlarını tədqiq edən bir kitab ortaya çıxdıqda, onlar "bu müsəlmanların birliyini təhdid edir, onların səflərini parçalayır" deyə fəryadlar qoparırlar. Amma, özləri bu

[1] "Kısasu ənbiya"səh 347,Beyrut

[2] "Şiə hum Əhli Sünnə",səh 84

ümmətin böyüklərinə, Qurana dil uzadanda və Əhli sünnət etiqadı haqqında şübhə yaratmaqla, zəif və məlumatsız sünniləri şiəlik məzhəbinə daxil edəndə bu onların kriteriyalarına görə müsəlmanları parçalamır.

Şiələrin imamlar haqqındakı həddi aşmaları

Bu fəsildə oxucuya şiələrin qaynaq kitablarından və alimlərinin sözlərindən gətirilən sitatlarla onların imamət inancına dair nə qədər həddi aşdıqlarından əyani şəkildə və təfsilatlı bəhs edəcəyik.

On iki imamın peyğəmbərlərdən üstün hesab edilməsi

Aydındır ki, onlar Əhli beytə Əhli sünnətin baxdığı kimi baxmırlar. İtaətə çağırdıqları Əhli beyt on iki imamdır. Bu on iki imamı da peyğəmbərlərdən üstün hesab edirlər. Alimləri seyyid Əmir Muhəmməd əl Kazimi əl Qəzvini yazır: **"Əhli beytdən olan imamlar peyğəmbərlərdən üstündürlər."**[1]

Şeyx Mufid yazır: "**İmami şiələr ittifaq ediblər ki, hər rəsul peyğəmbərdir, lakin hər peyğəmbər rəsul deyil. Peyğəmbərlər arasında elələri olmuşdular ki, öncəki rəsulların şəriətini izləyirdilər və onların davamçıları hesab olunurdular. Şəriət bizə imamların peyğəmbər olmadıqlarını buyurur. Lakin, ağıl bunu bizə yasaq etmir. Beləki, onlar (imamlar) peyğəmbərlərə nisbətdə yuxarıda vəsf etdiyimiz keyfiyyətlərə sahib idilər.**"[2]

Məclisi yazır: "**Biz imamların nübuvvət vəsfi ilə təsvir olunmasına mane ola biləcək heç bir səbəb tanımırıq. Həmçinin, bizim ağlımız peyğəmbərlik ilə imamət arasında fərq görməkdə acizdir.**"[3]

Seyid Şubbar kitabında yazır: **"Məsum imamlar İslam peyğəmbərindən başqa bütün peyğəmbərlərdən üstündür."**[4]

Həmçinin, yazır: **"İmamlar Allah qatında elə böyük məqama sahibdirlər ki, o məqama İslam Peyğəmbərindən başqa nə bir yaxın mələk, nədə Peyğəmbər çata bilməz."**[5]

---

[1] "Şiə fi aqaidihim və ahkamihim", səh 73
[2] "Əvailul məqalət", səh 47
[3] "Biharul ənvar", c.26,səh 82
[4] "Şərhul ziyarətul camiə", səh 39
[5] "Şərhul ziyarətul camiə", səh 88

Xomeyninin yardımçılarından olan Ayətullah seyyid Əbdulhüseyn Dəstağeyb kitabında yazır: **"Bizim on iki imamımız, sonuncu peyğəmbərdən başqa bütün peyğəmbərlərdən üstündürlər."**[1]

Xomeyni "Hukumətul İslamiyyə" adlı məşhur kitabında yazır: **"İmam üçün tərifəlayiq elə bir məqam vardır ki, aləmin hökmranlığı, kainatın bütün zərrələri ilə imamların vilayətinə və hökmünə boyun əyir. Məzhəbimizin əqidə əsaslarından biri də budur ki, imamlarımız bir məqama sahibdir ki, o məqama nə yaxınlaşdırılmış mələklər, nə rəsullar, nə də peyğəmbərlər sahib olmamışdır. Əlimizdəki rəvayyət və hədislərdən çıxan nəticəyə görə ən böyük Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **və imamlar bu aləmin yaradılmasından öncə xəlq olunmuş bir nurdular və Allah onları özündən başqa heç kimin bilmədiyi bir məqama ucaltdı. İmamlarımızdan rəvayyət olunur ki, "Bizim Allah ilə aramızda bəzi xüsusi hallarımız vardır. Ona nə yaxınlaşdırılmış mələklər, nə rəsullar, nə də peyğəmbərlər sahib olmamışdır. Həmçinin, Fatimə Zəhra da belə bir məqama sahibdir... "**[2]

Bu ifadələri onun sələfləri olan şeyx Səduq, Hurr Amili kitablarında öz zamanlarında qeyd etmişdilər. Daha sonra Xomeyni yazır:

"Biz inanırıq ki, imamların əmr və işləri digərlərindən fərqlənir. Biz məzhəbimizə görə inanırıq ki, imamlarımızdan gələn hər bir əmr və işə vəfatlarından sonra belə tabe olunması vacibdir."[3]

Digər səhifədə yazır: **"Daha öncə də bildirdiyimiz kimi imamların təlimi Quranın təlimi kimidir və bu təlimlər hər kəs üçün hər əsrdə və zamanda keçərli olub, ona tabe olmaq və tətbiq etmək vacibdir."**[4]

Seyyid Nemətullah Cəzairi öz kitabında bunları qeyd edir: "**Bil ki, mütəvatir xəbərlərə əsasən əshabələrimiz arasında Peyğəmbərimizin** *(sallallahu aleyhi və səlləm)* **səma xəbərlərini ardıcıl olaraq yerə çatdırmış sair peyğəmbərlərdən daha şərəfli olması məsələsində ixtilaflar yoxdur. Onların arasındakı ixtilaf Əmirəlmömininin və pak imamların öz babalarından başqa bütün peyğəmbərlərdən üstün olub-olmaması məsələsindədir. Onlardan bir dəstə adam bu fikirdədir ki, imamlar ulul-əzm (böyük peyğəmbərlər: Nuh, Ibrahim, Musa, İsa və Muhəmməd** (*əleyhissəlamlar*) **peyğəmbərlərdən başqa, qalan peyğəmbərlərdən üstündürlər, bu peyğəmbərlər isə imamlardan üstündürlər. Bəziləri onların bir-birinə bərabər olduğunu deyirlər. Qalan əksəriyyət isə**

[1] "əl Yəqin",səh 46, "Darut taruf" Beyrut 1989
[2] "Hukumətul İslamiyyə", səh 52
[3] "Hukumətul İslamiyyə", səh 90
[4] "Hukumətul İslamiyyə", səh 112

imamların ululəzm və digər peyğəmbərlərin hamısından üstün olduğu fikrini irəli sürürlər ki, doğrusu da budur"[1]

Muhəmməd Baqir Məclisi "Miratul uqul" əsərində "Elçi, peyğəmbər və mühəddis arasında fərq" fəslində yazır: **"İmamlar bizim Peyğəmbərdən başqa bütün peyğəmbərlərdən üstündürlər."**[2]

Şiələrin dəyərli şeyxi, alimi Zeynuddin Əbu Muhəmməd Əli ibn Yunis əl Amili ən Nəbatinin qələmə aldığı "Sıratul mustəqim" kitabında yazır: **"Alimlərimizin çoxu ümumi rəhbərliyindən və dünya əhalisinin hamısının onun xəlifəliyindən istifadə etməsi səbəbi ilə onu (Əli ibn Əbu Talib) ulul-əzm peyğəmbərlərdən üstün hesab edirlər."**

Dünya əhalisinin hamısı Əlinin xəlifəliyindən faydalanmışdırmı?! Şiə alimləri onun ulul-əzm peyğəmbərlər xaricində bütün peyğəmbərlərdən üstün olması məsələsində həmfikirdilər. Bəzisi ulul-əzm peyğəmbərləri üstün hesab edir, bəzisi də imamları onlardan üstün hesab edirlər. Nəbatinin zamanında şiə alimlərinin çoxu imamları ulul-əzm peyğəmbərlərdən üstün hesab edirdilər. Bu gün də imamların Muhəmməd *(sallallahu aleyhi və səlləm)* xaricində bütün peyğəmbərlərdən üstün olduğunu açıq şəkildə deyirlər. Bunu təqiyyə ilə inkar edənlərə isə etibar edilməz.

əl Amili Nəbati həmin kitabda "Əmirəlmöminin bir qrup peyğəmbərlərlə bərabər səviyyədə olması" başlığı altında yazır: **"Allah Musanın duası ilə bir camaatı diriltmişdi. Əlinin duası ilə də Əshabi kəhfi diriltmişdi. Sam ibn Nuhu və Həbəşilərin kralını dilitməsi rəvayyət edilmişdir."**[3]

Daha sonra yazır: **"Əlini** *(əleyhisalam)* **balıqlar belə salamlamışlar. Allah onu insanların və cinlərin imamı etmişdir."**[4]

Nəbati yazır: **"Əshabı ona (Əliyə) deyirdi: "Musa və İsa möcüzələr göstərirdi. Səndə bizə bir möcüzə göstər ki, qəlbimiz aram olsun." İmam onlara bir tərəfdən cənnəti, bir tərəfdən də cəhənnəmi göstərirdi. Onların çoxu dedilər ki, bu bir sehrdir. Yalnız iki nəfər sabit qaldı. Onlara da Kufə məscidinin daşlarını yaqut olaraq göstərdi. Onlardan biri də sonra küfr etdi, yalnız biri qaldı."**[5]

O, yazır: **"Siffindən qayıtdıqda Fırat çayı ilə danışdı. Çay dalğalananda insanlar Fıratın şəhadət kəlməsini gətirərək, xəlifəliyin**

---

[1] "Ənvar ən-Numaniyyə", c.1,səh 20-21

[2] "Miratul uqul", 2/290

[3] 1/101

[4] 1/102

[5] "Sıratul mustəqim" 1/105

onun olduğunu iqrar etməsini eşitdilər. İmam Sadiq babalarından rəvayyət edir ki,imam Əli *(əleyhisalam)* **Fırat çayına qamışla vurduqda, çay dalğalandı və orada olan balıqlar ona salam verərək, hüccət olduğunu təsdiq etdilər."**[1]

ən Nəbati Bəyadi[2] də yazır: **"İmam Əli** *(əleyhisalam)* **ənik daşı olan bir adama "Bir İsraili dayışır" dedi. Həmin şəxs dedi: "Ənik nə vaxtdan İsrail oldu?" Əleyhisalam "bu adam beşinci gün öləcək" dedi. Həmin adam beşinci gün öldü və dəfn edildi. İmam gəlib ayağı ilə qəbri ehmalca vurdu. Qəbrdə olan ayağa qalxıb, dedi: "Əliyə cavab qaytaran Allah və Rəsuluna cavab qaytarmış kimidir." İmam ona dedi: "Qəbrinə geri qayıt!" O, qəbrinə girdi və qəbir bağlandı."**

Şiəliyə görə imamların məsumiyyəti

Onlara görə vilayət təkcə Əhli beyti sevmək deyil, təyin olunmuş on iki imama, onların məsum olduqlarına və sözlərinin Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* sözü kimi olduqlarına imandır.

Şeyx Muhəmməd Rza Müzəffər yazır: **"Biz imamların da peyğəmbərlər kimi gizli vəya açıq, bilərək vəya bilməyərək əxlaqsızlıq kimi bütün günahlardan uşaqlıq dövründən ölənə qədər məsum olduğuna inanırıq. Həmçinin, onlar səhv, xəta və unutqanlıqdan da uzaqdırlar."**[3]

Eyni yerdə yazır: **"Onların əmr və qadağalarının Allahın əmr və qadağaları olmasına, onlara itaət və asiliyin Allaha edilmiş itaət və asilik olduğuna, onların dost və düşməninin Allahın dostu və düşməni olduğuna etiqad edirik. Onlara edilən etiraz Rəsullullaha** *(sallallahu aleyhi və səlləm)* **edilmiş etiraz kimidir. Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **edilən etiraz da Allaha edilmiş etiraz kimidir."**

Xomeyni kitabında yazır: **"Biz inanırıq ki, imamların fəqihlərə bəxş etdikləri məqam hələ də davam etməkdədir. Çünki, haqqlarında səhv və qəflət olduğunu təsəvvür etmədiymiz imamlarımız müsəlmanların mənfəəti naminə hər şeyi əhatə edirlər. İmamlar özləri də onlardan sonra bunun fəqihlər tərəfindən idarə olunacağını bilirdilər."**[4]

---

[1] "Sıratul mustəqim" 1/107

[2] 1/105

[3] "Əqaidulil imamiyyə", səh 91,Beyrut

[4] "Hukumətul İslamiyyə", səh 91

Ayətullah Seyyid İbrahim əz Zincani şeyx Səduqa istinadən yazır: **"Peyğəmbərlər, rəsullar və imamlar haqqında etiqadımız budur ki, onlar hər cür pislikdən və günahdan məsumdurlar. Nə kiçik, nə də böyük günah etməzlər. Əmr olunduğu məsələlərdə Allaha asi olmazlar, onları tanımayan kafirdir."**[1]

Rza Müzəffər kitabında yazır: **"Ona görə biz etiqad edirik ki, imam gərək Allah tərəfindən Peyğəmbərin dili ilə vəya digər imamın dili ilə təyin edilsin."**[2]

"İmam uşaq yaşından ölənə qədər məsum olmalıdır. Onun üçün səhv etmə və yaddan çıxma halı caiz deyildir."[3]

O, deyir ki, imamlar səhv və unutqanlıqdan uzaqdırlar. Biz isə öz növbəmizdə yalnız imamların bu məsələ barasində elə şiə mənbələrində nə dedikləri haqqında bəzi sitatlar təqdim etmək istərdik:

İmam Cəfər dedi: **"Mənim ən yaxşı dostum mənə qəbahətlərimi bildirəndir."**[4]

Əli *(radiyallahu anhu)* deyir: "Allahım! **Məni *(günahımı)* bağışla** ki, Sən onu daha yaxşı bilirsən. Mən yenə **dönsəm,** *(ikinci dəfə onu törətsəm)* sən bağışlanmağı da mənə qaytar. Allahım! Mən özümlə bağladığım və mənim ona vəfalı olduğumu görmədiyin əhdimi *(əməl etməyi öhdəmə götürdüyüm itaət və bəndəliyi)* **bağışla.** Allahım! Dildə Sənə yaxınlaşmaq istəyimi, ürəyimin onun əksinə olmasını *(işin əvvəlində Sənə yaxınlaşmaq üçün ibadət və bəndəlik etsəm də, ondan sonra beynimə riya və özünü göstərmək kimi fikirlər gəldiyinə görə)* **bağışla.** Allahım! Gözümün ucunun işarələrini *(gözünün ucu ilə işarə edib mömina əziyyət verməyi və ya onun qeybətini edib arxasınca pis danışmağı)*, boş söhbətlərimi, ürəyimin arzularını və dilimin büdrəmələrini **bağışla.**"[5]

İmam Əli oğlu Həsənə Siffeyn döyüşündən sonra məktub yazaraq vəsiyyət edir. Bu məktub, vəsiyyət uzundur. Oradan ixtisarlarla bəzi hissələr belədir. Bu Nəhcul Bəlağada 31-ci məktubdur:

"**...Bilmədiyin şey barəsində söz söyləmə.** Sənə aid olmayan şey barəsində söhbət etmə. Azğınlıq olmasından qorxduğun yoldan çəkin..."

"...Sonra xalqın nəfsi istəklər və rəylərə uymaları səbəbindən şübhələrə düşüb ixtilafa düçar olduqları şey barəsində **sənin şübhəyə düşəcəyindən qorxdum**. Onu sənin yadına salmağa meylim olmasa da,

[1] "Əqaidul isna əşariyyə", 2/157,Beyrut
[2] "Əqidətul imamiyyə",səh 60
[3] "Əqidətul imamiyyə",səh 61
[4] Muhsin Hərrati, "Yaxşılığa dəvət,pis işlərdən çəkindirmək", səh 15,
[5] "Nəhcul bəlağa", xütbə 77

mənim üçün onu möhkəmləndirmək, **səni həlak və məhvediciliyindən əmin olmadığım işdə** təkbaşına buraxmaqdan daha xoşdur. Allahın, onda sənə qurtuluş və nicat müvəffəqiyyəti əta etməsini və səni düz yola hidayət etməsini diləyirəm. Beləliklə, bunları vəsiyyət edirəm sənə...."

"...Allahından kömək istə, müvəffəqiyyət qazanmağın üçün Ona üz tut və səni **şəkk-şübhəyə salan və ya zəlalət və azğınlığa aparan bütün pis işləri tərk et...** Buna görə də işlərdən hansısa sənə çətin gələndə, **onu sənin ondan xəbərsizliyin və nadanlığın hesab et.** Çünki, sən yaradılışının əvvəlində nadan idin, sonra bilik sahibi oldun. **Sənin bilmədiyin, düşüncənin barəsində sərgərdan qaldığı, görmənin azdığı və sonra görüb dərk etdiyin şeylər çoxdur**. Buna görə də yaradan, ruzi verən və gözəl əndamını xəlq edəndən yapış. İbadət və bəndəliyin Ona olsun, Ona üz tut və qorxun Ondan olsun..."

"Sənlə Özü arasında Onu səndən ayıracaq bir kimsə qoymayıb. Səni Onun yanına şəfaətçi və vasitəçi aparmağa məcbur etməyib. Pis iş görəndə tövbə etməyinə mane olmayıb*)* cəza verməyə tələsməyib. Rüsvay edilməyə layiq olduğun yerdə rüsvay etməyib səni. Tövbənin qəbul edilməsində səni əziyyətə salmayıb. **Günahlara görə** səni sıxıntıya salmayıb və rəhmətindən naümid etməyib. Hətta, sənin özünü günahdan saxlamağını yaxşı iş kimi dəyərləndirib. **Sənin günah və pis işini** bir günah, yaxşı və gözəl işini isə on bərabər hesab edib...."

"...etdiyin günah zamanı haqlayaraq sənlə fikrin arasında ayrılıq salmasından qorx və çəkin. Həmin vəziyyətdə sən özünü məhv etmisən....Tamah və hərislik dəvələrinin səni sürətlə həlak suyunun başına aparmasından çəkin...Arzulara güvənmək və dalmaqdan çəkin."

Allah xətrinə! Bütün günah və səhvlərdən uzaq olan insan belə dua edərmi?!

İmam Zeynəlabiddin buyurur: "Ey Rəbbim! Öz ibadətlərimi sayarkən, onları bir heç görürəm. **Öz günahlarımı etiraf edərkən, onları hədsiz sayda görürəm.** Sən heç bir quluna hətta, ən günahkar qulundan belə üz döndərməzsən. Elə isə məni bağışla Ey Rəbbim!....İblis mənə sənə üz tutduğum anda, kiçik və böyük günahlardan qaçınarkən yetişdi ki, bunlar məni məhv edə bilərdilər. **Mən günah edəndə və sənin qəzəbini qazananda isə şeytan məni tərk etdi."*(müxtəsərlə)***[1]

Çox qəribədir ki, www.alshia saytında haşiyədə yazılıb. "Bu duanı imam gecə namazlarından sonra deyərdi və günahlarını etiraf edərdi."

O, həmçinin duasında deyir:"Ey Rəbbim! **Günahlarımın ağırlığını üzərimdən götürməni səndən diləyirəm.** Bu ayaq üstə dayanmağa

[1] "Səhifə səccadiyyə", dua № 32

qoymayan yükü daşımada mənə yardım et!.... Muhəmməd və onun əhlinə salam göndər və özümə zülm etdiyimə görə məni bağışla!...Muhəmməd və onun əhlinə salam göndər və məni günahları bağışlananların öncüsü et!.“[1]

İmam duasında: **“....Məni öz əməllərimə görə məhv etmə**, mənim əməllərimə irad tutub, mənim gizli sirrlərimi faş etmə. Gizli olanları üzə çıxartma və mənim əməllərimi ədalətlə mühakimə etmə. İnsanlardan ən yaxşı olanlarına mənim qəlbimi açma və onlardan mənim utanacaq işlərimi gizlət. Onlara məni rüsvay edəcək gizli əməllərimi açma....”[2]

O, deyir: **“Bu dəqiqə sənin önündə günahların əlində oyuncaq olaraq günah və zəlalətlərə getməyə müsaid olan dayanıb. İblis ona hücum etdi və qalib gəldi. Onda o sadəlövcəsinə ona əmr etdiyini etmədi və təkəbürcəsinə ona yasaq etdiyini edirdi....”**[3]

İmam həmçinin, duasında deyir: “Ya Rəbb! Sənin qulun dualarını dilində, gözü aşağı dikilərək, önündə dayanmışdır. O, zəlilcəsinə başını əymiş və Sənin daha yaxşı bildiyin qəlbinin gizli sirrlərini sənə etiraf etmişdir**. O, dinməzcə Sənin daha yaxşı bildiyin günahlarını sadalayır.** O, Sənin əmrlərini pozmaqdan və özünün pis addımlarından danışır ki, bunlara görə Sən onu alçaltdın, o günahlara görə ki, onların dadı tez keçir və acılı aqibəti isə keçmək bilmir.”[4]

İmam deyir**: “Ey Rəbbim! Bu dayandığım yerdə mən kiçik və böyük günahlarımdan, gizli və aşkar zülmlərimdən, keçmiş və indiki günahlarımdan tövbə edirəm. Mən önündə hətta bundan sonra Sənə günahları haqqında danışmayacaq və öncəki günahları ağlından belə keçirməyəcək bir adam kimi dayanmışam.”**[5]

O, duasında deyir: **“Ey Rəbbim! Səndən öz cahilliyimə görə əhv və mənim günahlarımı bağışlamanı diləyirəm!....Ey Rəbbim! Önündə dayanarkən mən qəlbimin hər günah meyllərindən, günah baxışdan, günah sözdən ki, ağzımdan çıxıb və sənin rızana tərs gəlir, istiğfar diləyirəm. Qoy mənim əzalarım salamat və Sənin dəhşətli əzabından amanda olsunlar, o əzabından ki, fasiqlər və zalimlər qorxu içində olacaqlar.”**[6]

---

[1] “Səhifə səccadiyyə”, dua №39
[2] “Səhifə səccadiyyə” dua №41
[3] “Səhifə səccadiyyə”, dua №31
[4] “Səhifə səccadiyyə”, dua №31
[5] “Səhifə səccadiyyə”, dua №31
[6] “Səhifə səccadiyyə”, dua №31

SubhənAllah! Şiələrin bizim kitablarda Əbu Bəkr və Ömərin belə sözlər dediyini oxuduqda nə hal alacaqlarını təsəvvür etmək çətin deyil. Onlar bu səhabələrin fasiq, zalım və cahil olduqlarını deməyə tələsərdilər!

Şiəliyə görə imamların yaradılış keyfiyyəti

Xomeyni "Zubdətul Ərbainə hadisən"adlı kitabında yazır: **"Ağah ol ki, ismət evinin əhalisi (imamlar) aləmlərin yaradılmasından öncə qeybi məkanda Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **şərikdirlər.... Hədisi şəriflərdə bunlar varid olmuşdur: "Ey Muhəmməd! Allah Təala vəhdaniyyəti ilə tək idi. Sonra Muhəmmədi** *(sallallahu aleyhi və səlləm)*, **Fatimə** *(əleyhisalam)* **və Əlini** *(əleyhisalam)* **yaratdı. Min il boyu gözlədilər. Daha sonra Xaliq bütün əşya və məxluqu yaratdı. Onları da bunların xəlq olunmasına şahid tutdu. Onlara itaəti məxluqatın üzərində vacib etdi. Məxluqun işlərini onlara həvalə etdi. Onlar istədiklərini halal vəya haram edə bilərlər. Allahın iradəsinin xaricində bir şey istəyə bilməzlər....Onlar haqqında mötəbər kitablarda varid olanlar ağılları heyrətə salır. Belə ki, özlərindən başqa heç kəs onların həqiqət və sirrlərinə vaqif olmamışdır. Allahın salamı və bərəkəti onların üzərinə olsun."**[1]

Xomeyninin nəzərdə tutduğu mötəbər kitabda bunlar yazılıbdır. O, məhz bunlara əsaslanır."Kafi"də imam Rzadan gələn uzun bir hədisdə deyilir: **"Ümmətdən heç kim imamətin dəyərini, ölçüsünü və yerini bilə bilərmi? Şübhəsiz ki, imamət ölçü olaraq ən münasib, şərəf olaraq ən uca, yer baxımından ən uca, insanların ona ağılları ilə, fikirləri ilə nail olma, ya da öz istəkləri ilə imam təyin etmədə ən uzaq olanıdır....İmam günahlardan təmizlənmiş, qüsur və nöqsanlıqlardan uzaqdır. Elm ona məxsusdur. O, dinin nizamı, müsəlmanların izzətidir. Münafiqlərin qəzəbi və kafirlərin həlakıdır. İmam dövrünün adamıdır. Heç kim ona yaxınlaşa bilməz, heç bir alim ona bərabər ola bilməz. Onun yerini heç bir şey tuta bilməz. Onu dərk etmək üçün sayıla biləcək heç bir misal yoxdur. Heç bir şey onun kimi deyildir, bənzəri yoxdur. Bütün bu fəzilətlər istənilmədən ona verilmişdir... İmamın bir şeyini dərk etməyə görə ağıllar azar, yaxşı münasibətlər ortadan itər, ağıllar heyrət edər, gözlər pərişan olar, həkimlər heyrət içində qalar,a qil adamlar cahilləşir, şairlər hikməti itirərdi. Buna görə insan öz acizliyini və qüsurunu qəbul**

[1] "Zubdətul Ərbainə hadisən", səh 232; Beyrut

edər. Bunlar sadəcə bir imama aiddir. Bəs bütün imamlar necə vəsf olunub, tanınır və ya onun hər hansı bir işi necə başa düşülür? Onun məqamında və dərəcəsində kim ola bilər?İmam alimdir, cahillik etməz. Nəzəri itidir, etdiyindən geri çəkilməz. Müqəddəs və təmiz bir mədəndir. O,günahsız olaraq dəstəklənir. Müvəffəq olunmuş, səhvlərdən və günahlardan əmin qılınıb. Bütün bunlar Allah qullarının üzərinə hüccət və məxluqatı üzərinə şahid olması üçün ona məxsus edilmişdir."[1]

Rza Müzəffər yazır: **"İmamın göstərişi Allahın, onu qadağası isə Allahın qadağasıdır. Onlara itaət Allaha, onlara asilik isə Allaha asilikdir."**[2]

Şiə təqlid mərci`i olan Mirzə Həsən əl Hairiyə belə bir sual verdilər.

Sual: **"İmam Əli Musadan** *(əleyhissəlam)* **daha fəzilətli olduğuna görə imamın "Mən Musanın əsasıyam" sözünün mənası nədir? İmam Əli "məndən daha böyük ayət nədir?" deyərkən, bu Musa üçün bir möcüzə ola bilərmi? Ətraflı izah etmənizi xahiş edirəm. Təşəkkür edirəm."**

Cavab: **"Bu mübarək kəlmənin iki təfsiri və iki mənası vardır.**

a) **Əleyhissəlam özünü Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **nisbətdə Musanın əsası mərtəbəsində gördüyünü nəzərdə tutur. Özünün elmi, möcüzələri və kəramətləri ilə qardaşının peyğəmbərliyini isbat edən ən böyük ayət, ən böyük möcüzə olduğunu demək istəyir.**

b) **Musanın** *(əleyhissəlam)* **əsası üzərində söz sahibidir. Onun vilayətinin təsiri olmasaydı Musanın əsası ilana dönməzdi. Böyük nüfuzu və əzmli vilayəti ilə bütün peyğəmbərlərin möcüzələrinin, kəramətlərinin təsirli olması üçün onlara yardım edən odur. O,ayəti-kübra və nəbəyyi əzimdir."**[3]

Ayətullah Cəvad Təbriziyə belə bir sual verdilər:

Sual: **"Peyğəmbər və Əhli beytin ruhları və bədənlərinin aləmlərin yaradılmasından öncə mövcud olması və Adəmin yaradılmasından öncə var olması barədə fikriniz nədir? Çünki, Allah Təala onların surətlərini ərşin çevrəsində qoymuşdu.Buna cavabınız nədir?"**

Cavab: **"Onlar (məsumlar) nurani varlıqları ilə Adəmin yaradılmasından öncə mövcud idilər. Maddi varlıqları isə bilindiyi kimi Adəmin yaradılmasından sonra olmuşdur."**[4]

---

[1] "Kafi", 1/199

[2] "Əqidətul imamiyyə",səh 65

[3] "Din beynəs sail vəl mucib", 2/72; Kuveyt

[4] "Sıratun nəcat", 3/438-439,Kuveyt

Müasir alim Əbdulhüseyn əl Əmini ən Nəcəfi deyir: **"İmamlar imam Əlinin sülbündən olan Allahın övladlarıdır."**[1]

Peyğəmbərə verilmiş bütün dərəcə və fəzilətlər imamlara da verilmişdir

"Kafi"də bir hədisdə "Bir adam imam Əbu Cəfərə dedi: **"Ey Rəsullahın oğlu! Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **daha elmlidir, yoxsa möminlərin əmiri Əli? İmam Əbu Cəfər dedi: "Bu adamın nə dediyini eşidirsiniz?Allah istədiyi kimsənin qulaqlarını açar. Mən onunla danışdım. Şübhəsiz ki, Allah Peyğəmbərlərin elmlərini Muhəmməddə** *(sallallahu aleyhi və səlləm)* **toplamışdır. Eyni zamanda bütün bu elmləri möminlərin əmirində də toplamışdır. Bu adam da gəlib, onun yoxsa Peyğəmbərlərin daha elmli olduğunu soruşur."**[2]

Mühəddis şeyx Səduq "Fədailuş şia" kitabında **"Əlinin mərtəbəsi Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **mərtəbəsi kimidir"** fəsili ayırıb və bu fəsildə ilk olaraq Muhəmməddən *(sallallahu aleyhi və səlləm)* belə hədis rəvayyət edir: **"Niyə bəzi insanlar Allah qatında mənim dərəcəmə bərabər birini xatırlayırlar?"**

Seyyid Şubbar kitabında yazır: **"...Hər bir fəzilət və dərəcəki Peyğəmbərə verilib, eyni ilə imamlara da verilmişdir."**[3]

Hər iki sitatı cəm edəndə bu nəticə çıxır: Şiələr on iki imamı digər bütün peyğəmbərlərdən üstün hesab edir və onları Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* bərabər hesab edirlər. Onlar Əlini Allahın adı hesab edirlər!

Dəstağeyb Şirazi deyir: **"Allahın adı kainatın və bütün məxluqatın parçalarını əhatə edir. Fəqət, Allahın ismi azəm (böyük adı) adı da vardır....Bu böyük söz Allahın müzəffər aslanı Əli ibn Əbu Talibdir."**[4]

Şiələrə görə imamlara vəhy gəlir

Seyyid Şubbar imam Baqirdən rəvayyət edir: **"İmam vəhy mələyinin səsini eşidir, amma onu nə həqiqətdə, nədə yuxuda görmür."**[5]

---

[1] "əl Ğadir", səh 214,216
[2] "Kafi", 1/223
[3] "Şərhul ziyarətul camiə", səh 71
[4] "Quranın mənəvi dəyəri", fəsil "Əli ulu işarə,gözəl söz və Allahın ulu adıdır",səh 235
[5] "Şərhul ziyarətul camiə", səh 17

Həmçinin, yenə Şubbar Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* rəvayyət edir ki, o Əli haqqında demişdir: **"Əgər bilmirsinizsə agah olun. Məndən sonra bu adama vəhy gələcəkdir."**[1]

İmam Baqir deyib: **"Qədr gecəsi məsum imama il ərzində baş verəcək hadisələrin izahı endirilir."**[2]

Şiələrə görə imamlar Allahın şəriətini dəyişə bilərlər

"Kafi"də imam Rza deyir: **"İnsanlar itaətdə bizim qullarımız, dində isə bizim dostlarımızdır."**[3]

Mühəddis Əbu Amr Muhəmməd Kəşşi öz kitabında Həmdveyhin belə dediyini nəql edir: **"Bizə Muhəmməd ibn Hüseyn ona Həkəm ibn Miskin Səqəfinin ona Əbu Həmzə Məqil İclinin ona Abdullah ibn Yəfurun belə bir hədis danışdığını demişdir: "Mən Əbu Abdullahaha dedim: "Allaha and olsun ki, sən bir payı ikiyə bölüb desən ki, bu halaldır, bu haram, mən sənin halal dediyinə halal, haram dediyinə haram deyərəm. O dedi: "Allah sənə rəhm eləsin, Allah sənə rəhm eləsin!"**[4]

Ayətullah Meşkini yazır: "**Mehdi zühur edəndən sonra yalnız peyğəmbərlik mənsəbindən savayı, sonuncu peyğəmbərin bütün vəzifələrini icra edəcək. O cümlədən, o həzrətin ilahi hökmlər üzərində də hakimiyyəti olacaq. Yəni, zamana və cəmiyyətin tələblərinə uyğun olaraq, onlara dəyişikliklər edə biləcək"**[5]

Ayətullah Cəfər Sübhani yazır: **"Buna görə də əgər məsum imamlar bir məsələnin halal və haram olması baradə söz söyləsələr, onlara tabe olmaq dinə tabe olmaq sayılır və bu dində bidət hesab olunmur."**[6]

Yəni, bu şiə alimlərə görə istənilən on iki imam bir şeyə halal və haram hökmü verə bilər. İmamların İslam şəriətini dəyişdirə biləcəyindən əlavə onlar hələ insanlara yəhudilərin qanunlarına görə hökm edirdilər!

Cuyəd əl Həmədani rəvayyət edir: **"Mən imam Zeynəlabiddindən soruşdum. "Hansı qanunlara əsasən siz hökm edirsiz?"**

---

[1] "Şərhul ziyarətul camiə",səh 23
[2] "Şərhul ziyarətul camiə", səh 22
[3] "Kafi", 1/187
[4] "Rical əl-Kəşşi",səh.215, Kərbəla çapı
[5] "Vacib və haram", səh 8, №4
[6] "Şiə əqidəsinin əsasları", səh 258

O, cavab verdi: "Davud nəslinin qanunlarına əsasən. Əgər biz bir məsələ ilə bağlı çətinlik çəkiriksə cavabı Ruhul Qüdsdən alırıq."[1]

Şiələrə görə imamlar hər şeyi bilir və hər elmə sahibdirlər

İstənilən müsəlmandan soruşanda ki, hər şeyi kim bilir, o mütləq "Allah" deyə cavab verəcəkdir. Şiədən bunu soruşduqda isə o "imam" deyəcəkdir. Kuleyni öz kitabında Əbu Abdullahdan rəvayyət edir:

"Əgər hansısa imam onun başına nələr gələcəyini və sonunun necə olacağını bilmirsə o Allahın qullarına hüccət sayıla bilməz."[2]

"Imamlar nə vaxt öləcəklərini bilirlər və onlar özləri istəmədən ölməyəcəklər" başlığı altında Kuleyni Əbu Bəsirin imam Cəfər ibn Baqirdən belə rəvayyət etdiyini yazır: "**O nə imamdır ki, qeybdən xəbəri olmasın, öz taleyini bilməsin. Allahın beləsini imam yaratdığını heç nə sübut edə bilməz.**"[3]

Əllamə Məclisi kitabında imam Sadiqdən olan rəvayyətdə yazır: **"Allaha and olsun ki, biz ilk və sonuncu elmləri almışıq." İmamın səhabələrindən biri qalxıb dedi: "Siz qeyb elmini bilirsiz?"**

İmam dedi: "Vay olsun sənə! Həqiqətən mən hər şeyi, hətta qadın bətnində olanı da bilirəm."[4]

"Miratul Ənvar mişkətul əsrar fi təfsirul Quran" adlı məşhur əsərində Seyyid Əbul Həsən əl Amili yazır: "Əli *(əleyhisalam)* dedi: **"Mən yer üzündə yaşayan Rəbb və imamam."**[5]

Təfsir alimi Əyyaşi "Safi" təfsirində[6] Kəhf 110 ayəsinin təfsirində buna bənzər rəvayyət nəql etmişdir.

Halbuki, Allah Təala buyurur: *"Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır."*[7]

---

[1] "Kafi", c.1, səh 695,№4 1036
[2] "Kafi", c.1, səh 427
[3] "Kafi", "Kitab əl-huccə", 1/258
[4] "Biharul Ənvar", 26/27
[5] "Miratul Ənvar mişkətul əsrar fi təfsirul Quran",səh 59
[6] c.2,səh 353
[7] Loğman 34

Kuleyni kitabının bir neçə fəslini bu ayənin inkarına həsr edib. O, kitabında **"İmamların nə zaman öləcəklərini bilməsi və yalnız öz istəkləri ilə öləcəyi"** və **"İmamlar keçmişdə olanları və gələcəkdə olacaqları bilir və heç bir şey onlardan gizli qalmaz"** kimi fəsillər tərtib etmişdir. Quran ayələrini və bu fəsilləri oxuduqda, bizə yalnız ayələri inkar edib, kafir olmaq, ya da bu fəsilləri çirkin bidət hesab edib, müsəlman olmaq qalır!

İmam Cəfər Sadiq deyib: **"Allaha and olsun ki, mən Quranı başdan sona qədər bilirəm. Göylərin və yerlərin elmi, olmuş və olacaq hadisələr hamısı mənim yanımdadır."**[1]

Kuleyni Cəfər Sadiqdən rəvayyət edir: **"Mən göylərdə və yerdə nə olanları bilirəm, cənnət də olanları bilirəm, cəhənnəmdə olanları bilirəm. Bu günə qədər olub keçənləri və olacaqlarıda."**[2]

Kuleyni imam Cəfərdən rəvayyət edir: "**.... Musa və Xızırın yanında olsaydım, onlara deyərdim ki, mən onların hər ikisindən çox bilirəm və onlara bildiklərini xəbər verərdim. Çünki, Musa və Xızıra keçmiş şeyləri bilmək bacarığı verilib, onlara gələcəkdə olacaq və Qiyamət gününədək olan hadisələri bilmək bacarığı verilməyib**"[3]

Allahu Əkbər! Bundan da böyük bidət ola bilərmi?!! Uca Allah Quranda buyurur: *"De: "Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, özüm üçün xeyir artırardım və mənə pislik toxunmazdı. Mən sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm."*[4]

Allah Təala həmçinin, buyurur: *"De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz. Onlar nə zaman diriləcəklərini belə bilmirlər."*[5]

Uca Allah buyurur: *"Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın."*[6]

Həmçinin: *"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən*

[1] "Şərhul ziyarətul camiə", səh 29
[2] "Kafi", c.1,səh 431, hədis № 2,674
[3] "Kafi", c.1, səh 431, hədis № 1,673
[4] Əraf 181
[5] Nəml 65
[6] Ənam 59

yalnız mənə vəhy olunana tabe oluram". De: "Məgər korla görən eyni ola bilərmi? Məgər düşünmürsünüz?"[1]

Allah özünün hər şeyi və qeybi bildiyini, Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* isə qeybi bilmədiyini buyurur! Şiələr iddia edir ki, imamlar hər şeyi bilir və onlara bunu peyğəmbər *(sallallahu aleyhi və səlləm)* öyrətmişdir!

"Kafi"də Əbu Abdullah deyir: **"Əgər imam bir şeyi öyrənmək istəsə Allah bunu ona mütləq öyrədər."**[2]

"Kafi"də bir hədisdə "imam Rza deyir: **"Biz yer üzündə Allahın əmin qıldığı şəxslərik. Bəlaları və müsibətləri bilmək elmi, ərəblərin bütün nəsil və nəsəbləri, İslamın zühuru bizim əlimizdədir. Biz adamı görən kimi onun mömin və ya münafiq olduğunu təyin edə bilirik. Bizim şiələrimizin və onların ata-babalarının adları əvvəlcədən yazılıb, Allah bizimlə və onlarla əhd-peyman bağlayıb."**[3]

Seyyid Şubbar imam Rzadan rəvayyət edir: **"Biz adama baxdıqda onun münafiq, yoxsa mömin olduğunu bilirik."**[4]

Bütün deyilənlərə əsasən şiələrə görə imamlar Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* daha çox biliklidir! Axı Uca Allah buyurur: *"Çevrənizdəki bədəvilərdən və Mədinə əhalisi arasında münafiqlər var. Onlar ikiüzlülükdə inadkarlıq göstərir, sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq. Biz onlara iki dəfə işgəncə verəcəyik. Sonra isə böyük bir əzaba qaytarılacaqlar."*[5]

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* münafiqləri tanımırdı! Axı qəlblərdə olanı Allahdan başqa heç kəs bilməz! Şiə imamı isə adama baxdıqda onun qəlbinin sirrlərini bilir.

Əli ibn Əbu Talib insanları cənnət və cəhənnəmə göndərəndir

Xomeyninin silahdaşı olan Ayətullah Seyyid Əbdulhüseyn Dəstağeyb Əlinin *(radiyallahu anhu)* adından rəvayyət edir: **"Əli ibn Əbu Talib demişdir: "Ey Haris! Hər ölən adam məni görür. Sən həmçinin məni Sirat körpüsünün başında görəcəksən. Mən orada Cənnət və Cəhənnəmi**

[1] Ənam 50
[2] "Kafi", 1/258
[3] "Kafi","Kitab əl-Huccə" fəsli 1/223
[4] "Şərhul ziyarətul camiə", səh 26
[5] Tövbə 101

insanlar arasında bölmək üçün olacam. Mən pisləri Cəhənnəmə, yaxşıları isə Cənnətə göndərəcəm."[1]

Bu rəvayyəti şeyx Səduq "İləl əş şəriə"kitabında nəql etmişdir.[2]

Allahu Əkbər! Halbuki, Allah Təala buyurur: *"Rəbbi onlara belə cavab verdi: "Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allahın dərgahındadır."*[3]

Yenə buyurur: *"Allah İsrail oğulları ilə əhd bağlamışdı. Biz onlardan on iki başçı təyin etdik. Allah dedi: "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, Mənim elçilərimə inanıb onlara yardım etsəniz və kasıblara könüllü yardım etməklə Allaha gözəl bir borc versəniz, əlbəttə, Mən təqsirlərinizdən keçər və sizi ağacları altından çaylar axan Cənnət bağlarına daxil edərəm. Sizlərdən kimsə bundan sonra kafir olsa, bilsin ki, artıq o, doğru yoldan azmışdır"*[4]

Hər kəs ölüm ayağında olarkən, Əlini görəcək sözlərinə gəlincə, Ayətullah Dəstağeyb buna belə izah gətirir: **"Əli** *(əleyhisalam)* **eyni anda min ayrı yerdə göründü. Onun ruhu təkdir. Lakin, bu ruh ilahi təcəllidir. Əllamə Məclisinin dediyinə görə mümkündür ki, istənilən an minlərlə insan ölüm anındadır. Əli** *(əleyhisalam)* **onların ölüm anlarında iştirak edə bilər."**

Sonra yazır: **"Əli hər şeydir və o bütün dünyanı əhatə edə bilər."**[5]

Maraqlıdır, görəsən bu alim "Əli bir ilahdır" sözünü daha açıq şəkildə söyləyə bilərdimi?! Şiələrin "İləl əş-şəriə" kitabında yazılır: **"Qiyamət günü Allah sağ tərəfdəki qullarına deyəcək: "Bu Əli bin Əbi Talibdir, cənnətin sahibidir, istədiyini ora daxil edər." Sonra isə soldakılara deyəcək: "Bu Əli bin Əbi Talibdir, atəşin sahibidir, istədiyini ora daxil edəcək."**[6]

Şiələr iddia edirlər ki, on iki imama xüsusi bir bulud verilmişdir! Şeyx Abbas Qummi "Sahibuzzaman" kitabında yazır: **"İmam Mehdiyə Allah**

---

[1] "Quranın mənəvi dəyəri" fəsli, "Əlinin dəfni" səh 257;İngilis dilində

[2] Səduq,"İləl əş şəriə",səh 196; https://www.anti-majos.org/viewtopic.php?f=28&t=418

[3] Ali İmran 195

[4] Maidə 12

[5] "Quranın mənəvi dəyəri" fəsil, "Hər zaman minlərlə insanın yanında olması", s. 256

[6] http://dhr12.com/images/w_b/1154758070.jpg

tərəfindən xüsusi ildırım və doluları ilə bulud verilmişdir. Bu məsum buluda binib, yerin və göyün yeddinci qatlarına gedə bilər."[1]

Kuleyninin yazdığına görə guya imam Baqir deyib: **"Biz Allahın qapısı, onun sözü(dili), üzü və məxluqatda görən gözüyük."**[2]

Məclisi yazır: "Səm`a ibn Mehran rəvayyət edir ki, o Əbu Abdullahın yanında olanda birdən göyün üzünü qara buludlar aldı və ildırımlar çağmağa başladı. **İmam Əbu Abdullah dedi: "Bütün bu ildırım və göy gurultuları ancaq sizin sahibinizdən gəlir." Biz soruşduq: "Bizim sahibimiz kimdir?" İmam dedi: "Bu Əli ibn Əbu Talibdir."**[3]

Ayətullah Şubbar imamları yarı ilahlıq səviyyəsinə qaldıraraq deyir: **".....Sizin sözlər Allahın sözündən kiçik, bütün məxluqatın sözlərindən isə əfzəldir."**[4]

Qısa nəticə çıxardaq: Şiələrə görə on iki imam Allah tərəfindən təyin olunur, onlar bütünlüklə günah və səhvlərdən uzaqdırlar. Onlar şəriəti istədikləri vaxt dəyişə bilərlər, Muhəmməddən *(sallallahu aleyhi və səlləm)* başqa bütün peyğəmbərlərdən üstündürlər. Onlar bütünlüklə keçmişdə olmuş, gələcəkdə olanları bilir və yalnız öz istəkləri ilə ölürlər...Bu siyahını çox uzatmaq olar. Lakin, biz bununla kifayətlənirik.

İmamların xüsusiyyətləri baradə həddi aşmaları

Şiələrə görə imamların xüsusiyyətləri və sifətlərini bilmək üçün onların mötəbər kitablarında mövcud olan fəsil başlıqlarını baxmaq kifayətdir. Bu fəsil adlarını oxuyan hər kəs Allahın izni ilə onların imamları ilahlıq dərəcəsinə qədər qaldırdığının şahidi olacaqdır. Aşağıda şiələrin ən mötəbər qaynaq əsərlərində imamətlə bağlı olan fəsillərin adları qeyd olunmuşdur:

1 – Muhəmməd ibn Yəqub əl Kuleyninin "əl Kafi" əsərindən:

Ayətullah Əbdulhuseyn Musəvi "Muraciət" kitabında yazır: **"Sünnə və rəvayyətləri özündə əhatə edən ən mötəbər mənbə "Kütubi-ərbəə"dir**

[1] "Sahibuzzaman", səh 40, 2004 il
[2] "Kafi", c.1,səh 235,№ 356
[3] "Biharul Ənvar", 27/33
[4] "Şərhul ziyarətul camiə", səh 158

ki, indiyə kimi on iki imami şiələrin üsuliddin və firuiddində dəlil və mənbələri sayılır. "Kütubi-ərbəə" mərhum Kuleyninin "Kafi", Şeyx Tusinin "Təhzib" və "İstibsar", mərhum Səduqun "Mən la yəhzuruhul-fəqih" kitablarından ibarətdir. Bu kitabların mötəbərliyində heç bir şəkk-şübhə yoxdur. Onların içərisində "Kafi" o birilərindən daha qədim və əzəmətlidir. Orada altı sünni hədis kitablarından daha çox olan 16199 hədis vardır."[1]

"Usuli Kafi"[2] nin fəsilləri:

- "İmamlar Allahın əmrləri və elminin xəzinadarlarıdır" fəsli.
- "İmamlar Allahın yer üzərindəki xəlifələri, özündən gələn qapılarıdır" fəsli.
- "İmamlar Allahın nurudur" fəsli.
- "Allahın kitabında zikr edilən ayələrin imamlar olması" fəsli.
- "Allah və Rəsulunun kainatdan fərz qıldlğı şeylərin imamlarla bərabər olması" fəsli.
- "Elmdə dərinlik sahibi olanlar imamlardır" fəsli.
- "Allahın qulları içərisindən seçdiyi və kitabına varis etdiyi kimsələrin imamlar olması" fəsli.
- "İmamlar bilmək istədikləri zaman bilərlər" fəsli.
- "İmamların nə zaman öləcəklərini bilməsi və yalnız öz istəkləri ilə ölə biləcəkləri" fəsli.
- "İmamlar keçmişdə olanları, gələcəkdə olacaqları bilir və heç bir şey onlardan gizli qalmaz" fəsli.
- "Allah Peyğəmbərinə öyrətdiyi bir elmi möminlərin əmirinə də öyrədilməsini əmr etməsi və elmdə onun şəriki olması" fəsli.
- "İmamlar üzərləri örtülsə belə hər kəsin lehinə və əleyhinə olanları bildirirlər" fəsli.
- "Din ilə bağlı məsələlərdə Rəsulullaha *(sallallahu aleyhi və səlləm)* və imamlara üz tutulması"fəsli.
- "Quranın imama hidayət etməsi" fəsli.
- "Allahın Quranda zikr etdiyi nemətin imamlar olması"fəsli.
- "Əməllərin Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* və imamlara ərz edilməsi"fəsli.
- "İmamlar elmin mənbəyi, peyğəmbərlik ağacı, mələklərin gediş-gəliş məkanı olması" fəsli.

[1] "Muraciət", məktub 110

[2] c.1

- “İmamlar elmin mənbəyidir və elmi bir-birilərinə miras buraxarlar” fəsli.
- “İmamların Peyğəmbərin *(sallallahu aleyhi və səlləm),* bütün əvvəlki peyğəmbərlərin və öncəki vəsilərin elminə miras olmaları” fəsli.
- “İmamların yanında Allah tərəfindən nazil olan bütün kitabların olması və dillərinin fərqli olmasına baxmayaraq onları bilməsi” fəsli.
- “İmamlar Davud və Davud ailəsinin hökmü ilə hökm edərlər. Dəlil istəməz və soruşmazlar” fəsli.
- “Quranı tam olaraq yalnız imamların bir araya cəm etməsi və Quranı tamamən bilmələri” fəsli.
- “İmamların cümə gecəsində daha çox istəmələri” fəsli.
- “İmamların mələklərə, peyğəmbərlərə və elçilərə çatan bütün elmlərə sahib olmaları” fəsli.
- “İmamlarda bütün kitablar vardır və onları dilləri müxtəlif olsa da oxuyub anlaya bilirlər” fəsli.
- “Möminlərin bütün əməllərini imamlar və Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* tərəzidə çəkəcəklər” fəsli.
- “İmamlar peyğəmbərlərdən daha alimdirlər” fəsli[1]

2 - Məclisinin “Biharul Ənvar” kitabında imamətlə bağlı fəsillər[2]:

- “Allah Təalanın qulların əməllərinə baxması məqsədi ilə imam üçün bir sütün yaratması” fəsli.
- “Öz şiələrinin hallarından və imamların ehtiyyac duyduqları elmlərdən heç bir şeyin gizli qaimaması, başlarına gələcək bəlaları bilmələri, bunlara səbr etmələri, bu bəlaların dəf olunması üçün Allaha dua etsələr, dualarının qəbul olunacağı, qəlblərdə olanı, ölümlər, doğumlar və bəlalarla bağlı elmləri bilmələri” fəsli.
- “Mələklərin və peyğəmbərlərin bütün elmlərinə sahib olmaları, Allahın peyğəmbərlərə bəxş etdiklərinin onlara da bəxş edildiyi, hər bir imamın özündən əvvəlki imama bütün elmi bildirdiyi və yer üzünün alimsiz qalmayacağı” fəsli.
- “Peyğəmbərlərin kitablarının imamlar yanında olması və bu kitabların dilinin fərqli olmasına baxmayaraq onları bilmələri”fəsli.

[1] Bu fəsildə 30 rəvayyət nəql olunur

[2] c.23-27

- “İmamların dilləri və lüğətləri bilmələri və bunlarla danışa bilmələri” fəsli.
- “İmamların nə vaxt öləcəklərini bilmələri və bunu ancaq öz istəkləri ilə qəbul edəcəkləri” fəsli.
- “Ölümdən sonrakı halları, ətlərinin yerə haram olması və göyə yüksəlməsi” fəsli.
- “Öldükdən sonra da görüldükləri və özlərindən qəribə hallar izhar etdikləri” fəsli.
- “Adlarının ərş, kürsü, lövhi-məhfuz, mələklərin alınları, cənnətin qapısı və digər yerlərdə yazılması” fəsli.
- “Cinlərin imamlara görünməsi, xidmət etmələri və dinlərini onlardan öyrənmələri” fəsli.
- “Ölüləri diriltməyə, əbras xəstələrini, korları sağaltmağa, peyğəmbərlərin bütün möcüzələrini etməyə qadir olmaları” fəsli.
- “Buludların imamların əmrinə verildiyi və səbəblərin asanlaşdırıldığı” fəsli.
- “Peyğəmbərlərdən və bütün məxluqatdan üstün olmaları, onlardan, mələklərdən və digər məxluqatdan miras aldıqları və ulul-əzm peyğəmbərlərin imamları sevməklə ulul-əzm peyğəmbərlər olmaları” fəsli.[1]
- “Peyğəmbərlərin dualarının imamlara təvəssül edərək və şəfaətləri istənildiyi halda qəbul edilməsi” fəsli.
- “Mələklərin onlara gəlmələri, döşəklərinə basmaları və imamlar tərəfindən görüldükləri” fəsli.
- “Göy üzünün, yerin, cənnət və cəhənnəmin elminin onlardan gizli olmaması, göylərin və yerin mələklərinin onlara ərz edilməsi, keçmişdə olanları və qiyamətədək olanları bilmələri” fəsli.
- “İmamların insanlara imanın və nifaqın əlamətlərini öyrətmələri, içərisində cənnət əhlinin, öz şiələrinin və düşmənlərinin adlarının olduğu bir kitabın yanlarında olması” fəsli.
- “İmamlara məhəbbət duyan heyvanlar, quşların qanadlarına onların üstünlüklərinin yazılması, heyvanların və quşların dillərini bilmələri” fəsli.
- “Cansız varlıqların və bitkilərin imamların vilayətini iqrar etmələri” fəsli.
- “İmamlar ölümlərindən sonra dünyaya yenidən qayıdacaqlar” fəsli.

[1] bu fəsildə 88 rəvayyət zikr etmişdir.

3 - Səffarın "Bəsairul dərəcat" kitabında olan fəsillər:

- "Əməllərin Rəsulullah *(sallallahu aleyhi və səlləm)* və imamlara ərz edilməsi" fəsli.
- "Əməllərin ölü və diri olan imama ərz edilməsi" fəsli.
- "İmamlar üçün tikilmiş sütunda əməllərin özlərinə ərz edilməsi və analarının bətnində ikən imamlara nələr edildiyi" fəsli.
- "İmamın şərqi və qərbi nur ilə görməsi" fəsli.
- "İmamların yer üzündə azalan və artan haqq və batili bilmələri" fəsli.
- "İmamların ölüm, bəla, ərəb nəsilləri və s.elmləri bilmələri" fəsli.
- "İmamların ölüləri diriltmələri, korları və s.xəstələri Allahın izni ilə sağaltmaları" fəsli.
- "İmamın özünün yarandığı palçığın öz şiələrinin üzündə və adlarında olması səbəbi ilə öz şiələrini və düşmənlərini ayırd edə bilməsi" fəsli.
- "Əmirəlmöminin buluda minərək səmaya və kainata yüksəlməsi" fəsli.
- "Allahın Taif və digər yerlərdə əmirəlmöminin ilə danışması" fəsli.
- "İmamların göydə, yerdə, cənnət və cəhənnəmdə olanları, keçmişdə olanları və qiyamətədək olacaqları bilməsi" fəsli.
- "İmamların heyvanların danışığını bilməsi, heyvanların onları tanıması və onları çağırdıqda yanlarına gəlməsi" fəsli.

İmamların qəbrini ziyarət etmə haqqındakı həddi aşmaları

1 - Əbul Qasim Cəfər ibn Muhəmməd ibn Kəvləviyə aid olan "Kamiluz Ziyarət"[1] adlı kitab:

Qumda bu kitabın təhqiqini aparan "Muəssisətu Nəşril fəqaha" nəşriyyat evi əsər haqqında bunları yazır: **"Əshabımız (şiələr) arasında bu əsər tanınmış və məşhur əsərdir. Etimad edilən ən mötəbər qaynaqlardandır. "Təhzib"də şeyx Hurr Amili kimi mühəddislər bu əsərdən istifadə etmişlər. Hədis, ziyarət və digər mövzularda yazan müəlliflər bu əsərdən istifadə etmişlər. Bu əsər ziyarətlərlə bağlı**

[1] "Darus Surur"nəşr.Beyrut,1997 il

məsələləri və bunun fəziləti ilə bağlı imamlardan varid rəvayyətləri özündə əks etdirir."[1]

Müəllif özü kitabı haqqında bunları əsərinin müqəddiməsində yazır: **"Əzm etdim, bunu düşünməklə məşğul oldum. Allahdan imamların hədislərini təhric, bir araya gətirə bilməm üçün yardım istədim…. Əshabımızdan siqa olanlar cəhətindən bizə vaqif olanları bir araya gətirdik. Şazz ricaldan rəvayyət olunan heç bir hədisi bu kitaba salmadım. Kitabın adını "Kamiluz Ziyarət" qoydum."**[2]

<u>Kitabda olan bablar: (fəsillər)</u>

Fəsil 58: "Hüseyni *(əleyhisalam)* ziyarət etmək ola biləcək ən fəzilətli əməldir."

Fəsil 59: "Hüseyni *(əleyhisalam)* ziyarət edən Allahı ərşdə ziyarət etmiş kimidir"

Fəsil 60: "Hüseyn *(əleyhisalam)* və imamların ziyarət edilməsi Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* qəbrini ziyarət etməyə bərabərdir"

Fəsil 61: "Hüseyni *(əleyhisalam)* ziyarət etmək ömrü və ruzini artırar, ziyarətin tərk olunması isə azaldar."

Fəsil 62: "Hüseyni *(əleyhisalam)* ziyarət etmək günahları silər."

Fəsil 63: "Hüseynin *(əleyhisalam)* ziyarət edilməsi ümrəyə bərabərdir"

Fəsil 64: "Hüseynin *(əleyhisalam)* ziyarət edilməsi həccə bərabərdir."

Fəsil 65: "Hüseynin *(əleyhisalam)* ziyarət edilməsi həccə və ümrəyə bərabərdir."

Fəsil 67: "Hüseynin *(əleyhisalam)* ziyarət edilməsi qul azad etməyə bərabərdir."

Fəsil 68: "Hüseynin *(əleyhisalam)* ziyarətçiləri şəfaət olunmuşlardır."

Fəsil 69: "Hüseynin *(əleyhisalam)* ziyarət edilməsi sıxıntıları aradan qaldırar."

Fəsil 91: "Hüseynin *(əleyhisalam)* qəbrindən müstəhəb olan torpaq və bu torpağın şəfa verməsi."

Fəsil 92: "Hüseynin *(əleyhisalam)* torpağının şəfa və əmniyyət olması."

---

[1] səh 1

[2] səh 37

Fəsil 93: "Hüseynin *(əleyhisalam)* qəbir torpağı haradan və necə alınar."

Fəsil 94: "Hüseynin *(əleyhisalam)* qəbir torpağının yeyildiyi vaxt insanın nə deyəcəyi."

Fəsil 53: "Hüseyni *(əleyhisalam)* ziyarət edənlərin cənnətə digər insanlardan daha tez daxil olacaqıarı."

2 - "Nurul ayn fil məşyi ilə ziyarəti qəbril Hüseyn adlı kitabda "imamların qəbirlərini ziyarət etmənin fəziləti"nə dair fəsillər[1]:

- "Hüseyni *(əleyhisalam)* ziyarət edənə qiyamət günü şərq ilə qərb arasını nurlandıracaq bir nur veriləcəyi" fəsli.
- "Onu ziyarət etmənin oddan xilas etməsi" fəsli.
- "Hüseyni *(əleyhisalam)* ziyarət etmə 50 illik günahları silər" fəsli.
- "Hüseyni *(əleyhisalam)* ziyarət etmə 22 ümrəyə bərabərdir" fəsli.
- "Hüseyni *(əleyhisalam)* ziyarət etmə hazır olmamış həcc və ümrə ziyarətinə bərabərdir" fəsli.
- "Hüseyni *(əleyhisalam)* ziyarət edənlərə Allahın təcəlli edib, onlarla danışması" fəsli.
- "Hüseyni *(əleyhisalam)* cümə axşamları Allahın ziyarət etməsi" fəsli.
- "Peyğəmbərlərin Hüseyni *(əleyhisalam)* ziyarət etmələrini Allahdan istəmələri" fəsli.
- "Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* və Əhli beytin "Hüseynin *(əleyhisalam)* qəbrini ziyarət etmələri" fəsli.
- "İbrahimin *(əleyhisalam)* Hüseyni *(əleyhisalam)* ziyarət etməsi" fəsli.
- "Mələklərin Hüseyni *(əleyhisalam)* ziyarət etmək üçün Allahdan izn istəmələri" fəsli.
- "Keçən elə bir gecə yoxdur ki, Cəbrayıl, Mikayıl Hüseyni *(əleyhisalam)* ziyarət etməsin" fəsli.
- Allah Təala göy üzü mələklərinə və ərşi daşıyan mələklərinə qarşı Hüseyni *(əleyhisalam)* ziyarət edənlərlə öyünür" fəsli.
- "Allah Təala Hüseyni *(əleyhisalam)* ziyarət edənlərə onların ziyana uğramayacaqları vədini vermişdir" fəsli.
- "Hüseynin *(əleyhisalam)* qəbrinin ziyarət edilməsi Rəsulullah *(sallallahu aleyhi və səlləm)* ilə edilmiş 30 məqbul həccə bərabərdir" fəsli.
- "Hüseyni *(əleyhisalam)* ziyarət edən Allahı ərşdə ziyarət etmiş kimidir" fəsli.

[1] Müəllif, şeyx Muhəmməd Həsən əl Əstahbənati "Darul Mizan", Beyrut

- "Hüseyni *(əleyhisalam)* ziyarət edən Allahı kürsüsü üzərində ziyarət etmiş kimidir" fəsli.
- "Hüseynin *(əleyhisalam)* qəbrini ziyarət edən illiyunun ən yüksək dərəcəsindədir" fəsli.
- "Allahın özünə çoxlu baxmasını istəyən kimsə Hüseynin *(əleyhisalam)* qəbrini çoxlu ziyarət etməlidir" fəsli.

3 – Şiələrin imam Hüseynin torpağını yeməsi və imamların artıqları baradə olan fətvaları:

Kərbəla ziyarəti zamanı imam Hüseynin torpağının yeyilməsi şiələr üçün caizdir. Şiələrin təqlid mərci`ilərindən çoxu "Yeyiləcəklər və içiləcəklər"lə bağlı hökmlərdə bunu bəyan etmişlər.

Belə fətva vermiş alimlər:

- Ayətullah uzma Xomeyni - "Təhrirul Vəsilə"
- Ayətullah uzma Mirzə Həsən əl Əhkaqi - "Əhkamuş şia"
- Ayətullah uzma Mirzə Abdurrasul əl Əhkaqi - "Əhkəmuş şəri`a"
- Ayətullah uzma Muhəmməd Hüseyni əş Şirazi - "əl Məsailul İslamiyyə"
- Ayətullah uzma Əli əl Hüseyni əs Sistani - "Minhəcus salihin"
- Ayətullah uzma Əbul qasim əl Xoyi - "Minhəcus salihin"
- Ayətullah uzma Muhəmməd Fazil Lənkərani - "əl Əhkamul vadihə"
- Ayətullah uzma Cəvad Təbrizi – "Məsailul Muntəhabə"

Xomeyni yazır: **"İmam Kuleyni öz ardıcıllarına imam Hüseynin** *(əleyhisalam)* **türbətinin torpağını şəfa üçün yeməyi tövsiyyə edərdi və deyərdi ki, imam Hüseynin qəbrindən götürülmüş gili şəfa məqsədi ilə istifadə edin. Amma, bunu çoxlu sayda yeməyin, udmayın, yalnız bir loxum olaraq qəbul edin və bilin ki, bu gilə heç bir torpaq, hətta Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **qəbrindən götürülmüş torpaq belə bərabər ola bilməz."**[1]

Ayətullah molla Zeynəlabiddin əl Kəlbeykani "Ənvərul vilayə" adlı əsərində "Kafi"[2]də olan rəvayyəti nəql edərək deyir:

"Məsumların idrarlarında, qanlarında, artıqlarında namazdan çəkinməyi vacib edən bir nəcasətlik yoxdur. İmamların idrarlarında və artıqlarında bir çirkinlik, iyrəncilik yoxdur. Çünki, onlar bir

[1] "Təhrirul Vəsilə", 8/164
[2] 1/388

müşkdürlər. Hər kim onların idrarlarından, artıqlarından və qanlarından içərsə Allah ona odu haram edər və Cənnətə girməsi vacib olar."[1]

"Kafi"kitabını şərh etmiş Saleh əl Məzandarani Kuleyninin rəvayyəti haqqında deyir: **"...artıqlar yəni, insandan xaric olan nəcis və yel."**[2]

Kərbəla torpağının Məkkə torpağından üstün hesab edilməsi

Çox maraqlıdır ki, görəsən şiələr niyə görə həcc edirlər? Onların sözlərinə və kitablarına əsasən Hüseynin *(radiyallahu anhu)* məqbərəsini ziyarət edən daha çox savab alırsa, həcc onların nəyinə gərəkdir? İstənilən halda, müsəlmanlar Müzdəlifədə Allaha dua edərkən, şiələr adətlərinə görə təziyyə məclisləri təşkil edir və yalançı göz yaşları tökməyə çalışırlar.

Ayətullah Muhəmməd Hüseyn Şiraziyə sual verdilər:

Sual: **"Deyirlər ki, Kərbəla ərazisi Məkkə ərazisindən və Hüseynin torpağına səcdə, Məkkə torpağına səcdədən daha əfzəldir. Bu doğrudurmu?"**

Cavab: **"Bəli..."**[3]

Həmçinin, əllamə seyyid Abbas Hüseyn əl Kəşani "Məsabihul cinan" kitabında "Kərbəlanın digər yerlərdən daha üstün olması" adında bir fəsil tərtib etmiş və o fəsildə yazır:

"Şübhə yoxdur ki, İslamda Kərbələdan daha üstün yer yoxdur. Çünki, oranın müqəddəsliyi haqqında varid olan nasslar başqa şərəfli yerlər haqqında varid olan nasslardan daha çoxdur. Beləcə, bu Allahın müqəddəs və mübarək bir yeri, Allaha boyun əyən torpağı, Allahın seçilmiş əmin və mübarək hərəmi, Allah və Rəsulunun hərəmi və İslamın qübbəsi olmuşdur. Bura Allahın orada dua və ibadət edilməsini istədiyi yerlərdəndir. Allahın torpağı, şəfa olan bir ərazisidir. Bu və bunun kimi fəzilətlər heç bir yer üçün hətta, Kəbə üçün də gəlməmişdir."[4]

Digər kitabında qeyd edir ki, imam Hüseynin qəbrinin ziyarət edilməsi Həccdən daha əfzəldir.

"Nəfasul məhmum" kitabında o imam Cəfərdən nəql edir: **"Varlı insan imam Hüseynin qəbrini ildə iki dəfə ziyarət etməlidir. Kasıb isə**

---

[1] "Ənvarul Vilayə", səh 330; https://www.anti-majos.org/viewtopic.php?f=18&t=242

[2] "Şərh əl Kafi",səh 392

[3] "əl fiqh əl əqaid", səh 370,Məktəbətul cinanil qadir,Kuveyt

[4] Abbas əl Kəşani, "Məsabihul Cinan", səh 360 "Darul fiqh" İran

ildə bir dəfə ziyarət etməlidir. Bu yerin yaxınlığında yaşayanlar isə ən azı ayda bir dəfə onu ziyarət etməlidirlər. Biraz uzaqda qalanlar isə ildə üç dəfə ziyarət etməlidirlər."[1]

Bu kitab və müəllifi haqqında Ayətullah uzma Muhəmməd əl Hadi Milani və əllamə, müctəhid Muhəmməd əl Mehdi əl Huvənsari tərəfindən tərif dolu sözlər yazılmışdır. Müsəlmanlar bilir ki, Həcc insana həyatda bir dəfə fərzdir və ora getmək üçün maddi imkanı olması da şərtdir. Amma, gördüyümüz kimi imam Hüseynin qəbrinin ziyarət edilməsi varlılar üçün ildə iki dəfə, bir dəfə isə imkansızlar üçün vacibdir.

Onlara görə qəbirlərdə namaz məscidlərdə qılınan namazdan daha əfzəldir. Əli Sistani kitabında yazır: **"Müstəhəbdir ki, namazlar imamların hərəmində qılınsın. Hətta, demək olar ki, burada qılınan namaz məscidlərdə qılınan namazlardan daha üstündür. Hədislərdə varid olduğuna görə Əli ibn Əbu Talibin hərəmində qılınan namaz digər yerlərdə qılınan namazlardan 100 000 dəfə üstündür."**[2]

Mufid "Məzar" kitabında imam Baqirdən hədis nəql edir: **"Əgər insanlar Kufə məscidinin fəzilətini bilsəydilər onda onlar miniklərini, azuqələrini hazırlayıb, çox uzaqlardan olsa belə bura gələrdilər. Burada qılınan hər fərz namaz Həccə, müstəhəb namaz isə ümrəyə bərabərdir."**[3]

Şeyx Mufid "İmamın qəbri yanında dayanıb deyiləcək dualar" başlığı altında uzun bir duanı yazır: **"....dəqiq bilirəm ki, Allah sizin vasitəniz ilə rəhməti nazil edir, dağları sizin vasitəniz ilə sabit qılır. Rəbbimə sənin üz tutdum ey ağam. Ehtiyyaclarımı qarşıla, günahlarımı bağışla."**[4]

Abbas Qummi "Həyatu imam Hüseyn" kitabındayazır: "İmam Cəfər buyurdu: **"Hüseyn ibn Əlinin ziyarəti qəbul olunan yüzlərlə Həcc və ümrə ziyarətlərinə bərabərdir."**[5]

Şeyx Mufid "Məzar"kitabında Əbu Abdullahdan nəql edir: **"Allah Təala Hüseyni ziyarət edənə 80 məqbul həccin savabını yazar."**[6]

Mühəddis Hurr Amili "Vəsailuş şia" kitabında Əbu Abdullahdan rəvayyət edir: **"Hüseynin ziyarəti 20 Həcc və ümrə ziyarətindən üstündür."**[7]

---

[1] "Nəfasul məhmum", səh 431; "Ənsarian" Qum
[2] "Minhəc əs salihin", c.1,səh 187,№562
[3] "Məzar", səh 20,"Min əqaidu şia" kitabından
[4] Mufid, "Məzar"səh 99
[5] səh 263
[6] "Məzar", səh 47; "mən qatalə Hüseyn" kitabından
[7] c.14,səh 446, №19568

Həmçinin, bu kitabda bir adam imama dedi: **"Mən 19 dəfə Məkkəyə ziyarətə getmişəm. Mənim üçün dua et ki, 20-ci dəfə də ziyarətə getmək mənə nəsib olsun. İmam soruşdu: "Sən Hüseynin qəbrini ziyarət etmisən?" Adam dedi: "Xeyr." İmam buyurdu: "Onun ziyarəti 20 Həccdən daha əfzəldir."**[1]

Bu kitabda yenə Harun ibn Xaricidən rəvayyət olunur ki, o Əbu Abdullahdan bir adamın üzrsüz yerə Hüseynin qəbrini ziyarət etməməsi bardə soruşduqda, imam buyurdu: **"Bu adam Cəhənnəm əhlindəndir."**[2]

İmam buyurur: **"Əgər mən sizə Hüseynin ziyarətinin nə qədər əfzəl olduğunu anlatsaydım, Allaha and olsun ki, siz Həcc ziyarətini lap əvvəldən tərk edərdiz və heç biriniz Həcc etməzdi."**[3]

Xomeyninin qəbirlər və onları ziyarət baradə fətvaları tamamilə Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* adından uydurulmuş yalan hədislərə əsaslanır. Belə bir hədisi Xomeyni kitabında nəql edir:

"Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* **Əli ibn Əbu Talibə dedi: "Ey Hüseynin atası! Şübhəsiz ki, Allah sənin və övladlarının qəbirlərini Cənnət məkanlarından bir məkan etmişdir və şübhəsiz ki, Allah yaratdığı məxluqatdan seçdiyi kimsələrin qəlblərinə sizin məhəbbətinizi yerləşdirmişdir. Onları sizin yolunuzda əziyyətə və məşəqqətə qatlananlardan etdi. Onlar ki, sizin qəbirlərinizi inşa edər, Allah və Rəsuluna yaxınlaşmaq qəsdi ilə sizin ziyarətinizə gələrlər. Məhz, onlar mənim şəfaətimə nail olanlardır. Ey Əli! Kim sizin qəbirlərinizi inşa edib, bərpa edərsə ona yetmiş Həcc savabı yazılar, bütün günahları silinər və anadan olmuş yeni körpə kimi təmizlənmiş olar. Mən səni bununla müjdələyirəm və səndə sevdiklərini heç bir gözün görmədiyi, qulağın eşitmədiyi və ağlın da təsəvvür etmədiyi nemətlərlə müjdələ. Bundan başqa sizin qəbirlərinizi ziyarət edənləri zina edən qadını qınayanlar kimi qınayanlar olacaqdır. Məhz, onlar bu ümmətin şərlilərindir. Allaha and olsun ki, onlar mənim şəfaətimə nail olmayacaqlar."**[4]

Xomeyninin yaxın sirdaşı və dostu olan Əbdulhüseyn Dəstağeyb "Səvratul Hüseyniyyə" kitabında yazır: **"Aləmlərin Rəbbi imam Hüseynin qəbrini ziyarət etməyi Beyti Harama həcc etməyə alternativ olaraq qullarına bir lütf olaraq nəsib etmişdir. Həcc etməyə qadir olmayanlar buna sarılsın. Hətta, bunun savabı ziyarət şərtlərinə riayyət**

[1] "Vəsailuş şia", c.14,səh 447-448, № 19570
[2] c.10,səh 336
[3] "Biharul ənvar", c.33,səh 98,101 "min əqaidu şia" kitabından
[4] "Kəşful Əsrar", səh 84

edən möminlər üçün Həcc savabından daha çoxdur. Beləki, bu mənada varid olmuş bir çox rəvayyətdə bu məsələ sərihdir."[1]

Müsəlman qardaş! Bunlar şiələrin imamlar haqqında olan bəzi həddi aşmalarına dair nümunələrdir. Məlumdur ki, şiəliyə dəvət, şiə missiyonerliyini edən və mənfəətləri üçün yazılar yazan şiə alimləri, müəllifləri və dəvətçiləri belə etiqad növlərini kitablarında açıq-aşkar qeyd etmirlər. Beləki, bu kimsələrin belə inancları inkar etməyə çalışıb, kitablarında belə şeylərə inanmadıqlarını dediyini müşahidə etmişik. Lakin, bu tamamilə yalan və aldatmacadır. Bunun belə olduğunu aşağıdakı səbəblərə görə yəqin edirik:

a) Onların küfr dərəcəsinə kimi çatmış bu xürafatlara və onların müəlliflərinə rəddiyyə deyil, əksinə təriflər yağdırmaları.

b) Bu kitabların müəlliflərinin tərcümeyi halını qələmə alarkən, qəbul etdikləri bu batil fikirləri rədd etməyib, əksinə onlara rəhmət oxuyub, təriflər söyləyirlər. Bu əsərlərini də müəlliflərin fəzilətini isbat edən bir dəlil hesab edirlər. Beləliklə, şiəlik dininin onda doqquzunun təqiyyədən ibarət olduğunu nümayiş elətdirirlər.

Şiələr hər hansı bir konfransda, kitabda özlərinə toxunulduqda, göstərişlə olsa da bunu inkar, rədd və təhdid yolu ilə qəbul etmirlər. Lakin, eyni zamanda bu qədər həddi aşma, zəlalət fikirlərə baxmayaraq, özlərini görməməzliyə vurur və bunlardan qaçmağa çalışırlar. Bu qədər batil fikirlərə rəddiyyə verməyib, niyə görə hər zaman Əhli sünnətə rəddiyyə verməyə çalışırlar? Kitablarında keçən bu qədər rəvayyətlərin sənədlərini araşdırıb, niyə görə hüccət və dəlil hesab oluna bilməyəcəklərini izhar etmirlər?

Şiələr və Quran

Bu mövzu baradə günlərlə danışmaq və cildlərlə kitab yazmaq olar. Şiələr tərəfindən ola biləcək spekulyassiya, manupuliyassiyalardan yayınmaq üçün bu fəsildə yalnız şiə alimlərinin sözlərindən sitatlar gətiriləcəkdir. Yuxarıda qeyd edildiyi kimi üç nəfərdən başqa bütün səhabələr şiələrin səhih rəvayyətlərinə əsasən İslamdan çıxmışdılar. Bununla yanaşı onların bəzi alimləri Quranın səhabələr tərəfindən toplandığı fikrini dəstəkləmişdir.

[1] "Səvratul Hüseyniyyə", səh 15; "Darut təaruf" Beyrut

Müasir alimlərindən olan Ayətullah Muhəmməd Hüseyn Təbatəbai yazır: **"Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **vəfatından 14-15 ay sonra Yəmamə müharibəsi başladı ki, bu müharibədə 70 Quran hafizi şəhid oldu. Növbəti döyüşlərdə də hafizlərin öldürülməsindən ehtiyyat edən xilafət mənsubları Quranın yox olmaması üçün onu bir kitab halına salmaq qərarına gəldilər. Xəlifənin əmrinə müvafiq olaraq, Zeyd ibn Sabitin başçılığı altında hafiz səhabələrdən ibarət olan heyət Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **evində və səhabələrdə olan ayə və surələri toplayaraq, vahid kitab halına saldılar. Bu kitabı bir neçə nüsxədə çoxaldaraq, onu bölgələrə göndərdilər. Üçüncü xəlifənin zamanında ona bildirdilər ki, Quranı üzündən köçürən insanların səhv etməsi və qiraətlərdəki fərqlərə görə fikir ayrılıqları yaranmışdır. Bildirdilər ki, əgər bu belə davam etsə, Quranın təhrif olunması qorxusu vardır. Belə bir təhlükəni dəf etmək üçün birinci xəlifənin tərtib etdiyi Quran üçüncü xəlifənin əmri ilə Ömərin qızı Həfsənin evindən alındı. Sonra beş hafiz səhabədən ibarət olan Zeyd ibn Sabitin heyəti ki, onların arasında birinci nüsxənin tərtib olunmasında iştirak edən bir nəfər də vardı, Həfsənin evində olan müshəfin əsasında digər müshəflər üçün də əsas olacaq kitabı tərtib etdilər. Həmçinin, müsəlmanların əlində olan bütün müshəflərin alınıb, Mədinəyə aparılmasına əmr verildi. Bütün bu müshəflər xəlifənin əmri ilə yandırıldı. Beləliklə, bir müshəf əsasında bir neçə nüsxə tərtib olundu. Bir nüsxəni Mədinədə saxlayıb, digərlərini Məkkə, Şam, Kufə və Bəsrəyə göndərdilər."**[1]

Eyni zamanda Təbatəbai həmin kitabın digər səhifəsində yazır: **"Birinci və ikinci müshəf toplananda Əli** *(əleyhisalam)* **işçi heyətə daxil edilməmişdi. İmam Əlinin Quranı Allahın endirdiyi tərtibdə toplayıb müsəlmanlara göstərməsinə baxmayaraq bu müshəf qəbul edilmədi. Həmçinin, imam Əli** *(əleyhisalam)* **Quranın yekun cəm olunması komisiyyasına da daxil edilmədi."**[2]

Təbatəbai "Mizan" təfsirində yazır: **"Bu Əhli beyt imamlarının yoludur. Onlar Quranda nazil olan ayələri müəyyən bir məsələyə o baradə ayə nazil olmasa da tətbiq edərdilər. Quran ayələrinin Əhli beyt imamlarına və onların düşmənlərinə tətbiqi ilə bağlı olan rəvayyətlər yüzlərlədir. Hədislər işığında olan təfsirimizdə bunlara yer verməyəcəyik. Çünki, bu rəvayyətlərin bəhsi məqsədimiz deyil."**[3]

---

[1] "İslamda Quran", səh 133-134,bəzi ixtisarlarla, 2004-ci il

[2] səh 136

[3] "əl Mizan",səh 83,84

Sual oluna bilər! Kafirlərin topladığı və kitab halına saldığı Qurana necə inanmaq olar? Səhabələrin Quranı kitab halına salması və şiələrin onları kafir hesab etməsi faktı şiələrin bizim Qurana olan həqiqi münasibətini ortaya qoymuş olur. Belə bir qayda qoymaq olar:

Quransız İslam yoxdur, səhabələrə inam olmadıqca, Qurana da inam ola bilməz. Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* vəfatından sonra səhabələrin dindən çıxmasına etiqad etmək avtomatik olaraq, Quranın həqiqiliyini şübhə altına almaq hesab olunur. Başqa sözlə, belə bir etiqad dolayısıyla Qurana hücumdur. Bu sadə bir məntiqdir. Bu kitabı bizə kafirlər çatdırdı deməklə İslamın əsaslarını, ehkamlarını, onun müqəddəs kitabını qəbul etmək olarmı?! Şiələrin Qurandan dəlil gətirməyə və ona istinad etməyə səhabələri küfrdə ittiham etdiyi müddətcə mənəvi haqqları yoxdur.

Kuleyni imam Əbu Cəfərin belə dediyini rəvayyət edir: "**Yalnız yalançı bütün Quranı nazil olduğu kimi topladığını iddia edə bilər. Onu nazil olduğu kimi Əli ibn Əbu Talib** *(əleyhisalam)* **və ondan sonrakı imamlardan başqa heç kəs toplamamış və hifz etməmişdir.**"[1]

İndi isə yalnız və yalnız şiə alimlərinin bu mövzuya dair müxtəsər sözlərini qeyd edəcəyik: Müasir alimlərindən Əli Qurani deyir:

"Quranın təhrif olunmasına gəldikdə isə bəzi şiə alimləri deyirlər: "Quran təhrif olunub yəni, ondan bəzi ayələr çıxardılıb. Həmçinin, deyirlər ki, bəzi ayələr öz həqiqi yerindən çıxardılıb digər ayələrin arasına salınmışdır. Ayələrin yerinin dəyişilməsinə gəldikdə isə bunu əksər şiə alimləri deyirlər. Başqa sözlə bəzi şiə alimləri deyirlər ki, Quranda bir sıra ayələr çatışmır."[2]

Əllamə Əbul Həsən əl Amili yazır: **"Bil ki, Siqatul-İslam adlandırılan Muhəmməd ibn Yəqub əl Kuleyninin sözlərindən aydın olur ki, o Quranın təhrif olunduğuna etiqad etmişdir. Çünki, o bu mövzuda etibar etdiyini bildirdiyi bir çox rəvayyətləri "əl Kafi" kitabında zikr etmişdir. Onun müəllimi Əli ibn İbrahim əl Qummi də eyni əqidəyə sahib olmuşdur."....."Onun təfsir kitabı bu cür rəvayyətlər ilə zəngindir.... Alimlərimizdən Əyyəşi, Numəni, əl-Kufi və bir çox təfsirçilər bu etiqadda Qummi və Kuleyniyə müvafiq olmuşdur. Böyük şeyx Əhməd ibn Əbu Talib ət Təbərsi də, "əl-İhticəc" kitabında bildirdiyi kimi bu etiqadda olmuşdur. Geniş elmə sahib olan şeyximiz Əlləmə (Məclisi) özünün "Bihərul Ənvar" kitabında bu əqidəyə müvafiq olmuş və şərhə ehtiyyac duyulmayan bir izah vermişdir. Bu**

[1] "Kafi","Kitab əl hüccət",c.1,səh 376, №603

[2] http://fnoor.com/media/fn311.ram

xəbərlərin səhihliyinin araşdırılmasından sonra demək olar ki, bu əqidə bizim məzhəbin (şiəliyin) zəruriyyətlərindəndir."[1]

(Yəni, bizim məzhəbdə Quranın təhrif olunmasına etiqad etmək vacibdir!)

Eyni kitabda digər səhifədə yazır: **"Bil ki, inkar olunmaz həqiqətdir ki, mütəvatir və digər xəbərlərə əsasən, həqiqətən, Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **vəfatından sonra Quranda dəyişikliklər baş vermişdir. (Səhabələr) Quranı topladıqdan sonra bir çox kəlməni və ayələri yox etmişlər. Allahın endirdiyinə müvafiq olan imam Əlinin cəm etdiyi, oğlu Həsənə yetişənədək qoruduğu və bələliklə də Mehdiyə çatanadək mühafizə olunmuş Qurandır. Bu gün Quran onun (Mehdinin) əlindədir."**[2]

Əbul Həsən əl Amili deyir: **"Mənim üçün bu rəyin həqiqət olması bu xəbərlərin öyrənilməsi və araşdırılmasından sonra labüd oldu. Bələliklə, deyə bilərik ki, bu şiəlik məzhəbinin etiqad etməli olduğu zəruri olan məsələlərdəndir və bu xilafətin qanunsuz yolla ələ keçirilməsinin yaratdığı ən böyük səbəblərindəndir."**[3]

Ağa Bəzrək Tehrani Əbul Həsən haqqında yazır: "Muşkilətul Ənvar"da deyilən "Miratul Ənvar mişkətul əsrar fi təfsirul Quran" adlı əsər şərəfli, ədalət sahibi Mövla Əbul Həsən ibn Şeyx Muhəmməd Tahir ibn Şeyx Abdulhəmid ibn Musa ibn Əli ibn Fəttuni ən Nəbati əl Amili əl İsfəhaniyə aiddir....Qiymətli və çox dəyərli bir əsərdir. Kitabın girişində üç məqalə yer almaqdadır. Hər məqalədə müxtəlif adda başlıqlar vardır. **İkinci məqalədə dörd başlıq fəsil vardır ki, Quranın azaldılması məsələsindən bəhs edir."**[4]

Şiə təfsir alimi Feyz Kəşani "Safi" adlı təfsirinin müqəddiməsini 12 fəslə ayırmışdır. Bu giriş başlıqlarının altıncısında müəllif fəsli belə adlandırmışdır: **Altıncı müqəddimə: "Quranın cəm edilişi, təhrifi, əksiltmə və artırılmaya dair bəzi rəvayyətlər və izahları."**[5]

"Safi" adlı məşhur təfsirində müqəddimədə Kəşani yazır: **"Deyirəm: Bütün bu xəbərlərin və Əhli beyt yolu ilə gələn digər rəvayyətlərin hamısından anlaşılır ki, qarşımızdakı bu Quran Muhammədə** *(sallallahu aleyhi və səlləm)* **tam olaraq nazil edildiyi kimi deyildir. Əksinə, onun içində Allahın nazil etdiyinə zidd, dəyişdirilmiş və təhrif olunmuş**

---

[1] "Təfsirul burhan",səh 83,84; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=158

[2] "Mişkətul Əsrar", səh 36; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=178

[3] "Muqaddimətul Burhan", fəsil 4,səh 49

[4] "əz Zəria", c.20,səh 264,Beyrut

[5] "Təfsirus Safi",c.1,səh 40; "Məktəbətus Sadr" nəş.Tehran

şeylər vardır və ordan bir çox şeylər götürülmüşdür. Məsələn, Əlinin *(əleyhisalam)* **adı bir çox yerdən götürülmüşdür və bundan başqa şeylər də Qurandan çıxarılmışdır. İndiki Quran həm də Allahın və Onun Elçisinin** *(sallallahu aleyhi və səlləm)* **razı qalmadığı şəkildə tərtib olunmuşdur. Əli ibn İbrahim də öz təfsirində bunu deyir."**[1]

Feyz Kəşani "Safi"təfsirində yazır: **"Bizim şeyxlərin bu məsələ baradə etiqadına gəlincə, aydın olur ki, Siqatul-İslam Muhəmməd ibn Yəqub əl Kuleyni Quranda təhrif və nöqsan olduğuna inanırdı. Çünki, o "Kafi" kitabında bu haqqda olan rəvayyətləri tənqid etmədən nəql etmiş və kitabının müqəddiməsində yazdığı rəvayyətlərə inandığını bildirmişdir. Həmçinin, onun ustadı Əli ibn İbrahim Qummi də bu yolda olmuşdur və onun təfsir kitabı belə rəvayyətlərlə doludur. Həmçinin, şeyx Əhməd ibn Talib ət Təbərsi "İhticac" kitabında bu iki şeyxin yolunu izləmişdir."**[2]

Ərdəbilinin dediyi kimi "Ustadımız, bizim və bütün müsəlmanların şeyxi, müctəhidlərin sonuncusu, imam, əllamə, tədqiqatçı, yüksək dəyərə və üstün məqama sahib dövrünün bərabəri olmayan şəxsiyyəti, siqa, elmi dərəcədə yüksək, böyük əsərləri olan"[3] məşhur şiə alimi olan Muhəmməd Baqir əl Məclisi "Kafi"də Quranda 17 000 ayə vardır rəvayyətini şərh edərkən yazır:

"Sərih, səhih olaraq gələn xəbərlərin çoxundan gizli deyildir ki, Quranda naqislik və dəyişiklik mövcuddur. Mənim nəzərimdə bu babda (fəsildə) olan xəbərlər mənaca mütəvatir səviyyəsindədir və onların hamısı, başdan (əvvəldən), ona (Qurana) etimadın qaldırılmasını vacib edir. Beləki, mənim zənnimə görə bu babda (fəsildə) olan xəbərlər, heç də imamət barədə gələn xəbərlərdən az deyildir. Bəs, eləisə xəbərin sabit olması necə təsbit edilir?"[4]

Məclisi "Miratul uqul" kitabında yazır: **"....Bizə şiələrdən və avamdan varid olan xəbərlərə görə Quranda nöqsan və təhrif olması hədisləri mutavatirdir. Məntiq bizə deyir ki, əgər Quran Əhli beytdən ayrılıb, insanlar arasında yayılıb və adi insanlar onu toplamağa cəhd ediblərsə, onun tam və həqiqətə uyğun şəkildə toplanması ehtimalı azdır. Nə olursa olsun Mehdi gələnə qədər insanlara vacibdir ki, müshəflərdə olanlarla işləsinlər və onları oxusunlar. Bu məsələ çox saylı**

[1] "Təfsir əs-Safi", c.1,səh 49; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=167
[2] "Təfsirus-Safi", 1/34
[3] "Camiur Ruvat"c.2,səh 78-79
[4] "Miratul-uqul",c.12,səh 525-526; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=157

xəbərlərlə sabitdir və mütavatirdir və Quranda naqisliyin olmasını təsdiq edir....”[1]

Ən böyük və qədim mötəbər şiə təfsirçisi Əli ibn İbrahim Qummi öz təfsirinin müqəddiməsində yazır: **"Qurana dəyişiklik edilmiş və təhrif baş vermişdir." O, sözünə davam edib deyir: "Allah Təalanın nazil etdiyi "Siz insanlar arasında peyda olmuş ən yaxşı bir ümmətsiz" kəlamında göstərilənlərin əksi olmuşdur.” Əbu Abdullah bu ayəni oxuyana demişdir: "Əmirəlmöminini və Hüseyn ibn Əlini öldürən ən yaxşı ümmət?" Ondan soruşmuşlar: "Ey Rəsulullah övladı, bəs bu ayə necə nazil olmuşdur?" O demişdir ki, bu ayə belə nazil olmuşdur: "Siz insanlar üçün peyda olmuş ən yaxşı imamlarsınız". O sonra əlavə etmişdir: “Buradan çıxarılmış sözlər isə bunlardır: "Lakin Allah Əli haqqında sənə nazil etdiyinə şahidlik edir." Bax belə nazil olmuşdur və bir də belə: "Ey Rəsul, Rəbbindən sənə Əli haqqında nazil olanı təbliğ et"**[2]

Başqa səhifədə yazır: **“Quranda təhrif olunmuşa ayələrə gəldikdə isə: “Fəqət Allah sənə Əli baradə nazil etdiyinə şahiddir. O, bu Quranı Öz elmi ilə nazil etmişdir. Mələklər də buna şahiddirlər. Şahid olaraq Allah kifayətdir.”**[3]

“Ey Elçi! Rəbbindən sənə Əli baradə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz.”[4] **“Həqiqətən o kəslər ki, Muhəmməd ailəsi baradə iman gətirməyib və zülm etdilər, Allah onları bağışlamayacaq və onları doğru yola yönəltməyəcəkdir.” “Kafirləri və zalımları Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir” Həmçinin, “Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: "Canlarınızı çıxarın! Muhəmməd ailəsinə nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!" dediklərini bircə görəydin.”**[5]

Yusuf əl Bəhraninin dediyi kimi “Mərhum fazil, mühəddis, elmlər dəryası, Məclisidən başqa özündən öncə heç kəsin araşdırmadığı

[1] Eyni mənbə, c.3,səh 31
[2] “Təfsir əl Qummi”,1/10; https://anti-majos.org/viewtopic.php?f=9&t=168
[3] Nisa 166
[4] Maidə 67
[5] Ənam 93; “Təfsir əl Qummi” c.1,səh 228

rəvayyətləri araşdıran tədqiqatçı altı cildlik "Burhan fi təfsirul Quran" əsərinin müəllifi əllamə Haşim ibn Süleyman əl Bəhrani"[1] yazır:

"**Bil ki, haqq olan və üzərində heç bir şübhənin olmadığı (haqqa) görə, qeyd edilən və başqa mütəvatir xəbərlərə görə, qarşımızda olan bu Qurana, Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra dəyişiklikdən bir şeylər qarışmış və toplanan kəlimə və ayələrin çoxu oradan düşürülmüşdür (çıxarılmışdır). (Bu doğrudur ki) Quran zikr olaraq qorunmuş və Uca Allahdan nazil edildiyi kimi, Əli ibn Əbu Talibin nəzdində cəm edilmiş, qorunmuş və ondan da oğlu imam Həsənə çatdırılmışdır. Beləliklə, hər nəsildən ötürülərək, Mehdiyə qədər gəlib çatmışdır. O (Quran) bu gün də, onun (Mehdinin) nəzdindədir."**[2]

Haşim əl Bəhrani həmin kitabın başqa bir yerində isə demişdir: "**Bu barədə gələn xəbərləri və təmiz əsərləri (rəvayyətləri) təhqiq etdikdən sonra, mənim nəzdimdə, bu rəy açıq-aydın səhihdir ki, bu (Quranın təhrif edilməsi), şiə məzhəbinin zərurətindəndir. Çünki, o xilafəti qəsb etməyin ən böyük məqsədlərindəndir və (bu səbəbdən də, bu zaman-zaman) qeyd edilir."**[3]

Nemətullah Cəzairi, Abbas Qummi onun haqqında yazır: "Mühəddis, ərəb dili, ədəbiyyat, fiqh, hədis və təfsir elmlərində dövrünün tayı bərabəri olmayan elm adamlarından olan izzətli bir şəxsiyyətdir. Alim, fazil, tədqiqatçı, fəzilət sahibi olan elm adamıdır."[4]

Huvənsari, Cəzairi haqqında yazır: "Alimlərimizin öndə gələnlərindən, dərya kimi elm sahibi olan üləmamızın böyüklərindəndir. Ərəb dili, ədəbiyyat, fiqh və hədis elmlərində dövrünün ən böyük elm adamlarındandır. Təmiz bir qəlbə, üstün bir xarakterə və dəyərli əsərlər sahibidir. Əsərlərindən ən möhtəşəmi "Ənvərun Numaniyyə"dir."[5]

Nemətullah Cəzairi yazır: **"Bizim əshabımız və şeyxlərimiz hədis üsulu və digər kitablarında mütəvatir həddə qədər varan çoxsaylı xəbərlərdə nəql etmişlər ki, Quran təhrif olunmuş, ondan bir çox ayələr çıxarılmış, bir çox ayələr isə əlavə olunmuşdur."**[6]

əl Cəzairi "Ənvərun-numaniyyə" kitabında yazır: "**Şübhəsiz ki, İlahi vəhydən onun yəni, yeddi qiraətin mütəvatir olmasına təslim olmaq,**

---

[1] "Lulətul bəhreyn", səh 63-64,Beyrut

[2] Haşim əl-Bəhrani, "əl-Burhan fi təfsiril-Quran", səh 36

[3] Haşim əl-Bəhrani, "əl-Burhan fi təfsiril-Quran", səh 49

[4] "əl Kuna vəl əlkab" c.3,səh 298

[5] "Ravdətul cənnət" c.8,səh 138

[6] "Ənvərun-numaniyyə"c.1,səh 526 ;https://anti-majos.org/viewtopic.php?f=9&t=172&sid=4d8982ae0ef2dbed0ab033279147eaf4

onların hamısının Ruhul Əmin (Cəbrayıl) vasitəsi ilə nazil olmasını, yayğın olan xəbərlərə görə, həm də sərahətən (açıq-aydın) mütəvatir olaraq dəlalət etməsinə görə, Quranın təhrif olması həm söz, həm maddə və həm də qrammatik olaraq baş vermişdir. Bununla belə, bizim əshabımız (alimlərimiz) bu xəbərlərin səhihliyinə və təsdiqinə müvafiq olmuşlar."[1]

Başqa yerdə yazır: **"Quranda təhrif və əksiltmələr haqqında olan xəbərlər o qədər çoxdur ki, onları inkar etmək qeyri mümkündür. Çox qəribədir ki, şeyx Səduq, Təbərsi və Murtəza bəzi kitablarında bunu inkar edirlər və qeyd edirlər ki, Allahın nazil etdiyi Quran elə əlimizdə olan Qurandır. Halbuki, əlimizdə olan çoxsaylı xəbərlər bu rəyi rədd etməyə əsas verir."**[2]

Son mühəddis, əllamə, mötəbər səkkiz şiə hədis kitabından biri olan "Mustədrəkəl Vəsail"in müəllifi olan şeyx Mirzə Hüseyn ibn Muhəmməd Təqi ən Nuri ət Təbərsi Quranın təhrif olunmasını sübut etmək üçün müstəqil bir kitab yazmışdı. Muhsin əl Əmin onun haqqında deyir:

"Alim, fazil, mühəddis, hədis və rical elmlərində dərya, siyər və tarix elmi yüksək, tədqiqatçı, zahid, abid bir şəxsiyyətdir. Heç bir gün gecə namazını tərk etməmişdir. Rəvayyətlər, əsərlər və kitablar barasində əhatəliyi ilə dövrünün bir nümunəsi halına gəlmişdi."[3]

Kitabının müqəddiməsində Nuri Təbərsi yazır:

"Günahkar qul Hüseyn ibn Muhəmməd Təqi ən Nuri ət Təbərsini Allah qapısında dayanan, onun kitabına tabe olanlardan etsin. Şübhəsiz, bu kitab əzəmətli və möhtərəm kitabdır ki, bunu mən Quranın təhrif olunmasını və zəlalət və zülm əhlini ifşa və sübut etmək üçün yazdım. Mən bu kitaba "Fəsl əl-xitab fi isbat təhrif kitab Rəbb əl-ərbab" ("Aləmlərin Rəbbinin kitabının təhrif olunması haqqda yekun söz") adını verdim."[4]

Yüz il öncə yazılmış bu kitabın həqiqətən də Nuri Təbərsiyə aid olduğunu məşhur şiə alimi, tədqiqatçı Ağabəzrək Tehrani də "Zəria ilə təsanif əş şia"[5] kitabında da təsdiq etmişdir.

Mirzə Hüseyn Təqi Nuri Təbərsi yazır: **"Quranda dəyişiklik və naqisliyin olmaması və Allahın Elçisinə** (*sallallahu aleyhi və səlləm*) **nazil olunan hər bir şeyin iki lövhə arasında mövcud olması görüşünü Səduq,**

---

[1] "Ənvərun-numaniyyə" c.2,səh 357; https://anti-majos.org/viewtopic.php?f=9&t=71

[2] "Şərhi fi Səhifə Səccadiyyə",səh 63; https://anti-majos.org/viewtopic.php?f=9&t=171

[3] "Əyanuş Şia"c.6,səh 143

[4] "Müqəddimə"; https://anti-majos.org/viewtopic.php?f=9&t=186

[5] "Zəria ilə təsanif əş şia",16/164; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=186

Seyyid Murtəza və Şeyxut-Taifə ət-Tusi "ət-Tibyən"də qəbul etmişlər və ilk dövr alimlərdən kimlərinsə onlara müvafiq olduğunu bilmirəm."[1]

Məşhur şiə alimi Adnan Bəhrani yazır: **"Xülasə olaraq deyirik ki, Əhli beyt yolu gələn, əgər mütəvatir olmasa belə çox sayda olan xəbərlərə görə əlimizdəki olan bu Quran Muhammədə** (*sallallahu aleyhi və səlləm*) **nazil olmuş Quranın tamamı deyildir. Əksinə, burda Allahın endirdiyinə müxalif olan və təhrif edilmiş, dəyişdirilmiş şeylər vardır və ordan çoxlu şeylər də çıxarılmışdır. Məsələn, Əli ibn Əbu Talibin adı bir çox yerdən çıxarılmışdır və Muhammədin ailəsi sözü çıxarılmışdır və eləcədə münafiqlərin adları və bundan başqa şeylər də çıxarılmışdır. Əli ibn İbrahimin təfsirində deyildiyi kimi bu Quran həm də Allahın və Onun Elçisinin razı olduğu şəkildə tərtib edilməmişdir."**[2]

Ağa Bəzrək ət Tehrani, Adnan Bəhrani haqqında deyir: "Seyyid Adnan ibn Seyyid Ələvi ibn Seyyid Əli ibn Seyyid Abdulcəbbar əl Musəvi əl Qaruni əl Bəhrani möhtərəm və dahi bir elm adamıdır. Dahi elm adamlarından və mükəmməl fəzilətləri olmuş insan idi. Dövrünün məşhur elm adamlarından elm almışdır. Geniş bir elm xəzinəsinə sahib idi. İnsanlar tərəfindən sevilən və etibar edilən bir şəxsiyyət idi. Cümə və camaat imamlığı vəzifəsini yerinə yetirmişdir."[3]

Əbu Əhməd ibn Xələf əl Usfur əl Bəhrani "əl Ənvərul vadiyyə fil əqaidur radaviyyə" adlı əsər üzərində etdiyi təhqiqdə yazır: **"Quranın təhrifi məsələsində alimlərimiz fikir ayrılığına düşmüşlər.... Yekun olaraq biz deyirik: "Azaldılma baxımından Quranda təhrif olması inkar olunmayacaq bir hadisədir. Çünki, Quranda bir-birindən fərqli qiraətlərin olması nə vəhydən, nə də Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **qaynaqlanır. Mövcud olan təhrifi inkar olunmazdır. Rəvayyət olunduğuna görə imamlar ravinin "onlar Quran yeddi hərf üzərinə nazil oldu"sözünə: "Onlar yalan deyirlər. Quran Rəhman tərəfindən bir hərf üzərinə nazil olmuşdur." demişlər.....Bunun üzərində diqqətlə düşünmək lazımdır. Quranda dəyişiklik və təhrif olmadığını söyləyənlərin bu fikri təhqiq və həqiqət çərçivəsində deyildir. Yalnız,hüccəti insanlara tərk etmək və ümmət üzərindən şübhə və zənni qaldırmaq babındandır."**[4]

---

[1] "Faslul-Xitab fi İsbat Təhrif Kitəb Rabbil-Ərbab", səh 34

[2] "Məşariquş-şumusud-durriyyə";səh 127; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=169

[3] "Nuqabəul bəşər"c.2,səh 1265

[4] "əl Ənvərul vadiyyə fil əqaidur radaviyyə", səh 28-29,ikinci fəsil "Nübuvvət"

Seyyid Abdullah Şubbar yazır: **"Mütəvatir dərəcəsinə yaxınlaşmış bir çox rəvayyətlərin dəlalət etdiyinə görə Qurandan bir çox hissələr çıxarılmışdır."**[1]

Şeyx Abbas Qummi "Səfinətul Bihar" adlı kitabında Şubbar haqqında deyir: "Mövla, seyyid Abdullah Şubbari Kazımi üstün fəzilət sahibi, zəkalı alim, elm dəryası, mütəxəssis, diqqətli fəqih, rəbbani alim, zamanında "ikinci Məclisi" olaraq şöhrət qazanmış şəxsiyyətdir."[2]

Yusuf əl Bəhrani yazır: **"Seçimimiz olan rəy və bu rəyin səhihliyinə dəlalət edən sübutlar açıq aşkardır. Çox sayda və geniş yayılmış bu xəbərlərə şübhə edilərsə, şəriətin bütün xəbərlərinə şübhə etmək və dil uzatmaq mümkün hala gələ bilər. Çünki, ağıllar eynidir. Həmçinin, sənədlər, ravilər, şeyxlər və nəql edənlər də eynidir. Həyatıma and olsun ki, müshəfdə təhrif və dəyişdirmənin olmadığını söyləmək zülm rəhbərlərinə hüsnü zənn etmək və digər əmanətlərə xəyanətlərinə bəraət qazandırmaq deməkdir."**[3]

Muhsin əl Əmin Yusuf əl Bəhrani haqqında yazır: "Şeyx Yusif ibn Əhməd əl Bəhrani son dövr elm adamlarımızdandır. Üstün zəka, mötədil xarakterili, fiqh və hədisdə parlaq bir şəxsiyyətdir. Rical müəllifi Əbu Əli onun haqqında deyir: "Alim, fazil, elm dəryası, mahir, mühəddis, abid, sadiq, dindar bir şəxsiyyətdir. Dərin elmə sahib müasir elm adamlarımızdandır. Bir çox faydalı əsər qələmə almışdır."[4]

Kuleyninin "Kafi" kitabını şərh etmiş Saleh əl Məzəndarani yazır: **"Qurandan bəzi ayələrin çıxarılması və təhrif olunması məsələsi bir çox yolla <u>məna etibarı ilə mutavatir olaraq sabitdir.</u> Hədis kitablarını araşdıran buna şahid olacaqdır."**[5]

"Vəsailuş şia" kitabının müəllifi olan Hurr Amili yazır: **"Bəzi ayələrin təvili ilə birlikdə nazil olduğu və hətta, bəzi ayələrin vəya <u>bəzi surələrin yazılmayıb, çıxarıldığı barasində olan rəvayyətlər mutavatir olaraq gəlmişdir</u>."**[6]

əl Ərdəbili Hurr Amili haqqında deyir: "Muhəmməd ibn Hurr Amili Məşhəd sakinlərindəndir. İmam, əllamə, mühəqqiq, məqamı yüksək alim,

---

[1] <u>"Məsabihul Ənvar", c.2,səh 295, "Beyrut;</u>
<u>https://ic.pics.livejournal.com/daleel/61073388/7521/7521_original.jpg</u>

[2] "Təsliyətul Fuad fi bəyanil məvti vəl məad", səh 7, "Muəssisətul aləmi" nəş.1995

[3] "əd Durarun Nəcəfiyyə", Muəssisətu ahləl beyt" nəşr.səh 298

[4] "Əyanuş Şia"c.10,səh 317

[5] <u>"Şərhu Usulil Kafi",Kitabu Fədlil Quran c.11,səh 87-88;</u>
<u>https://ic.pics.livejournal.com/daleel/61073388/4439/4439_original.jpg</u>

[6] "İsbatul hudat bin nususu vəl mucizat", c.2,səh 163, "əl İlmiyyə" nəş.Qum

fazil, mükəmməl elm dəryası olan şəxsiyyətdir. Fəzilətlərini saymaqla qurtarmaq olmaz. Bir çox qiymətli əsərləri vardır. Şah əsər olan "Vəsailuş şia"ona aiddir."[1]

Hacı Həbibullah əl Haşimi əl Musəvi əl Xoyi kitabında yazır: **"İmamlar insanların ixtilafa və küfrə dönmələrindən ehtiyyat edərək səhih olan Quranı ortaya çıxarmamışlardı."...."İmamlar əlimizdə olan təhrif və nöqsana uğramış Qurana təqiyyə səbəbi ilə müraciət etməyi əmr etmişlər."..... "Qurandan hərf və ayələrin çıxarılması səbəbi ilə təhrif olunduğuna dair heç bir fikir ayrılığı yoxdur."**[2]

Əli Əsqər Hüseyni əl Xoyi onun haqqında yazır: "Seyyid, Əhli beyt fəqihi, məntiq və nəqli elmləri özündə cəm edən, mühəqqiqlərin fəxr mənbəyi, müctəhidlərin timsalı Hacı Həbibullah əl Haşimi əl Musəvi əl Xoyi."[3]

Həmçinin, qeyd olunanlardan əlavə aşağıdakı bəzi məşhur şiə alimləri də Quranda təhrif və nöqsan olduğunu kitablarında təsdiq etmişlər:

1. Kəmaləddin Meysəm Bəhrani[4]
2. Abbas Qummi[5]
3. Saleh əl Məzandarani[6]
4. Əbu Mənsur Əhməd bin Mənsur ət Təbərsi[7]
5. Şeyx Mufid[8]
6. Əli ibn Hüseyn ibn Musa Şərif əl Murtəza[9]
7. Əli Əsqər Hüseyni əl Xoyi[10]
8. Mirzə Həsən əl Hairi[1]

---

[1] "Camiur Ruvat",c.2,səh 90

[2] "Minhəcul bərəa fi şərhi Nəhcil Bəlağa", c.2,səh 216-220 "Muəssisətu Vəfa" nəş.Beyrut; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=180

[3] "Muqaddimətu minhəcul bərəa fi şərhi Nəhcul Bəlağa"c.1,səh 7,Beyrut

[4] Meysəm Bəhrani, "Şərh Nəhc əl-bəlağə", c.11,səh 1 Tehran çapı

[5] "Zubdətul əhadis", Abbas Qummi,səh 314, (bunu Xisal kitabından nəql edir)

[6] "Şərhu Usulil Kafi",Kitabu Fədlil Quran c.11,səh 87-88; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=165

[7] "İhticac",c.1səh 249"Təfsiru Miratul Ənvar va Mişkətul Əsrar", səh. 49; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=158

[8] Mufid, "Əvəilul-məqalat", səh 48-49,Beyrut https://www.anti-majos.org/viewtopic.php?f=9&t=170

[9] "Ayət ən nəsh əl mənsuh",səh 94; https://anti-majos.org/viewtopic.php?f=9&t=166

[10] https://ic.pics.livejournal.com/daleel/61073388/12578/12578_original.jpg

9. Muhəmməd ibn Sadiq əs Sadr əl Musəvi[2]
10. Kamil Süleyman[3]
11. Sultan Muhəmməd əl Xorasani[4]
12. Şeyx Yəhya əl Kərki[5]
13. Abdullah Muhəmməd əz Zahir[6]
14. Seyyid Nurullah ət Tustəri[7]
15. Kazım Həmdul ən Nəcəfi[8]
16. Mənzur Hüseyn[9]
17. Seyyid Muhsin əl Həkim[10]
18. Seyyid Mahmud əş Şəhrudi[11]
19. Seyyid Muhəmməd Kazım[12]
20. Əllamə Seyyid Əli ən Nəqvi[13]
21. Seyyid Hüseyn əl Burucərdi[14]
22. Seyyid Əbul Həsən əl İsfəhani[15]
23. Muhəmməd Baqir sahibi Qiblə[16]
24. Seyyid Zuhur Hüseyn Sahib[17]
25. Seyyid Muhəmməd sahibi Qiblə[18]
26. Seyyid Ruhullah əl Xomeyni[19]
27. Əbu Talib ət Təbrizi[20]

---

[1] "əd-Din Beynəs-Sail val Mucib", səh 89
[2] "Tarihu mə badəz zuhur", səh 373,637,638
[3] "Yəumul Xaləs fi Zillil Qaimil Mehdi", səh 371,372,373; Beyrut
[4] "Kifəyətul-Usul' kitabı", səh 284-285
[5] "əl-İmamət" kitabı; Nuri ət-Təbərsi, "Fəslul-Xitab fi İsbəti Təhrifi Kitəbi Rabbil- Ərbab"
[6] "İqsirud-Də'avat", səh 62
[7] "İhqaqul-Həqq", 1/337 (Qum çapında, Mənşurat Məktəbəti Ayətilləhul Məraşi)
[8] "Fəvaidud-Dua", səh. 301
[9] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[10] "Tuhfətul Avam Mutabər və Mukəmməl", səh 303
[11] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[12] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[13] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[14] "Mikyəyul Məkərim", 1/58-62; "Tuhfətul Avam Mutabər və Mukəmməl", səh 303
[15] "Tuhfətul Avam Mutabər və Mukəmməl", səh 303
[16] Eyni mənbədə
[17] Eyni mənbədə
[18] Eyni mənbədə
[19] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[20] "Mənhuval Məhdi",səh 520

28. Molla İsa Ərdəbili[1]
29. Seyyid Şihabuddin əl Məraşi[2]
30. Ağa Bəzrək ət Təhrani[3]
31. Molla Əli Əsğər əl Qəzvini[4]
32. Əhməd əl Əhsai[5]
33. Əbul Qasim əl Kufi[6]
34. Murtəza əl Ənsari[7]
35. Əli əl Qurani[8]
36. Muhəmməd Hüseyn əl Ələmi[9]
37. Əhməd əl Cəzairi[10]
38. Vahid əl Bəhbəhani[11]

Şiə Mehdisi bütöv Quranı gətirəcəkdir

Şiələr etiqad edirlər ki, həqiqi Quran Mehdinin yanındadır və o zühur edəndə bunu gətirəcəkdir. Şeyx Mufid ləqəbli Muhəmməd ibn Muhəmməd ibn Numan "əl İrşad" kitabında imam Əbu Cəfərin belə dediyini rəvayyət etmişdir:

"Muhəmməd *(sallallahu aleyhi və səlləm)* **ailəsinin Qaimi ortaya çıxdığı zaman, Quranın nazil edildiyi kimi öyrədilən çadırlar quracaqdır. Bu günün hafizləri üçün o gün çox çətin gün olacaq. Çünki, o Quranın tərtib və təlifi bundan fərqlidir."**[12]

---

[1] "Şərhu Məşhun bil Fəvaid" kitabı; "İhqaqul-Həqq", 1/337; "Hədiqatuş-Şi'a", səh 118-119
[2] "İhqaqul-Həqq", 1/337
[3] "əz-Zəria ilə Təsanifiş-Şi'a" kitabı, 10/9 (Nəcəf çapında)
[4] "Zuhərul Aləmin fi Şərhi Du'a is-Sanəmeyn" kitabı, 8/192 (Fars dilində); "Əqaidiş-Şi'a" kitabı, səh 27
[5] "Şərhuz-Ziyəratil Cəmiatil-Kəbir", 3/189
[6] "əl-İstiğazətu Fil bidəas-Saləsə", səh 25
[7] "Fəraidul Usul", 1/66
[8] "Əsrur-Zuhur", səh 88
[9] "Dairatul Məarif", 14/313-315
[10] "Qaləidud-Durar", 1/21
[11] "Fəvaid əl hairiyyə",səh 286; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=182
[12] "əl İrşad"səh 365, "Muəssisətu aləmi", Beyrut,1979 il

Bu rəvayyəti Kamil Süleyman "Yəvmul Xəlas" kitabında[1] nəql etmişdir. Şeyx Numani "Qeybə ən Numani" kitabında imam Əlidən belə bir hədis rəvayyət edir: **"Sanki, mən əcəmdə Kufə məscidində insanlara Quranın nazil edildiyi şəkildə öyrədildiyi çadırları görürəm. Dedim ki, (ravi) Ya Əmirəlmöminin! Məgər Quran nazil edildiyi kimi deyil? İmam: "Xeyr. Ondan Qureyşə mənsub yetmiş adamın ataları ilə birgə adları silinib. Əbu Ləhəbin adını isə əmisi olduğu üçün Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **tənə olsun deyə saxlayıblar!"**[2]

Hacı Kərim Kirmani yazır: **"Mehdi zühur edəndə Quran oxuyacaq və deyəcək: "Ey müsəlmanlar! Allaha and olsun ki, bu həqiqi Qurandır. Hansıki, bu Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **nazil olmuşdu və onu təhrif edib, dəyişdirmişdilər."**[3]

Şeyx Muhəmməd ibn Muhəmməd Sadiq əs Sədr "Tarihu mə badəz zuhur" kitabında Əbu Abdullahın belə dediyini nəql etmişdir: **"...Sanki, mən onu rukn ilə məqam arasında insanlardan yeni bir kitab üzərinə beyət aldığını və ərəblərlə sərt davrandığını görürəm."**[4]

Bu rəvayyəti Şeyx Kamil Süleyman "Yəvmul Xəlas"kitabında[5] nəql etmişdir.

Yusif əl Bəhrani yazır: **"Bu iki xəbərdən çıxan nəticəyə görə indi mövcud olan Quranı oxuma əmri, sadəcə bu Quranla kifayətlənmə, Qurandan çıxarıldığı imamlar tərəfindən bildirilən hissələrin oxunulmasının caiz olmaması təqiyyə və bəzi məsləhətlərə görədir. Mehdi zühur edib, qiyam etdikdən sonra, oxunulması caiz olmayan hissələr ilə birgə bütün Quranı gətirəcək və bu şəkildə oxunulmasını əmr edəcəkdir."**[6]

"Tarihu mə badəz zuhur" kitabında imam Cəfər Sadiqdən belə bir hədis rəvayyət olunur: **"Qaim (Mehdi) zühur edəndə Allahın kitabını olduğu kimi oxuyacaq və Əlinin yazdığı müshəfi ortaya çıxaracaqdır."**[7]

Şeyx Muhəmməd ibn Muhəmməd Sadiq əs Sədr digər səhifədə imam Muhəmməd ibn Əlidən belə bir rəvayyət nəql edir:

---

[1] səh 372
[2] səh 318
[3] "İrşadu əvvam", 2/121, fars dilində
[4] səh 637
[5] səh 371
[6] "əd Durarun Nəcəfiyyə", Muəssisətu ahləl beyt" nəşr.səh 296
[7] "Tarihu mə badəz zuhur", səh 373

“Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* **Mehdisi zühur edərsə.....yeni bir iş, yeni bir sünnət, yeni bir hökm gətirəcək və ərəblərə qarşı şiddətli olacaqdır.”**[1]

Kamil Süleyman yazır: **"Əli** *(əleyhisalam)* **Quranı yazıb qurtarandan sonra adamlara göstərib demişdir: "Bu Qüdrət və Cəlal sahibi Allahın Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **nazil etdiyi kitabıdır. Mən onu iki lövhədən toplamışam." Camaat isə dedi: "Budur, bizdə Quranın toplandığı müshəf var, bizim ona ehtiyyacımız yoxdur." İmam dedi: "Onda Allaha and olsun ki, siz onu bu gündən etibarən heç vaxt görməyəcəksiniz. Mənim borcum onu toplayandan sonra sizə göstərmək idi ki, oxuyasınız."**[2]

Nemətullah Cəzairi yazır: **“Xəbərlərdə deyildiyinə görə onlar (imamlar) öz şiələrinə əmr etmişlər ki, mövlamız Sahibəzzaman zühur edənədək bu mövcud olan Quranı namaz qılarkən və başqa hallarda oxusunlar və onun ehkamlarına əməl etsinlər. Bir zaman bu Quran adamların əllərindən çıxıb səmaya qalxacaq və Əmirəlmöminin tərtib etdiyi Quran üzə çıxacaq. Onda onlar onu oxuyar və onun ehkamlarına əməl edərlər."**[3]

Cəzairi həmçinin, yazır: **”Xəbərlərdən aydın olduğu kimi Quranı nazil olduğu kimi Peyğəmbərin** *(sallallahu aleyhi va səlləm)* **vəsiyyətinə uyğun olaraq Əmirəlmöminindən başqası toplamamışdır. O, peyğəmbərin vəfatından altı ay sonra yalnız bu işlə məşğul olmuşdu. Quranı nazil olduğu kimi topladıqdan sonra o bunu insanların yanına gətirərək dedi: “Bu Allahın nazil etdiyi kimi cəm olmuş Qurandır.” Ömər ibn Xəttab ona dedi: “Bizim nə sənə, nə də sənin cəm etdiyin Qurana ehtiyyacımız yoxdur, bizdə Osmanın yazdığı Quran vardır.” Onda Əli** *(əleyhisalam)* **onlara dedi: “Bugündən etibarən siz onu daha görə bilməyəcəksiniz və onu soyumdan gələcək olan Mehdi zühur etməyənə qədər heç kəs görməyəcəkdir.” O Quranda çoxlu ziyadə (əlavə) vardır və onda təhriflər yoxdur.”**[4]

Əbul Həsən əl Amili əl Fəttuni yazır: **“Dediklərimizdən aydın olur ki, Allahın nazil etdiyi Quran o Qurandır ki,onu Əli** *(əleyhisalam)* **toplamışdır. Sonra Həsənə, sonra isə digər imamlara, nəhayət Qaim Mehdiyə ötürmüşlər. Bu gün Quran onun yanındadır.”**[5]

---

[1] səh 638

[2] “Yəvmul Xəlas”, səh 373

[3] "Ənvarun Numaniyyə" 2/360

[4] "Ənvarun numaniyyə”,c.2,səh 315; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=70

[5] "Təfsiru mirətul-ənvər və mişkətul-əsrar", səh 36,

Şeyx Mufid yazır: **"Bizim imamlar bizə iki müshəf arasında olanı ona bir şey artırıb, azaltmadan oxumağı əmr etmişlər. Bu qaim Mehdi gələnə qədər belə davam edəcək və o gələndə insanlara Allahın nazil etdiyi və Əlinin** *(əleyhisalam)* **topladığı Quranı oxuyacaqdır. Xəbərlərdə varid olanlara əsasən bizə müshəfdə olan Qurana hərf və sözlər artıraraq oxumaq qadağan edilmişdir. Bu artırılma ilə bağlı rəvayyətlər bizə mütavatir yolla varid olmamışdır. Onlar yalnız xəbərlərdə varid olmuşdur. Adamlar müshəfə müxalif olanları oxuduğu zaman müxaliflər tərəfindən sıxıntıya məruz qala bilərlər. Bu səbəblə özünü təhlükəyə salmış olarlar. Ona görə də iki lövhə arasında olan müshəfin xilafını oxumaq qadağan olunmuşdur."**[1]

Ayətullah Mirzə Həsən əl Həiriyə "əd Din bəynəs sail vəl Mucib" adlı kitabda belə bir sual ünvanlamışdılar:

Sual: **"Məlum olduğu kimi Quran Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **müxtəlif dövrlərdə nazil olmuş ayələr şəklində nazil olmuşdu. Ayələr surələr içərsində necə tərtib olunmuşdu? Bu gün oxuduğumuz Quran Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **nazil olunmuş bütün ayələri ehtiva edirmi, yoxsa onda Fatimə müshəfindən fərqli olan bəzi artırma və azalmalar vardır?"**

Cavab: **"Bəli, Quran Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **23 il ərzində yəni risalət başlayandan vəfat edənə qədər nazil olmuşdu. Quranı ilk cəm edən və kitab halına salan Əmirəlmöminin Əli ibn Əbu Talib olmuşdu. Bu Quran daha sonra məsum imamlar içərisində imamdan imama ötürülmüşdür. Gözlənilən imam Mehdi zühur etdiyi zaman bu Quranı ortaya çıxaracaqdır. Sonralar müshəfi xəlifəlikləri dövründə Osman cəm elətdirmişdir. Səhabələrin sinələrindən vəya yazmış olduqları səhifələrdən bir araya cəm edib, toplamışdı. Əlimizdə olan məhz bu Qurandır."**[2]

Möhtərəm müsəlman qardaş! Bunlara diqqət elə! İki müshəf mövcuddur. Birini Əli, digərini Osman cəm etmişdir. Hairi iki müshəfin eyni olduğunu yəni, Osmanın və Əlinin müshəfi eynidir söyləmir. Əli müshəfi əldən-ələ keçərək imamlarda qalmışdır və onlar heç kəsi bu müshəflə tanış etməmişlər. Gözlədikləri imam (Mehdi) gəldikdə bu müshəfi gətirəcəkdir. Ağla belə bir sual gəlir. Əgər Mehdinin gətirəcəyi müshəf müsəlmanların əlində olan müshəf ilə eynidirsə, onda bu müshəfin dəyəri, faydası nədir? İzahı şiə alimləri verir.

---

[1] "Məsailus səraviyyə", səh 78-81-də (bəzi nəşrlərdə 81-88-də)

[2] "əd Din bəynəs sail vəl Mucib", səh 89

Şeyx Mufid yazır: **"Əhli beyt imamları tərəfindən varid olmuş xəbərlərdə Quranın fərqli olduğu və zalımlar tərəfindən Quranda artırma və əksiltmə olduğu bildirilmişdir."**[1]

Əbu Mənsur Əhməd ibn Əli ət Təbərsi "İhticac" kitabında Əbu Zərr əl Qifaridən rəvayyət edir:

"Rəsulullah *(sallallahu aleyhi və səlləm)* **vəfat edəndən sonra Əli ibn Əbu Talib Quranı topladı və mühacirlərin və ənsarların yanına gəlib, topladığı Quranı Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **vəsiyyət etdiyi kimi, onlara göstərdi. Əbu Bəkr onu açanda birinci səhifədə özlərinin biabırçılıqlarının yazıldığını gördü. Ömər sıçrayıb, ayağa qalxdı və dedi: "Ey Əli! Onu buradan rədd elə. Bizim ona ehtiyacımız yoxdur." İmam onu götürüb getdi. Sonra Zeyd ibn Sabiti çağırıb gətirdilər. O, Quran oxuyan bir şəxs idi. Ömər ona dedi: "Əli bir Quran gətirmişdi, orada mühacirlərin və ənsarların pis əməlləri yazılmışdı. Biz belə qərara gəldik ki, özümüz Quran yazıb ondan mühacirləri və ənsarları biabır edib hörmətdən salan yerləri çıxaraq. Zeyd yazdığı Quranı onun yanına gətirdi və dedi: "Mən sizin dediklərinizi Qurandan çıxarandan sonra o öz yazdığı Quranı mənə göstərsə, sizin bütün etdikləriniz batil olmazmı?"Ömər dedi: "Onda nə edək?" Zeyd dedi: "Tədbir işlətməkdə siz məndən yaxşısınız" Ömər dedi: "Onu öldürüb, canımızı qurtarmaqdan başqa çarəmiz qalmır." O, Əlini Xalid ibn Vəlidin əli ilə öldürmək tədbirini tökdü. Xalid isə bunu bacarmadı. Elə ki, Ömər xəlifə oldu, onlar Əlidən xahiş etdilər ki, o Quranı gətirsin. Məqsədləri də o idi ki, onu öz aralarında təhrif etsinlər. Ömər dedi: "Ya Əbülhəsən! Gəlsənə, Əbu Bəkrə göstərdiyin Quranı gətirəsən, onun hökmləri əsasında birləşək." Əli dedi: "Artıq buna ehtiyyac yoxdur, mən onu Əbu Bəkrə gətirmişdim ki, sizin əleyhinizə sübut olsun və Qiyamət günü deməyəsiniz ki, bizim bundan xəbərimiz olmayıb, yaxud deməyəsiniz ki, onu bizə göstərməmisən. Məndəki Quran elə bir Qurandır ki, ona mənim övladımdan olan pak adamlardan və vəliəhdlərdən başqa heç kəs toxunmamalıdır." Ömər dedi: "Onun zühuru vaxtı məlumdurmu?" "Əleyhissəlam dedi: "Bəli, o vaxt ki mənim övladlarımdan bir nəfər müdafiəçi ayağa qalxacaq və onu üzə çıxarıb adamları onunla ayağa qaldıracaq."**[2]

Əbul Həsən əl Amili əl Fəttuni yazır: **"Dediklərimizdən aydın olur ki, Allahın nazil etdiyi Quran o Qurandır ki,onu Əli** *(əleyhisalam)*

[1] "Əvailul məqalət" səh 54

[2] Təbərsi "əl Ihticac" səh 225-228

toplamışdır. Sonra Həsənə, sonra isə digər imamlara, nəhayət Qaim Mehdiyə ötürmüşlər. Bu gün Quran onun yanındadır."[1]

Şiələrin Quran təfsiri

Xomeyni "Kəşful Əsrar" kitabında deyir: **"Bunu qeyd etmək lazımdır ki, Quranda yüzlərcə ayə imamlardan və imamətdən bəhs etməkdədir. Amma, bu açıq şəkildə Quranda ifadə edilmir."**[2]

Həmçinin, yazır: **"Bunu bilmək lazımdır ki, Quranda Əli** *(əleyhisalam)* **haqqında ayələr sayılmayacaq qədər çoxdur."**[3]

Bu tədqiqi üçün yazılması lazım olan ayrıca bir kitab mövzusudur. Biz, fəqət bir neçə nümunələrlə kifayətlənəcəyik. Nümunə olaraq, şiələrin ən mötəbər hədis kitabı olan Kuleyninin "Kafi" kitabından bir neçə şiə versiyası olan ayələr haqqında bəhs edən rəvayyətlər nəql ediləcək, sonra isə əsl ayələr qeyd olunacaqdır.

(1/417): Cəbrayıl Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* bu ayə ilə nazil olmuşdu: **"Əgər bəndəmizə Əli haqqında nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və doğru danışanlarsınızsa Allahdan savayı bütün şahidlərinizi gətirin."**

Əsl ayə isə belədir: *"Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı bütün şahidlərinizi köməyə çağırın!"*[4]

(1/416): Abdullah ibn Sinan Əbu Abdullahdan rəvayyət edir: **"Bu ayə belə nazil olmuşdu. "Biz bundan əvvəl Adəmlə Muhəmmədi, Əlini, Fatiməni, Həsəni, Hüseyni və onların nəslini (unutmamağı) tövsiyyə etmişdik. Lakin o, əhdi unutdu və Biz onda əzm görmədik." Sonra imam dedi: "Allaha and olsun ki, Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **ayə belə nazil olmuşdur."**

Əsı ayə isə belədir: *"Biz bundan əvvəl Adəmlə də əhd bağlamışdıq. Lakin o, əhdi unutdu və Biz onda əzm görmədik."*[5]

(1/417) Əbu Cəfərdən: **"Cəbrayil Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **bu ayəni belə nazil etmişdi: Öz lütfündən bəxş etməsinə həsəd aparmaq**

---

[1] "Təfsiru mirətul-ənvər və mişkətul-əsrar", səh 36; http://www.al-shia.org/html/ara/books/lib-...maqalat/a03.htm

[2] "Kəşful Əsrar", səh 151

[3] "Kəşful Əsrar", səh 197

[4] Bəqara 23

[5] Taha 115

və Onun <u>Əli haqqında</u> nazil etdiyini inkar etməklə nəfslərini satıb əvəzində aldıqları şey necə də pisdir!"

Əsl ayə isə belədir: *"Allahın Öz qullarından istədiyi kimsəyə Öz lütfündən bəxş etməsinə həsəd aparmaq və Onun nazil etdiyini inkar etməklə nəfslərini satıb əvəzində aldıqları şey necə də pisdir! Onlar Allahın onlara bəslədiyi qəzəbi daha da şiddətləndirdilər kafirlərə alçaldıcı bir əzab vardır."*[1]

(1/417) Əbu Abdullah dedi: **"Cəbrayıl Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **bu ayələri nazil etdi: "Ey Kitab verilmişlər! Bizim <u>Əli barasində</u> nazil etdiyimizə iman gətirin."**

Əsl ayə isə belədir: *"Ey Kitab verilmişlər! Üzləri sıyırıb dümdüz edərək arxalarına çevirməmişdən, yaxud şənbə əhlini lənətlədiyimiz kimi onları da lənətləməmişdən öncə yanınızda olanı təsdiqləyici kimi nazil etdiyimizə (Qurana) iman gətirin! Allahın əmri mütləq yerinə yetəcəkdir."*[2]

(1/420-421) İmam dedi: **"Allaha and olsun ki, bu ayə onlar ikisi və onların davamçıları haqqında nazil olmuşdu. Cəbrayılın gətirdiyi bu ayə belə idi: "Bu ona görədir ki, onlar Allahın <u>Əli barasində</u> nazil etdiyinə nifrət edənlərə: "Biz bəzi işlərdə sizə itaət edəcəyik!"– dedilər. Allah onların sirlərini bilir."**

Əsl ayə isə belədir: *"Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət edənlərə: "Biz bəzi işlərdə sizə itaət edəcəyik!"– dedilər. Allah onların sirlərini bilir."*[3]

(1/424) Əbu Cəfər dedi: **"Bu ayə belə nazil olmuşdu: "Əgər onlar özlərinə verilən <u>Əli haqqında</u> öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı."**

Əsl ayə isə belədir: *"Əgər Biz onlara: "Özünüzü (aranızdakı günahkarları) öldürün və yaxud yurdlarınızdan çıxın!"– deyə buyurmuş olsaydıq, içərilərindən çox azı bunu yerinə yetirərdi. Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı."*[4]

"De: Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın." Biz zalımlar üçün elə bir od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir. Onlar kömək dilədikdə əridilmiş metal kimi üzlərini qovuran bir su ilə kömək ediləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir!"[5]

---

[1] Bəqara 90
[2] Nisa 47
[3] Muhəmməd 26
[4] Nisa 66
[5] Kəfh 29

Bu ayə haqqında Feyz Kəşani yazır: "Kafi"də imam Baqirdən hədisdə buyrulur: **"Cəbrayil** *(əleyhisalam)* **bu ayə ilə nazil oldu: "Əlini vilayəti haqqında haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın." Biz Muhəmmədin ailəsinə garşı zalımlar üçün elə bir Od hazırlamışıq ki..."**[1]

Əsl ayə isə belədir: *"De, Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın. Biz zalımlar üçün elə bir od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir."* [2]

Əbu Həmzədən rəvayyət olunur ki, o imam Cəfərə dedi: **"Sənə fəda olum. Tərəfdarların səndən bu ayənin təfsirini soruşuşur. "Onlar nə barədə bir-birindən soruşurlar? Böyük bir xəbər barəsindəmi?"**

İmam Cəfər dedi: "Bunu istəyirsən onlara xəbər verim, istəmirsən də xəbər vermiyim. Amma, mən sənə bunun təfsirini deyəcəm.

"Bu Möminlərin Əmiri Əli *(əleyhisalam)* **haqqındadır. O, buyurur ki, Allahın məndən daha böyük bir ayəsi və məndən daha əzəmətli xəbəri yoxdur."**[3]

"Kafi"də Səlimdən nəql olunan hədisdə Əbu Cəfərdən bu ayəni soruşdular. **"Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur."**

İmam dedi: "Öndə gedənlər"-imamlardır, "orta yolu tutanlar"-imamı bilənlər, "özünə zülm edənlər" isə imamı bilməyənlərdir."[4]

"Kafi"də Əbu Abdullahdan *"İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır"* **ayəsi haqqında dedi ki, bu Muhəmmədin** *(sallallahu aleyhi və səlləm)* **gətirdiyi imamların vilayətidir. Filankəsin vilayətinə filankəsinkini qarışdırmazlar."**[5]

"Kafi"də Əbu Cəfərdən rəvayyət olunur*: "Allah Peyğəmbərinə vəhy etdi: "Odur ki, sən özünə vəhy olunan ayələrə sarıl! Əslində, sən düz yoldasan."* **yəni, "sən Əlinin vilayəti üzərindəsən və Əlinin yolu doğru yolun özüdür."**[6]

Əbu Abdullahdan: *"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan"*

---

[1] "Təfsirus Safi", c.3, səh 241

[2] Kəhf 29

[3] "Kafi", c.1,səh 207

[4] "Kafi", c.1,səh 214

[5] "Kafi", c.1,səh 413

[6] "Kafi", c.1,səh 417

ayəsi və buna təfsir olaraq dedi ki, yəni vilayətdə əgər başqasını ona şərik qoşarsan əməlin boşa gedər."[1]

Əbu Abdullahdan: **(Bu ayəni oxuyub) "Doğrusu, bundan əvvəl Adəmə də <u>Muhəmmədi, Əlini, Fatiməni, Həsəni, Hüseyni və onların nəslini</u> (unutmamağa) tövsiyyə etmişdik. Lakin, o (tövsiyəmizi) unutdu" (sonra imam dedi): "Allah and olsun ki, Muhəmmədə (ayə) belə nazil olmuşdu."**[2]

Əbu Abdullahdan: **"(O) dedi: Ayə belə enib: "Hər kəs Allaha və Peyğəmbərinə <u>Əli və imaların vilayət məsələsində</u> itaət etsə, böyük bir səadətə nail olar"**[3]

Əbu Cəfər dedi: **"Cəbrayıl bu ayəni Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **nazil etdi: <u>"Muhəmmədin ailəsinin haqqına zülm edənlər özlərinə deyilən sözü başqası ilə dəyişdilər.</u> Biz də Muhəmmədin ailəsinin haqqına zülm edənlərə etdikləri günaha görə göydən əzab göndərdik."**[4] **göndərdik."**[4]

Ayənin əsli isə belədir: *"Zülm edənlər özlərinə deyilən sözü başqası ilə dəyişdilər Biz də zülm edənlərə etdikləri günaha görə göydən əzab göndərdik."*[5]

"Kafi"də uzun bir hədisin sonunda Muhəmməd ibn Fəzl imamdan soruşur: *"Mən bu ayəni oxudum: "Müşriklərin dediklərinə səbr et və onlardan xoşluqla uzaqlaş. Məni, ayələrimi yalan sayan var-dövlət sahibləri ilə tək burax və onlara bir az möhlət ver."*[6]

İmam dedi: "Yəni, sən səbr et və onlardan xoşluqla uzaqlaş və ey Muhəmməd! Sənin imamət vəsiyyətini yalan sayan var-dövlət sahibləri ilə tək burax və onlara bir az möhlət ver." Dedim ki, ayə bu şəkildə endirilmişdi? İmam: "Bəli, ayə bu şəkildə nazil olmuşdu."[7]

Allah Təala Tin surəsində buyurur: *"And olsun əncirə və zeytuna! And olsun Sinay dağına! And olsun bu təhlükəsiz şəhərə (Məkkəyə)! Biz insanı ən gözəl surətdə yaratdıq! Sonra isə onu aşağı qatların ən aşağısına (Cəhənnəmin dibinə) qaxacağıq. İman gətirib xeyirxah işlər görənlər istisna olmaqla! Onlar üçün tükənməz mükafat hazırlanmışdır. Bundan sonra dini yalanlamağa səni nə məcbur edir? Məgər Allah hakimlərin ən üstünü deyilmi?"*

---

[1] "Kafi", c.1,səh 427
[2] "Kafi",c. 1,səh 416; Müqayisə üçün Azərbaycan dilində,"Usuli kafi",səh 729;
[3] "Kafi",c. 1,səh 414; Müqayisə üçün Azərbaycan dilində,"Usuli kafi",səh 724
[4] "Kafi", c.1 səh 423-424
[5] Bəqara 59
[6] Muzəmmil 10-11
[7] "Kafi", c.1,səh 432

Şeyx Əbul Qasim Furat ibn İbrahim ibn Furat əl Kufi "Təfsir Furat əl Kufi" adlı məşhur təfsirində deyir: **"İmam Musa ibn Cəfərdən nəql olunur ki, o** *"And olsun əncirə və zeytuna!"* **ayəsi haqqında demişdir: "Bu Həsən və Hüeyndir.** *"And olsun Sinay dağına!"* **bu Əli ibn Əbu Talib, "And olsun bu təhlükəsiz şəhərə (Məkkəyə)!" bu Peyğəmbərdir.** *"İman gətirib xeyirxah işlər görənlər istisna olmaqla!"* **yəni, bu Əli ibn Əbu Talib və onun şiələridir.** *"Bundan sonra dini yalanlamağa səni nə məcbur edir?"* **yəni, Ey Muhəmməd! Əli ibn Əbu Talibin vilayəti."**

Allah Təala Nəhl surəsində buyurur: *"Rəbbin bal arısına belə təlqin etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör."*[1]

Zahirən adi bir ayədir ki, burada bizə çoxlu faydaları olan bal arısından bəhs olunur. Şiə alimi Rəcəb əl Bursi "Möminlərin əmiri haqqında nazil olmuş 500 ayə" kitabında "Mizan" və Qumminin təfsirlərinə istinad edərək yazır: "İmam Sadiq dedi: **"Bu bizim haqqımızda nazil olmuşdu. Biz arıyıq, dağlar bizim şiələr, ağaclar möminlərdən olan qadınlar, imamlar isə arıdır, Əli** *(əleyhisalam)* **isə onların əmiridir!"**[2]

Allah Təala Nəhl surəsində buyurur: *"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız."*[3]

Şiə təfsir alimi Əyyaşi məşhur təfsir kitabı "Təfsir Əyyaşi"də yazır: "İmam Cəfər Sadiqdən sənədi ilə nəql olunur: *"İmam "Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir"* ayəsi haqqında buyurdu: **"Ədalətli olmaq" yəni, Allahdan başqa ilah olmadığına şəhadət etmək, "yaxşılıq etmək" yəni, möminlərin əmirinin vilayəti, "iyrənc işlər görməyi" yəni, burada birinci nəzərdə tutulur, "pis əməllər törətməyi" burada ikinci, "azğınlıq etməyi" burada isə üçüncü nəzərdə tutulur."**[4]

Şiələrin ilk üç xəlifəyə olan xüsusi "rəğbətini" nəzərə alaraq, söhbətin kimlərdən getdiyini təxmin etmək çətin deyil.

Allah Təala Nəml surəsində buyurur: "*Hər kim yaxşı əməllə gəlsə, ona daha yaxşısı (Cənnət) verilər. Onlar o gün dəhşətli qorxu hissindən uzaq olarlar.*

---

[1] Nəhl 68

[2] http://alburhan.com/chapters_pic/albrsi.jpg

[3] Nəhl 90

[4] "Təfsir Əyyaşi", 2/267-268

Pis əməllə gələnlər isə üzüstə oda atılarlar. Onlara deyilər: "Məgər siz ancaq etdiyiniz əməllərə görə cəzalandırılmırsınızmı?"[1]

Kuleyni Əli ibn Əbu Talibin belə dediyini nəql edir: **"Yaxşı əməllər"dən qəsd olunan vilayətin təsdiqi və bizə məhəbbətdir. "Pis əməllər"dən məqsəd isə vilayətin inkarı və bizə olan düşmənçilikdir."**[2]

Şiə alimlərinin kitablarında Qurana belə məsxərə nümunələri olduqca çoxdur. Müsbət mənalı vəya tərif edici elə bir ayə yoxdur ki, onlar bunu imamlara nisbət etməsinlər. Mənfi mənalı və tənbeh edici ayələri isə onlar səhabələrə nisbət edirlər.

Allah Təala Quranda buyurur: *"İki ilah qəbul etməyin, tək Allah vardır."*

Əyyaşi kitabında yazır: "Əbu Bəsirdən, onun Əbu Abdullahın *"iki ilah qəbul etməyin, tək Allah vardır"* ayəsi haqqında belə dediyi rəvayyət olunur: **"Yəni, iki imam qəbul etməyin, tək imam vardır."**[3]

Allah Təala Quranda buyurur: *"Yer öz Rəbbinin nuru ilə işıqlanacaq..."*[4]

Qədim şiə təfsirçisi Əli ibn İbrahim əl Qummi yazır: "Bizə Mufəddal ibn Ömər imam Əbu Abdullahın *"Yer öz Rəbbinin nuru ilə işıqlanacaq..."* ayəsi haqqında belə dediyini rəvayyət etmişdir: **"Yer üzünün Rəbbi" yəni, yer üzünün imamı nəzərdə tutulur...."**[5]

Şiəlikdə Mehdi inancı və onun intizarının gerçək səbəbləri

Şiə "Mehdi"si haqqında rəvayyətlərlə tanış olduqda rafiziliyi icad edən yəhudi-məcusi təfəkkürü sintezinin İslama, ümmətə, səhabələrə, alimlərə və müsəlmanlara nə qədər nifrət etdiyinin şahidi olursan. Onların kini, nifrəti, qana susamışlığı, qisas almaq ehtirası sərhəd tanımır. Onlar imamlara nisbət edilən rəvayyətlərində şiə "Mehdi"sindən müsəlmanlardan acımasızca qisas alan yəhudi-məcusi qəhramanı obrazı yaratmışlar. Bu "xilaskar qəhraman" zühur etdikdə Kəbəni dağıdacaq, Qüreyşi, ərəbləri qılıncdan keçirəcək, səhabələri və onları sevənləri dirildəcək, sonra yenidən öldürəcək və s. ağla gələ bilən-bilməyən

---

[1] Nəml 89-90

[2] "Kafi", səh 300-301, №474

[3] "Təfsir Əyyaşi",3/14; 35/2395;
https://www.antimajos.org/viewtopic.php?f=21&t=326&sid=1b0108e705b39e581cac6e91e5879e6d

[4] Zumər 69

[5] "Təfsir əl-Qummi", 3/109,səh 905;
https://www.antimajos.org/viewtopic.php?f=21&t=325&sid=1b0108e705b39e581cac6e91e5879e6d

vəhşiliklər törədəcəkdir. Bu haqqda rəvayyətlər şiə kitablarında yüzlərlədir və bu baradə onlar ayrıca kitablar tərtib etmişlər.

Şiə "Mehdi"sinin əməlləri

Mehdinin Qureyşi, ərəbləri qılıncdan keçirəcəyi, Kəbəni dağıdacağı, səhabələri, keçmişdə ölənləri dirildib dara çəkəcəyi, sonra yenidən öldürəcəyi və s. əməlləri haqqında olan rəvayyətlər olduqca çoxdur və məşhurdur.

İmam Baqirdən rəvayyət olunur: **"Əgər insanlar bilsəydilər ki, Qaim (Mehdi) zühur etdikdə nələr törədib neçə-neçə insanları öldürəcək, o zaman onu (Mehdini) görmək istəməzdilər. O, ilk olaraq Qureyşdən başlayacaq və onlarla ancaq qılınc dili ilə danışacaq. Hətta, insanlar onun haqqında deyəcəklər: "O (Mehdi) Muhəmmədin ailəsindən deyil, əgər Muhəmmədin ailəsindən olsaydı o bağışlamağı bacarardı."**[1]

Bu rəvayyəti Muhəmməd Sadiq əs Sədr "Tarihu mə Badəz zuhur"[2] əsərində qeyd etmişdir. Həmçinin, Əli Yəzdi əl Hairi "İlzamun nasib fi isbati huccətul qaib"[3] əsərində, Məclisi "Biharul-ənvar"[4]da, şeyx Tusi "Qeybə"[5]də qeyd etmişlər.

Şiə alimi Bəhauddin Hüseyn ən Nəcəfi Mehdini vəsf edərkən yazır: **"O, (Qaim) kişiləri öldürəcək, hamilə qadınların qarnını yaracaq və körpələri nizələrə keçirəcəkdir."**[6]

Seyyid Muhəmməd Kazım əl Mehdi "minəl Mehdi iləz Zuhur" adlı kitabında yazır: **"Orada (Mədinə) Mehdi bəzi işlər və bəzi icraatlar edəcəkdir. Bunlardan bəzisini qeyd edəcək olarsaq, bu bəzi qəbirlərin açılıb, cəsədlərin çıxardılması və yandırılmasıdır. Biz burada bunun təfsilatına toxunmuruq. Biz sadəcə ümumi olaraq, qeyd edirik."**[7]

Bu şiə müəllif Mehdinin kimin qəbirlərini açdırıb, cəsədlərini yandıracağını yalan söyləyib, hiyləyi əmr edən təqiyyəyə əsasən açıqlamamışdır. Onun qeyd etdiyi qəbirlər Əbu Bəkr və Ömərin

---

[1] http://www.al-shia.com/html/ara/books/qiba_nomani/a16.html
[2] səh 567
[3] c.2,səh 283; "Muəssəsətul aləmi lil mətbuat" Beyrut,1977 il
[4] c. 52, səh 353
[5] səh 135
[6] "Sururu əhlil-iman", səh 105
[7] "minəl Mehdi iləz Zuhur",səh 541; "Muəssisətu İmam Hüseyn"nəşr. London

qəbirləridir. Beləki, əllamə Əhməd ibn Zeynuddin əl Əhsayi "Rical" kitabında[1] bu qəbirlərin kimlərə aid olduğunu açıqlamışdır. "Həyatun nəs"[2] adlı kitabında bu qəbirlərin Əbu Bəkr və Ömərin qəbirləri olduqları bildirilir. Onlar "Cibt" və "Tağut" deyə adlandırılır. Həmçinin, bunu Mirzə Muhəmməd Mumin əl Əstərabadi "Rical"kitabında[3], Nemətullah Cəzairi "Ənvərun numaniyyə"[4]də və Zeynuddin Nəbati "Sıratul Mustəqim"[5] kitablarında qeyd etmişlər.

Əbu Abdullahdan rəvayyət olunur: **"Bilirsənmi Qaim ilk olaraq nədən başlayacaq? Dedim: Xeyr. İmam dedi: "Qaim məzardan bu iki nəfərin cəsədini tam olaraq çıxardıb, yandıracaq, külünü havaya sovuracaq və məscidi sökəcəkdir."**[6]

Əbu Abdullahdan rəvayyət olunur: **"Muhəmməd nəslindən olan Mehdi zühur etdikdə Qureyşdən olan 500 nəfəri çıxardacaq və onların boyunlarını vuracaq. Sonra yenidən 500 nəfəri çıxardıb, onların boyunlarını vuracaq və beləcə altı dəfə təkrar edəcək!!!"**[7]

Zürarənin imam Baqirdən rəvayyət etdiyi hədisdə deyilir: **"Ona dedim ki, salehlərdən bir saleh. Mənə onun adını söylə. Bununla Qaimi (Mehdi) nəzərdə tuturdum. İmam: "Adı mənim adımdandır." Dedim: "Muhəmmədin** *(səllallahu aleyhi və səlləm)* **yolu ilə hərəkət edəcək?! İmam: "Heyhat! Heyhat. Ey Zürarə! Onun sünnəsi ilə hərəkət etməyəcək." Dedim: "Sənə qurban olum, niyə?" İmam: "Rasulullah ümməti içərisində bərəkət və mərhəmət ilə hərəkət edirdi. Qaim isə insanlar içərsində öldürmək ilə hərəkət edəcəkdir. Özü ilə bərabər olan kitabda "öldürərək hərəkət etməklə əmr olundum" yazılmışdır. Heç kəsdən də tövbə etməsini istəməyəcəkdir. Ona qarşı gələnlərə vay olsun."**[8]

Ayətullah Təbəsinin dilimizə tərcümə edilmiş "Son hakimyyət" adlı kitabında müəllif "Nasibilər" adlı fəsil tərtib etmiş və orada bir neçə rəvayyət nəql etmişdir. Həmin fəsildən bəzi sitatlar:

"İmam Sadiq buyurur: "Bizim əhli beytimizdən olan Qaimimiz qiyam edəndə bütün nasibiləri və əhli beytin düşmənlərini ona

---

[1] "Rical", səh 186-187

[2] səh 50

[3] səh 118

[4] c.2,səh 89

[5] c.2,səh 253

[6] "Biharul ənvar" c.53,səh 386; https://www.anti-majos.org/viewtopic.php?f=23&t=89

[7] Mufid "əl İrşad",səh 364; Məclisi "Biharul ənvar" c.52,səh 338; https://www.anti-majos.org/viewtopic.php?f=23&t=90

[8] Numani «Qeybət», səh 231

tanıtdıracaqlar. Əgər onlar əhli beytin vilayəti olan İslama etitaq edərlərsə azad buraxılacaq, əks təqdirdə öldürüləcəklər və yaxud da cizyə vergisi ödəməyə məcbur ediləcəklər."[1]

İmam Baqir buyurur: **"İmam qiyam etdiyi zaman nasibilərə bir-bir iman gətirmək təklifini edəcək. Əgər qəbul etsələr azad buraxılacaq, əks təqdirdə boyunları vurulacaq, yaxud da cizyə vergisi vermək yaxud da şəhərdən ucqar kəndlərə sürgün edilmələrini əmr edəcək."**[2]

Təbəsi haşiyədə bu rəvayyətin şərhində Məclisinin sözlərini qeyd edir: **"Bu hökm qiyamın əvvəllərinə aid ola bilər. Çünki, rəvayyətlərin zahirə mənasına əsasən nəticə almaq olar ki, onlardan iman gətirməkdən savayı heç bir şey qəbul olunmayacaq. Əgər onlar bunu qəbul etməsələr öldürəcəklər."**[3]

Əbu Bəsir deyir ki, imam Sadiqə ərz etdim: **"İmam Mehdinin nasibilərlə və sizin düşmənlərinizlə rəftarı necə olacaq?" Buyurdu: "Ey Əbu Muhəmməd…. Allah o zaman onların qanını bizə halal edəcək. Lakin, bugün onların qanı sizə və bizə haramdır,…o gün gələndə intiqam alacaqdır."**[4]

Təbəsi kitabında bəzi rəvayyətləri yazır: **"İmam Sadiqdən rəvayyət olunur ki, imam Əli belə buyurdu: "… İmam fərariləri qətlə yetirib, yaralıları öldürəcək."**[5]

İmam Rza buyurur: **"Bizim Qaimimiz zühur etdikdə, qan tökməkdən, öldürməkdən, boyun vurmaqdan və at minməkdən başqa işi olmayacaq."**[6]

Ayətullah Təbəsi kitabında "Məscidul hərəmi və məscidul nəbini əvvəlki vəziyyətinə qaytaracaq" adlı fəsildə bir neçə rəvayyəti qeyd edir. Onlardan birində deyilir:

İmam Sadiq buyurur: **"İmam məscidul hərəmi sökəcək və onu əvvəlki vəziyyətinə qaytaracaqdır. Həmçinin, peyğəmbərin məscidini söküb, əvvəlki kimi bərpa edəcək. Sonra Kəbəni də öz yerində tikəcək."**[7]

---

[1] Təbəsi,"Son hakimiyyət",səh 197 (Az. dilində), "İsbatul hudat" c. 3,səh 585 ,Bihar, c. 52,səh 387

[2] Təbəsi,"Son hakimiyyət",səh 198,"Kafi",c.8,səh 227, İsbatul Hudat, c. 3,səh 450,Bihar, c. 52,səh 375

[3] "Miratul Uqul", c. 26,səh 160"

[4] Təbəsi, "Son ahkimiyyət", səh 197-198; "Bihar", c. 52,səh 376

[5] "Son hakimiyyət",səh 185-186; Numani,"Qeybət",səh 231,"İsbatul Hudat",c. 3,səh 539, "Bihar", c. 52,səh 354, Təbəsi, səh 186

[6] Təbəsi,"Son hakimiyyət",səh 185,Numani,"Qeybət",səh 285,"İsbatul Hudat",c.3,səh 543

[7] Təbəsi, "Son hakimiyyət", səh 216,"İrşad", səh 364, Tusi, "Qeybət", səh 297,Numani, "Qeybət", səh 171,"Bihar", c52, səh 332, "Kəşful Ğummə", c. 3,səh 255 və s.

Əbu Cəfərdən rəvayyət olunur: **"Qaim zühur etdikdə Kufəyə gəlib, orada dörd məscidi dağıdacaq. Beləcə, dünyada az-çox əhəmiyyəti olan və Qaim tərəfindən dağıdılmayan heç bir məscid qalmayacaq."**[1]

Muhəmməd Sadiq əs Sədr "Tarihu mə Badəz zuhur" əsərində Əbu Basirdən rəvayyət olunan hədisi qeyd edir: **"İmam Əbu Cəfər dedi ki, Qaim yeni bir idarə, yeni bir kitab, yeni bir hökm ilə zühur edəcəkdir. Ərəblərə qarşı sərt olacaqdır. Onun işi qılıncdan başqa iş deyildir."**[2]

İmam Cəfərdən rəvayyət olunur: **"Bizimlə ərəblər arasında boğazlanmaqdan başqa bir şey qalmamışdır və əli ilə boğazına işarə etmiş…"**[3]

Bu rəvayyəti Hurr Amili "Rəsailuş şia"[4]da, Bəhrani "əl Hədaiq"[5]də, şeyx Hüseyn əl Usfur "əl Məhasinun nəfsaniyyə"[6]də, Feyz Kəşani "əl Vafi"[7]də, Numani "Qeybət"[8]də, Məclisi "Biharul ənvar"[9] qeyd etmişlər.

İmam Muhəmməd ibn Həsən (Qaim özü) dedi: **"Himran ibn Əyyan və Meysər ibn Əbduləziz ilə birgə insanları Səfa ilə Mərva arasında qılıncdan keçirəcəyimi görürmüş kimiyəm."**[10]

İmam Sadiqdən rəvayyət olunur: **"İmam qiyam etdiyi zaman Qüreyşi hədəfə alacaq, onlardan yalnız və yalnız qılıncdan başqa bir şey almayıb, onlara qılıncdan başqa bir şey verməyəcəkdir."**[11]

Şiə "Mehdi"si yoxsa fars-məcusi "xilaskarı"

Şiə kitablarında "Mehdi"nin hətta, zərdüştilərin "Novruz" bayramı günü qiyam edəcəyi, həmən günü Dəccalı Kufədə öldürəcəyi bildirilir. Qaim Mehdinin 313 nəfər yaxın səhabəsinin olacağı və bunların da qeyri ərəblərdən ibarət olacağı haqqında rəvayyətlər şiə kitablarında məşhurdur. Bu baradə ətraflı Numaninin "əl Qeybə" kitabında geniş

---

[1] Mufid "əl İrşad", səh 465

[2] "Biharul ənvar", c. 52,səh 354; Numani, "Kitabul Qeybət", səh 154

[3] Təbəsi, "Son Hakimiyyət",səh 189

[4] c.11,səh 60

[5] c.18,səh 155

[6] səh 166

[7] c.10,səh 59

[8] səh 122

[9] c. 52,səh 355

[10] "Biharul ənvar" c. 53,səh 40

[11] Təbəsi, "Son hakimiyyət", səh 190,Numani, "Qeybət", səh 165, Bihar, c. 52,səh 355

məlumatlar verilmişdir. Aydın olur ki, şiə "Mehdi"si obrazı İslam qalib gələndən və hakim olandan sonra ondan hər cür kirli, məkrli yollalarla intiqam almağa çalışan məcusilərin müsəlmanlardan qisas almaq üçün yaratdıqları əsatir qəhramanıdır. Məcusi İranlılar tarixən siyasi "müxalifət" kimi yaranmış şiəliyi və Əhli beyt məfhumunu özlərinə sipər etmiş, sadə müsəlmanları onların adı ilə aldatmış, çirkin, xəbis ideologiyalarına alət etmişlər. O zaman İslamı aşkarda məğlub edə bilməyəcəklərini anlayan bir sıra yəhudi, məcusi, münafiq və s. din düşməni qruplar İslamı içəridən zəiflətmək və məhv etmək qərarına gəldilər. İlk belə təşəbbüsü Yəmənli yəhudi olan Abdullah ibn Səba göstərmişdi. Təsadüfi deyil ki, Yəməndə yüz illərlə hökm sürmüş Sasani irsi Yəmənli ərəblərin qəlblərində və zehinlərində dərin izlər buraxmışdı. Onlar Kufəyə köç etdikdə keçmiş dini təsəvvürləri yeni dində olan inancları ilə birləşdirərək, İran-şiə din anlayışının təşəkkül tapmasında mühüm rol oynadılar.

Məşhur qərb şərqşünası W. Watt yazır: "**Yəmən hökmdarlığın atadan oğula miras yolu ilə keçdiyi ailələrin ölkəsi idi. Hökmdarlar özlərini cəmiyyətdə maddi, mənəvi, bütün sahələrin nüfuz sahibləri olaraq görürdülər. Yəmənli ərəblər "ilahi krallar" anlayışı ilə uzun illər yaşadılar. Şüuraltı düşüncələrində bu anlayışı daşıyan qəbilələr yeni yurdları olan Kufəyə yerləşdikləri zaman təsəvvürlərindəki "qeyri-bəşəri keyfiyyətlərə sahib olan hökmdarın" onları idarə etməsini arzu etdilər. Bu düşüncələrin təsiri ilə "məsum imam" yəni, xarizmatik lider obrazını yaratdılar. Köhnə inanclarının təsiri ilə siyasi, dini işləri idarə edəcək olan belə bir imam ətrafında dövlət qurmağı arzu etdilər."**[1]

İbn Səba, ilk dəfə səhabələrə aşkarda söyməyə, lənət etməyə başladı, Peyğəmbərdən *(sallallahu aleyhi va səlləm)* sonra imamətin yəhudilərdə Musadan *(əleyhisalam)* sonra Yuşə bin Nunə məxsus olduğu kimi İslamda da Əli ibn Əbu Talibin haqqı olduğunu iddia etmiş, onun haqqında quluv fikirlər irəli sürməyə başlamışdı. Beləcə yəhudilər ilk fitnəni rafizi-şiəlik adı ilə İslama daxil etdilər. Lakin, bu şiəlik siyasi deyil, ifrat ideoloji şiəlik idi. Məhz, ibn Səba ilk olaraq Əli *(radiyallahu anhu)* haqqında onun ölməyib, axır zamanda qayıdacağı fikrini iddia etmişdi. Məcusilər isə müsəlman ərəblərdən fars-sasani irsinin, məğlubiyyətinin qisasını almağı arzu edirdilər. Ona görə fars, məcusi zehniyyətində yetişən adamları vasitəsilə ilə əhli beytin adından rəvayyətlər uydurmuş və bunları kitablarına hədis olaraq almışdılar. Tarixən belə fikir və ideologiyaların formalaşdığı

[1]Fatih Topaloğlu," Eski İrandakı yarı Tanrı-kral anlayışının şii imamet inancına etkisi", səh 5; Watt, "Teşekkül devri", səh 48-52

mərkəz İranın Qum bölgəsi olmuşdur. Ən qədim, şiə, qulat, məcusi zehniyyətli ravilər və əksər şiə alimləri məhz bu bölgədən çıxmışlar.

İran coğrafiyasında İslamdan öncə yüz illər boyu mitraizm, zərdüştlik, məzdəkilik kimi qədim dinlər, batini fəlsəfi fikirlər hakim olmuşdu. Bu din və fəlsəfələrin böyük din adamları, tərtib etdikləri kitabları bu coğrafiyada böyük nüfuza sahib olmuşdular. İslam dini hakim olduqdan sonra isə farsların bir qismi qədim din, məcusi fəlsəfə və şirk mədəniyyətlərini unutmadıqları kimi, bunları yaşadıqları yerdə bilərək vəya bilməyərək İslama sirayət etdirməyə başladılar. Yeni, batini fikir və düşüncələr, fəlsəfi axınlar yaranmağa başladı. İslam dini öz saflığını və originallığını bu və digər bölgələrdə belə cəhdlərin sayəsində tədricən itirdi. Məcusi, yunan, yəhudi, batini-şirk fikir və düşüncələri İslam dininin, mədəniyyətinin bütün sahələrinə sirayət etdi və insanlar artıq bu düşüncələrin İslami olduğunu qəbul etməyə başladılar. Təsadüfi deyil ki, bütün şiə, sufi, batini təriqətlərinin qurucuları, böyüklərinin hamısı vəya böyük əksəriyyəti əcəm, fars mənşəli insanlar olmuşlar.

Bugün şiə düşüncəsində müəyyən dəyişikliklərlə yer alan racat, (yenidən dünyaya dönüş) bəda, (Allahın fikrini dəyişməsi) hülul (ruhların təcəlli etməsi), tənasüh, reankarnassiya, təqiyyə, sufi-vəhdəti vücud fəlsəfəsi, özünə əzab verməklə təziyyə adətləri, məsumluq etiqadı, məhdəviyyət, rəhbərləri və onların soyunu ilahlaşdırmaq və bir çox başqa inanclar qədim İran coğrafiyasında hakim olmuş inanclar, etiqadlar olmuşlar. Bir sözlə şiə təfəkkürü qədim İranlıların dininin başqa bir versiyasıdır. İran şiəliyi və qurtarıcı Mehdi inancı qədim Mitra-zərdüşt təsəvvürlərinə dayanır. Həmçinin, şiələr fars və iranlı kimliklərini müqəddəsləşdirmək üçün Əhli beytin adından yüzlərlə rəvayyətlər uydurmuşdular. Kitablarında Qum, Xorasan və s. İran şəhərlərinin mübarək, müqəddəs torpaqlar olması, farsların seçilmiş, mübarək xalq olmaları vurğulanır.

İran mənşəli xilaskar Mehdi obrazı farsların ənənəvi dini inancı olub, İslamla heç bir əlaqəsi yoxdur. İranda hökmdarlar "müqəddəs soy" dan olduqlarına görə onların "Fərdi Yezdani" adlanan xətasız, məsum və üstün insan olma vəsfləri var idi. Din adamları da eyni ilə xətasız və məsum qəbul edilirdilər. İranın antik mədəniyyəti və şüubiyyə ideologiyasının daşıyıcıları qəbul etməyə məcbur olduqları yeni İslam dinində öz varlıqlarını "müqəddəs şah soy"u ilə Peyğəmbər soyununun birləşməsindən yaranan yeni dini anlayışda davam etdirməyə çalışdılar. İran üçün çox əhəmiyyətli olan bu "müqəddəs ittifaq bağ"ı Xosrovun qızı və imam Hüseynin övladları üzərindən qurulmuşdu. Əsas problem İran

əhlinin zehnini zəhərləmiş olan ənənəvi "müqəddəs soy inancı" və buradan çıxacaq olan gəlişi gözlənilən "xilaskar Mehdi" ideogiyasıdır.

İmam Hüseynin şəhadətindən sonra onun iki oğlu qalmışdı. İranlılar Şəhrabanudan olan Zeynəlabidin üzərindən "müqəddəs on iki imam" bağı qurmuş, digər xanımdan olan oğlu Amrı isə kənarda saxlamışdılar. Bununla yanaşı, Əli *(radiyallahu anhu)* və Həsənin *(radiyallahu anhu)* də çoxlu oğlan övladları mövcud idi. Tarixdən məlumdur ki, Əli, Həsən, Hüseyn soyunun mənsubları ayrı-ayrı dövrlərdə Əməvilərə və Abbasilərə qarşı dəfələrlə silahlı qiyamlar qaldırmışdılar. Onların ətrafında olan şiələr və Əli övladlarının iqtidara gəlməsini arzu edənlər də onları Əhli beyt mənsubları kimi dəstəkləyirdilər. Lakin, çox qəribədir ki, siyasi iqtidara heç bir iddiası olmayan və xəlifə olmaq üçün heç bir ciddi addım atmayan fars qadından doğulan Zeynəlabidin ibn Hüseyn və onun kimi iddiası olmayan lakin, onun soyundan gələn övladları ətrafında onların istəyi və xəbəri olmadan xüsusən, İranlı şiələr təşkilatlanmağa başladılar. Onlar heç bir siyasi şiə firqəsinin imamlarına nisbət etmədiyi xüsusiyyətləri öz imamlarına nisbət etməyə başladılar. Rəhbər olaraq qəbul etdikləri şəxsləri "müqəddəs İran soyu" dəyərlərinə əsasən vəsf etdilər. Beləcə, sırf İran dəyərləri və müəllifliyini İranlı şiə din adamlarının etdiyi qaynaq kitabların əsasında imami şiə firqəsi təşəkkül tapmağa başladı. Şiələr arasında mollaların təlqini ilə "müqəddəs İran soyundan" gələcək olan xilaskar Mehdi inancı imanın əsas dayaqlarından hesab olunur.

Məclisi kitabında Nəvəşcan ibn əl Bəvadmərdandan rəvayyət edir: **"Farslar Qadisiyyəni o zaman ərəblərə tərk edəndə və Yəzdəgird ibn Şəhriyara ərəblərin Rüstəmi məğlub etmə xəbəri çatanda, o zənn etdi ki, Rüstəm də qoşunla birgə həlak olub. Çapar ona Qadisiyyə döyüşündə 50 000 əsgərin öldürüldüyü xəbərini çatdıranda o öz ailəsi ilə birgə qaçmağa hazırlaşdı. O, sarayının qapısı yanında dayanıb, dedi: "Sənə salam olsun ey saray! Bax, indi mən səni tərk edirəm. Amma, bura ya mən, ya da mənim nəslimdən olan adam qayıdacaqdır ki, onun gəlmə vaxtı və zamanı hələ yetişməyibdir."**

Süleyman Deyləmi dedi: **"Mən imam Əbu Abdullahın yanına daxil olub, soruşdum: "ya da mənim nəslimdən olan adam" sözü nə deməkdir? İmam dedi: "Bu sizin yoldaşınız Qaimdir. Allahın izni ilə o mənim nəslimdən olan altıncı imamdır. Onun əcdadı Yəzdəgirddir."**[1]

İslama olan məcusi düşmənçiliyi o qədər dərinə getmişdir ki, onlar Mehdiyə məcusi titul və adları nisbət etmişlər. Şiə mühəddisləri bu haqqda kitablarında xüsusi fəsillər ayırmış, rəvayyətlər nəql etmişlər.

[1] Məclisi, "Biharul Ənvar" c. 51, səh 163-164

Əli *(əleyhisalam)* deyir: **"Həqiqətən Allah onu, Xosrovu oddan xilas edəcəkdir və ona odu haram qılmışdır."**[1]

Məşhur şiə mühəddis Nuri Təbərsi özünün "Nəcm əs saqib fi əhval əl imam əl huccə əl qaib" kitabında yazır: **"İmam Mehdinin adlarından biri də "Məcusilərin Xosrovu"-dur. Bu imamın 47-ci adıdır."**[2]

Bu fəsildə o yazır: **"Qaimin 182 adından əlavə onun qədim fars-zərdüşt mənşəli adları da vardır"** və sonra yazır:

№ 4 – Yezad Şenas
№ 5 – Yezad Neşan
№ 6 – İstadə (Ucalmış, məcusilər tərifindən verilmiş ad)
№ 23 – Bəhram (Qələbəni təcəssüm etdirən fars ilahı)
№ 24 – Bəndə Yezdan (Yəzdanın qulu. Yəzd-ilah)
№ 25 – Pərviz (qalib mənasını verən fars adı)
№ 26 – Xacəstə (sevincli, şad mənasını verən fars adı)
№ 27 – Xosroy (məcusilərin şahı mənasını verir)
№ 28 – Xuda Şenas (İlah haqqında elmi olan)

Ayətullah Nəcməddin Təbəsi "Son hakimiyyət" adlı dlimizə tərcümə olunmuş kitabınında yazır: **"Zühurdan əvvəlki hadisələr və imam Mehdinin dostları və silahdaşları haqqında rəvayyətlərin əksəriyyəti İran və iranlılar barasindədir. Bu mövzu fars əhli, əcəm, Xorasan, Qum əhli, taliqanlılar, reylilər və bu kimi müxtəlif sözlərlə bəyan olunmuşdur."**[3]

Təbəsi digər səhifələrdə yazır: **"İmam Kazım dedi: "Cənnətin yeddi qapısı vardır. Onlardan biri isə Qum şəhərinin əhli üçündür."**[4]

Peyğəmbər *(səllallahu aleyhi və səlləm)* dedi: **"Farslar bizdən, əhli beytdən hesab olunurlar. And olsun Allaha, mən onlara sizdən daha çox inanıram."**[5]

İmam Baqir dedi: **"Mehdinin silahdaşları 313 nəfərdir və onların hamısı əcəm övladlarıdır."**[6]

---

[1] "Biharul-ənvar", c. 41, səh 4
[2] c. 1,səh 185
[3] səh 67
[4] Təbəsi, "Son hakimiyyət", səh 61; "Biharul ənvar" c.60,səh 216,
[5] Təbəsi, "Son hakimiyyət", səh 66, "Zikru İsbəhan", səh 11, 12, "Cəmius səhih, c. 5,səh 382
[6] Təbəsi, Son hakimiyyət, səh 69; Numani "Qeybət", səh 313; "Bihar" c. 52, səh 369

Təbəsi rəvayyətin şərhində qeyd edir ki, əcəmlərdən qəsd olunan yalnız İranlılardır. Təbəsi kitabında Mehdinin ordusu, bu orduda İranlıların rolu, hansı şəhərlərdən neçə nəfərin bu orduya qoşulacağı, adları və s. keyfiyyətlıri haqqında bir neçə rəvayyəti yazdıqdan sonra deyir: **"Göründüyü kimi imam Mehdinin 313 nəfərlik xüsusi qoşunu İranın indiki 72 şəhərindəndir."**[1]

"Əşəs imama dedi: "Ya əmirəlmöminin! Niyə bizdən qabaq bu əcəmlər (qeyri ərəblər) bizdən qabaq sizin ətrafınıza toplaşıblar?"[2]

Bu rəvayyətin şərhində Təbəsi yazır: **"O dövrdə Kufə bazarında əksər tacirlər İranlı olduğu üçün fars dilində danışırdılar."**[3]

Təbəsi kitabında "İran imam Zaman ölkəsi", "Qum şəhəri başqalarına hüccətdir" fəsilləri ayırmış və orada yazır:

"....Allah Qumu və bu şəhərin sakinlərini Höccətin canişinləri edəcək....Əgər Qum şəhərinin sakinləri olmasaydı din aradan gedərdi."[4]

Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* buyurub: **"Qum ona görə Qum adlandırılıb ki, onun sakinləri Ali Muhəmmədin Qaiminin ətrafına toplanacaq, onunla birlikdə qiyam edəcək, bu yolda çox möhkəm olacaq və ona kömək edəcəklər."**[5]

İmam Sadiq buyurub: **"Qumun torpağı müqəddəsdir, Qum sakinləri bizdən, biz isə onlardanıq... Qum camaatı bizim Qaimimizin dostları və bizim haqqımıza dəvət edənlərdir... "**[6]

"... Qum şəhəri və onun sakinləri bütün insanlar üçün hüccət olacaq. Bu bizim Qaimimizin qeybəti dövründən onun zühuruna qədər olacaq..."[7]

Təbəsi yazır: **"Rəvayyətlərdən aldığımız nəticəyə əsasən məsum imamlar Qum şəhərini Əhli beytin və imam Mehdi aşiqlərinin mərkəzi biliblər."**

---

5 Təbəsi, səh 67, "Ğarət", c. 24,səh 498; "Səfinətul Bihar" , c. 2,səh 693

6 "Mustədrəkul Vəsail", c. 13,səh 250

[2] Təbəsi, "Son hakimiyyət",səh 67, "Ğarət", c. 24,səh 498; "Səfinətul Bihar" ,c. 2,səh 693

[3] "Mustədrəkul Vəsail", c. 13,səh 250

[4] Təbəsi,"Son hakimiyyət", səh 62; "Biharul ənvar", c. 60,səh 213,217

[5] Təbəsi,"Son hakimiyyət",səh 65, "Biharul ənvar", c 60,səh 216

[6] Təbəsi,"Son hakimiyyət",səh 65, "Biharul ənvar", c. 60,səh 218

[7] "Son hakimiyyət",səh 62; "Biharul ənvar", c. 60,səh 213

Şiə "Mehdi"si yoxsa Məsih Dəccal

Mehdi (xilaskar) inancı şiə əqidəsinin təməlini təşkil edən əsaslardan biridir. İslam dininə görə Qiyamətə yaxın bir zamanda Məsih Dəccalın zühur edəcəyi və onun fitnəsinin yer üzündə indiyə kimi gəlmiş – keçmiş ən böyük fitnə, müsibət olacağı əqidəsi icma ilə qəbul olunmuş bir etiqaddır. Hədislərə görə İblisin böyük layihəsi olan məşhur Məsih Dəccal zühur edənə qədər yer üzünə çoxlu sayda dəccallar gələcəkdir. Onlardan ikisinini vəsf edən hədislər varid olmuşdur. Bu iki böyük dəccalın missiyası Məsih Dəccalın gəlişini hazırlamaq və ona hər cürə yardım etməkdən ibarət olacaqdır. Peyğəmbər *(səllallahu aleyhi və səlləm)* İslam ümmətini qana bulayacaq İblisin dəccal "Mehdisini" – "Hariq" (yandırıcı), Edlas (silib, yox edən, sehrli), Elyas (gözü bağlı cəsur), Carifə (sel kimi alıb aparan) kimi adlarla vəsfləndirmişdir. Əhli sünnə kitablarında Məsih Dəccalın bəzi vəfləri haqqında bunlar deyilir:

Şueyb ibn Amr rəvayyət edir: **"Biz Allahın elçisi** *(səllallahu aleyhi və səlləm)* **ilə birlikdə idik. Birdən yerindən sanki bir şeydən ürkmüş kimi qəfil qalxdı. İbn Məsud dedi: "Anam atam sənə fəda olsun! Sanki, bir şeydən ürkmüsən, nə olub?" Dedi: "Üç dəccaldan uzaq olun." İbn Məsud: "Anam atam sənə fəda olsun. Bizə bir gözü kor olan dəccalı və yalançıların yalançısını anlatmışdın. Üçüncü yalançı kimdir?" Rasulullah** *(sallallahu aleyhi və səlləm)* **dedi: "Bu əvvəli həlak olmuş, sonu tükənmiş harik (yandıran) adı verilən fitnəylə əbədi lənətə layiq görülmüş bir qövmdən zühur edəcək. O, Edlas (məkrli) Dəccaldır və o Allahın qullarını qıracaq."**[1]

İbn Məsud Peyğəmbərdən *(səllallahu aleyhi və səlləm)* nəql edir: **"… O ilkləri də həlak olmuş bir qövmün içindən çıxacaq. Lənət davamlı olaraq onların üzərindədir. Allahın qullarını qıracaq Dəccal əl Elyas odur."**[2]

Hakim, ibn Huzeymə və Təbarani bu hədisi nəql edirlər: "Peyğəmbər *(səllallahu aleyhi və səlləm)* buyurdu: **"Sizi üç dəccaldan çəkindirirəm! Biz dedik: "Məsih Dəccəli və yalançıların ən yalınçısını bildik, üçüncüsü kimdir? Dedi: "Əvvəli və sonu fəlakət olan Cərifə, fitnənin içində dolaşan bir millətdən çıxacaq olan bir adam…. O, son dərəcədə məkrli bir Dəccaldır. Muhəmməd əhlini istismar edərək, insanları soyacaq…. Halbuki, o peyğəmbər sünnətindən uzaqdır."**[3]

---

[1] "Məcmauz-Zəvaid","Mənbaul-Fəvaid" , c.13, Bab: Fitnələr kitabı, hədis 12492

[2] "Müstədrək", c. 11,hədis: 8612

[3] "Müştərək", c.11,hədis:8612

İbn Ömər *(radiyallahu anhu)* Peyğəmbərdən *(səllallahu aleyhi və səlləm)* rəvayyət edir: **"… Dəccal İsfahan yəhudilərindən çıxacaq… Ondan öncə bir yalançı (dəccal) peyda olacaq…..O, şərq tərəfdən çıxacaq. Ərəblərin tör-töküntüləri, əcəmlərin zəlil olanları onun ardı ilə gedəcəklər. Onların əvvəldə və sonda olanları həlak olacaqlar. Allahın lənəti əbədi olaraq onların üzərindədir."**[1]

"… Şərq tərəfdən ümmətimdən bir sıra insanlar çıxacaq. Onların oxuduqları Quran boğazlarından aşağı enməyəcək. Onlardan bir buynuz (nəsil) çıxdıqca kəsiləcək. Nəhayət, onların arasından Dəccal çıxacaq."[2]

Xorasan İranın şərqində yerləşən böyük bir vilayətdir. Şiə rəvayyətlərinə görə Mehdi oradan çıxacaq. Amma, əslində gördüyümüz kimi Peyğəmbərn *(səllallahu aleyhi və səlləm)* buyurduğu kimi oradan Məsih Dəccal çıxacaqdır.

Əbu Bəkrdən *(radiyallahu anhu)* rəvayyət olunur: **"Rasulullah** *(sallallahu aleyhi və səlləm)* **bizə dedi: "Dəccal şərqdən, Xorasandan zühur edəcək."**

Ənəs *(radiyallahu anhu)* nəql edir: Rasulullah *(sallallahu aleyhi və səlləm)* dedi: **"Dəccal İsfahan yəhudilərindən peyda olacaq və onunla birgə 70 000 yəhudi olacaqdır."**[3]

Maraqlıdır ki, İranın İsfahan şəhərində böyük yəhudi icması yaşamaqdadır. Həqiqətən, biz əgər şiə kitablarında vəsf olunan Mehdinin obrazı ilə tanış olsaq (onun Davudun şəriəti ilə hökm etməsi, yəhudilərin başında dayanması, görkəminin yəhudilərə oxşaması, sünnə əhlini qılıncdan keçirməsi və s.) əminliklə deyə bilərik ki, onların gözlədiyi və Xorasandan çıxacaq olan "Mehdi" Məsih Dəccal vəya onun gəlişini hazırlayan digər böyük dəccaldır.

Həmçinin, bundan əlavə digər mütəvatir hədislərdən məlum olduğu kimi ən böyük fitnənin başı və çıxacağı yer şərq tərəfi olaraq göstərilib. Əgər xəritəyə diqqət etsək, görərik ki, indiki İran, İraq Mədinə şəhərinin şərqində yerləşir. Yuxarıda nümunə olaraq gətirilən hədislər də məhz bunu təsdiqləyir.

Məlumdur ki, yəhudilər böyük intizarla qurtarıcı "Məsih"i gözləyirlər. Onların kitabları və vəsf etdikləri Məsih obrazı ilə tanış olduqda görürük ki, şiələrin vəsf etdikləri "Mehdi" ilə yəhudi "Məsih"i arasında böyük bənzərliklər vardır. Məlumdur ki, şiələrə görə Mehdinin iqamətgahı və paytaxtı Kufə şəhərində olacaqdır. Məsih Dəccal da

[1] "Mustədrək", c.11,hədis:8656
[2] "Mustədrək",c.11,hədis:8544
[3] İmam Əhməd "Müsnəd", №12865

peyğəmbərliyini Kufədə elan edəcəkdir. Abdullah ibn Mutim rəvayyət edir ki, peyğəmbər *(səllallahu aleyhi və səlləm)* buyurdu: **"Dəccal çıxdığı zaman Kufəyə gəlib peyğəmbərliyə iddia edəcəkdir. Bunu görən ağıl sahibi olan insanlar ondan ayrılacaqlar."**[1]

Kuleyni "Kafi" kitabında belə bir fəsil açmışdır: **"İmamların işi ortaya çıxdıqda onlar Davud ailəsinin hökmü ilə hökm edəcək və onlardan nə dəlil, nə mərhəmət, nə də razılıq istənilməyəcəkdir"**[2]

İndi isə şiələrin "Mehdi"ni vəsf etdikləri rəvayyətlərinə diqqət edək: Ayətullah Təbəsinin dilimizə tərcümə olunmuş "Son hakimiyyət" kitabında "Qəzavət" fəslində müəllif bir neçə rəvayyət qeyd edir:

"İmam Sadiq buyurur: **"İmam Mehdinin zühurundan sonra Allah Təala hər bir ölkədə hamını çağırmaq üçün bir külək göndərəcək və belə nida edəcək: "Bu şəxs Davud və Süleymanın qayda qanunu ilə qəzavət edən, öz hökmü üçün şahid tələb etməyən Mehdidir."**[3]

İmam Baqir buyurur: **"İmam Qaimin özünəməxsus hökm və qanunları olacaq. Bəzən hətta onunla birlikdə qılınc götürüb, vuruşarlar belə ona etiraz edəcəklər. İmam Mehdinin qəzavətləri Adəmin hökmləri kimi olacaq və o etiraz edənlərin boyunlarını vuracaq. Sonra isə Davudun qanunları əsasında hökm edəcək. Lakin, bu zaman da imamın dostları etiraz edəndə onların da boyunlarını vuracaq. Üçüncü dəfə imam İbrahim** *(əleyhisalam)* **peyğəmbərin üsulu ilə qəzavət edəndə, onun yanında qılınc götürüb, vuruşan dostları etiraz edəcəklər. Bu dəfə də imam Mehdi onları edam edəcək. Sonra isə imam Mehdi Muhəmmədin** *(səllallahu aleyhi və səlləm)* **qanun-qaydaları əsasında rəftar edəcək və daha heç kəs ona etiraz etməyəcək."**[4]

Cuəyd əl Həmədani rəvayyət edir ki, "mən imam Zeynəlabiddindən soruşdum: **"Siz hansı qanunlara əsasən hökm edirsiz?"O, cavab verdi: "Davud nəslinin qanunlarına əsasən. Əgər biz bir məsələ ilə bağlı çətinlik çəkiriksə cavabı Ruhul Qüdsdən alırıq."**[5]

İmam Cəfərdən rəvayyət olunur: **"Qaimimiz (Mehdi) zühur etdiyi zaman, Allaha yəhudi (ivrit) dilində dua edəcəkdir."**[6]

---

[1] Nəsai, "Duafa", səh 53, Buxari, "Tarixul kəbir" 3/515

[2] "Kafi",1/249; https://www.anti-majos.org/viewtopic.php?f=28&t=29

[3] Təbəsi,"Son hakmiyyət", səh 216, "Kafi", c. 1,səh 397,"Kəmaluddun", c. 2,səh 671, Məclisi, "Miratul Uqul" c. 4,səh 300-da bu rəvayyəti mötəbər (muvassaq) hesab etmişdir.

[4] Təbəsi,"Son hakimyyət", səh 217; İsbatul hudat, c. 3,səh 585; Biharul ənvar, c. 52,səh 389

[5] "Kafi", c.1,səh 695

[6] Numani, "Qeybə", səh 326

Peyğəmbər *(səllallahu aleyhi və səlləm)* buyurub: **"O mənim övladlarımdandır, hündür cüssəli olub, bəni yəhudi kişilərinə bənzər qaməti vardır…."**[1]

Mufid Mufəddəl ibn Ömərdən imam Sadiqin belə dediyini nəql edir**: "Qaimlə birgə Kufədən Musanın** *(əleyhisalam)* **ümmətindən olan 27 nəfər çıxacaq. Yeddi nəfər Əshabi kəfhdən, Yuşa bin Nun, Süleyman, Əbu Dəcanə, Miqdad və Malik Əştər onun köməkçiləri olacaqlar."**[2]

<u>Aşağıdakı arqumentlər şiə Mehdisinin yəhudi mənşəli olduğunu göstərir:</u>

1. Yəhudi Məsihi zühur etdikdə o dünyanın hər yerinə səpələnmiş yəhudiləri onlar üçün müqəddəs olan Qüds şəhərində toplayacaq. Rafizi Mehdisi zühur etdikdə isə o rafiziləri öz ətrafında şiələr üçün müqəddəs olan Kufə şəhərində toplayacaqdır.
2. Yəhudi Məsihi zühur etdikdə o ölmüş yəhudiləri dirildəcək və onlar onun ordusuna qoşulacaqlar. Həmçinin, rafizilərin Mehdisi də ölmüş şiələri dirildəcək və onlar onun ordusuna qoşulacaqlar.
3. Yəhudi Məsihi zühur etdikdə bəzi günahkarları qəbirdən çıxardacaq və onları yəhudilərin şəhadəti ilə yenidən cəzalandıracaqdır. Həmçinin, rafizi Mehdisi zühur etdikdə peyğəmbərin *(səllallahu aleyhi və səlləm)* bəzi səhabələrini dirildəcək və onları cəzalandıracaq.
4. Yəhudi Məsihi yəhudiləri təqib edən, onları incidənlərdən intiqam alacaqdır. Həmçinin, rafizi Mehdisi şiələri incidənlərdən intiqam alacaqdır.
5. Yəhudi Məsihi rafizi Mehdisi kimi dünya əhalisinin 2/3 i məhv edəcəkdir.
6. Yəhudi Məsihi zühur etdikdə yəhudilərin bədəni 200 dirsək uzunluğunda böyüyəcək və onların ömrü uzanacaq. Həmçinin, rafizi Mehdisi zühur etdikdə şiələrin bədəni dəyişiklik görəcək və onlar adi adamlardan seçiləcəklər.
7. Yəhudi Məsihi zühur etdikdə yerin və göyün qapıları açılacaq. Süd, bal çayları axacaq və başqa möcüzələr görüləcək. Həmçinin, rafizi Mehdisi zühur etdikdə onların vəziyyəti yaxşılaşacaq, yer və göydən onlara nemətlər yağacaq.

[1] Təbəsi, "Son hakimiyyət",səh 142, "Cismi xüsusiyyətləri fəsli"
[2] "İrşad", səh 402

Yekun olaraq, şiə Mehdisi haqqında rəvayyətləri oxuduqca və onun zühur etdikdən sonra guya nələr edəcəyini eşitdikdə adam dəhşətə gəlir. Hətta, Hitler, Stalin kimi ən əzazil diktatorlar belə min il əvvəl ölmüş insanların cəsədlərini qəbirlərindən çıxardıb, asmamışdılar. Təbii ki, bütün bu rəvayyətlər o dövrdə yaşayan şiələr tərəfindən ona görə uydurulmuşdu ki, bunlar qisas həsrəti ilə yaşayan şiələrə təsəlli olsun. Qeyd etmək lazımdır ki, şiə Mehdisi tamamilə uydurma şəxsiyyətdir. Onun mövcudluğu hətta, şiələr arasında belə sübuta yetirilməyib. Çünki, imam Həsən Əsqərinin övladı yox idi və o öldükdən sonra bəzi şəxslər şayiə yaymışdılar ki, guya onun kiçik yaşlı oğlu var və o həyatına təhlükə olduğuna görə gizlənib. O dövrdə olan şiələrin əksəriyyəti belə "Qeybət"[1] kitabında deyildiyi kimi belə bir şəxsin olmasına şübhə edirdilər və onun doğulduğuna inanmırdılar. Bu mövzunu şiə alimi Kamal Heydəri öz söhbətlərində geniş açıqlayır və sübut edir ki, Mehdinin doğulduğuna dair şiələrdə bir dənə də səhih rəvayyət yoxdur.

Abdullah ibn Səba və şiəliyin üç əsası

İlk öncə oxucuya bu tarixi şəxs haqqında məlumat vermək istərdik. İbn Əbil əl Hənəfi imam Təhəvinin "Əqidə" kitabının şərhində yazır: "Təhavi "Münafiqlərdən uzaq olun" dedikdə rafiziliyi yaradan münafiq və zındığı nəzərdə tutur. Bu adamın məqsədi İslamı məhv etmək, Peyğəmbəri *(sallallahu aleyhi və səlləm)* alçaltmaq olmuşdur. Alimlər bunu belə izah edirlər:

"Abdullah ibn Səba İslamı qəbul edib, onu hiylə və məkrlə məhv etmək istədi. O, İslama Pavelin xristianlğa vurduğu zərbə kimi zərbə vurmaq istədi. İlk öncə o özünü təqvalı insan kimi görsətməyə çalışdı. Xeyrə dəvət edib, münkərdən çəkindirmək adı ilə o Osmanın xilafəti zamanı fitnə qaldırdı və insanları onu öldürməyə çağırdı. Sonra o Kufəyə gələrək Əlini ucaltmağa başladı."[2]

Qədim şiə müəllifləri "hər peyğəmbərin bir vəlisi olmalıdır" fikrini Abdullah ibn Səba tərəfindən ortaya atıldığını təsdiq etmişlər. Şiənin mötəbər rical müəlliflərindən olan Kəşşi kitabında belə yazır:

"Bəzi elm adamları (şiələrdən) qeyd etmişlər ki, Abdullah ibn Səba yəhudi olmuş, sonra İslamı qəbul etmişdir. Əlinin *(əleyhisalam)* **tərəfini**

[1] səh 27-28

[2] "Təhavi əqidəsinin şərhi", səh 420-421, Quraba 2002

saxlamışdır. Yəhudi ikən, ifrata varıb Yuşə ibn Nunun Musanın vəliəhdi olduğunu dediyi kimi, İslam dinində olanda Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* **vəfatından sonra Əli** *(əleyhisalam)* **haqqında belə şeylər demişdir. Onun imamlığının fərz olduğunu dili ilə deyib elan edən birinci adam olmuş, düşmənlərindən üz döndərmiş, ona müxalifətdə olanları aşkara çıxarıb kafirlikdə günahlandırmışdır. Buna görə də şiələrə müxalif olanlar demişlər ki, şiəlik və inkarçılıq yəhudilikdən götürülmüşdür."**[1]

Öz dövrünün şiə şeyxi olan Həsən Musa Növbəxti (öl.300) "Firəq əş şiə" (Şiə firqələri) kitabında yazır:

"Abdullah ibn Səba Əbu Bəkri, Öməri, Osmanı və əshabələri söymüş, onlara öz etirazını bildirmiş və onlardan ayrılmış adamlardan biridir. O demişdir ki, bunu ona Əli *(əleyhisalam)* **əmr etmişdir. İmam onu danlamış, ondan bunu deyib-demədiyini soruşmuşdur. O öz dediklərini boynuna almış, Əli** *(əleyhisalam)* **onu öldürməyi əmr etmişdi. Bunu görən adamlar çığırıb ona demişlər ki, ey Əmirəlmöminin! İnsanlar arasında sizə Əhli beytə məhəbbət və sizin vilayətinizi, sizin düşmənlərinizdən uzaqlaşmağı təbliğ edən bir adamı necə öldürək? Belə olduqda Əli** *(əleyhisalam)* **onu öldürməyib, Mədainə (İranın o zamankı paytaxtı) sürgün edir. İmamın əshabələrindən olan elm əhlindən bir qrupu hekayət etmişlər ki, Abdullah ibn Səba İslamı qəbul etmiş yəhudi olmuşdur. O, Əlinin** *(əleyhisalam)* **tərəfdarı idi. Yəhudi ikən, Musadan sonra Yuşə ibn Nunun vəliəhd olduğunu dediyi kimi, müsəlman ikən də Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **vəfatından sonra Əli** *(əleyhisalam)* **haqqında həmin sözləri demişdir. O, Əlinin** *(əleyhisalam)* **imamlığının fərz olması sözünü açıq deyən birinci adam olmuş, onun düşmənlərindən aralanmış, müxaliflərini rüsvay etmişdir. Buna görə də şiəliyə müxalif olanlar demişlər: "İnkarçılığın əsası yəhudilikdən götürülmüşdür." Abdullah ibn Səbaya Mədaində Əlinin** *(əleyhisalam)* **ölüm xəbəri çatanda o, bu xəbəri gətirənə demişdir: "Yetmiş dəfə onun başını gətirib göstərsən və onun qətli ilə əlaqədar yetmiş məhkəmə də qursan, yalan dediyini bilirəm. Çünki, o nə ölüb, nə də qətlə yetirilib, nə də bütün Yer kürəsinə sahib olmadan ölməyəcəkdir."**[2]

Sədd ibn Abdullah əl Əşəri əl Qummi (öl.301) (imam Həsən Əsqərinin yoldaşı olub) Səbailər haqqında deyir: **"Səbaililər Abdullah ibn Səbanın davamçılarıdır. Ona yardım edənlər Abdullah ibn Hursi və İbn Əsvəd idi. Bunlar onun ən böyük səhabələri idilər. O, Əbu Bəkri,**

[1] "Rical əl-Kəşşi", səh 101, İraq; Məclisi,"Biharul ənvar,c.25,səh287

[2] Növbəxti, "Firəq əş-şiə", səh 43-44; Nəcəf; "əl-Mətbəə əl-Heydəriyyə" nəşr.

Öməri, Osmanı və digər səhabələri aşkarca tənqid, təhqir edən ilk insan idi."[1]

Muhəmməd Əbdul Kərim Şəhristani yazır: **"İbn Səba Əli ibn Əbu Talibin ilahi imaməti haqqında iddia edən ilk şəxs olmuşdur."**[2]

Şəhristani eyni səhifədə yazır: **"Abdullah ibn Səbanın ətrafında bir dəstə insanlar toplandı. Bu ilk firqə idi ki, zühuru, qeybdə olmağı və imamların geri qayıdacağına (racət) iman edirdilər."**[3]

Şiə şeyxi Əbu Cəfər ət Tusi "Əlinin səhabələri fəslində" ibn Səbanın tərcümeyi halını yazır: **"Həmin bu Abdullah ibn Səba küfrə qayıdaraq həddini aşmışdı. O, Əlinin ilah və peyğəmbər olduğunu iddia edirdi."**[4]

Nemətullah Cəzairi yazır: **"Abdullah ibn Səba Əliyə** *(əleyhisalam)* **dedi: "Sən həqiqi İlahsan!" Əli** *(əleyhisalam)* **onu Mədainə sürgün etdi. İnsanlar dedilər ki, o yəhudi olub, İslamı qəbul etmişdi. Yəhudi olarkən, Yuşə ibn Nun və Musa** *(əleyhisalam)* **haqqında dediklərini Əli** *(əleyhisalam)* **haqqında da deyirdi."**[5]

Kəşşi səhih isnadla imam Zeynalabiddindən rəvayyət edir: "**Allah Əliyə** *(əleyhisalam)* **böhtan atana lənət eləsin! Yenə Abdullah ibn Səba yadıma düşdü, tüklərim biz-biz oldu. O, elə böyük bir iş iddia etmişdir ki, Əlinin buna dəxli yoxdur. Allaha and olsun ki, Əli** *(əleyhisalam)* **Allahın əməlisaleh bir qulu, Rasulullahın** *(sallallahu aleyhi və səlləm)* **qardaşı olmuşdur, Allah ona yalnız Allaha və onun Rəsuluna itaətinə görə kəramət vermişdir."**[6]

Kəşşi imam Sadiqin belə dediyini rəvayyət edir: **"Allah ibn Səbaya lənət etsin! O, əmirəlmöminin ilahlığını iddia etmişdi. And olsun ki, əmirəlmöminin Allahın xalis qullarından biri idi. Bizim haqqımızda yalan danışana vay olsun! İnsanlar bizim özmümüz haqqında danışmadığımızı bizim haqqımızda deyirlər. Biz Allah yanında onların sözlərindən bəriyik."**[7]

İbn əl Hədid yazır: **"Əli** *(əleyhisalam)* **xütbə oxuyarkən, ibn Səba onun qabağında dayandı və dedi: "Sən, sən və təkrar etdi." Əli** *(əleyhisalam)* **ona**

---

[1] "əl Məqalət vəl firaq", səh 22,Tehran

[2] Şəhristani, "Dinlər və firqələr", səh 137,Moskva 1999

[3] "Dinlər və məzhəblər tarixi", səh 137,Moskva 1999

[4] "Rical ət Tusi",səh 51

[5] "Ənvərun numaniyyə", c.2,səh 234

[6] "Rical əl Kəşşi", səh 100

[7] "Rical əl Kəşşi, səh 71-75

dedi: "Vay olsun sənə, nə mən?" İbn Səba dedi: "Sən illahsan." Onda Əli *(əleyhisalam)* **onu və onun fikrində olanları yaxalamağı əmr elədi."**[1]

İbn Hibban yazır: **"Kəlbi (Muhəmməd ibn Səib) Abdullah ibn Səbanın davamçılarından olan Səbai idi. O və dostları iddia edirdilər ki, Əli** *(radiyallahu anhu)* **ölməyib və Qiyamət gününə yaxın qayıdacaqdır."**[2]

Naşi əl Əkbər (hic.293 öl.) "Məsail əl imamə" kitabında deyir: **"Bir qrup Əlinin** *(əleyhisalam)* **ölmədiyini, diri olduğunu, ərəbləri çomağı ilə yola gətirmədikcə ölmədiyini dedilər. Bunlar Abdullah ibn Səbanın davamçıları olan Səbailərdir. Abdullah ibn Səba isə Sənalı yəhudi idi və Mədaində iqamət edirdi."**[3]

Şiə alimi Məmqani yazır: **"Abdullah ibn Səba küfrə qayıtmış və qulat fikirlər söyləyən biri idi. Möminlərin Əmiri onu odda yandırdı. O, iddia edirdi ki, Əli** *(əleyhisalam)* **ilahdır, o özü isə peyğəmbərdir."**[4]

Ümumiyyətlə 20-dən çox şiə mənbəsində Abdullah ibn Səbanın varlığı təsdiq olunur.

Racətə iman

Şiəliyin üç əsasının kökü yəhudiyə gedib çıxır. Muhəmməd Rza Müzəffər yazır: **"On iki imama etiqad edən şiələrin əqidələrindən biridə zühura imandır. Əhli beytdən gələn xəbərlərə görə Allah Təala bəzi ölülərə bu dünyaya yenidən ilkin halında olduqları kimi qaytaracaqdır. Onlardan bəzilərinə mükafat, bəzilərini isə rüsvay edəcəkdir. Allah əməlisalehlərin və məzlumların haqqını qaytaracaqdır. Bütün bunlar imam Mehdinin qiyamından sonra baş verəcəkdir."**[5]

Seyyid Şubbar yazır: **"Bütün imamlar bu dünyaya yenidən qayıdacaqlar."**[6]

Müctəhidlərin sonuncusu mühəddis əllamə Muhəmməd Baqir Məclisinin "Biharul Ənvar"kitabında müstəqil bir fəsilin adını belə qoymuşdur. **"İmamlar ölümlərindən sonra dünyaya yenidən qayıdacaqlar"**

---

[1] "Şərh Nəhcul Bəlağa", c.5,səh 5
[2] "Mərcuhin", səh 253
[3] səh 22-23
[4] "Təhqiqul məqal fi ilmi-r rical", c.2,səh 183-184
[5] "Əqidə məsələləri", "Zühur haqqında bəhs" fəsli
[6] "Şərhul ziyarətul camiə", səh 132

Əbu Abdullahdan: **"Mələklər Allahdan ona (imam Hüseynə) kömək etməklərini istədilər. Onlara icazə verildi. Onlar savaş üçün hazırlaşarkən, o öldürüldü. Düşdülər aşağı, onun müddəti bitmişdir, o öldürülmüşdür. Mələklər dedilər: "Ya Rəbb, bizə enməyə icazə verdin, kömək etməyə də icazə verdin, biz düşdük, ancaq sən onun ruhunu almışdın (yəni biz çata bilmədik)"Allah onlara vəhy etdi ki, onu görənədək qəbrində qalsın. Çıxanda ona kömək edərsiniz. Ona kömək edə bilmədiyiniz üçün başqalarına ağlayın. Siz ona kömək etmək və ağlamaq üçün ayrılmısınız (seçilibsiz). Mələklər kədər və təziyyə ilə ona kömək edə bilmədikləri üçün ağladılar. O, çıxanda onun köməkçiləri olacaqlar"**[1]

"Usuli Kafi"nin tərcüməçisi Tağızadə Elkiz, həmin səhifədə, rəvayyətin haşiyəsində qeyd edir: **"Hədisin son cümləsi "racat" (geri dönmə) məsələsinə işarə edir. Şiə məzhəbinın etiqad kitablarında da yer alan təməl prinsiplərindəndir. Buna görə bəzi imamlar, bir grup mömim və kafirlər qiyamətdən əvvəl dünyaya geri qayıdacaqlar. Beləliklə möminlərdə kafirlərdən intiqam alacaqlar."**

Məşhur və qədim şiə alimi olan şeyx Mufid yazır: **"İmamiyyə bir çox ölünün Qiyamət günündən öncə təkrar dünyaya geri dönməsini məsələsində ittifaq etmişdir. Allah Təalanın sifətlərindən "bəda"-nın onun haqqında caiz olması məsələsində də ittifaq etmişlər. Həmçinin, zəlalət rəhbərlərinin Quranın təlifi ilə əlaqəli bir çox məsələdə vəhyə və Rəsulullahın** *(sallallahu aleyhi və səlləm)* **sünnətinə müxalif olmaları məsələsində ittifaq etmişlər."**[2]

Abdullah ibn Muğira Cəfər Sadiqin belə dediyini rəvayyət etmişdir: **"İmam Mehdi gəldiyində Qureyşdən 500 adamı dirildər, sonra boyunlarını vurar və bunu altı dəfə təkrar edər. Ravi ibn Muğira imamdan soruşdu: "Bunların sayı bu qədərdir?" İmam Cəfər Sadiq buyurdu: "Bəli, bunlar onlardan və onların dostlarından olacaq."**[3]

Mühəddis Cəzairi yazır: **"Qiyamət günündən öncə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)***, Əli, Fatimə, Həsən, Hüseyn və az miqdarda səmimi möminlər və digər kafirlər həyata qaytarılacaqlar."**[4]

İnsanların dirilərək, bu dünyaya qayıtmasına (racət) iman Allaha küfrdür. İmam Əbu Muhəmməd Həsən ibn Əli əl Bərbəhari (ö.329 il) deyir: **"Bu dünyaya ölmüş adamların yenidən qayıtmasına (racət) iman**

[1] "Kafi", c.1, səh 472 "Mubahilə" 2005 il

[2] Mufid, "Əvəilul-məqalat", səh 48-49,Beyrut

[3] Şeyx Mufid, "əl İrşad", səh 364

[4] "Ənvərun Numaniyyə", c.2,səh 87;Rəcat babı,İran nəşri

bidət və Allaha küfdür. Buna kim inanarsa kimliyindən asılı olmayaraq o kafirdir və bunda şübhə yoxdur. Kim racətə və Əlinin *(radiyallahu anhu)* **ölməyib, yenidən dünyaya qayıdacağına inanarsa vəya bunları Muhammməd ibn Əli, Cəfər ibn Muhammməd haqqında söylərsə və onları ucaldıb, qeybi bildiklərini iddia edərsə, ondan uzaq ol. Onlar Allaha küfr etmişlər."**[1]

Şeyx Əbdulqadir Ceylani öz zamanında rafizi və yəhudilərin bənzərliklərinə işarə etmişdir. O, yazır: **"Xülasə olaraq, rafizilərin məzhəbi yəhudilərin məzhəbi kimidir. Rafizi və şiələri sevmək, yəhudiləri sevmək kimidir. Yəhudilər dedilər ki, xəlifəliyə yalnız Davud nəslindən olanlar layiqdir. Rafizilər də iddia etdilər ki, xəlifəliyə yalnız Əli ibn Əbu Talibin nəslindən olanlar sahib olmalıdır. Yəhudilər dedilər ki, Dəccal gəlib, İsa** *(əleyhisalam)* **zühur etməyincə cihad yoxdur. Rafizilər də iddia etdilər ki, Mehdi gələnə qədər və səmadan səs gələnə qədər cihad yoxdur. Yəhudilər axşam namazını ulduzlar çıxana qədər gecikdirirlər. Eyni ilə rafizilər də belə edirlər. Yəhudilər müsəlmanın qanını halal hesab edirlər, rafizilər də buna inanırlar."**[2]

Halbuki, yuxarıda qeyd etdiyimiz kimi yəhudilərdə olan "racətə iman" əqidəsini ilk dəfə ibn Səba və onun davamçıları ortaya atmışdılar. Şiələr isə bunu ibn Səbadan əxz etmişdilər.

Şəhristani yazır: **"Abdullah ibn Səbanın ətrafında bir qrup insanlar toplanmışdı. Bu ilk firqə idi ki, qayıtmaya, qeyb olmağa və zühura etiqad edirdi."**[3]

İbn Hibban yazır: **"Kəlbi (Muhəmməd ibn Səib) Abdullah ibn Səbanın davamçılarından olan Səbai idi. O və dostları iddia edirdilər ki, Əli** *(radiyallahu anhu)* **ölməyib və Qiyamət gününə yaxın qayıdacaqdır."**[4]

Nəticə olaraq, bizə aydın olur ki, ilk dəfə yəhudi ibn Səbanın ortaya atdığı "İlahi imamət","səhabələrə lənət etmə" və ölülərin dünyaya yenidən qayıdacağı (racət) fikirlərini şiələr ondan əxz etmiş, mənimsəmiş və bu fikirləri, ideyaları dinlərinin təməl prinsiplərindən etmişdilər.

[1] "Şərhus sunnə", səh 102,məsələ 160
[2] "Hunyətul talibin", səh 134,Çəlik nəşr
[3] Şəhristani,"Dinlər və firqələr", səh 137, Moskva 1999
[4] "Mərcuhin", səh

Şiəlikdə hədis elmi, ravilər, isnadlar, ziddiyyətlər və ixtilaflar

Bunu qəti olaraq qeyd etmək istərdik ki, şiəlikdə "məsumlar"dan varid olan elə bir rəvayyət, elə bir xəbər yoxdur ki, onu təkzib edən digər bir rəvayyət, xəbər olmasın. Şeyx Əbu Cəfər Tusi şiələrin dörd mötəbər kitabından biri olan "Təzhibul Əhkam" adlı kitabının müqəddiməsində belə yazır:

"Dostlarımız əshabımızın hədislərini və bu hədislərdəki ixtilaf, təzad və s. xüsusları mənimlə müzakirə etdilər. Məsələ o yerə çatır ki, hətta, anlaşılan bu olurdu ki, ittifaq ediləcək hər bir hədisin müqabilində onu nəhy edən və ona əks olan başqa bir hədis mövcud olurdu. Bu da müxaliflərimizin məzhəbimizə dil uzatmalarına ən çox səbəb olan xüsuslardandır."[1]

20-ci əsrdə yaşamış, şiələrin gəlmiş-keçmiş ən böyük rical, hədis alimlərindən sayılan Əbul Qasim əl Xoyinin qələmə aldığı 24 cildlik məşhur "Mucəm ər Ricalul hədis" kitabında tərtib etdiyi ravi kateqoriyasına diqqət yetirək:

1- Cəmi ravi sayı: 15 706 nəfər
2- Siqa (etibarlı) ravi sayı: 800 nəfər
3- Məchul (bilinməyən) ravi sayı: 336 nəfər
4- Haqqında heç bir məlumat olmayan ravi sayı: 14 570 nəfər

Qeyd etmək lazımdır ki, Xoyi tədqiqatçı şiə alimi olaraq şiə rical, rəvayyət kitablarında yer almış bütün ravilər haqqında məlumat toplamış və onları təsnifatlandırmışdır. Onun gəldiyi nəticə və çıxartdığı qənaət çox şeydən xəbər verir. Beləki, məlum olur ki, şiə rəvayyət kitablarında adı keçən 15 706 ravidən yalnız 800 nəfəri şiə rical qaydalarına görə siqadır. Kimlərin siqa olub-olmaması baradə isə onların qəribə fikirləri vardır. Misal olaraq, Seyyid Mustafa Xomeyni kitabında yazır:

"...və burada çox mühüm məsələyə diqqət etmək lazımdır ki, bu ravini alimlərdən heç kəs zəif hesab etməmişdir. Əgər ravi yalandan çəkinibsə, əxlaqsızlığa, fisqə, şirkə, hətta ateizmə meyl etməsində eyib bir şey yoxdur. Ravi ibn İsa da belələrindən idi...."[2]

[1] "Təhzib", səh 12
[2] "Kitab ət təhara",səh 324

Qısa nümunə olaraq, qədim və mötəbər şiə rəvayyət kitablarında (Kutubul ərba - dörd kitab) hədis rəvayyət etmiş bəzi mötəbər şiə raviləri ilə tanış olaq:

Cabir əl Cufi - Bu ravinin şiə kitablarında olduqca çoxlu rəvayyətləri mövcuddur. Hurr Amili bu ravi barədə demişdir: "O, imam əl Bəqirdən **70 000**, digər imamlardan isə **140 000** hədis rəvayyət etmişdir."[1]

İmam Cəfərdən Cabir əl Cufinin rəvayyət etdiyi hədislər barədə soruşarkən, o demişdir: **"Mən onu atamın yanında yalnız bir dəfə görmüşəm, mənim yanımda isə heç vaxt olmayıb."**[2]

Cəfər Sadiqin onun barəsində dediyi bu sözünə baxmayaraq, şiə alimi Xoyi Cabir əl Cufini siqə (doğrucul) ravi saymış, imamın sözü barədə isə belə demişdir: **"İmamın bu sözünü təqiyyəyə aid etmək labüddür."**[3]

Şiələr qatında siqa olan mötəbər bu ravinin yalançı bir ravi olduğunu Əhli sünnət imamları bəyan etmişlər. Beləki, Kufənin imamı Əbu Hənifə Kufənin hədis uyduran sənətkarı barədə belə demişdir: **"Cabir əl Cufidən daha yalançı birini görmədim."**[4]

"Cabir bin Yezid bin əl Haris əl Cufi əl-Kufi - hicri 127-ci ildə vəfat etmişdir. İbn Hibban onun haqqında deyir: "Səbai olmuşdur, Abdullah bin Səbanın əshabındandır. Belə deyərdi: "Əli dunyaya geri dönəcək." əl-Uqeyli isə sənədi ilə Zəidə'nin belə dediyini rəvayyət etmişdir: "Cabir əl Cufi rafizidir, peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* **səhabələrini soyərdi." İmam Nəsai və digərləri onun "tərk olunmuş biri" olduğunu deyirlər. Yəhya bin Məin deyir: "Hədisləri yazılmaz, nə də fəziləti qeyd olunmaz." İbn Hacər dedi: "Zəif ravidir, rafizidir."**[5]

Zürarə ibn Əyun - Əbul Qasim əl Xoyi onun barəsində demişdir: "Zürarənin rəvayyətləri **2490**-a yaxındır.[6] Bu hədislərdən **1626**-i "Kutubul-ərba"dadır (dörd mötəbər kitabda) Zürarə ibn Əyun üç imamın səhabəsi olmuşdur. Şiə alimi Nəcaşi onu tərifləyərək deyir: "Zürarə ibn Əyun öz zamanında şiələrin şeyxi, onların ən qədim olanı, fəqih və mütəkəllimi idi."[7]

---

[1] "Vəsailuş-şiə", 20/151 və ya 30/329

[2] "Ricəlul-Kəşşi", səh 169, Məməqani "Tənqihul-məqal"2/203

[3] Əbul Qasim əl Xoyi, "Mucəmu ricəlil-hədis" 4/25

[4] Tirmizi,"əl-İləl", Uqeyli "əd-Duafəul-kəbir" 1/196

[5] "Mizənul-İtidəl", 1/379-380; "Təqrib ət-Təhzib", 1/123; əl-Uqeyli, "əd-Duafə", 1/191-196

[6] Əbul Qasim əl Xoyi, "Mucəmu ricəlil-hədis" 7/249

[7] "Ricalun-Nəcaşi", səh 175

Seyyid Bəhrul-ulum demişdir: "Əyun ailəsi Küfədə Əhli beyt şiələrinin ən böyüyü idi."[1]

Çox qəribədir ki, şiə mənbələrində bu ravi imamların dilindən bir yerdə tərifləsə, digər yerlərdə lənətlənir.

Əbu Bəsir Leys ibn əl Buxtəri – "Kutubul-ərba"da onun imam əl Bəqir və əs Sadiqdən rəvayyət etdikləri hədislərinin sayı **2110**-dur. Əhli beyt tərəfindən tən edilmiş yalançı bir ravidir.[2]

Şiə alimi Haşim Maruf əl Huseyni onun barəsində demişdir: "Əbu Bəsir künyəsi ilə tanınan dörd şiə ravisi var: Əbu Bəsir Abdullah ibn Muhəmməd, Əbu Bəsir Aliyyə, Əbu Bəsir Leys ibn əl Buxtəri və Əbu Bəsir Yəhya ibn Əbil Qasim. Onların hamısı ittiham olunmuş ravilərdir. Onların içərisində ən yaxşısı Əbu Bəsr əl Buxtəridir. Ancaq onu bir qism alim siqa (doğrucul) saymış, bir qismi isə ona tən etmiş və əqidəsinin xarab olduğunu bəyan etmişdilər."[3]

Şiə hədis tənqidçisi Əbul Hüseyn ibn əl Qədəri yazır: "Əbu Abdullah Əbu Bəsirin ölməsi ilə əlaqədar qəmli və kədərli idi. Onun səhabələri Əbu Bəsir haqqında fikir ayrılığına düşdülər. Sonra müəllif yazır: "Mən inanıram ki, Əbu Bəsir rəvayyət etdikləri rəvayyətlərə görə deyil, öz dininin və imanının bəzi qüsurlu cəhətlərinə görə lənətlənmişdi."[4]

Muhəmməd ibn Sinan – "Kutubul-ərba"da ondan rəvayyət olunmuş hədislərinin sayı **662**-dir. Hurr Amili onun barəsində demişdir: "Mufid onu siqa (doğrucul) saymış, Kəşşi də onun barəsində tərifəlayiq sözlər nəql etmişdir ki, bu da onun siqa bir ravi olduğuna dəlalət edir. Amma Nəcaşi və Şeyx Tusi onu siqa ravi saymamışdır..."[5]

Şiə alimləri, onu necə siqa ravi saya bilərlər ki, Muhəmməd ibn Sinan özü ölümündən qabaq etiraf etmişdir ki, o rəvayyət etdiyi hədislərin heç birisini imamlardan eşitməyib.[6]

Bu səbəbdən də əl Fəzl ibn Şazan demişdir ki, Muhəmməd ibn Sinanın hədislərini rəvayyət etmək halal deyil.[7]

---

[1] "əl-Fəvaidur-ricəliyyə", 1/222
[2] "Ricəlul-Kəşşi", səh 152
[3] "əl-Mouduat fil-əsəri vəl əxbər", səh 233
[4] "İxtiyaru mərifətur-ricəl"c.1,səh 397; Ərdəbili "Camii ər Ruvat"c.3,səh 43
[5] "Vəsailuş-şiə", 30/473
[6] "İxtiyaru mərifətur-ricəlil-məruf bi ricəlil-kəşşi"6/557
[7] "əl-Mouduat fil-əsəri vəl əxbər", səh 219

Səhl ibn Ziyad – "Kutubul-ərba" da ondan rəvayyət olunmuş hədislərinin sayı **1758**-dir. Nəcaşi öz ricalında onun barəsində demişdir: "Hədisdə zəifdir, ona güvənmək olmaz..."[1] Ğadairi onun barəsində demişdir: "Dini və rəvayyətləri xarab olan, çox zəif bir ravidir."[2]

Xülasə olaraq, şiə məzhəbinin ən mötəbər və qədim dörd hədis kitabında varid olmuş 44 000 rəvayyətin **5765-i** məlun (imamlar tərəfindən lənətlənmiş) ravilər tərəfindən, **5654-i** isə kəzzab (yalançı) ravilər tərəfindən rəvayyət olunmuşdur. Deməli, "Kutubul ərba"da olan **44 000** hədisdən **11419-**u məlun və kəzzab ravilərin uydurmasıdır. Həmçinin, bununla yanaşı "Kutubul ərba"da imami şiəsi olmayıb, Vaqifi (ancaq yeddi imamı qəbul edən) şiələrdən olan ravilərdən **2198** hədis, Əftahi (altı imamı qəbul edən) şiələrdən **4705** hədis, Nəvusi (imam Sadiqin Mehdi olduğuna inanan) şiələrdən **663** hədis, şərəbxor ravilərdən **398** hədis, fasiq, məchul və kimliyi bilinməyən ravilərdən minlərlə rəvayyətlər nəql olunmuşdur.

Şiənin ən məhşur və ən qabaqcıl mühəddislərindən biri olmuş Hurr əl Amili demişdir: **"Yeni istilahlar (yəni, hədisləri "səhih" və "zəif" kimi növlərə ayırmaq) Əhli sünnətin etiqadına və qaydalarına müvafiqdir. Hətta, bu elm onların kitablarından götürülmüşdür."**[3]

Həmçinin, o deyir: **"Məlum olduğu kimi, bu istilahlar əlləmənin (ibn Mutahhar əl Hillinin) və ya onun şeyxi Əhməd ibn Tavusun zamanında ortaya çıxmışdı."**[4]

Yusuf əl Bəhrani də bunu təstiqləmişdir ki, hədisləri "səhih" və "zəif" kimi növlərə ayıran ilk şiə alimləri ibn Mutahhar və onun ustadı ibn Tavus olmuşdur.[5]

Hurr Amili yazır: **"Şəhid Sani imamilərdən ilk hədis elmi haqqında kitab yazan alim olmuşdur. Amma, o oğlu və digərlərinin dediyinə görə hədis terminalogiyasını əl ammənin (sünnilərin) kitablarından götürmüşdür."**[6]

Şiə alimi Baqir əl İrəvani yazır: **"Rical alimi Nəcaşinin öz kitabını yazmasına səbəb müxaliflər tərəfindən şiələrin kitablarının olmaması iradlarına cavab olmuşdur."**[7]

---

[1] "Ricalun-Nəcaşi", səh 185
[2] "Ricəlul-Ğadairi ",səh 67, Seyyid Muhəmməd Rza əl-Hüseyninin təhqiqi ilə
[3] "Vəsailuş-şiə", 20/100 və ya 30/260
[4] "Vəsailuş-şiə", 20/102 və ya 30/262
[5] "əl-Hədaiqun-Nədira",1/53
[6] Hurr Amili, "Əməl əl amil" c.1,səh 86
[7] "Durrus təmhidiyyə fi ulumul ər rical", səh 86

Hurr əl Amili şiənin hədisləri barədə demişdir: **"Əgər hədislərimiz (hədis elminin qaydaları əsasında) araşdırılsa, hamısı zəif çıxacaqdır."**[1]

Xomeyni yazır: **"Hədis elmi mütəxəssislərinə əsasən bizim Nəcaşi, Kəşşi, Bərqi, Cəzairi və s. rical kitablarımız təhrifə məruz qalmışdır. Bilinməlidir ki, rical kitablarımızın orijinal mətni və orada olan məlumatlar günümüzə qədər gəlib çıxmamlşdır."**[2]

Seyyid Muhiddin əl Məvsəvi əl Qureyfi yazır: **"Həmçinin, əksər şiə rəvayyətləri Əhli beyt imamları tərəfindən deyilməmişdi. Əksinə, bu rəvayyətlərin çoxu imamların adından uydurularaq, yalandan onlara nisbət edilmişdi. Təbii ki, bütün bu rəvayyətlərə mütləq şəkildə sənədlər də tərtib etdilər ki, cəmiyyət tərəfindən qəbul edilsin...."**[3]

Hurr Amili yazır: **"Məşhur və haqqında heç bir şübhə olmayan məsələlərdən də biri budur ki, imamların tabe olmalarını əmr etdikləri kitabların ravilərinin çoxu zəif və məchul şəxslər olmuşlar və o kitablarda olan rəvayyətlərin sənədlərinin çoxu qopuqdur."**[4]

İmami şiəsi olan seyyid Dildar Əli əl Ləknəvi "Əsarul usul"kitabında yazır: **"İmamlardan sadir olan hədislər o dərəcədə ixtilaflıdır ki, hardasa hər bir hədisin müqabilində onu nəhy edən başqa bir hədis, üzərində ittifaq olunan bir hədisin qarşısında isə onun ziddi mövcuddur. Bu vəziyyət də bəzi məlumatı az olanların haqq inancdan dönmələrinə səbəb olmuşdur."**[5]

Seyyid Haşim Məruf əl Hüseyni yazır: **"...Kafi,""Vafi" və s.hədis məcmualarında olan hədislərin tədqiqatından sonra görsənir ki, qulatın və hidayət imamlarına qarşı kin duyanların imamların hədislərini bərbad etmək və adlarını qaralamq üçün etdiyi səylər nəticəsində hardasa heç bir bab qalmamışdır ki, orada təhriflər olmasın."**[6]

Şiə alimi Yusuf əl Bəhraninin gəldiyi qənaət də çox ibrətamizdir. O yazır: **"Siqatul İslam" Kuleyni "Kafi"də qeyd etdiyi kimi imamların təqiyyə ilə dedikləri hədislərin mötəbər hədislərlə qarışdığı səbəbi ilə dinin çox az hissəsi haqqında qəti qənaət bildirmək mümkündür."**[7]

Hətta, öz zamanında bundan şikayətlənən imam Cəfər deyirdi: **"Biz, Əhli beyt doğru danışanlarıq. Ancaq, biz bizim adımızdan yalan**

---

[1] "Vəsailuş-şiə", 30/260

[2] Xomeyni,"Usul ərbəa fi ilm ərrical",səh 50-51

[3] "Qəvaidul hədis",səh 135

[4] "Vəsailuş şia",30/244; https://www.anti-majos.org/viewtopic.php?f=26&t=268

[5] "Əsarul usul",səh 51

[6] "əl Məvduat fil əsər vəl əxbər", səh 165,253, 1-ci nəşr,1973

[7] "əl-Hədaiqun-Nədira",1/5

danışan yalançılardan azad da deyilik. Onların bizim üzərimizə yaxdıqları yalanlardan ötrü insanların nəzərində bizə etibar da azalıb....”[1]

Yenə o buyurur: **“İnsanlar bizdən bir söz eşidirlər, sonra da o sözün üstünə onunu qoyurlar.”**[2]

Əbu Cəfər Muhəmməd ibn Həsən ət-Tusi yazır: **“Yunus adlı bir şiə ravisi demişdir: “İraqa gəlib orada imam Əbu Cəfərin əshabından bir dəstə ilə Əbu imam Cəfərin əshabından bir çox şəxs ilə görüşdüm. Onlardan hədis dinlədim və onların (hədis) kitablarını götürdüm və sonralar bu kitabları imam Əli ər-Rzaya göstərdim. O, isə bu kitablarda olan hədislərin əksəriyyətinin Əbu Abdullahın hədisləri olduğunu inkar etdi...”**[3]

əl-Feyz ibn Muxtar da bundan şikayətlənərək imam Cəfərə deyir: **“Sizin şiələriniz arasında olan bu ixtilaf da nədir? Mən Küfədə şiələrin məclislərində otururam və az qala onların hədislərinə şübhə edirəm.” İmam isə ona belə deyir: “Ey Feyz! Həqiqətən də insanlar bizim adımızdan yalan danışmağa çox həvəslidirlər.”**[4]

Feyz əl-Kaşani bundan şikayətlənərək demişdir: **“Mən görürəm ki, bizim alimlər bir məsələdə iyirmi, otuz və daha artıq rəy ilə ixtilafa düşürlər. Əgər istəsəniz deyə bilərəm ki, istər əsas, istərsədə ikinci dərəcəli elə bir məsələ yoxdur ki, orada ixtilaf, fikir ayrılığı olmasın.”**[5]

Şiə məzhəbinin şeyxi sayılan Əbu Cəfər ət Tusi demişdir: **“Hətta, sən şiə alimlərinin arasında olan ixtilafa fikir versən, görərsən ki, onların arasında olan ixtilaf Əbu Hənifənin, Şafiinin və Malikin əshabı arasında olan ixtilafdan daha çoxdur.”**[6]

Məmqani yazır: **“Bizim indiki şiəlik məzhəbinin zəruriyyətlərindən saydığımız görüşləri ilk dövr alimlərimiz ğuluv sayardılar və bununla ən etibarlı kəsləri ittiham edərdilər.”**[7]

---

[1] “Ricalul kəşşi”,səh 108

[2] “Kafi”, 8/192

[3] “İxtiyaru mərifətur-ricəlil-məruf bi ricəlil-kəşşi”, 3/298, Tehran

[4] “Ricalul-Kəşşi”, səh 347, “Biharul-ənvər” 2/246

[5] “əl-Vafi”, 1/9

[6] “əl-Uddə fi usulil-fiqh”,1/138

[7] “Tənqih əl-Məqal”, 3/23

“Şiə firqələri” haqqında ilk kitab yazan hicri üçüncü əsrdə yaşamış şiə muəlliflərindən olan Növbəxtinin kitabından bəzi sitatlar:

“İmam Baqirin ölümündən sonra şiələr 2 firqəyə bölündülər.”[1]
“İmam Cəfər Sadiqin ölümündən sonra 6 firqəyə bölündülər.”[2]
“İmam Musa Kazımın ölümündən sonra 5 firqəyə bölündülər.”[3]
“İmam Əli ibn Musanın ölümündən sonra 5 firqəyə bölündülər.”[4]
“İmam Həsən Əsqərinin ölümündən sonra 14 firqəyə bölündülər.”[5]

Şiə mənbələrinin mötəbərlik dərəcəsi

Hər din, hər bir firqənin özünün mənbələri mövcuddur. Quran baradə olan fəsildə şiə alimlərinin Allahın Kitabı baradə olan fikirləri ilə tanış olmuşduq. İndi isə şiə kitablarının mötəbərliyi haqqında bəhs edək.

Şiələrin ən qədim mötəbər dörd hədis kitabı bunlardır:

1. Muhəmməd ibn Yaqub əl Kuleyninin “Kitabul-Kafi” kitabı. İçərisində 16 099 hədis vardır.

2. Muhəmməd ibn Babaveyh əl Qumminin (Şeyx Saduq ləqəbi ilə tanınmışdır) “Mən lə yəhduruhul-fəqih” kitabı. 176 bölümdən, 9044 hədisdən ibarətdir.

3. Muhəmməd ibn Həsən ət Tusinin “Təhzibul-Əhkam” kitabı.

4. Muhəmməd ibnHəsən ət Tusinin “əl İstibsar” kitabı.

Şiələrin daha sonrakı dövrlərdə yazılmış ən mötəbər dörd hədis kitabı isə bunlardır:

1. Feyz əl Kaşaninin “əl Vafi” kitabı.

2. Məclisinin “Biharul ənvər” kitabı.

3. Hurr əl Amilinin “Vəsailuş-şiə” kitabı.

4. Nuri ət Təbərsinin“Mustədrəkul vəsail” kitabı**.**

[1] “Firəquş şia”, səh 157
[2] “Firəquş şia”, səh 160
[3] “Firəquş şia”, səh 169
[4] “Firəquş şia”, səh 173-174
[5] “Firəquş şia”, səh 180

Kuleyninin “Kafi” kitabı

Əgər sünnilərdə Buxari və Muslim varsa, şiələrdə Kuleyninin (öl.329) “Kafi” kitabı mövcuddur. Əbdulhüseyn Musəvi yazır: **“Sünnə və rəvayyətləri özündə əhatə edən ən mötəbər mənbə “Kütubi-ərbə”dir ki, indiyə kimi on iki imami şiələrin üsuliddin və firuiddində dəlil və mənbələri sayılır. “Kütubi-ərbə” mərhum Kuleyninin “Kafi”, Şeyx Tusinin “Təhzib” və “İstibsar”, mərhum Səduqun “Mən la yəhzuruhul-fəqih” kitablarından ibarətdir. Bu kitabların mötəbərliyində heç bir şəkk-şübhə yoxdur. Onların içərisində “Kafi” o birilərindən daha qədim və əzəmətlidir. Orada altı sünni hədis kitablarından daha çox olan 16199 hədis vardır.”**[1]

Nuri ət Təbərsi bu kitab barədə demişdir: "**Dord kitab arasında, "əl Kafi" ulduzlar arasında günəş kimidir. İnsaflı bir şəxs, (hədislərinin) sənədlərindəki rəvayyətçilərin halı barədə məlumat əldə etdiyi zaman, onun inandırıcı, güvənliyi miras edici, qəlbə rahatlıq gətirici, sübut edici və səhih olduğu qənaətinə gələr.**"[2]

Hurr əl Amili demişdir: "**Dörd kitabın sahibləri və onların mislində olan (alimlər), onların kitablarındakı hədislərin səhih və sabit olmasında və üzərində icma edilən bir üsuldan nəql edilməsinə şəhadət etmişlər...”**[3]

“əl Kafi" kitabının təhqiqatçısı Əli Əkbər əl Qifari demişdir: "**İmamət əhli və şiələrin cumhuru bu kitabın fəzilətli olmasında, (dəlilləri ondan) götürmədə, onün xəbərlərinə güvənmədə və onun əhkamları ilə kifayətlənmədə, onun üzərində ittifaq etmişlər. Onlar (şiələr), bu günə qədər onun dərəcəsinin yüksək olmasında qədərinin üca olmasında və əzbəri və dəqiqliyi ilə tanınmış olan, güvənilən (şəxslərin) rəvayyətlərinin onun ətrafında qurulduğu bir qütbdür. O (əl-Kafi) onların nəzdində, hədis üsulunda sair (kitablar) dan ən gözəli və ən fəzilətlisidir**"[4]

Feyz əl Kəşani şiə məzhəbinin kitabları barədə demişdir: "**Kafi" (bu kitabların) üsulu bəyan etməsi və həddi aşması və biabırçılıqdan xali (uzaq) olması baxımından, ən şərəflisi, ən bütövü, ən tamamıdır.**"[5]

---

[1] Məktub 110

[2] Təbərsi, "Mustərdək əl Vəsail", c.3 səh 532

[3] "Vəsailuş şiə", c.20 səh 104

[4] "Kafi"nin müqəddiməsi; səh 26

[5] “Kafi" nin müqəddiməsi, səh 27

Muhəmməd Əmin əl Əstarabadi demişdir: "**Biz, öz şeyxlərimiz və alimlərimizdən eşitdik ki, İslam dinində onun mislində və onun qədər qiymətli bir kitab yazılmamışdır.**"[1]

Bu şiə alimlərinin "Kafi" kitabının ən qədim və mötəbər rəvayyət kitabı olması baradə fikirlərindən bəzi qısa nümunələr idi. Bu kitab kitab öz-özlüyündə üç hissəyə bölünür:

1) 8 kitabdan ibarət olan, şiəliyin dini təməl prinsiplərini özündə əks etdirən "Usul"

2) 26 kitabdan ibarət olan fiqhi məsələləri izah edən "Furu"

3) Üçüncü hissə "Ravda"

Bununla yanaşı, qədim və müasir şiə hədis alimləri və tədqiqatçıları şiələr qatında ən mötəbər hədis kitabı olan "Kafi"nin "şanına" yaraşmayan sözlər də istifadə etmişlər. "Usuli Kafi" 3783 hədisdən ibarətdir.

Müasir dövrdə şiələrin sevimlisi olan Muhəmməd Ticani Səmavi "Fəsalu əhləl zikr" kitabında yazır: **"Misal olaraq, sənə bunu bilmək kifayət edər ki, onlara görə ən mötəbər kitab "Usulu Kafi"dir və onlar deyirlər ki, orada 1000 yalan hədis vardır."**[2]

Yəni, ancaq şiələrin hesablamalarına görə kitabın təqribən 37 %-i yalan rəvayyətlərdən ibarətdir. Ticani öz sözləri ilə bunun şiələrin ümumi rəyi olduğunu etiraf etmişdir. Müasir şiə hədis alimi olmuş Muhəmməd Bəqir əl Behbudi "Kitabul Kafi"ni təhqiq edən şiə alimlərindən biridir. O, "Səhihul kafi" adlı bu kitabında **16 min** hədisdən yalnız **4428** hədisi səhih saymış, yerdə qalan **11693** hədisi isə səhih görməmişdir.

Şiə alimi mühəqqiq Mirzə Əbul Həsən Şərani "Kafi" kitabını şərh etmiş Saleh Məzandaraninin "Şərh usul əl Kafi" kitabına yazdığı müqəddiməsində deyir:

"Məhz, ona görə də Kuleyninin nəql etdiyinə baxmayaraq, "Kafi"də dinin əsli baradə varid olan rəvayyətlərin əksəriyyətinin səhih isnadı olmadığı görülməkdədir. Lakin, orda olan rəvayyətlər ona görə dayaq, əsil hesab olunur ki, onların məzmunu şiələrin həqiqi etiqadları ilə üst-üstə düşməkdədir. Ona görə belə hədislər baradə bəhs olunduqda isnada önəm verilməz."[3]

Şiə alimi Haşim Məruf əl Həsəni deyir: **"Kafi", "Vafi" və digər geniş yayılmış hədis kitablarını araşdırdıqdan sonra aydın olur ki, imamların düşmənləri və qulatlar onların hədislərini ifsad etməyən heç bir fəsil**

[1] "Kafi" nin müqəddiməsi səh 27

[2] səh 34

[3] "Şərh usul əl Kafi" ,1/9-10; https://www.anti-majos.org/viewtopic.php?f=26&t=420

və başlıq buraxmamışlar. Beləcə, onların rəvayyətlərini təhrif etmiş vəya onlara pislik etmişdilər. Sonra onlar müqəddəs Qurana üz tutub, ona öz zülm və zəhərlərini qatmağa çalışdılar. Ona görə yüzlərlə ayələri imamlara yalan, böhtan isnad edərək təfsir etməyə başladılar. Əli ibn Hassan, onun babası Əbdurrəhman ibn Kəsir və Əli ibn Əbu Həmzə əl Bətaini Quranın metodologiyası, dili və məqsədi ilə heç bir əlaqəsi olmayan təhrif, zəlalət və nağıllarla dolu təfsir kitabları yazdılar."[1]

Təkcə onu demək kifayətdir ki, şiə məzhəbinin ən mötəbər hədis kitabı sayılan "əl Kafi"nin demək olar yarısı məçhul ravilərin hədisləri ilə doludur.[2]

1. Sənədində *"Bir kişidən rəvayyət olundu ki,.."* ibarəsi olan hədislər: Şiə kitablarında bü cür sənədlə rəvayyət olunmuş hədislər **1508** ədəddir. Təkcə "Kafi"də bu cür sənədlə **209** hədis nəql olunmuşdur.

2. Sənədində *"Bunu nəql edən birindən..."* ibarəsi olan hədislər: Şiə kitablarında bü cür sənədlə rəvayyət olunmuş hədislər **1446** ədəddir. Təkcə "Kafi"də bu cür sənədlə **255** hədis nəql olunmuşdur.

3. Sənədində *"Bizə bir dəstə adam xəbər verdi ki,.."* ibarəsi olan hədislər: Şiə kitablarında bü cür sənədlə rəvayyət olunmuş hədislər **343** ədəddir.

4. Sənədində *"Onun bəzi dostlarından nəql olundu ki,.."* ibarəsi olan hədislər: Şiə kitablarında bü cür sənədlə rəvayyət olunmuş hədislər **1310** ədəddir. Təkcə "Kafi"də bu cür sənədlə **330** hədis nəql olunmuşdur.

5. Sənədində *"bir neçə nəfərdən nəql olunduğuna görə..."* ibarəsi olan hədislər: Şiə kitablarında bü cür sənədlə rəvayyət olunmuş hədislər **457** ədəddir. Təkcə, "Kafi"də bu cür sənədlə **117** hədis nəql olunmuşdur. Halbuki, hədis elminə görə hədislərin məqbul sayılması üçün o hədisi rəvayyət edən ravilərin kimliyi mütləq bilinməlidir.

Bu yerdə bir neçə mühüm məqamları da qeyd etmək yerinə düşərdi. Əhli sünnətin ən mötəbər hədis kitablarında nəql olunmuş on minlərlə hədisin **90%**-dən çoxu məhz Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* hədisləridir. Qalan hədislər isə səhabələrin söz və fellərindən ibarət xəbərlərdir. Şiələrin ən mötəbər dörd hədis kitabında olan hədislərin sayı 44 mindən artıqdır. **(44244 hədis)** Bu hədislərdən yalnız **644** hədis Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* rəvayət olunmuşdur. Bu dörd kitabın içərisində şiələrin ən dəyərli kitabı "Kafi" də 16 mindən artıq hədis var. Bu hədislərdən yalnız **92**-i Peyğəmbərdən *(səlləllahu aleyhi və səlləm)* nəql olunmuşdur və (şiə alimlərinin öz etirafları ilə) bu 92 hədisin hamısının

[1] "Məvduat fil əsər əl əxbar",səh 253; https://www.anti-majos.org/viewtopic.php?f=26&t=355

[2] Əbu Zeyd, "Saqaleyn hədisinin şərhi" kitabından

sənədində də zəiflik vardır. Başqa sözlə, şiələrin Peyğəmbərə *(səlləllahu aleyhi və səlləm)* qədər gedib çıxan səhih bir dənə də olsa hədisləri yoxdur.

Müqayisə üçün qeyd edək ki, Əhli sünnət kitablarında Əlidən *(radiyallahu anhu)* **1583** hədis nəql olunmuşdur. Şiə kitablarında (Kutubul ərba) isə Əlidən *(radiyallahu anhu)* **690** hədis nəql olunmuşdur.

Fatimədən *(radiyallahu anhu)* nəql olunmuş hədislərin sayı: Əhli sünnətin mötəbər kitablarında Fatimədən *(radiyallahu anhu)* **11** hədis nəql olunmuşdur. Şiələrin dörd mötəbər kitabında isə ondan bir dənə də olsa, hədis nəql olunmamışdır.

Həsəndən *(radiyallahu anhu)* nəql olunmuş hədislərin sayı: Əhli sünnət ondan **35**, şiələr isə **21** hədis rəvayyət etmişlər.

Hüseyndən *(radiyallahu anhu)* nəql olunmuş hədislərin sayı: Əhli sünnət ondan **43** hədis nəql etmişdir. Şiələr isə onun barəsində bu qədər həddi aşmalarına baxmayaraq, ondan cəmi **7** hədis rəvayyət etmişlər.

Həmçinin, "Kafi" nin ilk iki cildində Əhli əbadan (Peyğəmbər, *(səlləllahu aleyhi və səlləm)*, Əlidən, Fatimədən, Həsən və Hüseyndən (Allah onlardan razı olsun!) nəql olunmuş hədislərin sayı:

1-ci cilddə 1445 hədis vardır. Bu hədislərdən 4-ü Peyğəmbərdən, *(səlləllahu aleyhi və səlləm)* 38-i Əlidən, *(radiyallahu anhu)* 2-i Hüseyndən *(radiyallahu anhu)* rəvayyət olunmuşdur. Bu cilddə Fatimə və Həsəndən bir dənə də olsa hədis rəvayyət olunmamışdır. 1445 hədisdən cəmi 44-ü Əhli əbadan nəql olunmuşdur. Maraqlısı odur ki, "Kafi" kitabını təhqiq etmiş şiə alimləri Məclisi, Behbudi və əl Muzəffərə görə bu hədislərdən heç biri səhih deyildir.

2-ci cilddə 2346 hədis vardır. Bu hədislərdən 17-si Peyğəmbərdən, *(səlləllahu aleyhi və səlləm)* 30-u Əlidən, *(radiyallahu anhu)* biri Həsəndən, *(radiyallahu anhu)* biri isə Hüseyndən *(radiyallahu anhu)* rəvayyət olunmuşdur. Bu cilddə də Fatimədən *(radiyallahu anhu)* bir hədis belə rəvayyət olunmamışdır. 2346 hədisdən cəmi 49-u Əhli əbadandır. Fikir verin, bu iki cilddə olan 3791 hədisdən **cəmi 93** hədis Əhli əbadandır. "Kafi"ni şərh etmiş üç şiə alimi; Məclisi "Miratul-Uqul"da, Behbudi "Səhihul kafi"də və Muzəffər "əş-Şəfi fi şərhi usulil kafi"də bu hədislərin (93 hədisin) hamısının zəif olduğunu bəyan etmişdilər. Yuxarıda qeyd olunmuş bu qısa statistik faktlar çox məsələlərə aydınlıq gətirir.

“Nəhcul bəlağa” kitabı

Bu kitab Seyyid ər Razinin qələminin məhsuludur. Orada müəllif möminlərin əmiri Əli ibn Əbu Talibin xütbə, məktub və kəlamlarını toplamışdır. Razi bu kitabını hicri 400-cü ildə tamamlamışdır. Əli *(radiyallahu anhu)* hicri 40-cı ildə şəhid olmuşdur. Müəllif ilə imam Əli arasında 360 il vaxt məsafəsi olmasına baxmayaraq, bu kitabda siz heç bir ravi silsiləsinə rast gəlmərsiz ki, müəllifi onu imam Əli *(radiyallahu anhu)* ilə əlaqələndirsin. Lakin, bununla belə bu kitab imamilərin ən mötəbər mənbələrindəndir ki, onlar ən birinci bu kitaba istinad edirlər. Halbuki, kitabın müəllifi əslən qələm əhli olmuş, hədis, şəriət sahəsində mütəxəssis olmamışdır. Müasir şiələrə görə bu kitab Qurandan sonra ən səhih və mötəbər kitabdır. Onlar ehtiram əlaməti olaraq, bu kitabı “Quranın doğma qardaşı” adlandırırlar.

“Nəhcul bəlağa” məcmuası Abbasi xəlifələrinin Buveyhilərin (334-467) hakimiyyəti altında olduğu zamanlar yazılmışdır. Buveyhi xanədanlığı mötədil, mülayim şiə fikirlərinə sahib idilər. ”ət Tai lillah” adı ilə tanınan Əbdulkərim ibn Fəzlin (363-381) zamanında isə Abbasi xəlifəsinin nüfuzu olduqca aşağı idi. O zamanlar Ələvilər yüksək mövqelərə sahib idilər və açıq şəkildə səhabələri və ilk üç xəlifəni təhqir edirdilər ki, bu da öz növbəsində sünnilərlə şiələr arasında toqquşmalara səbəb olurdu. Belə fikirlərdən bəziləri “Nəhcul bəlağa” kitabında yer almışdır. Əgər şiələr nəzdində mötəbərliyinə görə ilk üç kitabı qeyd etməli olsaq, alimlərinin bu məsələ baradə dediklərini yazmaq yerinə düşərdi:

“Kafi” kitabı Quran və “Nəhcul bəlağa”dan sonra şiələrin ən mötəbər kitabıdır.”[1]

Yəni, birinci yerdə Quran, sonra Razinin kitabı, daha sonra isə Kuleyninin “Kafi” kitabı gəlir. Müasir şiə alimləri arasında “Nəhcul bəlağa” kitabına ən doğru və real qiyməti Ayətullah Fəzlullah verir. Şiə dini çevrələri üçün baş ağrısı olan bu alim “Nəhcul bəlağa” haqqında ona verilən suala saytında belə cavab vermişdi: **“Bu kitab bütünlüklə imam Əliyə nisbət edilə bilməz.”**

Müasir dövrdə şiə alimlərinin çoxu etiraf edirlər ki, ”Nəhcul bəlağa”da deyilən hər kəlmə Əliyə *(radiyallahu anhu)* nisbət edilə bilməz. Çünki, ən azından kitabın imama qədər gedib, çıxan sənədi mövcud deyil, xütbələr və kəlamlar isə isnadsız rəvayyət olunur.

Bu əsərin qısa xarakteristikasına Əhli sünnə alimlərinin kitablarında yer verilmişdir. Şəmsəddin əz Zəhəbi “Siyər aləm ən nubalə”də qeyd edir

[1]Məkarim Şirazi və Cəfər Sübhani, “Şəri suallara cavablar”,səh 261,2005-ci il,dilimizdə

ki, **"Nəhcul bəlağa" Əliyə** *(radiyallahu anhu)* **nisbət edilir. Lakin, orada isnadlar mövcud deyil. Bu rəvayyətlərin arasında yalan və doğru xəbərlər də vardır. Həmçinin, orada imamın demədiyi uydurma rəvayyətlər də vardır."**[1]

İbn Teymiyyə "Minhəc əs sunnə ən nəbəviyyə"də yazır:

"Alimlər bilir ki, bu kitabda olan xütbə və kəlamların çoxu Əliyə *(radiyallahu anhu)* **yalandan nisbət edilir. Ona görə ki, onların çoxu öncəki əsərlərdə mövcud deyil və bunların isnadı məlum deyil. Müəllif bunları haradan götürüb? Bu ifadələr özünü Ələvi və Abbasi adlandıranın sözlərinə bənzəyir. Bunların yalan olması aşkardır. İnsanın soyunun bəlli olması üçün onun əcdadlarının hansı soydan gəlməsi məlum olmalıdır. Bu qayda həmçinin, ifadələrə də aiddir. Onların kimdən eşidilib, kim tərəfindən nəql olunması məlum olmalıdır. Əgər kimsə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)***, Əbu Bəkr, Ömər, Osman, Əli və s. səhabələrin sözlərinin toplandığı bir kitab yazarsa və orada olan ifadələr, rəvayyətlər öncələri nəql olunmayan və məlum olmayan isnadsız xəbərlər olarsa, biz qəti olaraq əmin olacağıq ki, bu kitabın əsası yoxdur. Bu kitabda elə ifadələr var ki, onlar Əlidən** *(radiyallahu anhu)* **varid olmuş digər sözlərə ziddir. Belə halda bunun yalan olmasını isbat etməyə ehtiyyac yoxdur. Sadəcə xəbərin isnadını tələb etmək yetərlidir. Allah dəlil və isbatı olmayan məsələlərə insanların inanmasını əmr etməmişdir...."**[2]

"Nəhcul Bəlağa"da olan çoxlu ziddiyyətlərə baxmayaraq, kitabda öncə də deyildiyi kimi əsas qüsur onda olan rəvayyətlərin etibarlı isnadlarının olmamasıdır. Daha sonrakı dövrlərdə Seyyid Əbd əz Zəhra əl Hüseyni kimi tədqiqatçılar kitabın rəvayyətlərini Əli ibn Əbu Talibə qədər qaldırmağa çalışmışdılar. Lakin, onlar əsasən bu rəvayyətlərin digər kitablarda tam vəya qısa şəkildə nəql olunmasını deməklə və isnadı qeyd etməməklə kifayətlənmişdilər.

Yalnız bəzi hallarda onlar daha qədim kitablarda olan bəzi rəvayyətlərin isnadını qeyd etmişlər. Lakin, bu isnadların çoxu etibarlı olmamaqla bərabər raviləri məchul insanlardır. Qeyd etmək lazımdır ki, "Nəhcul bəlağa"da möminlərin əxlaqi keyfiyyətlərini təsvir edən və əqidəvi sualları əhatə edən onlarla müdrik kəlamlar vardır. Onların çoxunun mənası doğru və izahı gözəldir. Onlar ayə və hədislərlə öz təsdiqini tapır. Lakin, Əli ibn Əbu Talibin vəfatından 300 il sonra inandırıcı dəlillər olmadan ona nisbət edilmiş bu kəlamlar toplusunu

[1] 17/589
[2] 7/86-87

müsəlmanların rəhbər tutduqları və inandıqları hədislər səviyyəsinə qaldırmaq olmaz. Maraqlıdır ki, bir çox xütbə və kəlamlar şiələrin Əli ibn Əbu Talibin imaməti, "məsumluq" həmçinin, səhabələrin, xüsusi ilə də üç xəlifənin yaxşılıqla anınması məqamları, şiələrin əqidəsinə tamamilə ziddir. Nümunə olaraq, "Nəhcul Bəlağa"[1]dan bir neçə sitatlar təqdim etmək istərdik:

Əli *(radiyallahu anhu)* deyir: "Mən Muhəmmədin *(səlləllahu əleyhi və alih)* **səhabələrini görmüşəm və sizlərdən heç birinin onlar kimi olduğunu görmürəm. Onların səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər. Alınları ilə üzləri arasında növbə qoymuşdular. Qayıdışı xatırlayaraq köz kimi yanardılar. Alınları səcdənin uzunluğundan keçilərin dizləri kimi idi. Pak Allah zikr ediləndə əzab və cəzanın qorxusundan, savab və mükafata ümiddən gözlərindən axan yaşlardan yaxaları islanar və şiddətli küləkli günlərdə ağacın titrədiyi kimi əsərdilər.**"[2]

"Bir vali xalqa hakim oldu. (Ömər xilafət məqamında oturdu). Beləliklə, (xilafət işini) bərpa etdi və müqavimət göstərdi, nəhayət, din qərar tutdu."[3]

Əli *(radiyallahu anhu)* deyir: "**Allah filankəsin (Ömər ibn Xəttabın)** şəhərlərinə bərəkət versin və qorusun ki, o **əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, sünnəni bərqərar etdi və fitnə-fəsadı arxaya atdı. Dünyadan pak paltar və az eyblə getdi. Xilafətin xeyrini əldə etdi və onun şərini qabaqladı. Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib, Onun haqqını əda etdi...** O, köçdü, onları (müsəlmanları) elə haçalanmış yollarda qoyub getdi ki, o yollarda yolunu azan hidayət, hidayət edilmiş isə yəqinlik tapmaz."[4]

Ömər *(radiyallahu anhu)* rumlular ilə döyüşə çıxmaq istərkən Əli *(radiyallahu anhu)* ona demişdir: **"...Sən özün bu düşmənə doğru gedib onlarla görüşdə məğlub olsan, ucqar şəhər və sərhədlərdəki müsəlmanlar üçün pənah yeri qalmayacaq. Onların səndən sonra müraciət etməyə yerləri yoxdur.** Onların üstünə bir müharibə görmüş igid göndər. Döyüşün bəla və çətinliklərinə taqəti olan, öyüd-nəsihət eşidənləri onunla yola sal. Əgər Allah-təala zəfər yetirsə, bu elə sənin

[1] "İ.İ.R. mədəniyyət mərkəzi" tərəfindən,üçüncü nəşr,Bakı 2009-cu ildə çap olunmuş "Nəhcul bəlağa"
[2] xütbə 96
[3] 459-cu kəlam
[4] xütbə 219

istədiyin olacaq. Başqa bir hadisə baş versə, sən müsəlmanların **köməyi və pənahı olacaqsan.**"[1]

"....Mühacir və Ənsarın bir hissəsi Allah yolunda öldürüldü və onların hamısı şərafət və fəzilət sahibi idi..... Görmürsənmi ki, Allah yolunda bir dəstənin qolları ayrıldı və onların hamısı fəzilət və şərafətə malik idi. Onların başına gələn iş bizlərdən də birinin *(Cəfər ibn Əbu Talibin)* başına gəldi..."[2]

"Sizin özünüz mənə dərd və xəstəlik olduğunuz halda sizinlə müalicə etmək istəyirəm. Tikanın meylinin tikanda olduğunu bilsə də, tikanla ayağındakı tikanı çıxarmaq istəyənə bənzəyirəm. İlahi! Bu əlacsız dərdin təbibləri usandılar, kəndirlə quyudan su çəkənlər yorulub taqətsiz qaldılar. **Hanı İslama çağrılanda onu qəbul edənlər, Quranı oxuyub onu möhkəmləndirənlər və cihada ruhlandıranlar. Sonra aşiq oldular, dəvələr balalarına aşiq olduqları kimi. Qılınclarını qınlarından çıxararaq dəstə-dəstə, səf-səf yerin ətrafını bürüdülər. Bəziləri həlak oldu,bəziləri isə sağ qaldı. Sağ qalmalarına sevinməzlər. Ölənlərə görə başsağlığı istəməzdilər. Gözləri ağlamaqdan ağardı. Qarınları oruc tutmaqdan arıqladı, dodaqları dua etməkdən qurudu. Rəngləri oyaq qalmaqdan saraldı, üzlərinə təvazökarlığın qubarı əyləşdi. Onlar qardaşlarım idilər ki, getdilər...."**[3]

Əli *(radiyallahu anhu)* Siffin döyüşü ilə bağlı demişdi: "İşimizin əvvəlində biz Şam əhli ilə zahiri görünüşdə **Rəbbimiz bir, Peyğəmbərimiz bir və İslamda təbliğ üsulumuz eyni imiş kimi qarşılaşdıq. Biz onlardan Allaha və Onun Peyğəmbərinə imanlarını artırmalarını istəmirdik.** Onlar da bizdən bunu istəmirdilər. İş bərabər və yeksan idi və Osmanın qanı məsələsindən başqa, aramızda heç bir ixtilaf və fikir ayrılığı yox idi. Biz həmin işdən uzaq və kənar idik."[4]

"Allahım, məni bağışla ki, Sən onu daha yaxşı bilirsən. Mən yenə dönsəm sən bağışlanmağı da mənə qaytar. Allahım, mənim özümlə bağladığım və mənim ona vəfalı olduğumu görmədiyin **əhdimi bağışla**. Allahım, dildə Sənə yaxınlaşmaq istəyimi, ürəyimin onun əksinə **olmasını bağışla**. Allahım, gözümün ucunun işarələrini, **boş söhbətlərimi, ürəyimin arzularını və dilimin büdrəmələrini bağışla."**[5]

---

[1] xütbə 134
[2] məktub 28
[3] xütbə 120
[4] məktub 58
[5] xütbə 77

"Əgər məni buraxsanız, sizlərdən biri kimi olaram və bəlkə də sizlərin sözlərinizə daha çox qulaq asaram, özünüzə vali və hakim etdiyiniz şəxsin əmrlərini daha yaxşı yerinə yetirərəm. Mənim sizlərə **vəzir və müşavir olmağım, əmir və hakim olmağımdan daha yaxşıdır."**[1]

"Allaha and olsun ki, mən **xilafəti istəmirdim**, hakimiyyətə meylim yox idi. Amma, siz məni dəvət edərək **ona məcbur etdiniz."**[2]

Əli *(radiyallahu anhu)* Siffindən qayıtdıqdan sonra oğlu Həsənə yazdığı vəsiyyəti: "...Belə isə öz mənzil və uyuyacağın yeri abadlaşdır, axirətini dünyana satma. **Bilmədiyin şey barəsində söz söyləmə**. Sənə aid olmayan şey barəsində söhbət etmə. Azğınlıq olmasından qorxduğun yoldan çəkin**... İstədiyin şeyi ancaq Rəbbindən istə, çünki bağışlamaq və vermək də Onun əlindədir, məhrum etmək də**.... Ona nəzər salıb barəsində düşüncəyə dalandan qabaq öz Allahından kömək istə, müvəffəqiyyət qazanmağın üçün Ona üz tut və **səni şəkk-şübhəyə salan və ya zəlalət və azğınlığa aparan bütün pis işləri tərk et....** Buna görə də işlərdən hansısa sənə çətin gələndə, **onu sənin ondan xəbərsizliyin və nadanlığın hesab et.** Çünki, sən yaradılışının əvvəlində nadan idin, sonra bilik sahibi oldun. **Sənin bilmədiyin, düşüncənin barəsində sərgərdan qaldığı, görmənin azdığı və sonra görüb dərk etdiyin şeylər çoxdur.** Buna görə də yaradan, ruzi verən və gözəl əndamını xəlq edəndən yapış. İbadət və bəndəliyin Ona olsun, Ona üz tut və qorxun Ondan olsun..."[3]

Suleym ibn Qeys əl Hilalinin kitabı

Bu kitab guya Əli ibn Əbu Talibin səhabələrindən birinə məxsusdur və tez-tez onlar tərəfindən oradan sitatlar gətirilir. Bu kitabı şiələr fəxrlə ən qədim ilk kitabları hesab edirlər. Ayətullah Əbdulhüseyn Musəvi "Muraciət" kitabında yazır: **"Bu kitab (Suleym ibn Qeysin kitabı) şiənin mötəbər sandığı "əsl" (birinci dərəcəli) kitablardan biridir."**[4]

[1] xütbə 91
[2] xütbə 196
[3] məktub 31
[4] Məktub 110

Şiə mənbələrinin bu mötəbər mənbə haqqında dediklərinə nəzər salaq:

1) ibn Davud əl Hilli "Rical" kitabında yazır: **"Bu kitab uydurmadır və orada yazılıb ki, imamlar 13 nəfər olacaqdır və bu kitabın isnadları fərqli və dolaşıqdır."**[1]

2) ibn Ğədairi deyir: **"Bizim əshabımız deyir ki, Suleym məchuldur və onu heç bir rəvayyətdə zikr etmirlər."**[2]

3) ibn Uqdə dedi: **"Şübhə yoxdur ki, bu kitab uydurmadır."**[3]

4) Əllamə Hilli həmçinin, yazır: **"Bu kitabın ravi silsilələri sökülmüş haldadır. Yəni, bəzən Ömər ibn Uzeynə - İbrahim ibn Ömər əs Sənani – Əbban ibn Əbu Əyaş – Suleymdən. Bəzən də Ömər – Əbban və isnadsız sənədlə qeyd olunur."**[4]

Əban ibn Əbu Əyaşın təsvirində Hilli yazır: **"Bizim yoldaşlarımız hesab edirdilər ki, o Suleym ibn Qeysin kitabını uydurmuşdur."**[5]

Qeyd etmək lazımdır ki, Suleymin kitabını nəql etmiş Əban ibn Əbu Əyaş Əhli sünnə alimləri Nəsai, ibn Məin və imam Əhmədə görə də mətruk ravidir."[6]

Şeyx Mufidin "Xəsais" kitabı

20-ci əsrin ən böyük şiə alimlərindən olan Əbulqasim əl Xoyi "Mucəm ər rical"[7] kitabında bu kitabın şeyx Mufidə aid olmadığını qeyd edir.

"Tövhid əl Mufəddəl"

Şiə rical alimlərindən olan ibn Ğədairi "Duafa" kitabında yazır: "2-10: əl Mufəddəl ibn Ömər əl Cufi Əbu Abdullah. Zəifdir....onun rəvayyətlərini yazmaq caiz deyil. O, imam Cəfərdən və imam Əbul Həsəndən nəqllər etmişdir."

Digər rical alimləri ibn Davud əl Hilli də bu ravinin zəif və rəvayyətlərinin dolaşıq olmasını qeyd etmişdir.[8]

---

[1] səh 106, №732
[2] ibn Muttəhar əl Hilli, "Xulasət" səh 162
[3] həm.yer
[4] "Xulasət", səh 162
[5] "Xulasət", №3, səh 325
[6] "Mizanul itidal", 1/10/№15
[7] №4761
[8] "Rical", №512,səh 280

Şiə rical alimi Nəcaşi "Rical"[1] kitabında onun haqqında yazır: "Batil məzhəb sahibi idi və onun rəvayyətləri qarışıqdır." Yenə orada yazır: "deyirdilər ki, o Xəttabi şiələrdəndir."

Qeyd: Əbdulqadir Bağdadi kitabında yazır: "Xəttabilər iddia edirdilər ki, Cəfər Sadiqin ilahi ruhu Əbul Xəttab əl Əsədiyə təcəlli etmişdir. Həsən, Hüseyn və övladlarının Allahın övladları və sevimliləri olduğunu iddia etmələrinə görə Xəttabilər kafirdirlər."[2]

Sonda, Xomeyninin şiə qaynaq kitabları baradə fikilərini qeyd etmək yerinə düşərdi: O, yazır: **"Hədis elmi mütəxəssislərinə əsasən bizim Nəcaşi, Kəşşi, Bərqi, Cəzairi və s. rical kitablarımız təhrifə məruz qalmışdır. Bilinməlidir ki, rical kitablarımızın orijinal mətni və orada olan məlumatlar günümüzə qədər gəlib çıxmamlşdır."**[3]

Şiələrin imamların elə öz dili ilə pislənməsi

Biz burada şiə mənbələrində Əhli beyt imamları tərəfindən elə şiələrin özləri haqqında dedikləri ağır sözlərdən bəzilərini nümunə olaraq nəql etmək istərdik: "Nəhcul Bəlağa"[4]da Əli *(radiyallahu anhu)* onlara deyir:

Ey bədənləri burada olanlar, ağılları isə tapılmayan, düşüncələri müxtəlif olanlar!....Allaha and olsun, istərdim ki, Müaviyyə sizlər üçün sərraf kimi mənimlə alver etsin, bir qızıl dirhəm verim və bir gümüş dirhəm alım, sizin on nəfərinizi məndən alsın və qoşunundan bir nəfər versin. Ey Kufə əhli, sizdə üç şeyə və iki şeyə görə qəmə, kədərə batmışam. **Qulağınız olsa da karsınız, danışsanız da lalsınız və gözünüz olsa da korsunuz, müharibə vaxtı doğruluqda və dönməzlikdə azad insanlar kimi deyilsiniz və bəlada, çətinliklərdə etimad oluna biləcək həqiqi qardaşlar deyilsiniz. Əlləriniz torpağa bulaşsın. Ey sarbanları uzaqlaşmış, bir tərəfdən toplaşanda başqa tərəfdən dağılan dəvələrə bənzəyənlər...**"[5]

"...Ey kişilikdən nişanəsi olmayan namərdlər! Ey ağlı uşaq və bəy otağına təzə girmiş qadın ağlı kimi olanlar! Ey kaş mən sizləri nə görə, nə

---

[1] səh 416/№1112

[2] "Fərq beynə firaq", səh 199

[3] Xomeyni,"Usul ərbəa fi ilm ərrical",səh 50-51

[4] "İ.İ.R. mədəniyyət mərkəzi" tərəfindən,üçüncü nəşr,Bakı 2009-cu ildə çap olunmuş "Nəhcul bəlağa"

[5] xütbə 96

də tanıyaydım. And olsun Allaha, sizi tanımağın nəticəsi peşmanlıq, qəm və qüssədir. Allah sizləri məhv etsin ki, mənim ürəyimi qan etdiniz, sinəmi qəzəblə doldurub-daşırdınız...”[1]

“Pərvərdigara! Mən onlardan bezmişəm və qəlbim sıxılıb, onlar da məndən doyublar. Belə isə, onlardan daha yaxşısını mənə nəsib et, mənim əvəzimə onlara bir şər ver...”[2]

“Ey bədənləri bir, fikir və arzuları müxtəlif olan insanlar! Sizin sözləriniz sərt daşları yumşaldır, sizin işiniz isə düşmənlərdə tamah yaradır....Allaha and olsun, sizin aldatdığınız şəxs doğrudan da aldanıb. Allaha and olsun, sizin kömək və yoldaşlığınızla nicat tapan kimsə, daha uğursuz oxla nicat tapandır. Sizin köməyinizlə ox atan kimsə başı sınmış, ucluğu olmayan ox atmışdır. Allaha and olsun, sizin sözlərinizə inanmadan, sizin yoldaşlığınıza tamarzılanmadan səhəri açdım və düşməni sizlərin köməyi ilə qorxutmuram.”[3]

“...Heç vaxt sizlərdən əmin olmadım və sizləri düz əməl sahibləri saymadım. Nə meyl salınası ordu, nə də ehtiyyac duyulası güclü dostlarsınız. Siz, bir tərəfdən yığdıqda, digər tərəfdən dağılan sarvansız dəvələr kimisiniz.”[4]

“...Mənim sözümə qulaq asmır, pis hadisələr aşkar görünənə qədər əmrimə itaət etmirsiniz, sizlərlə intiqam almaq olmaz, sizlərlə məqsədə çatmaq olmaz...”[5]

“...Allaha and olsun, sizin kömək göstərdiyiniz şəxs zəlil və xardır. Sizlərin köməyilə ox atan ucsuz, başı sınıq ox atmışdır. And olsun Allaha, sizlər evlərinizdə çox, bayraqların altında isə azsınız... Allah üzünüzü qara etsin, bəhrə və nəsibinizi az etsin, batillə tanış olduğunuz qədər, haqqı tapmırsınız. Haqqı və həqiqəti batil etdiyiniz qədər batili məhv etmək niyyətində deyilsiniz.“[6]

“Ey İraq camaatı! Siz hamiləliyi başa vurduqdan sonra uşağını salaraq, ölü doğan, əri ölən və dulluq müddəti uzun çəkən, tamamilə yad adamların, irsinə sahib çıxdığı hamilə qadın kimisiniz. Bilin ki,

---

[1] xütbə 27
[2] xütbə 25
[3] xütbə 29
[4] xütbə 34
[5] xütbə 39
[6] xütbə 68

Allaha and olsun, mən öz ixtiyarımla sizə doğru gəlmədim. Ancaq naçar qalıb gəldim....”[1]

“...And olsun Allaha, düşmənlə görüşdə şəhadətə əgər nəzərdə tutulubsa-ümidim olmasaydı, hər an atıma minib cənub və şimal küləkləri əsən vaxta qədər sizlərdən uzaqlaşar, sizə yoldaş olmaq istəməzdim. Çox tənə vuran, eyb axtaran, haqqdan üz döndərən, məkrli və hiyləgərsiniz. Sizin sayınızın çox, qəlblərinizin birliyinin az olmasının xeyri yoxdur. Sizləri yalnız azğınlardan başqa kimsənin həlak və puç olmadığı haqq və aşkar yola yönəltdim...”[2]

“Siz əmin olası, etimad ediləsi deyilsiniz ki, sizə əl uzatmaq mümkün olsun, nə də yoldaşlıq umulacaq adamlar deyilsiniz....”[3]

“Ey bədənləri görünən və ağılları isə özlərinə gizlin olan dağınıq qəlbli cürbəcür insanlar! Sizi böyük mehribanlıqla haqqa doğru yönəldirəm, ondan keçi şirin səsindən hürkən kimi hürkürsünüz. Sizlərin köməyi ilə gizlin ədaləti aşkar etməyim və ya əydikləri haqqı düzəltməyim nə qədər də çətindir!...”[4]

İndi isə digər şiə mənbələrində imamların şiələri haqqında dedikləri sözlərə diqqət edək:

İmam Həsən ibn Əli *(radiyallahu anhu)* öz şiələri barədə demişdir: **“Allah and olsun, mən bu fikirdəyəm ki, Muaviyə mənim üçün bunlardan daha yaxşıdır. Bunlar deyirlər ki, mənim şiələrimdirlər, özləridə mənim qətlimi istəyirlər ki, malıma sahib dursunlar. Allaha and olsun ki, yaxşı olar ki, mən Muaviyə ilə əhdi-peyman bağlayım, özümü ölümdən qurtarım, ailəmin təhlükəsizliyini təmin edim, nəinki onlar(şiələr) məni öldürsünlər, nəslim və ailəm yox olsun.... Mən Kufə əhlini (yəni öz şiələrini və atasının şiələrini) və onların bədbəxtliyini bilirəm: onlardan fəsadla məşğul olanlar mənim işimə yaramazlar. Onların nə vəfası var, nə də sözdə və işdə vicdanları. Onlar əslində bizimlə ixtilafda olduqları halda bizə deyirlər ki, qəlbləri bizimlədir. Onların qılıncları bizim başımız üst-də sıyrılıb.”**[5]

İmam Hüseyn *(radiyallahu anhu)* şiələrə qarşı etdiyi duada deyirdi: **“Ey Allah! Əgər sən onlara möhlət versən, onları parçalanmış və yolları fərqli olan dəstələrdən et. Onları heç vaxt iqtidara gətirmə. Həqiqətən,**

---

[1] xütbə 70
[2] xütbə 118
[3] xütbə 125
[4] xütbə 131
[5] Təbərsi, “Kitab əl İhticac”, Əməşin rəvayyəti, səh 149

onlar bizi kömək etmək üçün çağırmışdılar. Sonra isə bizə düşmən olub, bizi öldürdülər."[1]

O, həmçinin deyir: **"Siz bizə beyət etmədə çəyitgə kimi tələsdiz və buna işığa cuman pərvanələr kimi üz tutduz. Sonra isə bunu pozduz. Dəf olun ey bu ümmətin guruhları və Allahın Kitabdan üz döndərənlər. Siz indi bizi köməksiz qoyub öldürürsüz. Allahın lənəti olsun zalımların üzərinə."**[2]

Əlinin *(radiyallahu anhu)* qızı Zeynəb Kufə əhlinə dedi: **"Ey Kufə xalqı! Ey yalançı, xain və satqınlar....Sizdə lovğalıq, təkəbbür və yalandan başqa nəsə var?! Siz mənim qardaşıma ağlayırsız? Allaha and olsun, siz çox ağlamalısınız və az gülməlisiniz. Çünki, sizə etdiklərinizin ləkəsi düşmüşdür. Siz necə Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **nəslinin öldürülmələrinə seyrici qaldınız?"**[3]

İmam Zeynəlabiddindən rəvayyət olunur: **"Bizim şiələrdən bir dəstə bizi o qədər sevəcəklər ki, yəhudilərin Uzeyr haqqında, xristianların da İsa** *(əleyhisalam)* **haqqında dedikləri kimi deyəcəklər. Onlar bizdən deyil, biz də onlardan deyilik."**[4]

İmam Zeynəlabiddin deyir: **"Ey millət! Mən Allaha and verirəm. Siz bilirsinizmi ki, siz mənim atama yazdınız və sonra ona xəyanət etdiniz və siz özünüz ona vəd öhdəlik və beyət vermişdiz? Öz elədiklərinizə görə sizə lənət olsun .....hansı gözlə Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **baxacaqsınız nə vaxt ki, sizə deyəcək: "Siz mənim ailəmi öldürdüz, mənim qadağalarımı aşdız və siz mənim ümmətimdən deyilsiz!"**[5]

Fatimə Suğra (imam Hüseynin nəvəsi) deyirdi: **".....Ey Kufə xalqı! Allahın sizə lənəti olsun. Sizin qarşınızda mən nə qədər Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **moizələr oxudum. Sonra siz onun qardaşı Əli ibn Əbu Talibə, mənim babama, onun oğullarına və ailəsinə xainlik etdiz."**[6]

İmam Əbu Abdullahdan (Cəfər Sadiq) nəql olunur: **"Uca Allah münafiqlər baradə elə bir ayə nazil etməyib ki, o bizim şiələrimə şamil olunmasın."**[7]

---

[1] Mufid, "İrşad", səh 241
[2] Təbərsi, "Kitab əl İhticac",c. 2 səh 24
[3] Təbərsi, "Kitab əl-ihticac"c. 2 səh 29-30
[4] "Rical Kəşşi",səh 111
[5] Təbərsi, "Kitab əl İhticac", c.2,səh 32
[6] Təbərsi, "Kitab əl İhticac",c. 2 səh 28
[7] "Ricalul Kəşşi", səh 254, "Əbul Xəttab" fəsli

İmam Sadiq dedi: **"Allaha and olsun ki, mən sizin aranızdan mənim dediyimi saxlayan üç mömin görsəydim, onun haqqında danışmaqdan vaz keçməzdim."**[1]

Sədir Əssayazafi rəvayyət edir ki, Əbu Abdullah ona deyib: **"Allaha and olsun ey Sədir, əgər mənim şiələrimin sayı bu çəpiş (keçi balası) qədər olsaydı, mən belə oturmazdım." Sonra, düşdük namaz qıldıq. Namazdan sonra, çəpişləri saydım, onların sayı 17 idi."**[2]

İmam Cəfərin belə dediyi rəvayyət olunur: **"Allaha and olsun ki, bir adamdan- Abdullah ibn Yəfurdan başqa mənə itaət edən və sözümə qulaq asan bir nəfər görmədim."**[3]

İmam Cəfər Sadiqdən rəvayyət olunur: **"İmam əlini sinəsinə qoyaraq dedi: "Əclaflardan başqa heç kəs bizim köməyimizə gəlmədi."**[4]

Yenə, o buyurur: **"Əqər insanların hamısı bizim şiələrimiz olsaydı, onların ¾ bizə şübhə ilə yanaşardılar, ¼ isə axmaq olardı."**[5]

Kuleyni "Kafi"də imam Musa ibn Cəfərdən rəvayyət edir: **"Uca Allahın şiələrə qəzəbi tutdu. Özümü və ya onları fəda etmək üçün sərbəst buraxdı. And olsun Allaha, mən özümü fəda edərək onları qorudum."**[6]

İmam Musa ibn Cəfər öz şiələri barədə demişdir: **"Mən öz şiələrimi başqaları ilə müqayisə edəndə onları ancaq boşboğaz gördüm, onları imtahan etdim, amma mürtəd gördüm."**[7]

---

[1] "Usuli Kafi", c.1,səh 496

[2] "Kafi", c.2, səh 243,"Biharul Ənvar" 47/373

[3] Rical əl Kəşşi", səh 215, İraq çapı; Məclisi, "Məcalis əl möminin", Beşinci məclis, səh 144

[4] Numan ibn Muhəmməd ət Təmimi, "Şərhul əxbər"c.3,səh 8; Əli ət Təbərsi, "Mişkətul ənvər", səh 455; Məclisi, "Biharul Ənvar",c.13,səh 137; Əyyaşi, "Təfsir Əyyaşi", c.2,səh 24; Kəşani, "Təfsir Səfi",c.2,səh 225; Huvəyzi, "Təfsir nur əs Saqaleyn",c.2,səh 55

[5] "Riçal Kəşşi", səh 179; Səid Həsən Musəvi Kəşani, "Qiyamlar", səh 144

[6] c.1, səh 260,Azərbaycan dilində 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabında səh 429

[7] Kuleyni, "Kitabur-ravda", səh 107, Hindistan çapı vəya 8/228

Əhli beyt imamlarının övladları, onlarla səhabələr arasında qohumluq

Biz bu fəsildə sünni və şiə qaynaqlarında[1] təsbit olunmuş, elm əhli tərəfindən qəbul edilən əhli beyt imamlarının övladları, adları və onların səhabələrlə qohumluq münasibətlərindən qısa olaraq bəhs edəcəyik:

- Ruqəyyə, Zeynəb bint (qızı) Muhəmməd *(səlləllahu aleyhi və səlləm)* - əri, **Osman ibn Əffan**
- Umm Gülsum bint Əli ibn Əbu Talib - əri, **Ömər ibn Xəttab**[2]
- **Aişə bint Əbu Bəkr** - əri, Rasulullah *(səlləllahu aleyhi və səlləm)*
- **Hafsa bint Ömər ibn Xəttab** - əri, Rasulullah *(səlləllahu aleyhi və səlləm)*
- Hafsa bint **Əbdurrəhman ibn Əbu Bəkr** - əri, imam Hüseyn
- Umm Fərva[3] bint Qasim ibn **Muhəmməd ibn Əbu Bəkr** - əri, imam Muhəmməd Baqir
- Əli ibn Əbu Talibin iki **Əbu Bəkr** kunyəli oğulları olmuşdur: **Osman əl Əkbər** ibn Əli ibn Əbu Talib və **Osman əl Əsqər** ibn Əli ibn Əbu Talib
- **Ömər əl Əkbər** ibn Əli ibn Əbu Talib
- **Ömər əl Əsqər** ibn Əli ibn Əbu Talib[4]
- **Ömər** ibn Hüseyn ibn Əli ibn Əbu Talib[5]
- **Ömər** əl Əşrəf ibn Hüseyn ibn Əli ibn Əbu Talib
- **Aişə** bint Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib[6]
- **Əbu Bəkr** ibn Həsən ibn Əli ibn Əbu Talib[7]
- **Ömər** ibn Həsən ibn Əli ibn Əbu Talib
- **Əbu Bəkr** ibn Musa əl Kazım[8]
- **Ömər** ibn Musa əl Kazım
- **Aişə** bint Musa əl Kazım

---

[1] Nümunə olaraq bax: "Mufid, "İrşad", səh 186 ;"Tarix Yəqubi", c.2,səh 228; "Umdətul Talib ,səh 81; "Fəslul muhim", səh 166; İsfəhani, "Məkatilun talibin", səh 142; Qummi, "Muntəxil aməl", c.1,səh 240; Məclsi, "Cilalul əyun", səh 570; Ərdəbili, "Kəşful Ğummə", c.2,səh 74; Növbəxti "Firəq əş şia", səh 177 (türk dilində)

[2] Əli ibn Əbu Talib öz qızının Ömərə ərə vermişdi; https://www.anti-majos.org/viewtopic.php?f=50&t=237

[3] İmam Cəfər Sadiqin anası; https://www.anti-majos.org/viewtopic.php?f=50&t=23

[4] Əli ibn Əbu Talibin, Əbu Bəkr, Ömər, Osman adında övladları olmuşdur.; https://www.anti-majos.org/viewtopic.php?f=50&t=98

[5] İmam Hüseynin iki Ömər adında vəya kunyəli övladları olmuşdur.

[6] imam Zeynəlabiddinin qızı

[7] İmam Həsənin Əbu Bəkr və Ömər adında oğulları olmuşdur.

[8] İmam Musa əl Kazımın Əbu Bəkr, Ömər və Aişə adlı övladları olmuşdur.

- Umm Qasim bint Həsən ibn Əli ibn Əbu Talib - əri, Mərvan ibn Əban ibn **Osman ibn Əffan**[1]
- Sukeynə bint Hüseyn ibn Əli ibn Əbu Talib - əri, Abdullah ibn Amr ibn **Osman ibn Əffan**[2]
- Fatimə bint Hüseyn ibn Əli ibn Əbu Talib - əri, Zeyd ibn Amr ibn **Osman ibn Əffan**[3]
- **Aişə bint** Əli ibn Muhəmməd əl Hadi[4]
- Ramlə bint Əli ibn Əbu Talib - əri, Muaviyyə ibn Mərvan ibn Həkəm[5]

Təsadüfü deyil ki, şiələr Əlidən *(radiyallahu anhu)* etibarən, sonuncu əhli beyt imamına qədər olan 200 ilə yaxın dövr ərzində imamların özlərinin vəya övladlarından kimsənin öz qızını şiələrə ərə verməsini vəya özlərinə şiələrdən qız almasına dair bircə nümunə gətirə bilməzlər. Başqa sözlə, Əhli beyt imamları onların şiələri olduğunu iddia edən qara guruhla deyil, səhabələr və möminlərlə qohum olmuş, qız verib, qız almışlar. Bir halda ki, bütün dövrlərdə bir-birinə yaxın insanlar öz aralarında qohumluq münasibətləri qurmağa can atmışlar. Bütün bunlar və yuxarıda göstərilənlər şiələrin Əhli beyt imamlarından nə qədər uzaq olduğuna dair növbəti dəlildir.

Şiəlikdə tövhid və şirk anlayışı

Bu baradə çox danışmaq və çoxlu dəlillər gətirmək olar. İnternet mühitində həddindən artıq çoxlu video görüntülərdə bunlara asanlıqla şahid olmaq mümkündür. Lakin, biz uzun olmasın deyə onların bəzi mötəbər alimlərindən qısa sitatlar gətirməklə kifayətlənəcəyik:

Muhəmməd Təqi əl Məclisi belə rəvayyət edir: **"Əgər Allahdan nəyisə istədiyin zaman dərhal imamların qəbrinə gedib orada məktub yazaraq və yaxud məktubu torpağa basdıraraq və yaxud da dərin bir quyuya atsan, şübhəsiz ki, yazdığın məktub imamlara gedib, çatar."**[6]

---

[1] İmam Həsənin qızının əri Osman ibn Əffanın nəvəsi Mərvan olmuşdur.
[2] İmam Hüseynin Sukeynə adlı qızının əri Osman ibn Əffanın nəvəsi Abdullah olmuşdur.
[3] İmam Hüseynin Fatimə adlı qızının əri Osman ibn Əffanın nəvəsi Zeyd olmuşdur.
[4] İmam Cavadın qızı
[5] İmam Əlinin qızının əri Mərvan ibn Həkəm olmuşdur.
[6] "Biharul ənvar", c.94, səh, 29 Beyrut çapı

İmamlardan biri öz şiəsinə belə bir məktub yazmışdı: **"Nəyəsə ehtiyyacın olduğu zaman sadəcə dilinnən məni çağır. "Ey imam mənə kömək ol!" Həmin anda mən sənə yetişib, duanı qəbul edərəm."**[1]

Şiə alimləri bu hədisləri səhih saymışlar. Məsələn, Xomeyni səhih saymış və bunu "Kəşful Əsrar" kitabında qeyd etmişdir. Xomeyni bu məsələ ilə bağlı belə izah gətitir: **"Şübhəsiz ki, əgər imamların Rəbb olduğuna inanmırsınızsa onlara bir başa dua edib, çağıra bilərsizniz və bu şirk deyil. Həmçinin, ölü ilə diri arasında heç bir fərq yoxdur. Hətta, daşdan, parçadan istədiyinizi onlardan tələb edə birlərsiz və bu şirkin növü deyildir."**[2]

Xomeyni yazır: **"Batil bir əməl olsa da, daşdan vəya qayadan bir şeylər istəmək şirk deyildir. Şübhəsiz ki, biz Allahın özlərinə qüdrət verdiyi imamların və Peyğəmbərlərin müqəddəs ruhlarından mədət umuruq."**[3]

Şiələrin məşhur alimi Abbas əl Qummi sıravi şiələrə kitabında "Fatimə namazı" adlı bir namaz şəkli tələqin edərək, bunları yazır: **"Əgər sənin Allahdan istədiyin və qəlbini sıxan bir hacətin varsa, iki rukət namaz qıl, təslimi verdikdən sonra üç dəfə təkbir de və Fatiməni** *(əleyhisalam)* **tələqis et. Sonra, səcdə et və yüz dəfə de: "Ey mənim himayədarım, seyyidəm Fatimə! <u>Mənə yardım et!"</u>. Sonra səcdədə ikən sağ yanağını yerə qoy və bu sözləri yüz dəfə de. Sonra eyni ilə sağ yanağını yerə qoy və bu sözləri yüz dəfə təkrar et. Sonra səcdə vəziyyətinə qayıt və bu sözləri yüz on dəfə təkrar etməklə hacətini istə...."**[4]

Bu namazı açıqlayan və şərh edən şiə alimi Ayətullah Həsən əl Əbtahi yazır: **"Fatiməyə səcdə etmək olarmı?! Bir çox rəvayyətlərdə varid olduğuna görə namazdan sonra Fatiməyə** *(əleyhisalam)* **hacət istəmək üçün səcdə etmək və o halda ikən, 100 dəfə "Ya mövla, ya Fatimə! Mənə yardım et!" demək vacibdir və bu əslində təbii bir şeydir. Biz səcdədə onun adını çəkib, yardım istədikdə məzh, ona üz tutduqda səcdə etmək artıq bizə vacib olur. Çünki, insanın Fatiməyə** *(əleyhisalam)* **üz tutduğu, onunla söhbət etdiyi və ondan bir şeylər istədiyi halda başqasına səcdə etməsi məntiqə ziddir. Unutmaq lazım deyil ki, Allahdan qeyrisinə səcdə etməyin qadağan olmasına dair heç bir dəlil yoxdur. Beləliklə,**

[1] "Biharul ənvar",c.22, səh 94
[2] "Kəşful-Əsrar", səh 30
[3] "Kəşful Əsrar", səh 49
[4] "Məfatihul cinan",səh 804

aydın olur ki, bizim əlimizdə Allahdan qeyrisinə səcdə etməyin haram olmasına dair heç bir sübut yoxdur."[1]

Halbuki, Quranda yüzlərlə açıq-aşkar ayələrdə Allah insanları şirkdən çəkindirib, tövhidə və yalnız ona ibadət edib, dua etməyə dəvət edir. Bir neçə ayəni qeyd etmək kifayət edər:

"Odur ki, Allahla yanaşı başqa bir məbudu çağırma, yoxsa əzaba düçar edilənlərdən olarsan"[2]

"Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. "Allahdan başqa heç kəsə dua etməyin"[3]

"De, Mən yalnız öz Rəbbimə dua edirəm və kimisə ona şərik qoşmuram."[4]

"O, Allahı tərk edərək özünə nə zərər, nə də xeyir verə bilməyənə yalvarır."[5]

"Allahı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan."[6]

"O, əbədi Yaşayandır, Ondan başqa məbud yoxdur. Allaha, dini yalnız Ona məxsus edərək, dua edin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!"[7]

Abbas Qumminin nəql etdiyi şiələrin məşhur "Fərəc"duasında bu sözlər vardır: **"....Ya Muhəmməd, ya Əli! Ya Əli, ya Muhəmməd! Siz mənə kifayətsiz, yalnız siz kifayət edənsiniz. Mənə kömək edin ki, yalnız siz mənim kömək edənimsiniz. Ya mövla, ya Sahibəzzaman! Fəryada yetiş, fəryada yetiş, fəryada yetiş! Məni dərk elə, məni dərk elə, məni dərk elə! Elə bu saat, elə bu saat, elə bu saat, ey mehribanlıların ən mehribanı, Muhəmməd və onun pak əhlinə xatir..."**[8]

Ehtiyyac halında şiələrin etməli olduğu dua haqqında Məclisinin "Biharul ənvar"[9] və "Cəmal əl usbu"[10] kitablarında bunlar yazılır:

"Ya Muhəmməd, ya Əli! Ya Əli, ya Muhəmməd!
Məni hifz edin! Axı, sizlər mənim hamilərimsiz!
Ya Muhəmməd, ya Əli! Ya Əli, ya Muhəmməd!
Mənə kömək edin! Axı, sizlər mənim yardımçılarımsız!

---

[1] "Ənvar əz Zəhra",səh 45; https://www.anti-majos.org/viewtopic.php?f=61&t=436
[2] Şuəra, 213
[3] Cinn 18
[4] Cinn 20
[5] Həcc 12
[6] Yunus 106
[7] Ğafir 65
[8] "Məfatul cinan", 1/175; https://www.anti-majos.org/viewtopic.php?f=61&t=251
[9] c.91,səh 191
[10] səh 181

Ya Muhəmməd, ya Əli! Ya Əli, ya Muhəmməd!
Məmin qayğıma qalın! Axı, sizlər mənim himayədarımsız!
Ey mənim sahibim! Ya Sahibəzzaman! (3 dəfə)
Yardım istəyirəm, yardım istəyirəm, yardım gözləyirəm!
Tükənməyən yardım et! (3 dəfə)
Səndən nicat diləyirəm! (3 dəfə)

Şiə alimi Muhəmməd Saleh əl Cəvhari yazır:

"....Ya mövla, ya Əmirəlmöminin! Bugün bazar, sənə həsr olunan gündür. Mən bu saaatlarda səndən sığınacaq istəyir və sənə yaxınlaşmağı arzu edirəm. Elə isə elə et ki, məm özümü evimdəki kimi hiss edim. Ya mövla! Məni öz himayənə al. Sən həqiqətən çox mehribansan, qonaqpərvərsən, sənə sığınanlara hami olursan..."[1]

Muta (siğə) nigahı baradə

Muta nigahı bütün İslam firqələri qatında hər zaman və hər bir məkanda haram olmasına baxmayaraq, imami şiə məzhəbinə görə halal hesab olunur. Muta nigahı müvəqqəti nigah deməkdir ki, bu nigah boşanma niyyəti ilə müəyyən qısa müddətə bağlanır. Müddəti isə hədislərinin də ifadə etdiyi kimi bir saatdan bir ay və ya daha çox vaxta qədər uzadıla bilər. İndi isə bu nigah növü baradə onların düşüncələrinə nəzər yetirək:

Muta nigahı bağlanan qadının kimliyi

Zürarə rəvayyət edir ki, o imam Cəfər əs-Sadiqdən müvəqqəti nigah bağlanılan qadınların icazə verilmiş dörd qadına aid olub-olmamasını soruşduqda, o belə cavab vermişdi: **"İstəyirsən lap mini ilə evlən, axı bunlar icarəyə götürülən qadınlardır."**[2]

Behbudi bunu səhih, Məclisi isə buna bənzər digər rəvayyəti səhih hesab etmişdir.

Şiə alimi Muhəmməd Həsən ən-Nəcəfi izah edir ki, müvəqqəti nigah bağlanılan qadın icarəyə götürülən qadındır. Ona görə ki, kişi öz ehtirasını

[1] "əd Dayə əs salihin",səh 438
[2] Vəsailuş-Şia", 14/446-447/ ; Kuleyni "Kafi" c.5,səh 452; Rəvdad əl muttəqin» 14/180 https://www.anti-majos.org/viewtopic.php?f=46&t=330

ödəmək üçün onun bədənini icarəyə götürür. O deyir: **"Şübhəsiz ki bu cür icarəyə icazə verilir"**[1]

Həmçinin, Əbu Abdullahdan: **"Onlar qul qadın hökmündə, dərəcəsindədirlər."**[2]

Məclisi və Behbudi bu rəvayyəti səhih hesab etmişlər.

"Əbu Abdullaha dedim ki, mən yollarda gözəl qadınlara rast gəlirəm. Onların yoldaşlarının olub-olmaması və ya ərdə olub-olmamaları baradə özümü tam əmin, rahat hiss edə bilmirəm. Əbu Abdullah dedi: "Onlar sənin problemin deyil. Sənin işin onları razı etməkdir."[3]

"Muhəmməd ibn Rəşiddən nəql olunur ki, Əbu Abdullaha dedim ki, **mən bir qadın ilə muta nigahı bağladım. Daha sonra qəlbimə onun əri olduğu şübhəsi gəldi. Araşdırmağa başladım və məlum oldu ki, əri vardır. Əbu Abdullah cavabında dedi: "Yaxşı, bəs niyə araşdırdın?"**[4]

Tusi şərh verir: **"Bu məsələdə əsas xüsus odur ki, qadının evli olub olmadığını araşdırmayasan."**[5]

Kuleyni bu məsələni nəql edərək deyir: **"Əbu Abdullah dedi ki: "Qadının evli olub olmadığını soruşmağın lazım deyil, sənin işin odur ki, qadının öz nəfsi ilə əlaqəli bəyanını təsdiq edəsən."**[6]

Muta nigahının müddəti

Kuleyni kitabında muta nigahının ən qısa müddəti baradə bir neçə rəvayyətlər nəql etmişdir. Misal olaraq: Muhəmməd ibn Yəhyadan, o Əhməd ibn Muhəmməddən, o ibn Fəddaldan, o ibn Bukeyrdən, o da Zürarədən rəvayyət edir: **"Mən imamdan qadınla bir vəya iki saatlıq muta nigahı bağlamaq haqqında soruşdum." İmam dedi: "Bir vəya iki saat mücərrəd anlayışlardır. Lakin, bir vəya iki cinsi münasibətlik vəya bir və yaxud iki gecəlik cinsi münasibətə uyğun əqd bağlamaq olar."**[7]

---

[1] "Cəvahir əl-Kəlam", 30/192 və 202-203

[2] Hurr Amili,"Vəsailuş şia" №21/№26411; "Kafi" c.5,səh 451; http://www.alkadhum.org/other/mktba/hadith/wasael-21/v01.html

[3] "əl Kafi", cüz:5,səh 462

[4] "Təhzib", cüz 7,səh 253; "Vəsail", cüz 21,səh 31

[5] Əbu Cəfər Məhəmməd Tusi, "Təhzib", c. 7, səh 453-454

[6] Kuleyni, "əl-Furu Kafi",c.5, səh 462

[7] "Kafi", 5/459; Hədis №3. Məclisi hədisi muvassaq (etibarlı) hesab etmişdir.

Muhəmməddən, o Əhməd ibn Muhəmməddən, o Muhəmməd ibn Xaliddən, o da Xələf ibn Həmmaddan rəvayyət edir: **"Bir gün mən imam Əbul Həsənə muta nigahında ən qısa vaxt nə qədərdir sualı ilə məktub göndərdim. Kişiyə bir cinsi münasibətlik muta nigahı bağlamaq olarmı?" İmam dedi: "Bəli"**[1]

Məclisi bu hədisi səhih hesab etmişdir.

"Bəzi əshabımızdan, Səhl ibn Ziyaddan, o ibn Fəddaldan, o Qasim ibn Muhəmməddən, o da bir nəfərdən rəvayyət edir: **"Mən Əbu Abdullahdan qadınla bir cinsi münasibətlik muta nigahı bağlayan kişi haqqında soruşdum. O dedi: "Bunda heç promlem yoxdur, amma qurtardıqdan sonra o üzünü çevirsin və ona baxmasın."**[2]

Bakirə qızla vəlisiz muta nigahı

Əbu Abdullahdan soruşdular: **"Bakirə qız ilə muta nigahı bağlamaq olar?" İmam: "Bəli, əgər o ona gülünəcək uşaq deyilsə." İmamdan soruşdular: "O neçə yaşına çatmalıdır ki, ona gülməsinlər?" İmam dedi: "On yaş"**[3]

Şeyx Mufid yazır: "Əbu Abdullah dedi: "**Əgər qız razıdırsa bakirə ilə onun vəlisi olmadan nigah bağlamaqda problem yoxdur."**[4]

Tusi yazır: "**Nəql olunur ki, bakirə qıza özünü atasının rizası olmadan da müvəqqəti nigah bağlamağa icazə verilir. Lakin, əgər o yetkinlik yaşına çatmayıbsa onunla evlənən gərək ona daxil olmasın. Əgər qız yetkinlik yaşına çatmayıbsa atasının razılığı olmadan ona nigah bağlamaq olmaz. Burada nigah baradə olan hökm muta nigahı üçün də keçərlidir."**[5]

Tusi deyir: "**Əgər bakirə qız valideynlərinin yanında qalırsa və yetkinlik yaşına çatmayıbsa, onunla atasının razılığı olmadan nigah bağlamaq olmaz. Əgər o yetkinlik yaşına çatıbsa və 9-10 yaşı varsa onunla atasının razılığı olmadan da nigah bağlamaq olar. Lakin, bu halda onun bakirəliyini pozmaq olmaz."**[6]

---

[1] "Kafi", 5/459,hədis №4

[2] "Kafi", 5/459; hədis №5; Vəsail əş-Şiə", 14/479-480, fəsil 25

[3] "Furu əl Kafi", c.5,səh 463;Tusi "Təhzib"

[4] "Risalə muta", səh 10

[5] "ən Nihai", səh 465

[6] "ən Nihai", səh 490

İbn Həmza deyir: "**Bakirə qıza vəlisinin razılığı olmadan muta nigahı bağlamaq olar."**[1]

Yəhya ibn Səid əl Hilli deyir: "**Yetkinlik yaşına çatmış bakirə qızla muta nigahı bağlamaq olar. Lakin, əgər o valideynlərinin yanında yaşayırsa razı olsa belə onun bakirəliyini pozmaq olmaz. Yox, əgər o valideynlərinin yanında yaşamırsa onda olar...."**[2]

Mühəqqiq əl Kərki deyir: "**Bir mənalı olaraq yetkin, azad kişi üçün vəli tələb olunmur və eyni ilə daha mötəbər rəyə əsasən azad və yetkin qız üçün o hətta bakirə olsa belə vəli tələb olunmur. Bu nigah istər daimi, istərsə də müvəqqəti olsun, onun hökmü dəyişmir."**[3]

Muta nigahının fəziləti

Şiələrin mötəbər hədis kitablarından olan "Vəsailuş şia" kitabının müəllifi Hurr Amili öz əsərində **"Muta nigahının müstəhəbliyi və hansı niyyətlə bağlanacağı"** adlı fəsil tərtib etmişdir və o fəsildə bir neçə rəvayyətlər nəql edir. Onlardan bir neçəsini olduğu kimi qeyd etmək istərdik:[4]

1 — Muhəmməd ibn Əli ibn Hüseyndən, o Bəkr ibn Muhəmməddən, o Əbu Abdullahdan rəvayyət edir ki, ondan muta nigahı haqqında soruşdular və o dedi:

"Həqiqətən, mən istəməzdim ki, müsəlmanlardan olan bir kəs peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* **keyfiyyətlərindən olan bir əməli etmədən dünyadan köçsün."**

2 — Saleh ibn Uqbə sənədi ilə atasından, o da imam Baqirdən rəvayyət edir:

"Mən dedim: "Muta nigahı edənə mükafat varmı?" **İmam dedi: "Əgər bu işlə insan Allahın camalına doğru can atırsa və bunu inkar edənlərdən seçilməyi niyyət edirsə, onda qadına dediyi hər sözə görə ona saleh əməl savabı yazılır. Hər dəfə qadına əlini uzatdıqda ona əcr yazılır və ona hər toxunduqda günahı silinir. Qüsl aldıqda saçlarından axan suyun miqdarı qədər günahları bağışlanır." Uqbə soruşdu: "Hər saçının sayı qədər günahları silinir?" İmam dedi: "Hər saçının teli qədər savab yazılır."**

---

[1] "Lausiyyə", səh 300

[2] "əl Cami liş şərai", səh 451

[3] "Cami əl maqsid", 12/122

[4] "Vəsailuş şia", 17/572-573; https://www.anti-majos.org/viewtopic.php?f=46&t=336

3 — İmam Baqir dedi: «Həqiqətən, peyğəmbər *(sallallahu aleyhi və səlləm)* meraca gedəndə deyirdi: **"Cəbrayıl mənə yetişdi və dedi: Ya Muhəmməd! Allah Azzə və Cəlləhu buyurur: "Mən sənin ümmətindən muta nigahı bağlayan qadınları bağışlayıram!"**

4— **"Mömin muta edənə qədər (imanı) kamil olmaz."**[1]

5— Əbu Abdullahdan rəvayyət olunur: "**Həqiqətən, mənə kişinin bu dünyadan heç olmasa bir dəfə də olsun muta nigahı edib köçməsi və cüməni camaatda qılması daha sevimlidir."**

6— Zürarə Əbu Abdullahdan rəvayyət edir: **"Allaha and olsun, muta nigahı həccdən xeyirlidir. Onun haqqında ayə nazil olub və ona sünnədə təşviq edilir."**

Əbu Abdullahdan rəvayyət olunur: **"Elə bir kişi yoxdur ki, mutadən sonra qüsl etdikdə Allah hər damcı su üçün 70 mələk xəlq etməsin ki, bu mələklər Qiyamət gününə qədər ona istiğfar etməsinlər və mutani ona yasaq edənlərə də lənət etməsinlər."**[2]

"Kim bir dəfə muta edərsə zalimin zülmündən amanda olur, iki dəfə edərsə xeyrli kimsələr ilə bir yerdə həşr olunur, üç dəfə edərsə isə cənnətdə bizim ilə olar."[3]

Şeyx Səduq nəql edir: "Saleh ibn Uqbə, imam Əbu Cəfərdən belə rəvayyət edir: **"Mən (Saleh ibn Uqbə) soruşdum: "Mutada savab varmı?" Əbu Cəfər cavab verdi: "Əgər muta etməklə Allahın rizasını və onu (siğəni) inkar edənlərə (Əhli-sunnəyə) müxalifət etməyi arzulamısansa muta edərkən, danışdığın hər bir söz üçün Allah on səvab yazar. Əlini muta etdiyin qadına uzadanda, Allah mütləq qadına bir savab yazar. Qadınla (cinsi) təmasa başladığın vaxt onun günahları təmizlənər. O, yuyunmağa başlayanada saçının hər telinə görə Allah ona məğfirət edər." Mən soruşdum: "Saçının hər telinə görə?" O, "Bəli, saçının hər telinə görə."**[4]

Əbu Abdullahdan: **"Şübhəsiz muta mənim və babalarımın dinidir. Ona əməl edənlər dinimizə əməl etmiş olurlar. Onu inkar edənlər dinimizi inkar etmiş olur və bizdən başqasının dininə uymuş olurlar. Muta uşağı daimi nigah uşağından fəzilətlidir. Mutayı inkar edən dindən çıxmış kafirdir."**[5]

---

[1] Səduq, "Mən lə yahdarahul fəqih", c. 3, səh 297; Hurr Amili, "Vəsailuş şia" 21/№26392

[2] Hurr Amili "Vəsailuş şia" 21/№26402

[3] Səduq, "Mən lə yahdarahul fəqih"c. 3,səh 336

[4] Səduq, "Mən lə yahdarahul fəqih", cild 3, səh 295

[5] Səduq, "Mən lə yahdarahul fəqih", 3/336; Kəşani, "Minhəcus-sadiqin", 2/495;

Feyz Kəşani yazır: **"Peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **buyurdu: "Kim bir dəfə muta nigahı etsə, özünü oddan 1/3 hissə azad etmiş, iki dəfə etsə 2/3, üç dəfə etsə isə bütünlüklə oddan xilas etmiş olar."**[1]

Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* rəvayyət olunur: **"Kim bir dəfə muta edərsə Hüseynin dərəcəsində olar. Kim iki dəfə muta edərsə Həsənin dərəcəsində olar. Kim üç dəfə muta edərsə Əlinin dərəcəsində olar. Kim də dörd dəfə muta edərsə mənim dərəcəm kimi dərəcədə olmuş olar."**[2]

Muta nigahı baradə fətvaları

Ayətullah Ruhanidən soruşdular:

Sual: *"Müsəlman kişiyə xristian qızla onun vəlisi olmadan muta nigahı bağlamaq olarmı?"*

Cavab: *"Onun gözəl adları ilə. Müsəlman kəsə xristian və müsəlman qızla onun vəlisi olmadan muta nigahı bağlamaq olar, bir şərtlə ki, qız yetkinlik yaşına çatıb, ağlı başındadır və pozğun deyil."*[3]

Sistaniyə sual verirlər:

Sual 164:*"Elə yerlər var ki, orada insanların maddi vəziyyəti yaxşı deyil və oranın qadınları həzz almaq üçün deyil, sırf maddi qazanc naminə muta nigahı bağlayırlar. Onlar ilə müvəqqəti nigaha girmək olarmı?!"*

Cavab: "İcazəlidir"[4]

Sistaniyə sual verirlər:

Sual 185 :

"Muta nigahını kağız vərəqədə yazmaq olarmı və orada şahidlərin olması vacibmi?!

Cavab: *"Bu vacib deyil."*[5]

Ayətullah Məkarim Şirazi yazır: **"Müvəqqəti ər və qadın bir-birindən miras aparmırlar.....kişi öz hamilə qadınına hətta, o qadın ondan hamilə olsa belə yemək vermə, geyim alma, evlə və digər əşyalarla təmin etmə məsuliyyətini daşımır."**[6]

---

[1] Kəşani, "Minhəcus sadiqin"c.2,səh 492,493

[2] Kəşani,"Minhəcus sadiqin",2/492-493

[3] www.rohani.ir/ar/idetail/2637

[4] http://www.alseraj.net/ar/fikh/2/?TzjT8 … &151&180&6

[5] http://www.alseraj.net/ar/fikh/2/?TzjT8 … &181&210&7

[6] "Müvəqqəti nigahın hökmü"fəsli №2074

Xomeyni yazır: **"9 yaşına çatmamış qızla istər muta, istərsə də daimi nigahda cinsi əlaqədə olmaq olmaz. Amma, nigah xaricində ki, faydalanmalar: Şəhvətlə toxunmaq, sürtüşmə və zəkərləri birləşdirməkdə bir zərər yoxdur. Bu faydalanma qız uşağı ilə hətta, südəmər qızla da olsa belə caizdir. Əgər kişi 9 yaşına çatmamış qızla cinsi əlaqədə olarsa günahdan başqa üzərində bir vəbal yoxdur."**[1]

Ayətullah Muhəmməd Sadiq Ruhaninin fətvası:

Sual: *"Bir dəfə mən gecə klubuna girdim. Orada bir fahişə 100 dollar müqabilində özünü mənə təklif etdi. Mən ona bu pulu ödədim və o dedi: "Mən öz bədənimi bu pul müqabilində sənə muta olaraq verirəm." Bunu İslami muta nigahı hesab etmək olarmı?"*

Cavab: *"Əgər bu sözləri ilə o nigahın qılınmasını nəzərdə tuturdusa və sən onun sözlərindən sonra desən ki: "mən bunu səndən qəbul edirəm." onda bu caiz muta nigahı hesab olunur."*[2]

Ayətullah əl Hakimin fətvası:

"Fahişə olan qadınla muta nigahı bağlamaq olar amma, o bir qayda olaraq bunu dini bir vacibat olaraq görmür. Ona görə də sən əmin olmalısan ki,o bunu əri qarşısında olan bütün öhdəlikləri ilə bərabər qəbul edir. O qadın da başa düşməlidir ki, ona verilən məbləğ zina haqqıdeyildir."[3]

Ayətullah əl Hakimin digər fətvası:

Sual: *"Yetkinlik yaşına çatmış valideynləri ilə yaşayan qızla muta etmək olarmı?Onun 20 yaşı var. Amma, o hələ bakirədir."*

Cavab: *"Bakirə qızla onun vəlilərinin (ata və qohumları) razılığı olmadan muta bağlamaq olmaz. Əgər vəliləri yoxdursa (ölüb və ya yaxında yoxdularsa) onda qız özü özünə kafidir."*[4]

Həqiqi nigah ilə müvəqqəti nigah arasındakı fərqlər:

1-Daimi nigahda vəlinin olması vacibdir. Muta nigahında isə bu vacib deyil. Əbu Abdullahdan: **"Dörd qadına sahib olan kişi istədiyi qadınla şahidsiz və vəlisiz evlənə bilər."**[5]

2-Daimi nigahda şahidlər zəruridir. Muta nigahında isə şahid istənilməz.[1]

---

[1] Təhrirul vasilə c.2,səh 216,məsələ 12

[2] http://www.istefta.com/ans.php?stfid=7573&subid=20

[3] http://gift2shias.files.wordpress.com/2010/08/ayatollat_al_hakeem_zawaaj_bigaya-3-in-_1.jpg

[4] http://english.alhakeem.com/quearchv/ms.htm

[5] "Vəsail", c.21,səh 64

3-Həqiqi nigahda məqsəd daimilik və davamlılıqdır. Lakin, muta nigahında məqsəd zövq almaq, müvəqqəti olaraq faydalanmaqdır.

4-Səhih olan nigah ancaq müsəlman və ya əhli kitabdan olan bir qızla həyata keçirilir. Lakin, muta nigahında isə yuxarıda bildirildiyi kimi məcusi bir qızla da caizdir.[2]

5-Səhih nigahda qadının iffətini qoruması vacib ikən, muta nigahında qadının iffətini qoruması vacib deyildir.

6-Səhih olan nigahda insan zövcəsi ilə səfər edə bilərsə, muta nigahında isə birlikdə səfər etmələri caiz deyildir.[3]

7-Həqiqi nigahda talaq yəni, boşanma vardır. Muta nigahında isə bu yoxdur.[4]

8-Səhih olan nigahda boşanma müddəti bilindiyi kimi üç ay və ya üç heyz zamanıdır. Amma, muta nigahında hədislərdə keçdiyi kimi qırx beş gün, bir ay və ya iki heyz zamanıdır.

9-Bilindiyi kimi evlilikdə miras və vərəsəlik vardır. Amma, muta nigahında bunların heç birisi yoxdur.[5]

10-Həqiqi nigahda dörd qadından artığı caiz deyildir. Lakin, muta nigahında isə min qadınla belə evlənmək caizdir. Zurara rəvayyət edir ki, o imam Sadiqdən müvəqqəti nigah bağlanılan qadınların icazə verilmiş dörd qadına aid olub-olmamasını soruşduqda, o belə cavab verib: **"İstəyirsən lap mini ilə evlən, axı bunlar icarəyə götürülən qadınlardır"**[6]

11-Həqiqi nigahda evli bir qadınla evlənmək caiz deyildir. Lakin, muta nigahında evli qadınla evlənmək caiz olub, araşdırmaya belə lüzum yoxdur.

12-Həqiqi nigahda zinakar ilə evlənmək caiz deyildir. Çünki, Allah buyurur: "Zina edən qadınla da ancaq zina edən kişi və ya müşrik evlənə bilər." Lakin, muta nigahında zinakar biri ilə nigah bağlamaqda heç bir problem yoxdur.

13-Həqiqi nigahda insanları çağırmaq və bildirmək vardır. Amma, muta nigahında belə şey tələb olunmaz.[7]

---

[1] Eyni yerdə
[2] "Vəsail", c.21,səh 38
[3] "Vəsailuş şia", c.14,səh 446-447
[4] "Kafi", c.5,səh 451
[5] "Vəsail", c.21,səh 79
[6] "Kafi", c.5,səh 452; "Vəsailuş şia", c. 14,səh 446-447
[7] "Vəsailuş şia", c.21,səh 65

Vəhdət və yaxınlaşma baradə

Şiəlik ilə yaxınlaşma fikrinə qarşı çıxanlar əbəs yerə danışmırlar. Doc. Mustafa əs Sibainin "əs Sunnətun nəbəviyyə" kitabında yazılanlara nəzər salaq:

"1953-cü ildə Əbdulhuseyn Şərəfuddini Surda Amil dağındakı evində ziyarət etdim. Yanında bəzi şiə alimləri də var idi. Əhli sünnət və şiə məzhəbinin söz birliyi və vəhdət olmasının zərurətindən bəhs etdik. Bunun üçün də ilk növbədə hər iki qrupun alimlərinin bir-birini ziyarət etmələri və birliyə dəvət edən kitablar nəşr etmələri olduqlarını bəyan etdik. Əbdulhuseyn bu fikrə dəstək verir və buna inanırdı. Bu məqsədlə sünni və şiə alimləri arasında bir konfrans təşkil edilməsi qərara alındı. Əldə etdiyim nəticədən məmnun halda yanlarından ayrıldım. Daha sonra Beyrutda öndə gələn siyasətçi, tacir və ədəbiyyatçı olan şiələrlə bu məqsədlə görüşlər keçirdim. Az bir müddətdən sonra isə heyrətə qapıldım. Əbdulhuseyn Əbu Hureyrəni təhqir edən və ona ittihamlarla dolu olan bir kitabı çapa çıxarmışdı…."

Daha sonra Dr. Sibai yazır: "Əbdulhuseynin keçmişi unudub, yaxınlaşma məsələsində səmimi istəyinə kölgə salan bu davranışından, kitabındakı istifadə etdiyi sözlərdən dolayı təəcüblənmişdim. İndi də şiə alimlərindən bir qrupun yaxınlaşma dəvəti edib, belə davrandığını müşahidə edirəm. Bu yaxınlaşma dəvətinin İran, İraq kimi bölgələrdə şiə alimlərinin çoxluq təşkil etdiyi yerlərdə görmürük. Əvəzində onlar bu propaqandanı aktiv şəkildə sünnilərin yaşadığı ölkələrdə aparırlar. Yaxınlaşma propaqandasından məqsəd sanki, hər iki məzhəbin bir-birinə deyil, Əhli sünnətin şiə məzhəbinə yaxınlaşdırılmasıdır."[1]

Xülasə olaraq deyirik: Sünnilələ şiələr arasında yaxınlaşma mümkün deyil. Çünki, haqq ilə batil, küfr ilə iman, aydınlıq ilə qaranlıq bir araya gələ bilməz. Yuxarıda keçən mövzulardan da görüldüyü kimi şiə alimləri vəhdətə nail olmaqla yalnız öz məzhəblərini cahil müsəlmanlar arasında yaymaq niyyəti güdürlər. Həmin bu şiə alimləri küfr, batil və xürafat dolu kitablarından vaz keçməmiş, hələ də onlara əsaslanırlar. Bunu üzə vurmamaq üçün isə təqiyyədən eninə-boluna istifadə edirlər.

[1] səh 9